# İMANIN
# ƏSASLARI

**HARUN YƏHYA**

Bu kitabda istifadə edilən bütün ayələr Ziya Bünyadovun və Vasim Məmmədəliyevin birlikdə hazırladığı, həmçinin Ə. Musayevin Qurani-kərimin Azərbaycan dilində tərcüməsindən götürülmüşdür.

**I nəşr: dekabr, 2005**

**II nəşr: mart, 2006**

**ARAŞTIRMA**

**YAYINCILIK**

Talatpaşa Mah. Emirgazi Caddesi

İbrahim Elmas İşmerkezi

A Blok Kat 4 Okmeydanı - İstanbul

Tel: (0 212) 222 00 88

Baskı: Seçil Ofset

100 Yıl Mahallesi MAS-SİT Matbaacılar Sitesi

4. Cadde No: 77 Bağcılar-İstanbul

Tel: (0 212) 629 06 15

www.harunyahya.org - www.harunyahya.net

# İÇİNDƏKİLƏR

**Birinci fəsil**
İmanı asan dərk etmək

**İkinci fəsil**
Quran möcüzələri

**Üçüncü fəsil**
İnsanın yaradılışı

**Əlavə bölmə**
Təkamül yalanı

# Birinci fəsil

# İmanı asan dərk etmək

Möminlərin təvazökarlığı
Boş və faydasız şeylərdən necə üz çevirmək olar? Nələr boş və faydasızdır?
Quranda təmizlik anlayışı
Quranda mənəvi təmizlikdən də bəhs edilirmi?
Quran əxlaqında həsədin yeri
Quranda istehza etmək haqqında nələr bildirilir?
İnsanlara çirkin ləqəblər qoymaq Quranda necə dəyərləndirilir?
Qeybətin Qurandakı yeri nədir?
Hər hansı məsələdə ümidsizliyə qapılmaq nə üçün doğru davranış deyil?
Emosionallıq Quranda necə dəyərləndirilir?
Quranda ixlas və səmimilik anlayışı
Möminlər baş verən hadisələrə görə kədərlənərlərmi?
Möminlər əsəbiləşərlərmi?
Möminlər səhv edərlərmi?
Quranda möminlərə əmr edilən ədalət anlayışı necədir?
Allah necə zikr edilir?
Qiyamət günü Quranda necə tərif edilir?
Qiyamət günü inkarçıların vəziyyəti necə olacaq?
Möminlər sayca çoxdurmu?
Axirətdə möminlər necə qarşılanacaqlar?
Din günü kafirlər necə tanınacaqlar?
Xəstəlik və çətinlik anlarında mömin necə davranar?
Möminlərin gördüyü işlərlə bağlı bir-birləri ilə məsləhətləşməsinin hansı faydaları var?
Qurandakı qissələrin əhəmiyyəti
Keçmişdəki qövmlər necə həlak edilmişdir?
Kimlərə öyüd verilər?
Öyüdə ən gözəl cavab necə verilər?
İnfaq nə deməkdir?
İnfaq edərkən ən gözəl davranış nədir? Necə infaq edilər?
Hərisliklə mal toplamağın və ya xəsisliyin Allah dərgahındakı qarşılığı nədir?
Zənginliyin axirətdə hər hansı faydası olacaqmı?
Nəfsini müdafiə etməmək
Dünya həyatına aludə olmamaq
Dünya həyatına qane olanların vəziyyəti necə olacaq?

Allah rizası üçün yaşamaq nə deməkdir?
İnsan özünü nə üçün üstün görməməlidir?
Dində məcburiyyət varmı?
Xeyir işlərdə yarışmaq nə deməkdir?
Mömin nələrə səbir edər?
İnkar edənlərə də bu dünyada mal-mülk verilməsinin hikməti nədir?
İnkar edənlər əməllərinə görə nə üçün dərhal cəzalandırılmırlar?
İnkar edənlərin dünyadakı sonu
Kimlər cəhənnəmə girəcək?
Cəhənnəmdəki peşmançılıq fayda verərmi?
Cəhənnəmdə oddan başqa əzablar varmı?
Cəhənnəmdə inkarçıların yeməyi və içkisi nə olacaq?
Cəhənnəm dərəcə-dərəcədirmi?
Cənnətdəkilər və cəhənnəmdəkilər bir-birlərini görəcəklərmi?
Cənnətdə həyat necə olacaq?
Cənnətdəki mənəvi mühit necə olacaq?
Nəfsini tanrı etmək
Şeytan insanı azdırmaq üçün hər an fəaliyyətdədirmi?
Ürəyimizdən keçən hər şey Allah`a məlumdurmu?
İnsanın qəlbinin təmiz olması və xeyirxah olması cənnətə girməsi üçün kifayətdirmi?
Allah`a hicrət etmək
Quranda "ataların dini" dedikdə nə nəzərdə tutulur?
İslamda qadın ilə kişi bərabərdirmi?
Qulağı və gözü möhürlənmiş şəxs necə olur?
Quranda fitnə-fəsad törətmək
Münafiq kimdir?
Münafiqlərin əlamətləri
Qurana əsasən cahil insan kimdir?
Quranda insanın yaradılışı necə izah edilir?
Allah`ın dininə dəvət
Gündəlik həyatda insan necə dərin düşünə bilər?
Dərin düşünməyə nələr mane olur?
Düşünməkdən qaçan insanlar necə ziyana uğrayırlar?
Yaradılmışlar üzərində düşünməyin insana faydaları
Allah`ın qədrini haqqı ilə təqdir etmək
İnsan səhv etdikdə və ya unutduqda nə etməlidir?
Tarixən bütün xalqlara elçi göndərilibmi?
İnkarçılar tarix boyu nə üçün bütün peyğəmbərlərə böhtan atıblar?
İnkarçıların bu səyləri nəticə verirmi?

Möminlərin dünyadakı əsl dostları kimdir?
Möminlərdən başqasını nə üçün dost tutmaq olmaz?
Şeytanı özünə dost tutanlar kimlərdir?
İnsan dünyada ikən cənnətə gedəcəyinə qəti əmin ola bilərmi?
Quranda bəhs edilən başçılar kimlərdir?
Saleh əməl nə deməkdir?
Mömin maddi zənginlik əldə etdikdə necə davranar?
Hikmət sahibi olmaq nə deməkdir?
Quranda israf etmək
Mələklər insanların canını necə alırlar? İnsan canı alındıqda mələyi görürmü?
Vəsvəsə nədir?
İnsan vəsvəsədən necə xilas ola bilər?
Quran oxunduqda nə etmək lazımdır?
Quranı oxumaq kifayətdirmi?
Din əxlaqına uyğun yaşamaq sülh və əmin-amanlığı necə bərqərar edər?
Quranda nəsihət edilən ticarət əxlaqı
Təvəkkülsüzlüyün insana mənəvi zərərləri
Fiziki dua necə edilir?
Cəmiyyətdəki degenerasiya ilə dinsizlik arasındakı əlaqə
Cinlər necə varlıqlardır?
Cinlərin də iman gətirəni və gətirməyəni varmı?
Axirətdə onların da yaşayacağı cənnət və cəhənnəm olacaqmı?
Cinlər gələcəkdən xəbər verə bilərmi?

**OXUCUYA**

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allah`ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah`ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah`ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allah`ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə

diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah`ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayınlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi hədəfləmişdir. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah`ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd  tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə  öyünmür, yalnız Allah`ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc hədəflənməmişdir.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli  xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah`ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

## Möminlərin təvazökarlığı

Təvazökarlıq Quranda mühüm mömin xüsusiyyəti kimi bildirilir. Allah ayələrində möminlərə təvazökar olmağı əmr edir. Allah`ın lovğa və azğınları sevmədiyi ayələrdə xəbər verilir.

Möminlər Allah`ın hər şeyi yaratdığını, hər şeyin tək sahibi olduğunu və insanlara bütün nemətləri verənin Allah olduğunu bilirlər. Ona görə də mömin Allah qarşısındakı acizliyini bildiyi üçün yersiz təkəbbür göstərməz. Nə qədər gözəl, zəngin, ağıllı, etibarlı olsa da, bunlara görə lovğalanmaz, çünki bu xüsusiyyətləri ona Allah`ın verdiyini bilir. Ona görə də möminlərə qarşı daima təvazökar olar. Öz xüsusiyyətlərini ön plana çıxarıb daima gözəl tərəflərini vurğulamağa çalışmaz. Çünki etdiyi hər şeyin əvəzini ancaq Allah`dan gözləyər.

Təvazökar möminlər inkarçılar kimi yer üzündə təkəbbür göstərməz, əksinə, sadəlik göstərər və bu təvazöləri xarici görünüşlərinə də təsir edər. Allah möminlərin təvazökar davranışına bir ayəsində belə diqqət çəkmişdir:

**Rəhmanın bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları zaman salam deyərlər. (Furqan surəsi, 63)**

Bu əxlaqlarına görə Allah möminləri cənnətlə müjdələmişdir:

**… Sizin tanrınız yalnız bir olan Allah`dır. Yalnız Ona təslim olub itaət edin. Sən də itaət edənlərə müjdə ver! (Həcc surəsi, 34)**

## Boş və faydasız şeylərdən necə üz çevirmək olar? Nələr boş və faydasızdır?

Boş və faydasız şeylərdən üz çevirmək insanın sadəcə Allah`ın rizasına uyğun davranması ilə mümkün olar. Mömin dünyada ona verilən müddəti çox yaxşı dəyərləndirməlidir. Çünki bu dünyada etdiyi əməllər nəticəsində axirətdə əbədiyyən qalacağı yer müəyyən olunacaqdır. Ona görə də gördüyü hər işlə axirəti üçün xeyir qazanmağa çalışar. Əlbəttə, hər insan kimi danışar, əylənər, yemək yeyər, gülər, düşünər, işləyər, amma bunları edərkən daima insanlara, dinə fayda verən xeyirli şeylər düşünər.

Bundan əlavə, hər hərəkətini bir məqsədlə edər. Daima ona Allah`ın razılığını ən çox qazandıran işə yönələr. Bunu belə bir misalla izah edə bilərik: avtomobil motorlarının gücü haqqında hər insan söhbət edə bilər. Ancaq mömin görülməli daha vacib işlər varsa, saatlarla bu məsələ haqqında danışmaz. Eyni şəkildə, mömin yanında Allah`ın dinini təbliğ edəcək bir insan varsa, onunla uzun müddət idman yarışlarında hansı tərəfin qalib gələcəyi haqqında danışmaz. Çünki o anda həmin insanın Allah`ın

varlığını, böyüklüyünü, cənnətə layiq olmaq və cəhənnəmdən çəkinmək üçün nələr etməli olduğunu öyrənməsi daha vacibdir.

Qısaca desək, mömin dinin və müsəlmanların xeyrinə olmayan mövzularda nə uzun-uzun söhbət edər, nə də bu mövzulara lazım olduğundan artıq vaxt ayırar. Dünya ilə bağlı söhbət edərkən daha faydalı şeylər haqqında danışar, vaxtını yaxşı dəyərləndirər. Həmin anda nəyin mənasız iş, nəyin isə faydalı şey olduğunu vicdanı və ağlı vasitəsilə ayırd edər və bu əxlaqında qətiyyətli olar. Quranda boş sözlə qarşılaşdıqda möminin davranışı belə izah edilir:

**Onlar boş bir söz eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahilləri istəmirik!" – deyirlər. (Qəsəs surəsi, 55)**

## Quranda təmizlik anlayışı

Möminlər fiziki cəhətdən tərtəmiz insanlardır. Bədənləri, yeməkləri, paltarları, yaşadıqları yerlər həmişə təmizliyi və nizamı ilə nəzərə çarpır. Harada olsalar, oranı Quranda tərif edilən, tərtəmiz cənnət mühitinə bənzətməyə çalışırlar.

Allah möminlərin təmizliyinin necə olmasına aşağıdakı ayələrdə diqqət çəkmişdir:

**Libasını təmizlə! Pis şeylərdən uzaqlaş! (Müddəssir surəsi, 4-5)**

**Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin!.. (Bəqərə surəsi, 172)**

**… Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku edən və səcdəyə qapananlar üçün təmizlə! (Həcc surəsi, 26)**

## Quranda mənəvi təmizlikdən də bəhs edilirmi?

Allah Quranda insanın ruhən təmiz olmasından bəhs edir. Nəfsindəki pisliklərdən uzaqlaşan, nəfsini təmizləyən insanların nicat tapacağına diqqət çəkir:

**Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini öyrədənə ki, nəfsini təmizləyən mütləq nicat tapacaqdır! (Şəms surəsi, 8-9)**

İnsanın mənəvi cəhətdən təmiz olması, ayədə bildirildiyi kimi, nəfsinin əmr etdiyi pisliklərdən tamamilə uzaq durması ilə mümkün olar. Mənəvi cəhətdən təmiz olan insan səmimi imana, rahat əhvala malikdir. Gördüyü hər iş kimi düşüncələri də xeyirlidir. Qarşısına çıxan hər hadisədə Allah`dan razı olur, daxili ilə zahiri birdir. Bundan əlavə, Allah`dan gələn hər şeyin onun üçün mütləq xeyir olduğunu bilir.

Bu cür insanlar nəfslərindəki pisliklərdən təmizlənən insanlardır və Allah Quranda bu insanların sonunun gözəl olacağını xəbər vermişdir:

**… Sən ancaq Rəbbindən (Onu) görmədikləri halda qorxanları və namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs təmizlənsə, özü üçün təmizlənmiş olar. Axır dönüş ancaq Allah`adır! (Fatir surəsi, 18)**

**Təmizlənən kimsə isə nicat tapacaqdır. (Əla surəsi, 14)**

## Quran əxlaqında həsədin yeri

Həsəd Quranda qınanan davranışdır. Allah sınamaq məqsədilə insanların nəfsini həsədə meyilli yaratdığını, lakin möminlərin bundan çəkinmələrini Quranda bildirmişdir:

**... Ancaq nəfslərdə xəsislik həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb çəkinsəniz, şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır! (Nisa surəsi, 128)**

Bəzi insanlardan qısqanc olub-olmadığını soruşduqda ya "bəli" cavabını verir, yaxud da bir az qısqanc olduğunu deyirlər. Ancaq bu cavabın ardında gizlənən mənanı hərtərəfli düşünmürlər. Halbuki, qısqanclıq insanın başqa birinin özündən hər hansı cəhəti ilə üstün olduğunu qəbul etməməsinin nəticəsi kimi üzə çıxır. Bu isə insanı Allah`a qarşı təkəbbür göstərməyə qədər apara bilər. Çünki insanlara sahib olduqları bütün xüsusiyyətləri Allah bəxş etmişdir. İstədiyinə istədiyini verir və bunun qarşısını kimsə ala bilməz.

Bundan əlavə, Quranda şeytanın həsəd apardığı üçün hz. Adəmə səcdə etməyərək Allah`a üsyan etməsindən bəhs edilir. Özünü hz. Adəmdən daha üstün gördüyü bildirilir. Bu təqdirdə, qarşımıza mühüm həqiqət çıxır: həsəd, qısqanclıq şeytana aid xüsusiyyətdir və Allah`dan qorxan insan bundan çəkinməlidir.

Allah Quranda möminlərə həsəd aparan insanların əlindən çıxan pisliklərdən qorunmaq üçün Ona sığınmalarını söyləyir:

**De: "Pənah aparıram sübhün Rəbbinə! (Fələq surəsi, 1)**

**Və bir də paxıllığı tutanda paxılın şərindən! (Fələq surəsi, 2)**

## Quranda istehza etmək haqqında nələr bildirilir?

İstehza etmək Allah`ın əsla bəyənmədiyi çirkin davranışdır. Dinsiz cəmiyyətdə insanlar bir çox şeylərə istehza edirlər. İnsanların çatışmayan cəhətləri və ya nöqsanlarına istehza etmək, onlara pis ləqəblər qoymaq buna misaldır. Allah bu çirkin əxlaqi xüsusiyyətə qarşı insanları belə xəbərdar edir:

**(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına! (Huməzə surəsi, 1)**

Allah`ın Quranda diqqət çəkdiyi digər istehza forması isə inkarçıların inananları ələ salmasıdır. Qəflətdə olan, iman gətirənlərin doğru yolda olduğunu qavramayan bu insanlar özlərini inananlardan üstün görərək onlara istehza edirlər:

**Həqiqətən, günahkarlar iman gətirmiş kimsələrə gülürdülər. (Möminlərin) Yanlarından keçərkən bir-birinə qaş-göz edirdilər. (Mutaffifin surəsi, 29-30)**

Allah bu insanların nə qədər yanıldığını və onların sonunun nə qədər pis olduğunu belə bildirmişdir:

**Bu gün isə möminlər kafirlərə güləcəklər. Onlar taxtlar üstündə (əyləşib) baxacaqlar. Kafirlər öz əməllərinin cəzasını aldılarmı?! (Mutaffifin surəsi, 34-36)**

Bundan əlavə, Allah Quranda dinə, Allah`ın ayələrinə istehza edənlərdən bəhs edir. Bu insanların Allah`dan gələn hər xəbərdarlığı, onları qorxutmaq üçün göndərilən elçiləri təkzib etdiklərini bildirir. Şübhəsiz, bu insanlar Allah`ın böyüklüyünü, gücünü haqqı ilə təqdir etməyən, axirətdə sorğu-sual olunacaqlarını nəzərə almayan şəxslərdir. Ancaq bu insanlar axirətdə çox təəccüblənəcək və dünyada etdikləri çirkin istehzanın əvəzində əbədi əzabla qarşılaşacaqlar. Quranda bu həqiqət açıq şəkildə bildirilmişdir:

**Onlar o kəslərdir ki, Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz onlar üçün bir daş-tərəzi qurmayacağıq! Küfr etdiklərinə, ayələrimi və peyğəmbərlərimi məsxərəyə qoyduqlarına görə budur onların cəzası – cəhənnəm! (Kəhf surəsi, 105-106)**

**Bir kəs: “Allah`a itaət barəsində etdiyim təqsirlərə görə vay halıma! Həqiqətən, mən istehza edirdim!” – deməsin. (Zumər surəsi, 56)**

## İnsanlara çirkin ləqəblər qoymaq Quranda necə dəyərləndirilir?

Quran əxlaqına uyğun yaşamayanlar özlərini üstün göstərmək üçün insanlara cürbəcür pis ləqəblər qoyaraq istehza edirlər, beləliklə, qarşılarındakı insanları alçaltmağa çalışırlar. Möminlər isə əsla bu cür davranmazlar. Allah Quranda möminləri çox açıq şəkildə bu çirkin davranışdan  çəkindirmiş, bu əmri yerinə yetirməyənlərin zalımlardan olacağını bildirmişdir:

**Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar o birilərindən daha yaxşı olsunlar. Qadınlar da bir-birinə (rişxənd eləməsinlər). Bəlkə, onlar o birilərindən daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır! (Hucurat surəsi, 11)**

Quran əxlaqına tabe olan insanlar Allah`ın bəyənmədiyi bu davranışdan çəkinərlər. Bir-birlərini ən gözəl adlarla çağırmağa çalışar və bir-birlərinə Allah`ın səmimi qulu kimi hörmət edərlər.

## Qeybətin Qurandakı yeri nədir?

Allah Quranda möminlərə bir-birlərinin arxasınca danışmalarını qadağan etmiş, bunun çirkin davranış olduğunu bildirmişdir:

**Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi günahdır. (Bir-birinizin eybini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu**

**sizdə ikrah hissi oyadar. Allah`dan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir! (Hucurat surəsi, 12)**

Allah`ın bu ayədəki əmrinə uyğun olaraq, Allah`ın dininə uyğun yaşayan, bir-birinə qardaş olan insanlar bu cür hərəkət etməkdən çəkinərlər. Əksinə, möminlər bir-birlərini həmişə xeyirlə yad edər, hər zaman möminlərin gözəl cəhətlərini üzə çıxarmağa çalışarlar, Allah`a təslim olmuş insanlarda qüsur, nöqsan axtarmazlar.

Ona görə də dindən uzaq yaşayan insanlara böyük sıxıntı verən qeybət Allah`ın hədlərini qoruyan möminlərə xas olmayan mənfi əxlaqi xüsusiyyətdir. Əgər bir mömin digərində səhv davranış görərsə, bunu o möminin arxasınca başqaları ilə danışmaz. Möminlər birbaşa bir-birlərinə bu səhv davranışlarını düzəltmələri üçün nəsihət edərlər.

## Hər hansı məsələdə ümidsizliyə qapılmaq nə üçün doğru davranış deyil?

Hər varlığı, hər hadisəni Allah`ın yaratdığını bilən, Onu tanıyıb gücünü təqdir edən insan hər hansı məsələdə ümidsizliyə qapılmaz. Çünki Allah hər çətinliyi aradan qaldıran, əfv edən, mərhəmət edən, sonsuz qüdrət və bilik sahibidir. Gündəlik həyatda ortaya çıxan hər cür çətinlik, ani surətdə çıxan problemlər, xəstəliklər, edilən səhvlər, qısaca desək, insanların ümidsizliyə düşmə səbəbi kimi gördükləri hər şey, əslində, tamamilə Allah`ın nəzarəti altında baş verir. Allah hər şeydən xəbərdar olan, hər şeyi biləndir. Sonsuz ağıl tərəfindən qədərinin təyin edildiyini bilmək bir insan üçün ən böyük rahatlıqdır. Bunu dərk edən insan əsla ümidsizliyə düşməz.

Bundan əlavə, mömin dünyada etdiyi hər səhvi düzəltməyin mümkün olduğunu bilir, ona görə də ümidsizliyə qapılmaz. Belə ki, Quranda insanlara Allah`ın rəhmətindən ümid kəsməmək əmr edilmişdir:

**... Allah`ın mərhəmətindən ümidinizi kəsməyin. Allah`ın mərhəmətindən yalnız kafirlər ümidini üzər! (Yusif surəsi, 87)**

**De: "Ey Mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allah`ın rəhmindən ümidsiz olmayın. Allah bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir! (Zumər surəsi, 53)**

## Emosionallıq Quranda necə dəyərləndirilir?

Emosionallığın Quranda yeri yoxdur. Çünki Quranda ağıllı mömin olmaq vurğulanır. Allah Ondan qorxub çəkinənləri bir nemət olaraq ağıllı edər. Ağıllı olan möminlər isə hadisələri həmişə Allah`ın Quranda göstərdiyi mütləq doğrular çərçivəsində dəyərləndirirlər. Ağıl və vicdanlarına uyğun hərəkət edərək qərar verir və bu yolla hər məsələni asanlıqla həll edirlər. Halbuki, emosionallıq ağılı örtən ən mühüm amillərdən biridir. Hadisələrə ağılla deyil, hissləri ilə yanaşan insan doğru ilə yanlışı ayırd edə bilməz. Tərəfsiz qərar verə bilməz, ona görə də ədalətli davranmaz. İnsanların nə düşündüklərinə əhəmiyyət verdiyi üçün tez və ağıllı qərarlar verməz. Emosional

xarakterə malik olan insan hadisələri Quranın ölçülərinə əsasən deyil, öz mühakimə dəyərlərinə uyğun qiymətləndirər.

## Quranda ixlas və səmimilik anlayışı

"İxlas" sözünün hərfi mənası saf deməkdir. Qurandakı ixlas anlayışı insanın təmiz niyyətlə, könüldən Allah`a iman gətirməsi, Ona qəlbən bağlanması deməkdir. İxlaslı mömin həyatı boyu hər şeyi Allah`ın razılığını qazanmaq üçün edər və əvəzini də yalnız Allah`dan gözləyər. Gördüyü işlərdə insanların düşüncələrinə görə hərəkət etmək, insanların gözünə girməyə çalışmaq kimi qeyri-səmimi niyyəti yoxdur. Ona görə, hər davranışı səmimidir və Allah`ın rizasına uyğundur.

Səmimi insan, əvvəla, Allah`a, daha sonra insanlara qarşı dürüst olar. Çünki Allah`ın hər şeyi görüb eşitdiyini, Onun qarşısında bir gün bütün etdiklərinə görə cavab verəcəyini və bütün fikirlərinə, sözlərinə, davranışlarına görə məsuliyyət daşıyacağını bilir. Buna görə də möminin dürüstlüyü və səmimiliyi onun dərin imanının ən mühüm göstəricilərindəndir.

Allah Quranda peyğəmbərlərin daima Allah`ın rizasını qazanmaq istəyən ixlaslı davranışlarını iman gətirənlərə nümunə göstərmişdir:

**Qüvvət və bəsirət sahibi olan bəndələrimiz İbrahimi, İshaqı və Yəqubu da yad et! Biz onları axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik. Şübhəsiz ki, onlar dərgahımızdan seçilmiş ən yaxşı kimsələrdəndirlər! (Sad surəsi, 45-47)**

Habelə, Quranda Allah`a səmimi şəkildə üz tutan insanlar təriflənmiş və onların sonunun xeyirlə nəticələnəcəyi müjdələnmişdir:

**… Allah`a üz tutanlara müjdə vardır. Qullarımı müjdələ! Onlar Allah`ın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır! (Zumər surəsi, 17-18)**

## Möminlər baş verən hadisələrə görə kədərlənərlərmi?

Möminlər hadisələrə görə kədərlənməzlər. Çünki Allah`ın yaratdığı hər hadisə ilə onları sınadığını bilirlər. Uğursuz görünən hadisələrdə də təvəkküllü davranarlar və səbir edərlər. Allah`ın hər şeyi bir hikmətlə yaratdığını unutmazlar. Quranda bununla bağlı belə nümunə verilir:

**Əgər siz ona kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: "Qəm yemə, Allah bizimlədir!"… (Tövbə surəsi, 40)**

Ayədən göründüyü kimi, Peyğəmbərimiz (s.ə.v) ən çətin şəraitdə belə dostuna kədərlənməməyi tövsiyə etmişdir. Möminlər üçün ən gözəl örnək peyğəmbərlərin əxlaqı olduğuna görə, onlar da çətin şəraitdə bu cür davranarlar.

Möminlərin kədərlənməməsinin ən əsas səbəblərindən biri də Allah`ın yaratdığı hər hadisənin onlar üçün xeyir olduğunu bilmələridir. Allah iman gətirənlərə dünyada gözəl həyat vəd etmişdir. Bu cür gözəl həyat sürən möminlər Allah`ın onları axirətdə də

dünyadakından daha gözəl və əbədiyyən nemətlərin əsla əskilmədiyi həyata qovuşduracağına ümid edirlər. Şübhəsiz, bu, bir insan üçün ən böyük müjdələrdən biridir, eyni zamanda, ən böyük sevinc mənbəyidir. Ona görə də möminlər əsla kədərlənməzlər. Allah möminləri belə müjdələmişdir:

**Həqiqətən də: "Rəbbimiz Allah`dır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyərlər:) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan cənnətlə sevinin! Biz dünyada da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkdiyi, istədiyiniz hər şey vardır. (Fussilət surəsi, 30-31)**

## Möminlər əsəbiləşərlərmi?

Möminlər hər insan kimi müxtəlif hadisələrə görə əsəbiləşə bilərlər. Lakin möminlərin üstün əxlaqının ən mühüm göstəricilərindən biri əsəblərini cilovlamalarıdır. Əsəbiləşməyin onlara fayda verməyəcəyini, əksinə, əsəbiləşdikdə ağıllı davranmayacaqlarını, ədalətdən uzaqlaşacaqlarını bilirlər. Belə vəziyyətdə həm özlərinə, həm də ətrafdakılara zərər verən səhv qərarlar verməkdən çəkinərlər. Buna görə də möminlər səbirli və mərhəmətli davranarlar. Allah Quranda möminlərin bu xüsusiyyətini belə təriфləmişdir:

**O müttəqilər ki, bolluqda da, qıtlıqda da xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər. (Ali-İmran surəsi, 134)**

Ancaq əsəbini cilovlamaq dedikdə passiv, susqun, hər şeyi qəbul edən davranış nəzərdə tutulmur. Əlbəttə, möminlər hadisələrə reaksiya verər, mənfi hərəkət, iman gətirənlərə ziyan vuracaq mühit varsa, buna dərhal mane olarlar. Lakin bunu edərkən hisslərinə qapılmaz, əksinə, ağıllı davranaraq həll yolu tapar, qarşı tərəfi düşdüyü vəziyyətdən çıxarmaq, ona doğru yolu göstərmək, zərərli mühiti dəyişdirmək üçün çalışarlar.

## Möminlər səhv edərlərmi?

Quranda bildirildiyi kimi, möminlər səhv edə bilər. Ancaq Allah`dan qorxub çəkindikləri və Ona qarşı səmimi olduqları üçün səhvlərini israrla təkrarlamaz, dərhal düzəltməyə çalışarlar. Allah`dan bağışlanma diləyər və özlərini islah edərək bir daha bu xətanı etməməyə diqqət edərlər. Dünyanın tərbiyə yeri olduğunu bilər və etdikləri səhvlərdən nəticə çıxararaq ibrət alar, özlərini kamilləşdirirlər. Allah möminlərin bu gözəl əxlaqını bir çox ayədə tərifləmiş, onları mütləq bağışlayacağını müjdələmişdir:

**O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allah`ı yada salıb günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allah`dan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini bildikdə bir daha ona qayıtmazlar. (Ali-İmran surəsi, 135)**

## Quranda möminlərə əmr edilən ədalət anlayışı necədir?

Allah möminlərə hadisələri həmişə ən ədalətli yolla, Quranda bildirilən hədlərə uyğun olaraq dəyərləndirməyi əmr etmişdir. İnsanlar arasında hökm etdikdə mütləq ən ədalətli qərarı verməyi və haqlı olanın tərəfində olmağı bildirmişdir.

Möminlər şahidlik etdikdə də doğru və ədalətli davranarlar. İnsanın bəzən verdiyi bir qərar, edəcəyi şahidlik öz əleyhinə ola bilər və ya yaxınlarının mənfəətinə zidd ola bilər. Ancaq Allah`dan qorxan insan üçün bunun heç bir əhəmiyyəti yoxdur. Çünki möminlərin işlərində ölçü Allah rizasıdır. Allah`ın razı olmadığı şahidliyi etmək və ya qərar vermək, bəlkə, zahirən həmin anda insana xeyir gətirdiyini düşünmək olar. Ancaq Allah razı olmadıqdan sonra əldə edəcəyi dünyəvi mənfəət möminlərə rahatlıq və xoşbəxtlik gətirməz.

**Ey iman gətirənlər! Sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! İstər dövlətli, istər kasıb olsun, hər halda, Allah onların hər ikisinə daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır! (Nisa surəsi, 135)**

İnsanların ədalətli qərar verməsinə mane olan digər təhlükə insanlara qarşı olan qəzəbdir. Əgər bir insan başqa birinə qəzəblənibsə və ya ona qarşı kini varsa, ona mənfəət vermək, onun xeyrinə hərəkət etmək istəməz. Ancaq möminlər belə vəziyyətdə də Allah`ın rizasını düşünər və qarşılarındakı insanın kimliyindən asılı olmayaraq, ədalətli davranarlar. Çünki Allah iman gətirənlərə **"…Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır…"** (Maidə surəsi, 8) şəklində əmr etmişdir.

## Allah necə zikr edilir?

Möminlər Allah`ın hər an onları gördüyünü və eşitdiyini, qarşılaşdıqları hər hadisəni Allah`ın yaratdığını bilirlər. Ona görə, Allah`ı heç vaxt unutmurlar. Həyatlarının hər anında həm qəlbən Allah`ı düşünür, həm də digər möminlərlə söhbət etdikdə Rəbbimizin ucalığını, böyüklüyünü, qüsursuz yaratmasını, sənətini zikr edirlər. Möminlərin hər an Allah`ı zikr etməsi Quranda belə bildirilir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah`ı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru! (Ali-İmran surəsi, 191)**

Allah`ı zikr etmək hər şeyi, baş verən hər hadisəni Allah`ın yaratdığını bilmək, "Allah mənə bununla nə göstərmək istəyir?" şəklində düşünmək, Allah`ın yaratmasındakı hikmətləri anlamağa çalışmaq, hər an Allah`ın ucalığını qavramaq üçün səy göstərmək və bütün bunları digər insanlara da izah etməklə olar. Məsələn, kənardan baxdıqda çətin kimi görünən bir hadisə ilə qarşılaşdıqda təvəkküllü davranan və səbir edən insan o an Allah`ı zikr etdiyi üçün bu şəkildə davrana bilir. Allah`ı zikr edən insan Allah`ı və Onun gücünü heç vaxt unutmaz və daima ağıllı davranar.

## Qiyamət günü Quranda necə tərif edilir?

Quranda bildirildiyi kimi, **"O saat (qiyamət saatı) mütləq gələcəkdir…"** (Taha surəsi, 15) və o gün gəldikdə dünyadakı bütün canlılarla birlikdə ulduzlar, planetlər, qalaktikalar, qısaca desək, göylərdə və yerdə nə varsa, hamısı məhv olacaq. Quranda qiyamət günü baş verəcək hadisələr belə bildirilir:

**Göy yarılacaq və həmin gün o, süst olacaqdır. (Haqqə surəsi, 16)**

**Ulduzlar səpələnəcəyi zaman; (Təkvir surəsi, 2)**

**Günəşlə ay birləşəcəyi zaman – (Qiyamət surəsi, 9)**

**Dənizlər od tutub yanacağı zaman; (Təkvir surəsi, 6)**

**O gün yer və dağlar lərzəyə gəlib titrəyəcək, dağlar yumşaq qum təpəsinə dönəcəkdir (Müzzəmmil surəsi, 14)**

**Dağlar isə didilmiş yun kimi olacaqdır!**

**Xeyr! Elə ki yer lərzəyə gəlib parça-parça olacaq, (Fəcr surəsi, 21)**

**Yer öz yükünü çıxardıb atacağı zaman; (Zəlzələ surəsi, 2)**

Bunlar qiyamət günü baş verəcək dəhşətli hadisələrin bəzisidir. Həmin gün insanın dünyada dəyər verdiyi hər şey məhv olacaq, hamı Allah`ın rizası üçün edilən saleh əməllərdən başqa heç nəyin qiymətinin olmadığını anlayacaq.

## Qiyamət günü inkar edənlərin vəziyyəti necə olacaq?

Qiyamət günü insan üçün ən dəhşətli, qorxulu gündür. O gün inkarçılar onlara vəd edildiyi halda, heç düşünmədikləri həqiqəti açıq-aşkar görəcəklər. Lakin artıq insanların dünyada etdikləri səhvləri düzəltmək üçün geriyə dönüş imkanları olmayacaq. O gün inkar edənlər qorxu içində ölümün, əslində, yox olmaq deyil, əksinə, əbədi davam edəcək əzabın başlanğıcı olduğunu anlayacaqlar. Allah Quranda o gün insanların keçirdiyi qorxudan bir növ sərxoşa çevriləcəklərini bildirmişdir:

... **İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allah`ın əzabı çox şiddətlidir! (Həcc surəsi, 2)**

Qiyamət günü inkarçıların dəhşətdən bütün dəyər mühakimələri dəyişəcək. Ən çox dəyər verdikləri mallar, övladları bir anda bütün əhəmiyyətini itirəcəkdir. Allah Quranda insanların o gün ancaq özlərini xilas etməyə çalışacaqlarını və bir-birlərindən qaçacaqlarını xəbər vermişdir:

**O gün insan qaçacaq öz qardaşından; Anasından, atasından; zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! (Əbəsə surəsi, 34-37)**

O gün insanların düşdüyü vəziyyət ayələrdə belə bildirilir:

**… Haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir… (Ənbiya surəsi, 97)**

**Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyi uşağını unudar, hər bir hamilə qadın bari-həmlini (vaxtından əvvəl) yerə qoyar (uşaq salar). İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allah`ın əzabı çox şiddətlidir! (Həcc surəsi, 2)**

**Elə isə əgər küfr etmiş olsanız, uşaqları ağ saçlı qocalara döndərəcək gündən özünüzü necə qoruyacaqsınız?! (Müzzəmmil surəsi, 17)**

## Möminlər sayca çoxdurmu?

Allah bir çox ayədə həqiqi iman gətirən qullarının sayının çox az olacağını bildirir. Ona görə, tarix boyu iman gətirənlərin sayı daima az olmuş və inkarçılar çoxluq təşkil etmişlər. Bu vəziyyət möminlərin səviyyə, dəyər və üstünlüyünün göstəricisidir. Allah`ın insanların çoxunun inanmayacağı ilə bağlı ayələrindən biri belədir:

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. (Yusif surəsi, 103)**

Ona görə də bir insanın çoxluğu özünə nümunə götürməsi, çoxluq nəyə inanırsa, ona inanması böyük itkidir. Bu insanlar çoxluq təşkil etsə də, axirətdə də kütləvi şəkildə cəhənnəmə girəcəklər.

## Axirətdə möminlər necə qarşılanacaqlar?

Möminlər ölümlə birlikdə başlayan axirət həyatında inkar edənlərdən fərqli olaraq, gözəl tərzdə, gözəl sözlə, müjdə ilə qarşılanacaqlar. **"O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb... (Nəhl surəsi, 32)** ayəsi ilə xəbər verildiyi kimi, ölərkən canları rahat, pak və təmiz halda alınacaq. Onlar hər cür qorxudan uzaq, əmin-amanlıq içindədirlər. Rəbbimizin onlara olan köməyi və fəzli sayəsində haqq-hesabları yüngül olacaq. Mələklər onları cənnətlə müjdələyəcək və nəhayət Allah`ın onlara vəd etdiyi cənnətə daxil olacaqlar:

**Rəbbindən qorxanlar da dəstə-dəstə cənnətə gətiriləcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və (cənnət) gözətçiləri: "Sizə salam olsun! Xoş gəldiniz! Əbədi qalacağınız cənnətə daxil olun!" – deyəcəklər. Onlar isə: "Bizə verdiyi vədini yerinə yetirmiş və bizi bu yerə varis etmiş Allah`a həmd olsun! Biz cənnətin istədiyimiz yerində sakin oluruq. (Yaxşı) əməllər edənlərin mükafatı necə də gözəldir!" – deyəcəklər. (Zumər surəsi, 73-74)**

## Din günü kafirlər necə tanınacaqlar?

**Günahkarlar üzlərindən tanınacaq, kəkillərindən və ayaqlarından tutulub yaxalanacaqlar. (Rahmən surəsi, 41)**

Allah yuxarıdakı ayə ilə kafirlərin din günündə üzlərindən tanınacaqlarına diqqət çəkir. Bir insan dünya həyatında məsum və ya gözəl görünə bilər. Ancaq haqq-hesab günü yenidən dirildilən bu insanların üzü o gün Quranda bildirildiyi kimi, zillət içində, qaralmış, toz bürümüş olacaq. Bundan əlavə, inkarçılar kor şəkildə həşr olunacaqlar.

Gözləri həm kor olacaq, həm də qorxunc görünəcəklər və Quranda bildirildiyinə görə, gömgöy olacaq. Hər inkarçı din günündə bu qorxunc görüntüsü ilə yenidən dirildiləcəkdir.

## Xəstəlik və çətinlik anlarında mömin necə davranar?

Möminlər dünyada Allah`ın insanları çətinlik və ya xəstəliklərlə sınadığını bilirlər. Ona görə, ən ağır xəstəliklə və ya çətinliklə qarşılaşsalar da, daima təvəkküllü və səbirli davranır, heç vaxt ümidsizliyə düşmürlər. Xəstəliyi və çətinliyi verənin Allah olduğunu və bunları yalnız Allah`ın aradan qaldıracağını bilərək dərhal Allah`a yönəlirlər. Bu gözəl davranışlarının əvəzini dünyada və axirətdə Allah`dan diləyirlər. Allah "Bəqərə" surəsində möminlərin başına gələn çətinliklərə qarşı göstərdikləri gözəl davranışı belə bildirir:

**Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allah`ınıq və Ona tərəf qayıdacağıq!" - deyirlər. Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət gözləyir. Onlar doğru yolda olanlardır! (Bəqərə surəsi, 155-157)**

## Möminlərin gördüyü işlərlə bağlı bir-birləri ilə məsləhətləşməsinin hansı faydaları var?

Allah Quranda **"O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edər, namaz qılar, işlərini öz aralarında məsləhət-məşvərətlə görər..."** (Şura surəsi, 38) ayəsi ilə möminlərin məsləhətləşərək iş gördüyünü bildirir. Məsləhət etməyin maddi-mənəvi çox faydalı nəticələri var. Hər şeydən əvvəl, bir insanın bir işdə başqası ilə məsləhətləşərək onun da fikrini öyrənməsi o insanın təvazökarlığını göstərir ki, təvazökarlıq Allah`ın bəyəndiyi əxlaqdır. Məsləhətləşmənin digər faydası isə budur: bir işdə bir nəfərin təkbaşına qərar verməsi əvəzinə, bir neçə nəfər birlikdə daha ağıllı fikir söyləyə bilər. Birinin düşünmədiyini digəri düşünər, hər kəs bir-birinin çatışmayan cəhətini tamamlayar. Beləliklə, nəticə daha xeyirli olar. Görülən işdə əldə edilən uğur isə bir deyil, bir neçə şəxsə aid olar. Bu da insanın nəfsinin bu uğura görə öyünməsinə, bunu öz uğuru kimi görməsinə mane olar.

## Qurandakı qissələrin əhəmiyyəti

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi**

**müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Allah "Yusif" surəsindəki bu ayə ilə Qurandakı qissələrdə ibrətlər olduğunu bildirir. Bu qissələrdə danışılan hadisələr möminlərə bir çox cəhətdən örnək təşkil edir. Keçmişdə yaşayanların səhvlərini təkrar etməmək, peyğəmbərlərin və möminlərin müəyyən vəziyyətlərdə necə davrandığını və necə müvəffəqiyyət əldə etdiyini görərək onları nümunə götürmək, onların üstün əxlaqını mənimsəmək, keçmişdəki hadisələri və nəticələrini nəzərə alaraq dövrümüzdəki hadisələri dəyərləndirmək baxımından bu qissələr möminlər üçün böyük əhəmiyyət daşıyır.

## Keçmişdəki qövmlər necə həlak edilmişdir?

Allah keçmişdə yaşamış qövmlərə elçilər göndərmiş, onları axirət və haqq-hesab günü ilə məlumatlandırıb qorxutmuşdur. Ancaq bu qövmlərin bir çoxu Allah`dan gələn xəbərdarlığı dinləməmiş, Allah`a və elçilərinə itaətsizlik etmiş və dinlərini unutmuşlar. Bunun əvəzində Allah onlara xəbərdarlıq mahiyyətində müxtəlif bəlalar göndərmiş, bunlardan ibrət almayanları həlak etmişdir. Bu qövmlərin başına gələn bəlalar zahirən bir-birindən fərqlənsə də, əsas cəhəti insanların heç gözləmədiyi yerdən, gözlənilmədən, hətta çox vaxt yatdıqda gəlməsidir. Sözügedən bəlalar bəzən bütün şəhəri və ya qövmü məhv etmiş, o şəhərdən əsər qoymamış, insanlar üçün qorxunc əzab olmuşdur. Allah Quranın bir çox ayəsində məhv olmuş qövmləri bütün insanlara ibrət kimi vurğulayır:

**Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi və həmin nəsillərin bir daha onların yanına qayıtmadığını görmürlərmi? (Yasin surəsi, 31)**

Quranda həmin bəlalar belə təsvir edilir:

- **Suda boğulma (İsra surəsi, 103)**
- **Göydən şiddətli əzab (Bəqərə surəsi, 59)**
- **Dəhşətli sarsıntı (zəlzələ) (Əraf surəsi, 78)**
- **Sel fəlakəti (Qamər surəsi, 12)**
- **Qorxunc səs (Hud surəsi, 67)**
- **Odda bişmiş daş yağışı (Hud surəsi, 82)**
- **Uğultulu külək (Qamər surəsi 19)**
- **İldırım vurması (Zəriyət surəsi, 44)**
- **Yerin alt-üst olması... (Nəcm surəsi, 53)**

## Kimlərə öyüd verilər?

Allah Quranda kimlərin öyüd alıb düşünəcəyini bildirmiş və möminlərə "**Əgər nəsihət etmək fayda versə, öyüd-nəsihət ver!**" (Əla surəsi, 9) ayəsi ilə bu xüsusiyyətlərə malik olan insanlara öyüd-nəsihət verməlirini əmr etmişdir. Allah öyüd verilməli insanların xüsusiyyətlərini belə xəbər verir:

**... Bununla Allah`a və axirət gününə iman gətirənlərə öyüd-nəsihət verilir... (Talaq surəsi, 2)**

**(Allah`dan) qorxanlar öyüd-nəsihət götürərlər. (Əla surəsi, 10)**

**... Yalnız ağıl sahibləri öyüd-nəsihət qəbul edərlər! (Rad surəsi, 19)**

**… Ancaq (Allah`a )üz tutanlar ibrət alarlar! (Ğafir surəsi, 13)**

**… Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**

**Sən öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir. (Zəriyət surəsi, 55)**

## Öyüdə ən gözəl cavab necə verilər?

Allah Quranda "**Aralarında hökm vermək üçün Allah`ın və Peyğəmbərinin yanına çağırıldıqları zaman möminlərin sözü ancaq: "Eşitdik və itaət etdik!" – deməkdən ibarətdir. Nicat tapanlar da məhz onlardır!**" (Nur surəsi. 51) ayəsi ilə möminlərin öyüd-nəsihəti necə qarşılaması bildirilir. Allah`dan və Allah`ın elçilərindən gələn öyüdü eşidərək dərhal əməl edənləri Allah cənnətlə müjdələyir. Bundan əlavə, Allah başqa bir ayəsində möminlər haqqında: "**O kəslər ki, sözü dinləyib onun ən gözəlinə uyarlar. Onlar Allah`ın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!** (Zumər surəsi, 18)" - söyləyir. Bu ayəyə əsasən, möminlər Allah`a inananların verdiyi bütün öyüdləri dinləyir, onlara daima yaxşılığı əmr etdiyini və pis işlərdən çəkindirdiyini unutmur və hər sözünü səmimi şəkildə yerinə yetirirlər.

## İnfaq nə deməkdir?

İnfaq bir insanın malını və imkanlarını Allah yolunda sərf etməsidir. Bir insan gələcəyi ilə bağlı narahat olmadan **ehtiyacından artıq qalanını** (Bəqərə surəsi, 219) Allah yolunda sərf edərsə, Allah ona axirətdə cənnəti, dünyada isə sərf etdiklərinin əvəzində başqasını verməyi vəd edir:

**De: "Həqiqətən, Rəbbim bəndələrindən istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. (Allah yolunda) nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!" (Səba surəsi, 39)**

**... Özlərinə verdiyimiz ruzilərdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət umarlar. (Fatir surəsi, 29)**

## İnfaq edərkən ən gözəl davranış nədir?
## İnfaq necə edilir?

Allah **gizli və açıq** (Bəqərə surəsi, 274) infaq etməyi bildirir. Ancaq Allah infaq edənlərin bunu əsla göstəriş üçün etməmələrini, infaq etdikləri insana daha sonra sıxıntı verəcək hərəkət etməmələrini və onlara minnət qoymamalarını əmr edir. Allah verdiyi nümunələrlə göstəriş üçün infaq edənlərin heç bir qarşılıq görməyəcəklərini xatırladır:

**Xoş bir söz və günahları bağışlamaq əziyyətlə verilən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsızdır, həlimdir! Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla sərf edən, Allah`a və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslərin halı, üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı (yuyub) aparar və qayanı çılpaq bir daş halına salar. Onlar qazandıqlarından bir şeyə qadir olmazlar. Şübhəsiz ki, Allah kafirləri haqq yoluna yönəltməz! Mallarını Allah`ın razılığını qazanmaq və nəfslərini sabitqədəm etmək yolunda sərf edənlər uca təpənin üstündə olan bir bağa bənzərlər ki, ora düşən bol yağış onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmasa, az bir şəbnəm ( də ona kifayət edər). Həqiqətən, Allah nə etdiyinizi görəndir! (Bəqərə surəsi, 263-265)**

## Hərisliklə mal toplamağın və ya xəsisliyin Allah dərgahındakı qarşılığı nədir?

Bəzi insanlar bütün ömürlərini mal və pul yığıb saxlayırlar və bunları Quranda tərif edilən xeyirli işlərə sərf etmirlər. Hərisliklə, daima daha çox mal-mülkə sahib olmaq üçün çalışırlar. Əldə etdiklərindən isə Allah yolunda sərf etmək, ehtiyacı olanları doyurmaq əvəzinə öz nəfsləri üçün istifadə edirlər. Ehtiyaclarından qat-qat artığını toplayar və göstəriş üçün az miqdarda xərcləyərlər, lakin faydalı işlər görməyə çalışmazlar. Bu insanların axirətdəki qarşılığı çox şiddətli olacaq. Bu, "Tövbə" surəsində belə bildirilir:

**… Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ! O gün yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (və onlara): "Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınız mal-dövləti dadın!" - (deyiləcəkdir!) (Tövbə surəsi, 34-35)**

Mal-dövlət yığıb toplayanlar və xəsislik edənlər Allah`ın dünya həyatında onları sınamaq üçün mal və zənginlik bəxş etdiyini qavramayan, bunlara dünya həyatında tamahkarlıqla bağlanan insanlardır. Allah`ın heç kimin infaqına ehtiyacı yoxdur, bütün mal-mülk də Onundur. İnfaq edərək Allah qatında savaba möhtac olan isə insandır. Allah bu həqiqəti başqa bir ayədə belə açıqlayır:

**Budur, siz Allah yolunda sərf etməyə çağırılan kimsələrsiniz. Bununla belə, içərinizdə xəsislik edən də vardır. Hər kəs xəsislik etsə, ancaq özünə qarşı xəsislik etmiş olar. Allah zəngin, siz isə yoxsulsunuz (Allah sizə möhtac deyildir, siz Ona möhtacsınız). Əgər üz döndərsəniz, yerinizə sizlər kimi olmayan başqa bir qövm gətirər! (Muhəmməd surəsi, 38)**

## Zənginliyin axirətdə hər hansı faydası olacaqmı?

İnsanın nə zəngin olması, nə də dünyada ikən güc və iqtidar sahibi olması axirətdə ona heç bir fayda verməz. İnsanın dünyada istədiyi qədər pulu, var-dövləti olsa

da, ölü bədəni torpağa basdırıldığı andan etibarən sərvətinin ona heç bir yararı olmayacaq. Əgər inkar edənlərdəndirsə, bütün digər inkarçılar kimi cəhənnəmə atılacaqdır. Dünyada ikən var-dövlətlərinə görə başqa cür münasibət görən bu insanlar axirətdə çox alçaldılacaqlar. Çünki onlar dünyadakı var-dövlətlərinə görə lovğalanmış və Allah`ın ayələrini təkzib etmişdilər. Axirətdə insanlar Allah`a iman gətirdiklərinə və Allah`dan qorxaraq Onun razı olduğu kimi davrandıqlarına görə qarşılanacaqlar. Dünyadakı var-dövlət və ya statusları onlara üstünlük gətirməyəcək. Zənginliyin Allah dərgahında heç bir dəyərinin olmadığını bildirən ayələrdən biri belədir:

**Biz hər hansı bir məmləkətə qorxudan bir peyğəmbər göndərdikdə, onun naz-nemət içində yaşayan zəngin başçıları ancaq: "Biz sizinlə göndərilənləri inkar edirik!" – dedilər. Onlar: "Bizim mal-dövlətimiz və övladımız daha çoxdur və bizə əzab da verilməyəcəkdir" – dedilər. De: "Rəbbim istədiyinin ruzisini artırar və (istədiyininkini də) azaldar. Lakin insanların əksəriyyəti bilməz!" Sizi bizə yaxınlaşdıran nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Yalnız iman gətirib yaxşı işlər görənlərin əməllərinə görə mükafatları qat-qat artıq olacaq və onlar cənnət otaqlarında əmin-amanlıq içində yaşayacaqlar. (Səba surəsi, 34-37)**

## Nəfsini müdafiə etməmək

Nəfs insana pisliyi əmr edir. Nəfsin bu xüsusiyyəti "Şəms" surəsində belə bildirilir:

**And olsun nəfsə və onu yaradana; sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini öyrədənə ki, nəfsini təmizləyən mütləq nicat tapacaqdır! (Şəms surəsi, 7-9)**

Nəfsin pisliyi əmr etdiyini açıqlayan ayələrdən biri də hz. Yusiflə bağlıdır. Hz. Yusif heç bir günahı olmadığı halda, böhtana məruz qaldıqdan sonra belə demişdir:

**Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir! (Yusif surəsi, 53)**

Hz. Yusifin də bildirdiyi kimi, nəfs həmişə pisliyi əmr edir. Ona görə, insan hər hansı hadisə ilə qarşılaşdıqda dərhal nəfsini müdafiə etməməli, haqlı olduğunu sübut etməyə çalışmamalıdır. Çünki bir anlıq boş qalmaqla nəfsinə tabe ola bilər. Belə vəziyyətdə, əvvəlcə düşünməlidir. İnsan səmimi düşündükdə haqlı olduğunu hesab etdiyi bir çox məsələdə, əslində, səhv davrandığını anlayar. Bunu dərk etmək isə mömin üçün böyük qazancdır. Çünki səhvi olduğunu qəbul edən bir insan onu düzəldərək, Allah`ın onu bağışlamasını ümid etmək üçün ilk addımı atmış olur. Əks təqdirdə, özünü daima haqlı çıxarmağa, heç bir səhvini qəbul etməməyə çalışan birisi istədiyi qədər özünü insanların gözündə haqlı çıxarsa da, Allah həqiqəti bilir. Bu həqiqət axirətdə qarşısına çıxacaq.

İnsanın nəfsini daima müdafiə etməkdənsə, nəfsini qınayaraq daima onun qüsurlarını üzə çıxarması və bunları aradan qaldırmaq üçün Allah`a üz tutması Allah dərgahında gözəl qarşılığı olan davranışdır.

## Dünya həyatına aludə olmamaq

Dünya insanların sınanması və axirət yurduna hazırlıq görməsi üçün Allah tərəfindən hazırlanmış xüsusi yerdir. Bu imtahanın tələbinə uyğun olaraq cəlbedici yaradılmışdır. Dünyanın insanı cəlb edən bərbəzəyinə bir ayədə belə diqqət çəkilir:

**Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır. (Ali-İmran surəsi, 14)**

Ayədə də bildirildiyi kimi, bir-birindən dəyərli zinətlər, mallar, qazanclı ticarət, gözəl və zəngin həyat yoldaşları, sağlam uşaqlar, gözəl evlər, hər rəngdə və modeldə avtomobillər, növbənöv qidalar insanı dünyaya bağlayan dəyərlərdir. İnsan bunların Allah`dan nemət olaraq verildiyini, hamısının keçici olduğunu və ayədə xəbər verildiyi kimi, gözəl dönüş yerinin Allah yanında olduğunu əsla unutmamalıdır. Ona təqdim edilən nemətləri də dünyada boş yerə sərf edərək deyil, axirət üçün hazırlıq görmək üçün istifadə etməlidir. Bu mühüm həqiqəti dərk edərək hərəkət edən insanlar dünya həyatına aludə olmurlar.

## Dünya həyatına qane olanların vəziyyəti necə olacaq?

Bəzi insanlar dünyanın müvəqqəti və nöqsanlı yer olduğunu unudaraq ona hərisliklə bağlanırlar. Allah bu insanlardan Quranda belə bəhs edir:

**Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların – məhz onların qazandıqlarına görə sığınacaqları yer Oddur. (Yunis surəsi, 7-8)**

Onları yaradanı unudub hərisliklə dünyaya bağlananlar əbədi cəhənnəm əzabı içində yaşayacaqlarını bilməlidirlər. Bu insanlar etdiklərinin əvəzində çox qısa həyatı üstün tutaraq sonsuz həyatı itirəcəklər. Bundan əlavə, dünyada həvəslə bağlandıqları bu dəyərləri axirətdə əbədiyyən bir an belə əldə edə bilməyəcəklər.

## Allah rizası üçün yaşamaq nə deməkdir?

Bütün həyatını Allah`a həsr etməyi dərk etmək üçün, əvvəlcə, həyatın həqiqi mahiyyətini bilmək lazımdır. Allah həyatın həqiqi mənasını belə bildirir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, qüdrətlidir, bağışlayandır. (Mülk surəsi, 2)**

Ayədə bildirildiyi kimi, bütün insanlar davranışları ilə sınanırlar. Gözəl davrananlar, bunun nəticəsində, Allah`ın razılığını qazanaraq cənnətə girməyi arzu edirlər. Bunun üçün həyatlarının hər anını bu cür davranmalı olduqlarını bilirlər.

Lakin bəzi insanlar düşünürlər ki, sadəcə ibadət etmək və haramlardan çəkinmək Allah rizası üçündür, qalan vaxtların isə dinlə əlaqəsi yoxdur. Halbuki, insan yaşadığı hər an, hər söhbətində, ağlından keçirdiyi hər düşüncədə, gördüyü hər işdə Allah`ı daha çox razı etməyin yolunu axtarmalıdır. Məsələn, dünyada hər insan işləyir və pul qazanır. Ancaq həyatını Allah üçün yaşayan insan Allah`ın dininə daha artıq xidmət etmək üçün işləyir və qazancından ehtiyacı olanı götürərək qalanını Allah rizası üçün sərf edər. Bu insan hər söhbətində Allah`ı ən çox razı edən mövzulardan bəhs edər. İnsanlara Allah`ı xatırladar, pisliklərdən çəkindirərək yaxşılığı əmr edər. Ətrafını və dostlarını Allah`ın razılığını qazanan insanlardan seçər. Bu seçimi edərkən dünyəvi mənfəətlərini və ya din əxlaqına uyğun yaşamayan insanların prinsiplərini nəzərə almaz. Hər an: "Hal-hazırda Allah`ı necə razı sala bilərəm?", - deyə düşünər.

Dinin ən əsas şərtlərindən biri həyatı tamamilə Allah`a həsr etməkdir. Ona görə, Allah möminlərə belə deməlerini əmr edir:

**De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

## İnsan özünü nə üçün üstün görməməlidir?

Allah`dan qorxan insanın həyatdakı ən böyük məqsədi Allah`ın razılığını qazandıran əxlaqa yiyələnməkdir. Bunun üçün özünü tərbiyə etməli, daima daha üstün əxlaqa çatmalıdır. Çünki səmimiliyin, dürüstlüyün, çalışqanlığın, fədakarlığın, təvazökarlığın və ya digər gözəl xüsusiyyətlərin son həddi yoxdur.

Bir insan: "Mən ən gözəl əxlaqı mənimsədim, bundan daha yaxşısı yoxdur", - deyə bilməz.

Özünü hər cəhətdən nöqsanlı görən, daha yaxşısını axtaran insan mənəvi baxımdan sürətlə irəliləyər. Bu cür insan qısa müddətdə səhvlərini düzəldər, hər gün daha üstün əxlaqa doğru irəliləyər. Əgər insan özünü bir sahədə kafi hesab edirsə, daha yaxşısını axtarmaq və tətbiq etmək üçün səy göstərməz. Nöqsan və səhvlərini düzəldə bilməz. Bu da onun əxlaqının gözəlləşməsinə mane olar. Allah Quranda insanın özünü hər hansı sahədə kafi görməsinin böyük səhv olduğunu belə bildirmişdir:

**Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. (Ələq surəsi, 6-7)**

Elə buna görə də insan istər Allah`ın rizasını qazanmaq üçün xeyirli işlər görməkdə, istərsə də mənəvi cəhətdən özünü təkmilləşdirmək sahəsində əsla özünü kafi görməməlidir. Allah`ın ona verdiyi ağıl ilə daima daha yaxşısını, daha gözəlini, daha üstününü, daha mükəmməlini tələb etməli və bunun üçün səmimi səy göstərməlidir.

## Dində məcburiyyət varmı?

Bu sualın cavabı bir ayədə açıq şəkildə verilmişdir:

**Dində məcburiyyət yoxdur. Artıq doğruluq azğınlıqdan ayırd edildi. Hər kəs Taqutu inkar edib Allah`a iman gətirsə, o, artıq ən möhkəm bir ipdən yapışmış olur. Allah eşidəndir, biləndir! (Bəqərə surəsi, 256)**

Ayədə bildirildiyi kimi, insanı dinə uyğun yaşamağa məcbur etmək olmaz. Digər insanlara Allah`ın varlığını və Quran əxlaqını təbliğ etmək möminin vəzifəsidir. Bu öhdəliklərini yerinə yetirmək istəyən möminlər digər insanların hidayətinə vəsilə olmaq üçün dini təbliğ edir, lakin Allah hidayət vermək istəmədikdən sonra heç nə edə bilməyəcəklərini bilərək bundan sonrasını həmin insanın vicdanına həvalə edirlər. Çünki Allah`ın və axirətin varlığı açıq-aşkar ortadadır. Allah`ın çağırdığı doğru yol ilə şeytanın çağırdığı azğınlıq yolun arasındakı fərqi görmək çox asandır. Hansının daha gözəl və faydalı olduğunu hər insan öz vicdanı ilə anlaya bilər. Ona görə, Allah`dan qorxan insanlar heç bir təzyiq və ya məcburiyyətə gərək qalmadan doğru yola tabe olurlar.

Allah Quranda inananların üzərinə düşən vəzifənin sadəcə doğru olanı təbliğ etmək olduğunu bir çox ayədə bildirmişdir:

**Əgər onlar səninlə mübahisə edərlərsə, de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allah`a təslim etmişəm!" Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, (bil ki), sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Allah qullarını görür. (Ali-İmran surəsi, 20)**

## Xeyir işlərdə yarışmaq nə deməkdir?

İnsanlar iman dərəcələrinə görə bir-birlərindən fərqlənirlər. Bəzi insanlar Allah`a heç iman gətirməzlər. Bəzisi isə güclü Allah qorxusundan daima saleh əməllər etməyə və dinə xidmət etməyə çalışır. Həyatının hər anında Allah`ı razı etməyə çalışan bu insanları Allah Quranda belə xəbər vermişdir:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

Bu insanlar səhərdən axşama qədər daima dinə xidmət etməyə, dinin və möminlərin mənfəəti üçün saleh əməllər işləməyə, bir sözlə, hər an Allah`ı razı edən xeyirli işlər görməyə çalışırlar. Bunun üçün daima düşünməli, dua etməli, Allah`ın ən çox razı olduğu davranışı axtarıb taparaq o cür davranmalı olduqlarını bildilər. Ona görə, daima Allah`a yaxınlaşmaq, Onun ucalığını haqqı ilə təqdir etmək üçün dərindən düşünürlər. Bir an olmaz ki, düşünməsinlər, dünyanın keçici yararına dalıb axirəti unutsunlar. Səmimi iman gətirdikləri üçün həyatlarının hər anını Allah üçün keçirərlər və bu məsələdə qəflətə düşməzlər. Dayanmadan Allah`ı və Onun böyüklüyünü düşünmək Allah qorxularını artırır. Allah`ın Quranda əmr etdiyi kimi, bir işi qurtardıqda

dərhal başqa işlə yorulurlar. Bu insanlar yarışıb önə keçənlərdir və Allah onları cənnətlə müjdələmişdir:

**(Xeyirxah işlərdə) öndə gedənlər öndədirlər! Onlar yaxınlaşdırılmış kimsələrdir. Onlar Nəim cənnətlərində olacaqlar. (Vaqiə surəsi, 10-12)**

## Mömin nələrə səbir edər?

Möminin ən mühüm xüsusiyyətlərindən biri səbirdir. Ancaq Qurandan öyrəndiyimiz səbir sıxıntı vaxtlarında çətinliyə dözmək deyil. Mömin ömrü boyu qarşılaşdığı hər hadisədə, hər an Allah`ın ən çox razı olduğu davranışı etməkdə səbir göstərər.

Allah möminləri aclıq, qorxu, can və mallarından azaltma, bolluq kimi müxtəlif hadisələrlə imtahan edir. Quranda tərif edilən mömin isə hansı şəraitdə olsa da, səbirlə Allah`ın rizasını axtarar. Bolluqda Allah`a şükür edər, çətinlik və sıxıntı anlarında Allah`a təvəkkül edər, dinin və möminlərin mənfəətini həmişə öz mənfəətindən üstün tutar. Ömrü boyu bütün gözəl əxlaqi xüsusiyyətləri səbirlə tətbiq edər. Səmimidir, düzgündür, fədakardır, çalışqandır, şövqlüdür, həmişə sözün ən gözəlini söyləyər, daima dinə xidmət edər. Xülasə, Allah`ın gözəl göstərdiyi hər şeyi səbirlə edər. Bunun əvəzində, Allah səbir edən qullarını belə müjdələmişdir:

**Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edən şəxslərə müjdə ver! O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allah`a məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən tariflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır. (Bəqərə surəsi, 155-157)**

## İnkar edənlərə də bu dünyada mal-mülk verilməsinin hikməti nədir?

İnkar edənlərin mal-mülkü və gücü onların daha da azmasına səbəb olmuşdur. Bu, Allah`ın Quranda açıqladığı sirdir. Allah onların əlindəki mülkün ancaq dünyaya aid olduğunu, möminlərin əsla bunlara həsəd aparmamasını əmr etmiş, bu mülklə onların küfrünü artıracağını, sonda hamısını cəhənnəmə atacağını vəd etmişdir.

Bu mühüm sirr ayələrin birində belə açıqlanır:

**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir. (Tövbə surəsi. 55)**

## İnkar edənlər əməllərinə görə nə üçün dərhal cəzalandırılmırlar?

Bu dünya imtahan mühiti olduğu üçün Allah hamıya öyüd alıb davranışlarını düzəltmək üçün möhlət verir. İnkar edənlərin axirətdəki cəzası da onlara təyin edilmiş bu vaxt bitənə qədər təxirə salınır. Belə ki, cəhənnəmə girdikdə heç bir bəhanələri

qalmasın. İsrarla inkar edənlərə əllərindən gəldiyi qədər pislik etmək üçün fürsət verilir. Beləliklə, əməlləri ilə cəhənnəmdəki cəzalarına tam layiq olurlar.

**Küfr edənlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür. Onlar alçaldıcı bir əzab görəcəklər! (Ali-İmran surəsi, 178)**

## İnkarçıların dünyadakı sonu

Allah inkarçılar üçün axirətdə əbədi əzab hazırlamışdır. Ancaq inkarçılar üçün dünyada da müxtəlif əzablar var. Bunlar cəhənnəmdəki əzab kimi olmasa da, əbədi əzablarının bir növ başlanğıcıdır. Eyni zamanda, peşman olub ibrət almaları və doğru yola dönmələri üçün Allah`dan xəbərdarlıq xüsusiyyəti daşıyırlar. Allah dünyada verəcəyi əzabı və səbəbini ayədə belə bildirir:

**Biz ən böyük əzabdan əvvəl onlara mütləq dünya əzabından daddıracağıq. Bəlkə, (tövbə edib düz yola) qayıdalar! (Səcdə surəsi, 21)**

İnkarçıların inkar etməsinin ən mühüm səbəbi dünya həyatına hərisliklə bağlanmaları və anladıqları halda, dünyəvi istəklərinə görə, həqiqəti qəbul etməmələridir. Allah inkarçılar üçün dünyada hazırladığı əzabla onların dünya həyatındakı bütün nemətlərini əllərindən alır. Quranda bəhs edilən dünyəvi əzablardan bəzisi belədir:

**İnkar edən qövmün üstünə çəyirtkə, həşərat, qurbağa kimi heyvanların göndərilməsi. (Əraf surəsi, 133)**

**Quraqlıq və məhsul qıtlığı, iqtisadi böhranların baş verməsi. (Əraf surəsi, 130, Nəhl surəsi, 112)**

**Qarun və ya varlı bağ sahibi kimi var-dövləti ilə öyünüb azğınlaşan insanlara verilən əzablar nəticəsində onların bütün var-dövlətlərini itirməsi. (Qəsəs surəsi, 76-82, Kəhf surəsi, 32-43)**

**İnkar edənlərin bədbəxt olması. (Əla surəsi, 11-12)**

**Xülyalarla yaşamaları. (Nisa surəsi, 120)**

**Qəlblərinin dar və sıxıntılı olması, rəzil olmaları. (Ənam surəsi, 125)**

## Kimlər cəhənnəmə girəcək?

Quranda bir çox ayədə cəhənnəmə girəcək insanların xüsusiyyətlərindən bəhs edilir. Bu xüsusiyyətlərdən bir qismini belə sadalamaq olar: Allah`ı inkar edən, Allah`dan başqasını ilahlaşdıran, Allah`a şərik qoşan, özünü ilahlaşdıran, Ondan başqa saxta ilahlar, xilaskarlar, yol göstərənlər qəbul edən, Allah`ın yolundan çəkindirən, Onun yolunda ziddiyyət axtaran, Allah`ın nazil etdiyi kitabdan bəzi şeyləri görməməzliyə vurub gizlədən, Allah`ın adının zikr olunmasına mane olan, yetimin malını zülm edib yeyən, insanların haqqına təcavüz edən, ayələri təkzib edən, faiz yeyən, peyğəmbərləri haqsız yerə öldürən, insanlardan ədaləti əmr edənləri öldürən, Allah`ın elçilərinə müxalif çıxan, qəsdən adam öldürən, insanların mallarını haqsız yerə

yeyən, dinini oyun-əyləncəyə çevirən, Allah`ın ayələri və elçilərinə istehza edən, yenidən dirildilməyəcəyini düşünüb axirətə inanmayan, Allah`ın hüzuruna çıxacağına inanmayan, dünya həyatına qane olan, heç bir ciddi səbəbi olmadığı halda, Allah`ın fərz qıldığı ibadətləri yerinə yetirməyən, Allah`dan qorxub-çəkinməyən, namaz qılmayan, pis işləri təşkil edən, fitnə-fəsad törədən, Allah`ın ayələrini təkzib edən, təkəbbürlə Allah`a ibadətdən boyun qaçıran, möminlərə böhtan atan, əxlaqsızlığı yayan, həqiqəti gizlədən, Allah`ın hədlərini aşan, haramları yeyən, ölçüdə-tərəzidə ədalətsizlik edən, təkəbbürlü, xəsis, hörmətsiz, eqoist, nankor, xain, qudurğan, zalım, inadkar…

Allah bu xüsusiyyətlərə malik olub ölənə qədər bu əxlaqsız hərəkətlərdən əl çəkməyən hər kafirin mütləq cəhənnəmə girəcəyini və etdiklərinin əvəzində böyük əzab çəkəcəyini bildirmişdir. "Qaf" surəsində belə deyilir:

**Atın cəhənnəmə hər bir inadcıl kafiri; xeyrə mane olanı, həddi aşanı, (Allah`ın birliyinə) şəkk edəni! O kimsəni ki, Allah`la yanaşı, özünə başqa bir tanrı qəbul etdi. Atın onu şiddətli əzabın içinə! (Qaf surəsi, 24-26)**

## Cəhənnəmdəki peşmançılıq fayda verərmi?

Allah bütün insanlara elçiləri və kitabları vasitəsilə hər şeyi bildirmişdir. Heç bir qövmü xəbərdar edib qorxutmadan əzab göndərmir (Şüəra surəsi, 24). Hər insan kifayət qədər öyüd alacaq və etməli olduğu hər şeyi öyrənəcək qədər yaşayır. Etməli olduqları hər şeyi bildikləri və düşünüb öyüd almaq üçün vaxtları olduğu halda, inkarlarına israrla davam edən insanlar cəhənnəmdə əbədiyyən yaşamağa layiqdirlər. Amma bu insanlar oraya girdikləri anda dünyada etdiklərinə görə çox peşman olarlar. Lakin bu peşmançılığın faydası yoxdur. Etdiklərini düzəltmək üçün dünyaya qayıtmaq istəyən kafirlərin yalvarışları faydasızdır. Çünki onlar verilən fürsəti dəyərləndirməmişlər və əbədiyyət haqlarını itirmişlər. Allah ayədə bu kafirlərin çarəsiz vəziyyətini belə bildirmişdir:

**Onlar orada fəryad edib deyəcəklər: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki (dünyada) edirik!" "Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi qədər ömür vermədikmi?! Hələ sizə qorxudan peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! Zalımların imdadına çatan olmaz!" (Fatir surəsi, 37)**

## Cəhənnəmdə oddan başqa əzablar varmı?

Allah Quranda inkar edənlərin cəhənnəmdə ikən oda atılacaqlarını, oddan və qatrandan paltarlar geyinəcəklərini bildirmişdir (Həcc surəsi, 19). Ancaq insanın cəhənnəmdə çəkəcəyi əzab oddan ibarət deyil.

Cəhənnəmdə:

- **Dəmir toppuzlar var. (Həcc surəsi, 21)**
- **İnsanlar qandallanacaqlar. (İbrahim surəsi, 49)**

- **Boyunlarında dəmir halqalar və zəncirlərlə sürünəcəklər. (Ğafir surəsi, 71)**
- **Başlarına qaynar su töküləcək. (Duxan surəsi, 48)**
- **Qatrandan köynəklər geyinəcəklər. (İbrahim surəsi, 50)**
- **Əlləri boyunlarına bağlı halda, cəhənnəmin dar yerinə atılacaqlar. (Furqan surəsi, 13)**
- **Cəhənnəm üçün odun olacaqlar. (Cinn surəsi 15, Ali-İmran surəsi 10)**

Burada sadalananlar cəhənnəmdəki əzabın çox az hissəsidir. Orada insanın təsəvvür etmədiyi ağır əzablar var. Peşmançılıqla birlikdə Allah`ın insanın qəlbinə verdiyi mənəvi əzab isə əbədiyyən oradakı insanların ürəklərini yandıracaq. Bu mənəvi əzaba Quranda belə diqqət çəkilir:

**Sən nə bilirsən ki, Hütəmə nədir?! O, Allah`ın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb yaxar. (Huməzə surəsi, 5-7)**

## Cəhənnəmdə inkar edənlərin yeməyi və içkisi nə olacaq?

Dünyada ikən həddi aşdıqlarına görə, Allah`ın rəhmətindən uzaqlaşdırılan bu insanlara axirətdə heç bir nemət verilməyəcək. Cəhənnəmdə ancaq əzab çəkəcək inkarçılar cənnətdə möminlərə əbədiyyən bəxş edilən nemətlərdən onlara bir az da olsa verməleri üçün yalvaracaqlar (Əraf surəsi, 50). Lakin inkarçılara haram edilmiş bu nemətlərin əvəzində onlara doyumsuz, boğazlarını tıxayan, əzab verən, hətta dözülməz aclıqlarını təmin etməyən qidalarla susuzluqlarını daima artıran içkilər veriləcək. Onlara heç bir fayda verməməsinə, hətta əzab verməsinə baxmayaraq, əbədi olaraq bu yemək və içkilərə möhtac qalacaqlar.

Cəhənnəmdə kafirlər üçün hazırlanmış, onlara əzab və iyrənclik hissi verən yemək və içkilər Quranda belə təsvir edilmişdir:

Zəqqum ağacı (Duxan surəsi, 43-46), darı tikanı (Ğaşiyə surəsi, 6-7) cəhənnəmdəki yeməklərdəndir. Qaynar su (Vaqiə surəsi, 54-55), irinli su (İbrahim surəsi, 16-17) və qan (Haqqə surəsi, 36) cəhənnəmdəki içkilərdəndir.

## Cəhənnəm dərəcə-dərəcədirmi?

Cəhənnəmdə hər kəs etdiklərinin qarşılığını tamamilə alacaqdır. Əlbəttə, inkar dərəcəsinə, Allah`ın dininə və möminlərə qarşı apardıqları mübarizəyə, dünyada etdikləri zülmün şiddətinə əsasən, insanlar arasında dərəcə fərqləri olacaq. Məsələn, möminlərin ən böyük düşmənlərindən olan və əleyhlərində gizli fəaliyyət göstərən münafiqlərin cəhənnəmin ən alt təbəqəsində olacağı (Nisa surəsi, 145) Quranda bildirilmişdir. Bunun kimi hər inkar edənin mütləq cəhənnəmə girəcəyi və Allah`ın ədaləti ilə əməllərinin tam qarşılığını alacağı Quranda bu ayələrdə xəbər verilir:

**Belələri özlərindən əvvəl gəlib getmiş və insanlardan ibarət ümmətlərlə birlikdə haqlarında əzab sözünün gerçəkləşdiyi kimsələrdir. Onlar, doğrudan da,**

**ziyana uğrayanlardır! Hamının etdiyi əməllərə görə dərəcələri vardır ki, Allah onlara əməllərinin əvəzini versin. Onlara əsla haqsızlıq edilməz. (Əhqaf surəsi, 18-19)**

Bununla yanaşı, bəzi insanların düşündüyünün əksinə, insanlar günahlarının cəzasını bir müddət çəkdikdən sonra bağışlanaraq cəhənnəmdən çıxa bilməyəcəklər. Cəhənnəmə girən hər inkarçı əbədi olaraq orada qalacaq. (Bəqərə surəsi, 80-81)

## Cənnət və cəhənnəmdəkilər bir-birlərini görəcəklərmi?

Allah ayələrdə cənnət əhli ilə cəhənnəm əhlinin bir-birlərini gördüyündən və onlar arasındakı dialoqlardan bəhs edir. Cənnət və cəhənnəm xalqının bir-birlərini görməsi cənnətdəkilər üçün şükür vəsiləsi olacaq, cəhənnəmdəkilərin isə həsrət və peşmanlıqlarını artıracaq. Cənnətdəki insanların cəhənnəmdəkiləri görməsi və aralarındakı söhbətlərdən bəzisi Quranda belə xəbər verilir:

**Onlardan biri belə deyəcək: "Mənim bir yoldaşım var idi. O deyirdi: "Sən, doğrudan da, inanmırsan ki, Biz öldükdən, torpaq və sür-sümük olduqdan sonra (dirildilib) sorğu-sual olunacağıq?" (Sonra həmin şəxs cənnətdəki yoldaşlarına) deyəcək: "Siz (indi onun nə halda olduğunu) bilirsinizmi?" O, özü baxıb onu cəhənnəmin ortasında görəcək və deyəcəkdir: "Allah`a and olsun ki, sən az qala məni məhv edəcəkdin! Əgər Rəbbimin lütfü olmasaydı, mən də (cəhənnəmə) gətirilənlərdən olardım! (Saffat surəsi, 51-57)**

**Cəhənnəm əhli cənnət əhlinə müraciət edib: "Üstümüzə bir az su tökün və ya Allah`ın sizə verdiyi ruzilərdən bizə bir qədər ehsan edin!" – deyəcək. Onlar isə: "Doğrusu, Allah bunları kafirlərə haram buyurmuşdur!" – deyə cavab verəcəklər. (Əraf surəsi, 50)**

## Cənnətdə həyat necə olacaq?

Quranda təsvir olunanlara əsasən, cənnətdə də dünyadakına bənzər həyat olduğunu anlayırıq. Ayələrdə cənnətdəki məkanlar təsvir olunur, bu məkanlardakı ehtişamlı mebellərdən, gözəl əşyalardan bəhs edilir. Bunlardan başqa, bəzək-düzək əşyalarına, cənnətdəki geyimə, yemək və içkiyə dair nümunələr verilir. Dünyadakılara bənzər şəkildə tərif edilən bu gözəlliklərin hər birində cənnətdəki ehtişam və dəbdəbə vurğulanır. Bununla bərabər, insanın ağlına gələn və gəlməyən hər şeyin nemət olaraq veriləcəyindən bəhs edilir. Dünyadakı həyat və cənnətdəki həyat arasındakı ən böyük fərq, şübhəsiz ki, dünyadakı çatışmazlıqların heç birinin cənnətdə olmamasıdır. Ayələrdə xəbər verilən cənnətdəki nemətlərdən və gözəlliklərdən bəziləri belədir:

- **Böyük mülk və ehtişam**
- **Hündür qəsrlər və evlər**
- **Hündür taxtlar**
- **Atlasdan və ipəkdən gözəl paltarlar**

- **Qızıl və gümüş bilərziklər, incilər**
- **Altından çaylar axan məkanlar**
- **Nə isti, nə soyuq olan kölgəlik**
- **Qızıl məcməyilər, qədəhlər**
- **Ağır işlənmiş atlasdan yataqlar**
- **Yaşıl yastıqlar və gözəl döşəklər**
- **Dadı dəyişməyən süddən, süzmə baldan çaylar**
- **Gümüşdən büllur qablar və hələ bir çox nemət...**

Göründüyü kimi, cənnət insanın ən çox zövq alacağı, qeyri-adi dərəcədə qüsursuz məkandır. Allah cənnətdəki ehtişamı bir ayəsində belə bildirir:

> **(Orada) hara baxsan, nemət və böyük bir mülk görərsən. (İnsan surəsi, 20)**

## Cənnətdəki mənəvi mühit necə olacaq?

Cənnət möminlərə dünyada etdikləri saleh əməllərin, göstərdikləri gözəl əxlaqın əvəzində Allah`ın verdiyi nemətdir. Ayələrdə maddi cəhətdən hər cür gözəlliyin təqdim edildiyi cənnətdə insanlara sıxıntı verən heç nəyin olmadığından bəhs edilir. Cənnətdə

- **Əmin-amanlıq var,**
- **Kin və nifrət yoxdur,**
- **Boş söz-söhbət və yalan yoxdur,**
- **Yorğunluq və bezikmə yoxdur,**
- **Qorxu və kədər yoxdur,**
- **Gözəl, xoşxasiyyət insanlar var,**
- **Cənnətdə heç kəs qocalmayacaq, hamı həmyaşıd olacaq,**
- **Cənnət insanın hər cəhətdən rahat olacağı yerdir.**

Əlbəttə, burada sadalananlar cənnətdəki rahat və təhlükəsiz mühiti tərif edən bir neçə nümunədir. Allah bir ayədə inanmayanların cəhənnəmdə ağlasığmaz əzab çəkərkən və möminlərin cənnətdə böyük maddi-mənəvi rahatlıq içində olacaqlarını belə bildirir:

**(Qiyamət günü) zalımları qazandıqları günahların qorxusundan tir-tir əsən görəcəksən. O, mütləq onların başına gələcəkdir. İman gətirib yaxşı işlər görənlər isə cənnət bağçalarında olacaqlar. Rəbbinin dərgahında onlar üçün istədikləri hər şey olacaqdır. Budur ən böyük nemət! (Şura surəsi, 22)**

## Nəfsini tanrı etmək

Nəfsini tanrı edən insan öz mənfəətini və rahatlığını dinin mənfəətindən üstün tutan insandır. Halbuki, əsl səmimi dindar sadəcə Allah`ı tanrı edər və ancaq Allah`ın razılığına uyğun davranar. Bu, bütün şərtlər daxilində əsaslıdır. Belə bir insan xəstələndikdə, çətinlik anlarında, mənfəətinə tamamilə zidd olsa da, öz mənfəətini əsla dinin mənfəətindən üstün tutmaz, Allah`ın qoyduğu hədləri aşmaz.

Ancaq bir insan kiçik gördüyü bir məsələdə belə Quran əxlaqına uyğun davranmırsa, çətin gələn hər şeydə din əxlaqını tərk edərək nəfsinə xoş gələni seçirsə, bu insan nəfsini razı salmağa çalışır və ona görə də nəfsini tanrı etmişdir. Allah Quranda nəfslərini tanrı edənlər haqqında belə deyir:

**Nəfsini özünə tanrı edən və Allah`ın bilərəkdən yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allah`dan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız? (Casiyə surəsi, 23)**

## Şeytan insanı azdırmaq üçün hər an fəaliyyətdədirmi?

Şeytan insanı Allah`ın yolundan azdırmaq üçün dayanmadan fəaliyyət göstərir. Bir an belə bundan əl çəkmir, hər yolu sınayır. İnsanın zəif cəhətlərindən yanaşaraq ona öz istəklərini etdirməyə çalışır. Bir ayədə şeytanın insanları azdırmaq üçün fəaliyyət göstərəcəyinə belə diqqət çəkilmişdir:

**… Şeytan isə onları (doğru yoldan) çox uzaq olan zəlalətə sürükləmək istər. (Nisa surəsi, 60)**

**(İblis) dedi: "Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!" (Allah) buyurdu: "Oradan rüsvay olmuş və kənar edilmiş halda çıx. Onlardan hər kim sənə uyarsa, əlbəttə, cəhənnəmi sizin hamınızla dolduracağam! (Əraf surəsi, 16-18)**

Şeytan insanın ən böyük düşmənidir və insanlara vəsvəsə verərək, doğrunu yanlış, yanlışı doğru göstərərək onları dindən uzaqlaşdırmağa çalışır. Ayədə bildirildiyi kimi, insanların Allah`a şükür etməsinin qarşısını almaq istəyir. Ancaq Quranda şeytana tabe olan insanların mütləq ziyan tapacağı bildirilmişdir. Ona görə, insanlar şeytanın hiyləgər tələsinə qarşı ayıq-sayıq olmalı və ona tabe olmaqdan hər vəchlə çəkinməlidirlər.

Bunu da unutmaq olmaz ki, şeytan ancaq səmimi iman gətirməyən insanlara təsir edə bilir. Allah`a şəksiz iman gətirmiş, məhşər günündən əmin olan insanlar şeytanın fəaliyyətindən təsirlənməzlər. Əgər şeytandan vəsvəsə gələrsə, dərhal Allah`a sığınarlar. Allah şeytanın inananlara qarşı olduqca gücsüz olduğunu belə xəbər vermişdir:

**Allah`dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allah`ı) xatırlayar və dərhal (gerçəyi) görərlər. (Əraf surəsi, 201)**

Şeytan özü də Allah`a könüldən bağlanmış səmimi ixlaslı möminlərə qarşı azdırıcı gücü olmadığını etiraf edir. Bu, Quranda belə bildirilir:

**(İblis) dedi: "Ey Rəbbim! Məni azdırmağına əvəz olaraq and içirəm ki, mən də onlara (pis əməllərini) yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam! Yalnız Sənin sadiq bəndələrindən başqa!" (Hicr surəsi, 39-40)**

## Ürəyimizdən keçən hər şey Allah`a məlumdurmu?

Allah insanın ürəyindən keçən, heç kimin bilmədiyi bütün düşüncələri də daxil olmaqla, hər şeyi bilir. Çünki Allah`ın sifətlərindən biri Xabirdir. Yəni Allah hər şeyin iç üzündən, gizli tərəflərindən xəbərdar olandır. İnsan qarşısındakı insanlardan fikrindən keçən düşüncələri gizlədə bilər, ancaq Allah`dan gizlədə bilməz. Ayədə bildirildiyi kimi:

**"Yerdə və göylərdə heç bir şey Allah`dan gizli qalmaz".** (Ali-İmran surəsi, 5). Başqa bir ayədə isə belə deyilir:

**Göylərdə də, yerdə də yalnız O Allah`dır! Sizin gizlində də, aşkarda da nəyiniz varsa, tutduğunuz (bütün) əməlləri də O bilir! (Ənam surəsi, 3)**

İnsan zaman və məkandan asılıdır. Halbuki, Allah bütün nöqsanlardan uzaqdır. Zamanı, məkanı, bütün insanları, o insanların başına gələn hadisələri yaradan və hər şeyin qədərini təyin edən Allah`dır. Ona görə, Allah insanın daxilini, zahirini, bütün düşüncələrini bilir. Quranda bildirildiyi kimi:

**"… (Allah) ürəklərdə olanları biləndir!" (Mulk surəsi, 13)**

## İnsanın qəlbinin təmiz olması və xeyirxah olması cənnətə girməsi üçün kifayətdirmi?

Hər insanın və ya hər cəmiyyətin özünə görə yaxşılıq və xeyirxahlıq anlayışı var. Bəziləri üçün yaxşı təhsilli uşaqlar böyütmək, bəziləri üçün yardım fonduna üzv olmaq, bəziləri üçün də heyvan sevərlər dərnəyində işləmək yaxşılıqdır.

İnsanlar bu şəkildə özlərini aldadaraq məsuliyyətdən qaçmaq istəyirlər. Çünki hər insan, əslində, qiyamət günü Qurana tabe olub-olmadığına görə sorğu-sual ediləcəyini çox yaxşı bilir. Ancaq Allah`ın əmrlərini yerinə yetirmədiyi üçün bunu görməməzliyə vurur. Bu məsuliyyətdən qaçmayan və Quranda məsul olduğunu bilən insan isə həqiqi yaxşılığın Quranda tərif edildiyini bilir. Çünki Quran onu yaradanın hökmlərini ehtiva edir.

Bir insanın cənnəti qazanması üçün qəlbinin təmiz olması deyil, Allah`ın hökmlərini bəyan etdiyi Kitaba tabe olması gərəkir. Yəni insanın özü üçün yaşaması, heç kimin pisliyini istəməməsi, heç kimin malında, mülkündə, namusunda gözü olmaması onun cənnətə layiq insan olduğunu göstərmir. Çünki bütün bunlarla birlikdə Allah`ın Quranda bildirdiyi digər əxlaqi xüsusiyyətləri də daşımalıdır.

Allah həqiqi yaxşılığın nə olduğunu, kimlərin əsl müsəlman olduğunu bir ayədə belə bildirir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allah`a, axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə,**

**dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Başqa bir ayədə Allah dərgahındakı yaxşılıq ölçüsü belə bir nümunə ilə açıqlanır:

**Məgər siz hacılara su verməyi və Məscidül-həramı təmir etməyi Allah`a və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz! (Tövbə surəsi, 19)**

**İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah dərgahında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır. (Tövbə surəsi, 20)**

## Allah`a hicrət etmək

Hicrət etmək insanın bir yerdən başqa yerə getməsi, daha doğrusu, köç etməsidir. Allah`a hicrət etmək isə insanın Allah`ı tanıdıqdan, Quranı oxuyub anladıqdan sonra keçmişdəki hər cür yanlış davranışını, düşüncəsini, vərdişlərini, qısaca desək, hər şeyini tərk edib sadəcə Allah`a üz tutması və ancaq Onun istədiyi kimi yaşamasıdır.

Hz. İbrahim doğrunu gördüyü anda ətrafındakı insanların həyat tərzindən tamamilə uzaqlaşaraq dərhal Allah`a hicrət etmiş müsəlmandır. Hz. Lut da hz. İbrahim kimi üstün əxlaq göstərərək Rəbbimizə üz tutan peyğəmbərdir. Quranda hz. Lutun bu davranışı belə xəbər verilir:

**Lut ona iman gətirdi. Dedi: "Mən Rəbbimin yanına hicrət edirəm. Həqiqətən, O, qüdrətlidir, müdrikdir". (Ənkəbut surəsi, 26)**

## Quranda "ataların dini" dedikdə nə nəzərdə tutulur?

Quranda İslam dininin hökmləri və möminin həyat tərzi hərtərəfli tərif edilmişdir. "Ataların dini" ifadəsi Qurandakı hökmlərdən kənar bəzi qaydalara görə hərəkət edib keçmişdən qalan vərdişlərə, adət-ənənələrə və ya qeyri-dəqiq biliklərə əsaslanan uydurma din nəzərdə tutulur. İslam adından irəli sürülən, lakin Quranda yeri olmayan batil inanc və adətlərin qaynağı elə bu "ataların dini"dir.

Cahil cəmiyyətdə "ataların batil dini"nə uyğun yaşayan insanlara tez-tez rast gəlinir. Bu insanlar müxtəlif ibadətləri və hərəkətləri nə üçün etdiklərini düşünmədən, atalarından, babalarından öyrəndikləri kimi tətbiq edir və dinə uyğun şeylər etdiklərini düşünürlər. Allah`ın razılığını qazanmağı deyil, keçmişdən onlara miras qalmış batil sistemi tətbiq etməyə çalışırlar. Bu barədə Quranda hz. İbrahimin qövmündən nümunə verilmişdir:

**Onlara İbrahimin hekayətini söylə! O zaman ki, o öz atasına və tayfasına demişdi: "Nəyə ibadət edirsiniz?" Onlar: "Bütlərə ibadət edir və onlara**

**tapınmaqda davam edirik!" – deyə cavab vermişdilər. Demişdi: "Onları çağırdığınız zaman sizi eşidirlərmi? Yaxud sizə bir xeyir və ya zərər verə bilirlərmi?" Onlar: "Xeyr, ancaq biz öz atalarımızın belə etdiklərini gördük!" – deyə cavab vermişdilər. Demişdi: "İndi nəyə ibadət etdiyinizi görürsünüzmü?- Sizin və ulu babalarınızın? Aləmlərin Rəbbi istisna olmaqla, onlar mənim düşmənimdir. Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir. Məni öldürəcək, sonra dirildəcək Odur. Və qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur! (Şüəra surəsi, 69-82)**

Ayələrdən göründüyü kimi, hz. İbrahim qövmünün batil dinindən uzaqlaşmış, ancaq Allah`a üz tutmuş və qövmünə də Allah`ın tək İlah olduğunu, yeganə dinin Allah`ın dini olduğunu təbliğ etmişdir.

Elçilərin əksəriyyəti göndərildikləri qövmlər tərəfindən atalarının dininə qarşı çıxmaqla, bu dini aradan qaldırmaqla ittiham edilmiş və yaşadıqları dövrdə hakim olan batil dinin mənsublarının hədə-qorxusuna və təzyiqinə məruz qalmışlar. Bununla əlaqədar, ayələrdən bəziləri belədir:

**Onlar: "Bizi atalarımızın tapındığı dindən döndərmək, özünüz də yer üzündə böyüklük etmək üçünmü gəldiniz? Biz sizə iman gətirən deyilik!" – dedilər. (Yunis surəsi, 78)**

**Onlara: "Allah`ın nazil etdiyinə tabe olun!" - deyildikdə, onlar: "Xeyr, biz atalarımızın getdiyi yola tabe olacağıq!" – deyə cavab verərlər. Bəs Şeytan onları cəhənnəm odunun əzabına çağırırsa necə? (Loğman surəsi, 21)**

**Xeyr. Onlar: "Biz atalarımızı bir din üzərində gördük və biz də onların ardınca getdik!" – deyirlər. (Zuxruf surəsi, 22)**

## İslamda qadın ilə kişi bərabərdirmi?

Allah Quranda iman gətirən və saleh əməllər işləyən möminlərdən bəhs edir. Allah dərgahında dəyər və üstünlük ölçüsü insanın qadın və ya kişi olması deyil, iman gətirməsi və saleh əməllər işləməsidir. İslamın hökmlərinin və Allah`ın əmrlərinin yerinə yetirilməsinə görə hər kəs məsuldur. Quranda həm qadınların, həm də kişilərin etdiyi yaxşılıqların əvəzini bərabər şəkildə alacağı xəbər verilir:

**Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və qadınlar cənnətə daxil olarlar. Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz! (Nisa surəsi, 124)**

Bundan əlavə, Allah başqa ayələrdə də insanın cinsiyyətinin deyil, təqvasının, yəni Allah`dan qorxaraq nəfsini Allah`ın razı olmadığı hər cür günah və üsyandan, əxlaqsızlıq və azğınlıqdan qorumasının, axirətdə onu ziyana uğradacaq hər cür pislikdən çəkinməsinin əhəmiyyətli olduğunu bildirmişdir:

**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli**

**olanınız Allah`dan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hucurat surəsi, 13)**

## Qulağı və gözü möhürlənmiş şəxs necə olur?

Allah`ın Quranda əmr etdiyi hökmlər çox açıqdır və bunlardan xəbərdar olan hər kəs bu hökmləri tam yerinə yetirməlidir. Ayələrdən xəbərdar olan, amma Allah`ın əmrlərini yerinə yetirməyən insan vicdanının səsini dinləmədiyi üçün qəlbi qatılaşır, ağlı və şüuru kütləşir, bir müddət sonra həqiqətləri görə bilmir. Ayələrdə tərif edilənləri anlamır, doğruları görmür. Etdiklərinin əvəzində sonunun necə olacağını belə dərk etmir.

Allah ayələrində dünya həyatını axirətdən üstün tutanların, ayələri təkzib etmək üçün mübarizə aparanların, Allah`a qarşı yalan uyduranların, sadəcə nəfsinin əmrlərini yerinə yetirənlərin, iman gətirdikdən sonra inkar edənlərin, mübarizədə geri qalmağı seçənlərin və zəngin olduğu halda Allah yolunda infaq etmək istəməyən insanların qəlblərinin, qulaqlarının və gözlərinin möhürlənəcəyindən və üzərilərinə ağırlıq çökəcəyindən bəhs edir. Bundan əlavə, ayələrdə bu insanların cəhənnəm əhli olduğu xəbər verilir:

**Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 7)**

**Bunlar o kəslərdir ki, Allah onların qəlblərini, qulaqlarını və gözlərini möhürləmişdir. Onlar qafildirlər! Şübhəsiz ki, axirətdə ziyana uğrayanlar da onlardır! (Nəhl surəsi, 108-109)**

## Quranda fitnə-fəsad törətmək

Quranda fəsad törədənlərə aid bir çox nümunə verilmişdir. Ancaq fəsad törədənlərin əsas xüsusiyyəti Allah`a, Allah`ın elçilərinə və kitablarına qarşı çıxmaları, dinə və müsəlmanlara mane olmaları, Allah`ın hədlərini aşmalarıdır. Onların bu əsas xüsusiyyəti bir ayədə belə bildirilir:

**Törətdikləri fitnə-fəsada görə, Allah yolundan döndərən kafirlərin əzablarının üstünə bir əzab da artıracağıq! (Nəhl surəsi, 88)**

Ayələrdə insanları Allah`ın yolundan döndərməyə çalışanların yer üzündə əkini, nizam-intizamı pozduğu, qarışıqlıq törətdiyi, Allah`ın əmr və qadağalarını aradan qaldırmağa çalışdığı, çəkini və tərəzini əskildərək saxtakarlıq etdiyindən bəhs olunur. Bunun əvəzində, Allah həm dünyada, həm də axirətdə bu insanların cəzasını verəcək və onları, yuxarıdakı ayədə də bildirildiyi kimi, müxtəlif yollarla əzablandırır, sonsuz ədaləti ilə fitnə-fəsad törətməyə cəhd edən hər kəsə layiq olduğu qarşılığı tamamilə verir.

## Münafiq kimdir?

Quranda münafiqlər iman gətirmədikləri halda, iman gətirmiş kimi görünən, ona görə də aralarında yaşadıqları möminlərdən mənfəət əldə edəcəyini düşünən ikiüzlü insanlar kimi tərif edilirlər. Allah münafiqlərin fitnə-fəsad törədən olduğunu və möminlər arasında fitnə çıxarmağa çalışdığını, yəni möminlər arasındakı birliyi pozmaq üçün gizli fəaliyyət göstərdiyini bildirmişdir. Bu xüsusiyyətlərinə görə də onlar "nifaq (ayrılıq, fitnə-fəsad) salan" mənasını verən "münafiq" adlandırılırlar.

Münafiqlərin digər mühüm xüsusiyyəti möminlərin bəzi çətinliklərlə üzləşdiyi dövrlərdə həqiqi üzlərini göstərmələri, başqa vaxtlarda isə özlərini büruzə verməmələridir. Möminləri aldatdıqlarını düşünən bu insanlar, əslində, özləri yanılırlar. Allah aşağıdakı ayələrdə münafiqlərin yanıldığını belə bildirmişdir:

**İnsanlar içərisində elələri də vardır ki, iman gətirmədikləri halda: "Biz Allah`a və qiyamət gününə iman gətirdik", - deyirlər. Onlar elə güman edirlər ki, Allah`ı və möminləri aldadırlar. Bilmirlər ki, əslində, ancaq özlərini aldadırlar. Onların ürəyində mərəz var. Allah onların mərəzini daha da artırar. Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar! (Bəqərə surəsi, 8-10)**

Din və axirət haqqında hər şeyi öyrəndikləri, elçini görüb tanıdıqları və möminlərlə birlikdə yaşadıqları halda, alçaqlıq edərək təkəbbürdən və dünyəvi mənfəət üçün imandan üz çevirmələri, fitnə çıxarmaları, elçiyə və möminlərə düşmənçilik etmələri, inkarçıların yanına gedib onları möminlərə qarşı təşviq etmələrinə görə, Allah onlara ən böyük əzabı vəd etmişdir:

**Əlbəttə, münafiqlərin yeri cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan! (Nisa surəsi, 145)**

## Münafiqlərin əlamətləri

Allah Quranda münafiqlərin bir çox xüsusiyyətini tərif edərək möminləri bu inkarçı qrupa qarşı xəbərdar etmişdir. Ona görə, gizli fəaliyyət göstərən bu azğın qrupun bütün əlamətləri Quranı yaxşı bilən üçün aydındır. Qəlbində xəstəlik olan münafiqlər Allah`ın ayələrindən xəbərdar olan diqqətli möminin gözündən qaçmaz. Bu insanların içindəki inkarın əlamətləri nə qədər gizlətməyə çalışsalar da, hərəkət, söhbət və müxtəlif hadisələrə reaksiyalarında üzə çıxır. Möminlər bu əlamətləri olan insanların dəqiq münafiq olduğunu deyə bilməzlər, ancaq bu cür insanlara qarşı çox ehtiyatla davranarlar. Münafiqlərin tanınmasına kömək edən çox aşkar bəzi əlamətlər aşağıdakı ayədə bildirilmişdir:

**Münafiqlər Allah`ı aldatmağa çalışırlar. Halbuki, əslində, (Allah) onları aldadır. Onlar namaza durduqları zaman tənbəlliklə qalxar, özlərini xalqa göstərər və Allah`ı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

Ayədən göründüyü kimi, münafiqlərin gördüyü işlərdə insanların razılığını güdməsi, göstəriş üçün hərəkət etməsi möminlərin hiss edəcəyi əlamətlərdir. Bu insanların gec-tez iç üzünün ortaya çıxacağı və Allah istəsə, üzlərindən və danışıq tərzlərindən də özlərini bəlli edəcəyi ayədə xəbər verilmişdir:

**Yoxsa qəlblərində mərəz olanlar elə güman etdilər ki, Allah onların kin-küdurətlərini zahirə çıxartmayacaqdır?! Əgər Biz istəsəydik, onları mütləq sənə göstərər, sən də onları mütləq üzlərindən tanıyardın. Sən onsuzda onların danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir! (Muhəmməd surəsi, 29-30)**

## Qurana əsasən, cahil insan kimdir?

Quranda işlədilən "cahil" sözü xalq arasında işlədilən "cahil" sözündən fərqli məna daşıyır. Quranda ifadə edilən cahillik insanın yaradılış məqsədindən, Yaradanımız olan Allah`ın üstün xüsusiyyətlərindən, Allah`ın nazil etdiyi kitabdakı məlumat və hikmətdən, sonsuz həyatı ilə əlaqədar mövzulardan xəbərsiz olması və bu cahillikdən doğan həyat tərzini mənimsəməsidir.

Allah`ı bir İlah kimi tanımayan, Onun elçiləri vasitəsilə göstərdiyi doğru yolla getməyən insanların cahillik etdiyinə Quranda belə diqqət çəkilmişdir:

**Onlar: "Sən bizi tanrılarımızdan döndərməyəmi gəldin? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyini gətir görək!" – deyə cavab vermişdilər. (Hud) demişdi: "Ancaq Allah bilir. Mən sizə yalnız mənimlə göndərilənləri təbliğ edirəm. Ancaq mən sizin cahil bir qövm olduğunuzu görürəm!" (Əhqaf surəsi, 22-23)**

## Quranda insanın yaradılışı necə izah edilir?

Allah Quranda insanın yaradılış mərhələləri ilə bağlı çox məlumat verir. Bu məlumatların çoxu o dövrdə yaşayan insanların heç bilmədiyi, ancaq dövrümüzdə elm sayəsində kəşf edilmiş faktlardır. Bu da Quranın saysız-hesabsız elmi möcüzələrindən biridir. Quranda insanın yaradılışı ilə bağlı verilən məlumatların xülasəsi belədir:

Nütfə adlandırılan və spermləri daşıyan qidalandırıcı maye təkcə spermlərdən ibarət deyil. Əksinə, nütfə müxtəlif mayelərin qarışığından təşkil olunmuşdur. Quranda da nütfədən bəhs edilərkən qarışıq maye olduğuna diqqət çəkilir. Bu, ancaq dövrümüzdə elmin köməyi ilə kəşf edilmiş həqiqətdir.

**Həqiqətən, Biz insanı qarışıq bir nütfədən yaratdıq. Biz onu imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. (İnsan surəsi, 2)**

Qarışıq maye olan nütfənin içindəki milyonlarla spermdən ancaq bir dənəsi yumurtanı mayalandırır. Yəni insanın özü nütfənin hamısı deyil, onun kiçik bir hissəsidir. Quranda da insanın nütfənin hamısından deyil, sadəcə bir hissəsindən yaradıldığı bildirilir:

**Məgər o tökülən bir qətrə nütfə deyildimi?! (Qiyamət surəsi, 37)**

Spermlə yumurtanın birləşməsindən ibarət olan və ziqot adlandırılan tək hüceyrə dayanmadan bölünərək çoxalır və getdikcə ət parçasına çevrilir. Ancaq ziqot bu böyümə əsnasında bir boşluqda dayanmır, torpağa yerləşən köklər kimi ana bətninin divarına

çıxıntıları vasitəsilə yapışır. Bu da çox yaxın keçmişdə kəşf edilmiş həqiqət olmasına baxmayaraq, Quranda əsrlər əvvəl bildirilmişdir:

**Yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ələq surəsi, 1-2)**

Ana bətni inkişaf edən ziqotu əhatə edən və amnion adlı maye ilə doludur. Bu maye kənardan gələn zərbələrə qarşı körpəni qoruyur. Quranda körpənin qorunan yerdə inkişaf etdiyi də xəbər verilmişdir:

**Məgər Biz sizi dəyərsiz bir sudan xəlq etmədikmi? Biz onu etibarlı bir yerdə yerləşdirmədikmi?! (Mursəlat surəsi, 20-21)**

Allah insanın yaradılış mərhələlərindən bir qismini "Muminun" surəsində bildirmişdir. Uşağın inkişaf mərhələlərinin eynilə ayələrdə tərif edildiyi kimi baş verməsi bu gün bioloji cəhətdən də sübut edilmişdir:

**Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu nütfə halında möhkəm bir yerdə yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa bir məxluqat olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər uludur! (Muminun surəsi, 12-14)**

## Allah`ın dininə dəvət

İnsanlara dinin və gözəl əxlaqın təbliğ edilməsi Allah`ın əmridir:

**İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar, həqiqətən, nicat tapmış şəxslərdir. (Ali-İmran surəsi, 104)**

Allah bir ayədə **"İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et..."** (Nəhl surəsi, 125) şəklində əmr etmişdir. Allah`ın dininə dəvət edərkən Quranın hökmlərini hikmətlə və öyüd-nəsihətlə izah etmək lazımdır. Təbliğ zamanı Allah`ın varlığı, birliyi və bənzərsiz yaratma sənəti kimi mövzular danışılaraq dinə dəvət edilən insanın Allah`a olan sevgisi, hörməti və qorxusu artırılır. Gözəl əxlaqlı insanın müxtəlif hadisələrdə necə davranacağı hərtərəfli tərif edilir. İnsanın dünyadakı həyatının məqsədi, imtahan olunduğu, ölümün yaxınlığı, ölümdən sonra haqq-hesab çəkiləcəyi, buna əsasən, cənnətə və ya cəhənnəmə gedəcəyi də izah olunur. Allah`ın sonsuz ədaləti ilə cənnəti və cəhənnəmi necə hazırladığı da xatırladılaraq həmin insanı pis sondan qorxudub çəkindirmək lazımdır. Allah`ı, Quranı və axirəti bu təriflərlə tanıyan insanlar bu mərhələdən sonra vicdanlarını dinləyərək hərəkət etdikləri təqdirdə Allah`ın əmrlərini tam yerinə yetirməyə çalışırlar.

## Gündəlik həyatda insan necə dərin düşünə bilər?

İnsan gündəlik həyatda çoxlu şeyləri düşünür. Məsələn, həmin gün görəcəyi işləri, gedəcəyi yerləri, ona deyilən yaxşı və ya pis şeyi, işi və ya məktəbi ilə bağlı etdiklərini, uzunmüddətli planlarını və s. Bunlara bənzər bir çox fikir zehnini məşğul edə bilər. Bunların hamısı vacibdir, lakin bu cür düşüncələr insanın beynində lazımi qədər yer tutmalıdır. Çünki daha təcili və insanın əbədi həyatını maraqlandıran daha mühüm məsələlər var.

İnsan, əvvəla, özünün və ətrafındakı bütün canlıların necə yaradıldıqlarını, onların necə yaşadıqlarını hərtərəfli düşünməlidir. Bununla bağlı bütün varlıqları yoxdan yaradan və yaşadan Allah`ı və Onun sifətlərini dərindən düşünməlidir. Daha sonra bu sonsuz qüdrət və elm sahibi Yaradanın onu yaratma məqsədini və ondan nələr tələb etdiyini düşünməlidir. Allah`ın ayələrini və əmrlərini ən yaxşı şəkildə yerinə yetirmək üçün qətiyyətli olmalıdır. Onu gözləyən labüd sonu, yəni ölümü və axirət həyatını da unutmamalı, daima bunu yadında saxlayaraq davranmalıdır. Onu bu təcili məsələlərdən uzaqlaşdıraraq qəflətə sürükləyən, fani, sonsuz həyatı üçün faydalı olmayan, hətta zərər verən iş, düşüncə, hərəkət və söhbətlərdən çəkinməlidir.

İnsanın zehni qabiliyyəti, əslində, çoxdur. İnsan bundan istifadə etməyi bilməli, zehnini lazımsız fikirlərlə məşğul etməməlidir.

Gündəlik həyatında insan bir tərəfdən də bu mühüm məsələləri düşünə bilər. Hətta bu məsələləri hərtərəfli şəkildə, mövzu-mövzu, ayələrlə şərh edərək düşünə bilər. Məsələn, gününün 9-10 saatını iş yerində və ya məktəbdə keçirən bir şəxs gün ərzində düşünməli çox şeylə qarşılaşır. Bunlar Quranda tərif edilən insan xarakterləri, düşdüyü, yaşadığı mühitlər ola bilər. Vicdanını dinləmə, nəfsinə tabe olma, həsəd, təvazökarlıq, təvəkkül, səbir kimi yüzlərlə mövzunu bir-bir yaşayaraq düşünər, həm də bu mövzular üzərində hərtərəfli şəkildə düşünərək dərinləşə bilər. Əsas odur ki, insan bu fürsətləri görsün və yaxşı dəyərləndirsin.

Ətrafında baş verənlərə: çiçəklərin açmasından səmada quşların uçmasına, nəfəs aldığı oksigenin nisbətindən və canlılara verdiyi faydadan ürəyinin döyünməsinə qədər bir çox mövzunu ətraflı düşünə bilər. Suallar verərək, cavablarını axtararaq, adət halını almış izahlardan kənara çıxaraq düşünən insan dərin düşünməyə başlayar. Allah Quranda möminlərin düşünən insanlar olduğunu belə bildirir:

**Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah`ı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru! (Ali-İmran surəsi, 190-191)**

## Dərin düşünməyə nələr mane olur?

Bir məsələ üzərində düşündükdə insanın diqqəti başqa şeylərə yayına bilər. Mühüm məsələ haqqında düşünərkən insan birdən-birə sabah edəcəyi lazımsız iş və ya

əlində tutduğu qələm haqqında fikirləşə bilər. Fikrin dağılması isə dərinləşməyin qarşısını alır.

Həmçinin bir məsələ haqqında kifayət qədər məlumat olmadıqda da insanın düşünmə qabiliyyəti müəyyən həddə qədər irəliləyir. Amma bu da düşünməyə mane olan səbəb deyil. İnsan necə və nə haqda düşünəcəyini bilərsə, o sahədə özünü təkmilləşdirər və lazım gələrsə, biliyini də artıra bilər.

Ancaq düşünməyə mane olan ən mühüm amillərdən biri, şübhəsiz, ülfətdir, yəni hadisələrə alışqanlıq eynəyinin ardından baxmaqdır. İnsan hərtərəfli düşünməsə, dünyaya gəldiyi andan etibarən ətrafında baş verən hadisələri təbii qarşılaya bilər. Məsələn, canlılardakı qeyri-adi dizaynı görməz. Həmişə görməyə adət etdiyi üçün qarışqanın öz çəkisindən 200-300 dəfə ağır cismi asanlıqla metrlərlə uzağa daşıdığını, bunun çox mühüm detal olduğunu, qarışqaya bu cür çətin işi həyata keçirməyə kömək edən mexanizmi kimin verdiyini heç düşünməz. Özünün belə bir şeyi əsla edə bilməyəcəyini isə ağlına belə gətirməz. Bir quşun qanadındakı xüsusiyyətləri, qanad mexanizminin xüsusi dizayn tələb etdiyinin fərqinə varmaz. Halbuki, dərin düşünən insan bircə tükü belə əlinə alıb, onu hərtərəfli tədqiq edərək çox mühüm nəticələrə gələ bilər. Tükdəki nizamdan tükü təşkil edən maddənin möhkəmliyinə qədər bir çox mühüm detalı özü tapa bilər. Bircə tükə baxaraq onun üzərindəki yaradılış dəlillərini müəyyən edə bilər.

Ancaq bunu da bildirmək lazımdır ki, ülfətsiz düşünmək üçün insanın mütləq çox şey bilməsinə ehtiyac yoxdur. Sadəcə ətrafındakı canlılara, səmaya və hətta öz bədəninə diqqətlə baxması kifayət edər. Allah buna “Qaf” surəsində belə bir nümunə ilə diqqət çəkir:

**Məgər onlar başlarının üstündəki göyə baxıb onu necə yaratdığımızı, necə bəzədiyimizi və orada heç bir yarıq olmadığını görmürlərmi?! Eləcə də yeri necə döşədiyimizi, orada möhkəm duran dağlar yaratdığımızı, hər cür gözəl növdən (meyvə) yetişdirdiyimizi görmürlərmi?! (Bütün bunları Rəbbinə tərəf) dönüb qayıdan hər bir bəndə üçün ibrət dərsi və öyüd-nəsihət olsun deyə etdik. Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik. Həm də tumurcuqları bir-birinin üstünə düzülmüş, hündür xurma ağacları (bitirdik). Bəndələrə ruzi olsun deyə! Biz onunla ölü bir məmləkəti cana gətirdik. (Qəbirlərdən dirilib) çıxmaq da belədir! (Qaf surəsi, 6-11)**

## Düşünməkdən qaçan insanlar necə ziyana uğrayırlar?

Allah Quranda insana düşünməyi tövsiyə edir. Bir çox ayədə nümunə verərək: “İbrət almırsınızmı?” - deyə soruşur.

Əslində, insan gün ərzində ibrət alıb düşünəcəyi, Allah`ın sənətini görəcəyi, Onun yaratmasındakı dəlilləri qavrayacağı və Onun ucalığını, böyüklüyünü anlayaraq Allah`ın şanını ucaldacağı çox fürsətlə qarşılaşır. Düşünməyən insan qarşısına çıxan bu

fürsətləri gündəlik həyatın axışı içində baş verən hadisələr kimi dəyərləndirir və bunların əhəmiyyətini dərk etmir.

Məsələn, qəza və ya xəstəliklə qarşılaşdıqda bunun ona Allah`a üz tutması üçün yaradılmış xüsusi hadisə olduğunu düşünməz. Halbuki, Allah ayələrində insanlara düşünmələri üçün xüsusi verilən sıxıntılardan bəhs edir:

**Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar. (Tövbə surəsi, 126)**

Bununla bağlı edilən xəbərdarlıqları qulaqardı etmək isə insanın özünə zərər verir. Habelə bu, insanın düşünmədiyinə görə verdiyi itkilərdən təkcə biridir.

Düşünməyən insan ətrafındakı gözəllikləri də dərk etməz. Allah`ın yaratdığı incəliklərdən zövq almaz. Hər şeyin yaradanı olan Allah`ın varlığının dəlillərini, Onun ucalığını qavramaz. Bu isə insan üçün böyük nemət itkisidir. Çünki dünyadakı bütün gözəllikləri yaradanın Allah olduğunu anlamayan insanın axirətdə heç bir ümidi olmaz. Dünyadakı hər şeyin ölümlə sona çatacağını zənn etdiyi üçün bu müvəqqəti şeylərdən əsl mənada zövq alması mümkün deyil. Əksinə, gördüyü gözəlliklərə gec-tez bir gün itirəcəyi şeylər kimi baxar. Bu da nemətlərdən zövq almaq əvəzinə, onlara baxıb sıxıntı çəkməsinə səbəb olar.

## Yaradılmışlar üzərində düşünməyin insana faydaları

Düşünməkdən qaçan insanın əksinə, hər şeyi Allah`ın yaratdığını düşünən insan baxdığı hər şeydə Allah`ın sənətini görür, hər şeyin insan üçün xüsusi yaradıldığını anlayır.

Məsələn, insan da daxil olmaqla, bütün canlılardakı mükəmməl sistemləri, yaşadığı planetin və kainatın qeyri-adi güclə inşa edildiyini düşünmək insanın əvvəla Allah`ı daha yaxşı tanımasına vəsilə olur. Bu da o insanın qəlbinə mülayimlik verir və Allah`a olan hörmətini, sevgisini və qorxusunu artırır. Bu insan ətrafdakı ağaclardan quşlara, qarışqalardan kəpənəklərə qədər hər cür canlıda, bu canlıların malik olduğu hər mexanizmdə daima Allah`ın sənətini, ucalığını gördüyü üçün imanı güclənir. Allah ancaq düşünən insanların ətraflarındakı iman dəlillərini görüb dəyərləndirəcəklərinə belə diqqət çəkir:

**Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allah`ın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində əlamətlər vardır. (Bəqərə surəsi, 164)**

Allah`a şəksiz iman gətirən insan dünyanın məqsədsiz yer olmadığını, düşünməli və yerinə yetirilməli çox mühüm şeylərin olduğunu da qavrayar. Ona verilən hər şeyin

bir nemət olduğunu bilər və şükür edər. Axirəti daima düşünər və o günün qorxusundan uzaq olmaq üçün bağışlanma diləyər.

Düşünməyin ən mühüm xüsusiyyəti də, şübhəsiz, hər kəsin öz səyi ilə əldə etdiyi qazanc olmasıdır. Kimsə kimsəni bir şey haqqında düşünməyə məcbur edə bilməz. Ona görə, hərtərəfli düşünən insan özünə fayda verər. Allah Quranda ancaq düşünən insanın qarşılaşdığı hadisələrdən ibrət alacağına və ibrət alan insanların əbədi həyatlarında xilas olacağına diqqət çəkir. Digər insanların isə öyüd-nəsihətdən qaçdıqlarını, buna görə böyük peşmançılıq çəkəcəyini xəbər verir:

**Əgər nəsihət etmək fayda versə, öyüd-nəsihət ver! (Allah`dan) qorxan kimsə mütləq öyüd-nəsihət qəbul edəcəkdir! Bədbəxt isə ondan qaçacaqdır. (O bədbəxt ki) ən böyük oda girəcəkdir. Orada nə öləcək, nə də yaşayacaqdır! (Əla surəsi, 9-13)**

## Allah`ın qədrini haqqı ilə təqdir etmək

İnsan hər gün oyandığı andan etibarən Allah`ın ona verdiyi nemətlərlə qarşılaşır. Nəfəs alır, görür, eşidir, düşünür, ürəyi döyünür, hüceyrələri yenilənir. Acır, yemək yeyir və ləzzət alır, güc qazanır. Susayır, susuzluğunu təmin edir. Danışır.

Bunlar Allah`ın insan üçün yaratdığı nemətlərdən sadəcə bir neçəsidir. Nemətlərin fərqinə varan insan Allah`ın qədrini haqqı ilə təqdir edir. Çünki Allah şanı çox uca olandır, hər şeyin sahibidir, yaradanıdır. Allah`ı üstün sifətləri ilə düşünərək tanımaq lazımdır. Allah ayələrdə şanının ucalığını bizə belə bildirir:

**Allah`ı lazımınca qiymətləndirmədilər. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə bükülmüşdür… (Zumər surəsi, 67)**

Kainatda insanın öz yaradılışından qiyamətin meydana gəlmə mərhələlərinə, göylərin yaradılmasından dənizlərin və dağların varlığına qədər hər hadisədə ehtişam və hüdudsuz güc var. Bu güc yalnız üstün ağıl sahibi olan Allah`a aiddir.

Allah insanlara kitablar nazil etmişdir və peyğəmbərlər göndərmişdir. Özünü həm yaratdığı canlılardakı bənzərsiz sənəti və elmi ilə, həm də kitabları və peyğəmbərləri vasitəsilə bizə tanıdır. İnsan isə Allah`ın ucalığını, böyüklüyünü haqqı ilə təqdir etmək üçün olduqca dərin düşünməlidir.

## İnsan səhv etdikdə və ya unutduqda nə etməlidir?

İnsan aciz yaradılmışdır, ona görə, bəzi şeyləri unudur və ya hər hansı məsələdə səhv edir. Unutmamaq və səhv etməmək sadəcə Allah`a aid xüsusiyyətlərdir. Əsas odur ki, doğru olanı xatırladıqda insan həmin şeyi dərhal tətbiq etsin. Allah buna dair "Ənam" surəsində belə bildirir:

**... Əgər şeytan sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə bərabər oturma. (Ənam surəsi, 68)**

Ayədən göründüyü kimi, insan unudaraq və ya bilmədən səhv edə bilər. Ona görə, insanın unutduğuna və ya səhv etdiyinə görə kədərlənməsi və ya narahat olması çox yersizdir. Belə hallarda möminlər Allah`ın sonsuz mərhəmətinə sığınmalı və: **"…Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma..."** (Bəqərə surəsi, 268) **-** deyərək dua etməlidirlər.

## Tarixən bütün xalqlara elçi göndərilibmi?

Allah quranda keçmişdə yaşamış bütün xalqlara elçi göndərdiyini bildirmişdir. Allah`ın elçiləri göndərildikləri tayfalara doğru yolu göstərmiş, insanlara Allah`ın qadağalarını xəbər vermiş, ölümün yaxınlığını, cənnətin və cəhənnəmin varlığını, dünyada yaşama məqsədlərini izah etmiş və onları Allah`ın dininə dəvət etmişlər. Allah`ın ədaləti ilə bütün insanlar Onun elçiləri vasitəsilə xəbərdar edilib qorxudulmuş və müjdələnmişlər. Bu, onu göstərir ki, axirətdə insanlar: "Mənim heç nədən xəbərim yox idi", - deyə bilməyəcəklər, çünki hər insan Allah`ın dəvətini eşitmişdir. Allah bir ayəsində insanlara belə bildirir:

**Doğrudan da, Biz səni haqla müjdə verən və qorxudan bir peyğəmbər olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, onun içindən qorxudan bir peyğəmbər gəlib-getməsin! (Fatir surəsi, 24)**

## İnkarçılar tarix boyu nə üçün bütün peyğəmbərlərə böhtan atıblar?

Peyğəmbərlərin daima Allah`ın dinini təbliğ etməsi inkar edənləri narahat edir. Çünki izah edilənləri anlayan və tətbiq etməyə başlayan insanlar tamamilə dəyişməyə, inkar edənlərin batil sistemindən uzaqlaşmağa başlayırlar. Məsələn, iman gətirdikdən sonra ancaq Allah`dan qorxmalı olduqlarını bildikləri üçün onları başqa heç nə ilə qorxutmaq olmur. Daima dinin mənfəətini güdərək hərəkət etdikləri üçün inanan insanları heç nə qorxutmur və doğru yoldan ayırmır. Bu insanlar hər cür şəraitdə, əvəzində nə verilsə də, ədalətdən və haqqı söyləməkdən çəkinmir, doğru bildiklərindən dönmürlər.

Bu vəziyyət isə inkarçıları narahat edir, çünki bu, onların dünyəvi mənfəətlərinə ziddir. Məsələn, inkarçılar öz həyat tərzlərinə uyğun yaşamağa və ətrafdakıları da buna uyğun yaşatmağa çalışırlar, lakin peyğəmbərin yetişdirdiyi möminlər ancaq Allah`ın əmrlərinə əməl edirlər. İnkarçıların cahil sisteminin yanlışlığın, dünya və axirətdə insanlara rahatlıq və xoşbəxtlik bəxş edən dinin gözəlliyini insanlara öyrədirlər.

Məhz bu səbəblərə görə, inkar edənlər hər dövrdə müxtəlif yollarla göndərilən elçilərə mane olmağa çalışıblar. Buna dair Quranda müxtəlif nümunələr inananlara xəbər verilir. İnkarçılar əvvəlcə çox əsassız və ağıldan kənar söhbətlərlə Allah`ın elçilərinin izah etdiyi mövzuları təkzib etməyə çalışırlar. Sözlü hədə-qorxu ilə onların qarşısını almağa cəhd göstərirlər. Bu cür nəticə almadıqda isə fiziki metodlara əl ataraq

inananları haqq yoldan döndərməyə çalışırlar. Lakin bu metodlardan heç biri fayda vermir, elçilərin və saleh möminlərin izah etdiyi doğruların əksinə dəlil gətirə bilməz, onların fikirlərinə zidd olan fikirlər irəli sürə bilməzlər.

Allah bir çox ayədə inkar edənlərin hədə-qorxularına, peyğəmbərlər haqqındakı əsassız iddialarına aid nümunələr vermişdir:

**Qövmünün kafir başçıları dedilər: "Bu sizin kimi yalnız adi bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik. Bu adamda, sadəcə olaraq, bir dəlilik var. Hələ bir müddət gözləyin!" (Muminun surəsi, 24-25)**

**Bu, sadəcə olaraq, Allah`a iftira yaxan bir adamdır. Biz ona iman gətirən deyilik! (Muminun surəsi, 38)**

**... Onlar isə: "Bu sehrbazdır, yalançıdır!" – dedilər. (Ğafir surəsi, 24)**

Quranda Allah bu cür iftiraların inkarçılar arasında bir növ ənənə halını aldığını bir ayədə belə bildirir:

**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, (onun barəsində): "Sehrbazdır, ya da dəlidir!" – deməsinlər. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır. (Zəriyət surəsi, 52-53)**

## İnkarçıların bu səyləri nəticə verirmi?

İnkar edənlərin Allah`ın elçilərinə və möminlərə qarşı hədə-qorxuları və fiziki mübarizələri heç vaxt bitmir. Çünki Allah "... **Halbuki, əgər möminsinizsə, siz çox yüksəkdə durursunuz!**" (Ali-İmran surəsi, 139) ayəsi ilə dünyada və axirətdə Öz tərəfdarlarının üstün olduğunu müjdələmişdir.

Göründüyü kimi, tarix boyu inkarçılar möminlərə qarşı daima mübarizə aparıblar. Ancaq bu mübarizələr həmişə möminlərin lehinə nəticələnmişdir. Bu, Allah`ın vədidir. Allah Quranda bu qanununu belə bildirir:

**Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" – deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Mücadilə surəsi, 21)**

## Möminlərin dünyadakı əsl dostları kimdir?

Allah möminlərin dostudur. Allah Onu özünə dost tutan, ancaq Onun rizasını güdən möminlərin qoruyucusudur. Allah möminlərin dünyadakı hər işinə kömək edir, dəstək olur, möminlərin Allah rizası üçün etdikləri hər iş mütləq xeyirlə nəticələnir. Bir ayədə: "**Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir!**" (Nəhl surəsi, 128) - deyə xəbər verilir. Allah başqa bir ayədə iman gətirənlərə dəstək olduğunu belə müjdələmişdir:

**Allah iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Taqutdur. Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar! (Bəqərə surəsi, 257)**

Bundan əlavə, Allah`a könüldən iman gətirən möminlər də bir-birlərinin dostudur. İnanan insanlar daima bir-birini gözəl şeyə dəvət edir, pis şeylərdən çəkindirirlər. Bir-birlərini cənnətə layiq insanlara çevirmək, axirətdəki dərəcələrini artırmaq üçün səy göstərirlər. Allah Quranda inananların kimləri dost tutmalı olduğunu belə bildirmişdir:

**Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər. Hər kəs Allah`ı, Onun Peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, şübhəsiz ki, qələbə çalanlar məhz Allah`ın firqəsidir. (Maidə surəsi, 55-56)**

## Möminlərdən başqasını nə üçün dost tutmaq olmaz?

Allah`a könüldən iman gətirməyən, Allah`ın hədlərini tanımayan, Allah`dan qorxub-çəkinməyən insanlardan möminlərə dost olmaz. Hər şeydən əvvəl, bu insanlar Allah`ın sevmədiyi kəslərdir. Allah`ın dostluğunu, sevgisini və rizasını qazanmaq istəyən mömin, əlbəttə, Onun sevmədiyi, hətta Ona düşmən olanları dost tutmaz. Bu hərəkəti ilə Allah`ın dostluğunu və razılığını itirəcəyini bilər. Allah möminləri bu hərəkətdən çəkindirmişdir:

**Ey iman gətirənlər! Möminləri qoyub kafirləri dost tutmayın! Məgər Allah`a öz əleyhinizə açıq bir dəlilmi vermək istəyirsiniz? (Nisa surəsi, 144)**

İman gətirməyənlər dostluğa layiq deyillər. Əvvəla, onlara güvənmək olmaz. Şəxsi mənfəətlərinə, nəfslərinə və ya təkəbbürlərinə zidd olduğu üçün Allah`ın ayələrindən üz döndərən, Allah`ın dostluğunu itirməyi qəbul edən bir insanın hər hansı adamla dostluğunda sadiq və vəfalı olması da gözlənilməz. Əlbəttə, öz mənfəətinə zidd olduqda dostunu da tərəddüd etmədən tərk edər. Hətta işinə yaradıqda ona xəyanət etməkdən də çəkinməz.

İnkarçılar əsla həqiqi mənada fədakarlıq etməzlər, çünki bütün həyat və düşüncə tərzləri eqoizm üzərində qurulmuşdur. Dost dedikləri insanın axirətdəki vəziyyətini düşünməz, onu cəhənnəmdən uzaqlaşdırmaq üçün yaxşılığı əmr edib, pislikdən çəkindirməzlər. Qısaca desək, həqiqi dost xüsusiyyətlərinə malik deyillər. Allah bu cür insanların müsəlmanlara düşmən olduğunu bildirmiş və onları dost tutmamağı əmr etmişdir:

**Ey iman gətirənlər! Özünüzdən başqasını özünüzə dost tutmayın. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin əziyyətə düşməyinizi istəyirlər. Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur. Amma ürəklərində gizlətdikləri isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə, ayələri artıq sizə izah etdik. (Ali-İmran surəsi, 118)**

## Şeytanı özünə dost tutanlar kimlərdir?

Şeytanın ən əsas xüsusiyyəti insanları Allah`ın yolundan döndərməkdir. Ona görə də inkar edən, insanları Allah`ın yolundan uzaqlaşdıran, Allah`a və dinə qarşı çıxan,

insanlara Allah`ı, axirəti və dini unutduran hər kəs şeytanın köməkçisi və dostudur. Ancaq bu insanlar etdiklərinə görə dünya və axirətdə ziyana uğrayacaqlar. Allah şeytanın insanları azdırmaq cəhdini və onu dost tutanların sonunu belə xəbər vermişdir:

**Allah ona lənət etdi. O isə dedi: "Əlbəttə, mən Sənin bəndələrindən müəyyən bir qismini ələ alacağam". Onları hökmən sapdıracaq, xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allah`ın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm! Allah`ı qoyub şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 118-119)**

## İnsan dünyada ikən cənnətə gedəcəyinə qəti əmin ola bilərmi?

Kimsə dünyada ikən cənnətə gedəcəyinə əmin ola bilməz. Allah **"... Allah`a qorxu və ümidlə yalvarın..."** (Əraf surəsi, 56) ayəsi ilə insanın həm qorxu, həm də ümid içində olmasını bildirir. Hər insan gücünün çatdığı qədər cəhd edərək, Quranın hökmlərini tam yerinə yetirərək və Allah`ın buyurduğu gözəl əxlaqı həyatının hər anına tətbiq edərək Allah`ın razılığını qazanmağa çalışmalıdır. Bu cəhdinin əvəzində cənnətə girəcəyinə ümid edə bilər, lakin əsla buna əmin olmamalıdır.

## Quranda bəhs edilən başçılar kimlərdir?

Elçilər qövmlərini Allah`ın dininə dəvət etdikdə hər qövmdə onlara qarşı çıxan, fəaliyyətlərinə mane olan, iman gətirənlərə çətinlik törədən təbəqə olmuşdur. Quranda bu insanların, əsasən, o qövmün öndə gələnləri olduğu bildirilir. Çünki bu insanlar zəngin, güclü və məqam sahibi olan şəxslərdir. Bu insanların Allah`ın elçilərinə qarşı çıxmasının və azğınlıq etməsinin səbəbi dünyəvi imkanlarını, nüfuz və etibarlarını itirmə qorxusundan qaynaqlanır. Quranda onların hər dövrdə olduğu belə xəbər verilmişdir:

**Beləliklə, hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada yaramaz işlər görsünlər. Halbuki, onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və (bunu da) hiss etmirlər. (Ənam surəsi, 123)**

Əslində, bu insanlar da tamamilə Allah`ın yaratdığı qədərə tabe olan və möminlərin üstünlüklərinin üzə çıxması üçün Allah`ın xüsusi yaratdığı şəxslərdir. Quranda bildirildiyi kimi, Allah bu insanların qurduğu tələyə özlərini salmış, sahib olduqlarını da hələ dünyada ikən əllərindən almış və möminləri onların yerlərinə varis etmişdir. Allah Misirdə güc və mövqe sahibi olan firon və əyanları ilə hz. Musa və onunla birlikdə olan möminlərin mübarizəsinin nəticəsini belə xəbər verir:

**Zəif görünən o tayfanı yer üzünün daim xeyir-bərəkət verdiyimiz şərq tərəflərinə varis etdik. Səbir etdiklərinə görə, Rəbbinin İsrail övladına verdiyi gözəl sözlər tam yerinə yetdi. Fironun və onun camaatının qurduqları və ucaltdıqlarını isə viran qoyduq. (Əraf surəsi, 137)**

**Nəhayət, Biz onları bağlardan və bulaqlardan çıxartdıq. Xəzinələrdən və gözəl yerdən kənar etdik. (O yerlərdən onları) beləcə çıxartdıq və İsrail oğullarını oralara varis etdik. (Şüəra surəsi, 57-59)**

Allah`ın bütün möminlərə aid olan bu qanunu başqa bir ayədə belə açıqlanır:

**Biz kitabdan sonra Zəburda da torpağa yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq. (Ənbiya surəsi, 105)**

Qövmlərin inkarçı başçılarının axirətdəki sonu isə labüd əzabdır.

## Saleh əməl nə deməkdir?

Saleh əməl Allah`ın razılığını qazanmaq üçün edilən saleh əməllərdir. Bir insan ilk baxışda xeyirli və fədakar işlər görə bilər. Məsələn, ehtiyacı olan insanlara çoxlu yardım edə bilər. Ancaq etdiyi yardımın miqdarı o işin saleh əməl olduğunu göstərmir. Çünki insanlar bütün bu yardımları cəmiyyətdə yaxşı tanınmaq, insanlara göstəriş üçün və ya iş həyatında etibar qazanmaq üçün edə bilərlər. Saleh əməl yalnız Allah`ın razılığını qazanmaq məqsədilə edilən əməldir.

İnsan saleh əməl edərkən həmin işi əlindən gəldiyi qədər yaxşı etməyə çalışar. Çünki məqsədi göstəriş deyil, o işdə Allah`ın razılığını qazanmaqdır. Bu səmimi cəhdinə görə saleh əməllər edən möminlər bir çox ayədə cənnətlə və gözəl həyatla müjdələnirlər:

**İman gətirib yaxşı işlər görənlər və ümidlərini Rəbbinə bağlayanlar isə cənnətlikdirlər. Onlar orada əbədi qalacaqlar! (Hud surəsi, 23)**

**Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 97)**

## Mömin maddi zənginlik əldə etdikdə necə davranar?

Mömin bütün mülkün əsl sahibinin Allah olduğunu və Allah`ın mülkü istədiyinə verdiyi bilir. Ona görə, maddi zənginlik əldə etdikdə, azğınlaşmaz, ona verdiyi nemətlərə görə Allah`a şükür edər və mal-dövlətini Allah`ın rizasına uyğun sərf edər.

Allah Quranda mülk sahibi olan bir adamın misalını çəkir. Bu adamın çox bərəkətli bağları vardı. Ancaq bu nemətləri ona Allah`ın verdiyinə əhəmiyyət vermədən nankor davranır və mal-dövləti ilə öyünür. Mömin olan dostu ona bu davranışına görə xəbərdarlıq edir və belə deyir:

**Onunla söhbət edən (mömin) yoldaşı isə belə dedi: "Əvvəlcə səni torpaqdan, sonra bir qətrə sudan yaratmış, daha sonra səni adam şəklinə salmış Allah`ı inkarmı edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman barı: "MaşaAllah, qüvvət yalnız Allah`a məxsusdur!" – deyəydin... (Kəhf surəsi, 37-39)**

Mömin də, ayədə bildirildiyi kimi, nemətlərə görə dərhal Allah`ı zikir etməli və Ona şükür etməlidir.

## Hikmət sahibi olmaq nə deməkdir?

Hikmət sahibi olmaq hər zaman ağıllı, faydalı, xeyirli danışmaq və davranmaqdır. Hikmət sahibi olan şəxs hadisələrin iç üzünü və həqiqi tərəflərini görür və dərindən qavrayır. Ona görə hər qərarı, hər hərəkəti faydalı olur. Söhbəti təsirlidir. İzah etdiyi hər şey insanların qəlbində səmimi iz qoyur.

Hikmət hər an Allah`a üz tutan, Qurana uyğun yaşayan, daima Qurana əsasən düşünən səmimi və ixlaslı insanlara Allah qatından bəxş edilən xüsusiyyətdir. Allah "**Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir...**" (Bəqərə surəsi, 269) ayəsi ilə hikmətin böyük nemət olduğunu bildirmişdir.

## Quranda israf etmək

Allah israfı qullarına haram etmiş və xərcləyərkən hansı ölçüdə xərcləmək lazım olduğunu belə bildirmişdir:

**Onlar xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar. (Furqan surəsi, 67)**

Müsəlmanlar əllərindəki hər şeyi Allah yolunda, Allah`ın razılığını qazanmaq üçün sərf edərlər. Əllərindəki hər şeyin onlara Allah`ın verdiyi nemət olduğunu, bunların heç birinin əsl sahibi olmadıqlarını unutmazlar. Fədakarlıq tələb olunduqda da bütün mal-dövlətlərini Quranın əmr etdiyi şəkildə xərcləyər, lazımsız şeylər üçün bircə qəpiyi belə israf etməkdən çəkinərlər. Allah Quranda möminlərə ehtiyacı olanlara mallarından verməlarini, ancaq israfçılığa yol verməməyi əmr etmişdir:

**Qohum-əqrəbaya da, miskinə də, müsafirə də haqqını ver. Eyni zamanda, sağa-sola da səpələmə! Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur. (İsra surəsi, 26-27)**

İsraf etmək nemətlərdən uzaq durmaq deyil. Allah Quranda **"... Yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!"** (Əraf surəsi, 31) ayəsi ilə bildirdiyi kimi, inananların nemətlərdən faydalanmasını əmr etmiş, lakin bunları israf etməyi qadağan etmişdir. Lakin dindən uzaq yaşayan cəmiyyətdə israf məsələsinə o qədər əhəmiyyət verilmir. Kafelərdə, evlərdə çox miqdarda yemək, kilolarla çörək, meyvə, tərəvəz atılır. Halbuki, Allah az və ya çox, hər cür israfı haram etmişdir. Ona görə, insanlar düşüncəsizliklə: "Bu xarab oldu; bunları istifadə edə bilmərik", - deyərək əllərindəkini atmamalı, bütün nemətləri xarab olmadan dəyərləndirməlidirlər. Ancaq bu şəkildə nemətin haqqını vermiş olarlar, əks təqdirdə, bərəkətsizlik və Allah`a qarşı nankorluq etmiş olarlar.

## Mələklər insanların canını necə alırlar?
## İnsan canı alındıqda mələyi görərmi?

Ölüm bir aləmdən digər aləmə keçməkdir. Ölən insanın ruhu ilə dünyadakı bədəni arasındakı əlaqə kəsilir. İnsan ölüm anından etibarən ölüm mələkləri olan aləmə keçid edir. Bu keçid insanın sonsuz həyatının da başlanğıcıdır. Başqa aləmə keçidlə birlikdə insanlar canlarını almağa gələn ölüm mələklərini görürlər, hətta gələn mələklər onlarla danışır. Ancaq hər kəsin canı eyni şəkildə alınmır. Möminlərin canını almağa gələn mələklər ilə kafirlərin canını alan mələklər fərqli davranırlar.

Möminlərin canını alan mələklər onlara: "Salam", - deyərək canlarını rahatlıqla alırlar. Bu əsnada onları gedəcəkləri cənnətlə müjdələyirlər (Nəhl surəsi, 32)

İnkarçıların canını alan mələklər isə heç gözləmədikləri anda onların üzünə və arxasına vurmağa başlayar (Muhəmməd surəsi, 27), canını ən dərindən əzabla çəkər və bu zaman inkarçının ayaqları bir-birinə dolaşar (Qiyamət surəsi, 29). Mələklər əllərini onlara doğru uzadarkən əbədi davam edən, alçaldıcı və yandırıcı əzabla müjdələyirlər (Ənam surəsi, 93).

## Vəsvəsə nədir?

Şeytan insana hər tərəfdən yaxınlaşaraq onu Allah`ın yolundan uzaqlaşdırmağa çalışır. Bunun üçün müxtəlif yollara əl atır. Vəsvəsə də şeytanın bu metodlarından biridir. Vəsvəsə şeytanın insanı boş işlərlə məşğul etmək, mühüm məsələləri düşünməkdən uzaqlaşdırmaq üçün pıçıldadığı sözlər, yanıltmalar, qəlbinə saldığı boş şübhələr və narahatlıq verən fikirlərdir. Şeytanın bu xüsusiyyəti Quranda belə bildirilir:

**De: "Sığınıram insanların Rəbbinə, İnsanların ixtiyar sahibinə; insanların məbuduna! Vəsvəsə verən, qaçıb gizlənən şeytanın şərindən- O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır... (Nas surəsi, 1-5)**

Şeytan insanın ağlına gətirdiyi Qurandan kənar düşüncələrlə onun normal düşünməsinə mane olur, onu, başda dini mövzular olmaqla, dünya və axirət həyatına zərər verən şübhələrə salmaq istəyir. Bir çox cəfəng, əsassız fikri insanın öz fikirləri kimi təlqin edib onun özünə olan etibarını itirməsinə çalışır. Qurana uyğun davranmayan şəxs şeytanın bu hiyləsini anlamır və onun vəsvəsələrini dinləyərək daima şübhələr içində çapalayır. Şeytanın bu pıçıltıları insanın dini səhv tanımasına, Allah`ın gücünü təqdir etməməsinə, daima şübhə içində olmasına səbəb olur. Nəticədə, Allah`ın böyüklüyünü, yaradılış məqsədini düşünmək əvəzinə, nə özünə, nə də ətrafındakı insanlara fayda verən məsələlərə başını qataraq yaşayır. Beləliklə, şeytan Qurandan xəbərsiz, din əxlaqından uzaq olan bu insan üzərində məqsədinə nail olur, onu əbədi cəhənnəm əzabına düçar edir. İnkar edənlərin və günahkarların hər zaman şeytanın təlqinlərinə aldandığı, şeytanın vəsvəsələrini dinləyərək hərəkət etdiyi Quranda xəbər verilir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya, günahkara nazil olarlar. Eşitdikləri sözləri onlara təlqin edərlər. Onların əksəriyyəti yalançıdır! (Şüəra surəsi, 221-223)**

## İnsan vəsvəsədən necə xilas ola bilər?

Allah`ın Quranda bildirdiyi kimi, şeytanın hiyləsi zəifdir (Nisa surəsi, 76). İman gətirənlər və Rəbbimizə təvəkkül edənlər üzərində onun heç bir təsiri yoxdur. Allah möminlərə vəsvəsə gəldikdə nə etməli olduqlarını və bu vəsvəsədən xilas olma yollarını Quranda bildirmişdir. Qurana tabe olan möminlər onlara vəsvəsə gəldikdə dərhal şeytandan Allah`a sığınarlar. Qısa müddətdə ağıllarından keçən düşüncənin şeytana aid olduğunu anlayarlar. Heç bir şübhəyə və ya sıxıntıya qapılmadan, Allah`ı zikr edər və şeytanın bu hiyləsindən xilas olarlar.

Allah Quranda vəsvəsə gəldikdə möminlərin bunu dərhal düşünüb tanıyacaqlarını belə bildirmişdir:

**Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allah`a sığın. Şübhəsiz ki, Allah eşidəndir, biləndir! Allah`dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman onlar Allah`ı xatırlayıb düşünərlər və dərhal görən olarlar. (Əraf surəsi, 200-201)**

## Quran oxunduqda nə etmək lazımdır?

Allah Quran oxunarkən insanların susub dinləmələrini əmr etmişdir:

**Quran oxunan zaman onu dinləyin və susun ki, sizə rəhm olunsun! (Əraf surəsi, 204)**

Cəmiyyətdə bir çox insan Allah`ın bu əmrindən xəbərsizdir. Televizorda, radioda Quran oxunarkən insanlar işlərinə davam edir, bir tərəfdən də söhbət edirlər. Halbuki, bu zaman susub dinləməlidirlər. Əgər şəraitə görə səssizlik təmin olunmursa, onda televizoru və ya radionu söndürə bilərlər. Çünki, əks təqdirdə, Allah`ın fərz qıldığı hökmü pozarlar.

## Quranı oxumaq kifayətdirmi?

Özünü müsəlman adlandıran bir çox insan Allah`ın ondan nə istədiyini, necə həqiqi müsəlman olacağını bilmir. Çünki həyatında bir dəfə də Allah`ın onun üçün nazil etdiyi müqəddəs kitabı oxumamışdır. Halbuki, Allah Quranı insanları nə üçün yaratdığını və onlardan nə istədiyini bilmək üçün endirmişdir. Allah`ı tanımaq, Onu razı edərək cənnətinə getmək istəyən insanlar Quranı çox yaxşı bilməlidirlər.

Ancaq cahil cəmiyyətdə Quran haqqında tamamilə səhv düşünürlər. Bu insanların bəziləri Quranı sadəcə oxuyur, lakin Allah`ın ona verdiyi öyüdləri heç düşünmür, özünə aid etmir, həyatına tətbiq etmir. Quran oxumaq ibadətdir, ancaq Quran Allah`ı tanımaq, Allah`ın istədiklərini öyrənmək və tətbiq etmək üçün oxunar. Bu insanlardan bəziləri Quranın sadəcə dua kitabı olduğunu zənn edir. Dua edərkən Qurandan əzbərlədiyi ayələri mənasını anlamadan oxuyur. Əlbəttə, Quranda Allah peyğəmbərlərin dualarından nümunələr verir və möminlər də bu duaları örnək götürməlidirlər. Ancaq Quranı sadəcə dua kitabı kimi düşünmək yanlışdır.

Allah Quranı möminlərə rəhbər kimi nazil etmiş və Quran açıq-aydın ayələri ilə möminləri qaranlıqlardan nura çıxarır. Quranın bu xüsusiyyətini Allah belə bildirir:

**… Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab gəldi. Allah Öz lütfünə sığınanları onunla əmin-amanlıq yollarına yönəldər, onları öz izni ilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər! (Maidə surəsi, 15-16)**

**... Bu, elə bir kitabdır ki, onu sənə insanların öz Rəbbinin izni ilə zülmətlərdən nura – yenilməz qüvvət sahibi, tərifə layiq olan Allah`ın yoluna çıxartmaq üçün nazil etmişik. (İbrahim surəsi, 1)**

Sözügedən insanların həm də Quranın keçmişdə yaşamış xalqlara göndərildiyini düşünürlər. Halbuki, zamanın keçməsi, texnologiyanın inkişaf etməsi, kosmos və ya kompyuter dövründə yaşamağımız heç nəyi dəyişdirmir. 1400 il əvvəlki insanlar ilə bu gün yaşayan və ya gələcəkdə yaşayacaq insanların həvəs və istəkləri, dünyaya dair düşüncə tərzləri, cahillikləri daima eyni qalır. Hər dövr üçün doğru məlumat mənbəyi isə Qurandır. Allah Qurana tabe olmamaq üçün onun qədimlərin əfsanələri olduğunu iddia edən insanları cəhənnəm ilə xəbərdar edib qorxudur:

**Ayələrimiz ona oxunduğu zaman: "(Bunlar) qədimlərin əfsanələridir" – deyər. Xeyr. Əslində, onların qəlblərini qazandıqları qaplamışdır. Xeyr, o gün Rəbbinin mərhəmətindən məhrum olacaqlar! Sonra onlar cəhənnəmə girəcəklər. (Mutaffifin surəsi, 13-16)**

## Din əxlaqına uyğun yaşamaq sülh və əmin-amanlığı necə bərqərar edər?

Din insanlara vicdanlarını dinləyərək yaşamağı əmr edir. Hər kəsin vicdanla davrandığı mühitdə isə çəkişmə, dava və ya narahatlıq verən hər hansı hərəkətə rast gəlinməz.

Dinə tabe olan insanlar ağıllı olurlar, hadisələrə də sağlam fikirlə yanaşırlar. Ona görə, daima məsələyə həll yolu gətirən və rahatlıq verən şəkildə davranırlar. Bu da onların olduğu mühitdə rahatlıq olmasını təmin edir.

Din ədaləti əmr edir. Hər kəsə haqqı tam şəkildə verilir, ona görə, kimsənin öz haqqı üçün mübarizə aparmasına, bunun üçün müxtəlif yollara əl atmasına ehtiyac qalmır. Haqqı digər dindar və vicdanlı insanlar tərəfindən qorunur.

Dindar insanlar Allah`dan qorxduqları üçün cinayət, intihar, oğurluq kimi Allah`ın haram etdiyi hərəkətləri etməzlər. Axirətdə hesabını verə bilməyəcəkləri şeyi əsla etməzlər.

Dində şəxsi mənfəət üçün çalışmaq yoxdur. Hər kəs dinin ortaq mənfəəti üçün əlindən gələnin artığını etməklə məsuldur. Ona görə, mənfəətə zidd olan bir şey olarsa, əsla problem çıxmaz.

Dində məcburiyyət yoxdur. Möminlər sadəcə dini təbliğ etməklə məsuldurlar.

Bundan əlavə, Quranda Allah`ın iman gətirənlərin üzərində xüsusi rahatlıq hissi verdiyi bildirilir. Bu, saleh möminlərə Allah qatından verilən böyük nemətdir. Bu həqiqət Quranda belə bildirilir:

**Möminlərin imanı üstünə iman artırmaq üçün onların ürəklərinə arxayınlıq göndərən Odur. Göylərdəki və yerdəki ordular Allah`ın ixtiyarındadır. Allah biləndir, hikmət sahibidir! (Fəth surəsi, 4)**

Burada izah edilənlər dinin insanlara bəxş etdiyi gözəl mühitin ümumi tərifidir. Din istər insanlar, istər cəmiyyət baxımından dünyada mümkün olan ən rahat, ən ideal, ən qüsursuz mühitə zəmanət verir.

## Quranda nəsihət edilən ticarət əxlaqı

Mömin həyatı boyu etdiyi hər işi Allah`ın rizası üçün edər. Gördüyü iş nə olsa da, ona əsl məqsədini unutdurmaz. Allah Quranda möminlərdən bəhs edərkən ticarətin onlara əsl məqsədlərini unutdurmadığını belə bildirmişdir:

**O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allah`ı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən qorxarlar. (Nur surəsi, 37)**

Allah`ın möminlərdən tələb etdiyi üstün əxlaq var və möminlər hansı işlə məşğul olsalar da, bu əxlaqa uyğun davranırlar. Ticarət edərkən də dürüst, səmimi, fədakar, çalışqan, ədalətli və təvazökardırlar. Bütün diqqətləri Allah`ın razılığını qazanmağa və halal-haram hədlərini aşmamağa yönəlir. Bununla yanaşı, Allah möminlərə ticarət edərkən başqalarının haqqını tapdamamağı, ölçünü və tərəzini düz tutmağı, insanların əşyasını dəyərdən salmamağı əmr etmişdir (Hud surəsi, 85).

Bundan əlavə, ticarət edərkən dürüstlüyün, insanlara haqsızlıq etməməyin və bu cür gözəl əxlaqlı davranaraq Allah`ı razı etməyin daha xeyirli olduğu “İsra” surəsində belə bildirilmişdir:

**Ölçəndə ölçüdə düz olun, düzgün tərəzi ilə çəkin. Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır! (İsra surəsi, 35)**

## Təvəkkülsüzlüyün insana mənəvi zərərləri

Təvəkkül insanın hər işində Allah`a güvənməsi, yeganə qoruyucusunun Allah olduğunu bilərək Ona təslim olmasıdır. Hadisələrin həmişə Allah`ın nəzarəti altında baş verdiyini bilən möminlər Onun iman gətirənləri hər zaman dəstəklədiyini, onlara kömək etdiyini bilirlər. Əlbəttə, bu əhvala malik insanın qəlbi daima rahatdır. Təvəkküllü olmayan, özünü Allah`a təslim etməmiş insanlar isə həyatı boyu böyük qorxu, narahatlıq, sıxıntı, narazılıq, əsəb, peşmanlıq, həsəd kimi hisslərin əsiri olurlar. Allah inkarlarına görə, bu insanların qəlbinə böyük sıxıntı yerləşdirir. Təvəkkülün rahatlığını onlara yaşatmır. Allah`a güvənməyənlərin qəlbindəki bu sıxıntı Quranda belə tərif edilir:

**Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam üçün açıb genişləndirər, kimi azdırmaq istəsə, onun ürəyini daraldıb sıxıntıya salar. O, sanki göyə çıxar. Allah iman gətirməyənlərə pisliyi belə edər! (Ənam surəsi, 125)**

**Batildən haqqa dönərək yalnız Allah`a təslim olduğunuz və Ona şərik qoşmadığınız halda! Allah`a şərik qoşan kimsə göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə bənzər. (Həcc surəsi, 31)**

## Fiziki dua necə edilir?

Fiziki dua insanın sözlə dua edərək istədiyi şeyin həyata keçməsi üçün əlindən gəldiyi qədər çalışaraq lazım olan hər şeyi yerinə yetirməsidir. Məsələn, insan su istəyir, lakin suyun qarşısına gəlməsini gözləməz, gedib suyu stəkana tökər və içər. Yəni Allah`dan istədiyi şeyin baş verməsi üçün Allah`ın ona öyrətdiyi səbəbləri və qanunları bacardığı qədər yerinə yetirib nəticəsini Allah`dan gözləyər. İnsan bir imtahandan keçməyi çox arzulayar, Allah`a dua edər, əlbəttə, bunun üçün lazım gəldiyi qədər çalışar, öyrənər, oxumağa mane olan, diqqəti dağıdan mühitdən uzaq olar və bu cəhdinin nəticəsində də Allah ona uğur nəsib edər.

İnsanların bir qismi dua haqqında səhv düşünürlər. Onların fikrincə, Allah`a dua etdikdən sonra bir kənara çəkilmək və duanın nəticəsini gözləmək lazımdır. Halbuki, bu, səmimi davranış deyil. Çünki bir şeyi həqiqətən istəyən insan həm sözlə, həm də fiziki dua etməlidir. Lakin fiziki cəhətdən hər şeyi edib Allah`a dua etməyi unutmaq da yanlışdır. Hər iki dua birlikdə edilməlidir.

## Cəmiyyətdəki degenerasiya ilə dinsizlik arasındakı əlaqə

Allah`ın insanlara göndərdiyi dinə təslim olmağı qəbul etməyən insanlar Quranda təbliğ edilən gözəl əxlaqa uyğun yaşamazlar və Quranda insanlara bildirilmiş hədləri qorumazlar. Allah`dan qorxub çəkinmədikləri və axirətə inanmadıqları üçün etdiklərinin hesabını verməkdən də qorxmurlar. Ona görə, dinsiz cəmiyyət hər cür əxlaqsızlığı və pisliyi qorxmadan və nəticəsini düşünmədən edən insanlardan ibarət olur. Belə cəmiyyətin sürətlə degenerasiyaya uğraması labüddür.

Çünki bu insanlar qadağan olunduğu halda, rahatlıqla oğurluq edir, insanlara zərər verir, qəzəblənir, adam öldürür, başqalarının haqqına təcavüz edir, yalan danışır, özlərindən başqa kimsəyə dəyər vermir, hər şeyi mənfəət güdərək edir, gücsüzləri əzirlər. Dindar olmadığını, ancaq əsəbi də olmadığını deyən insan bir gün dözə bilmədiyi hadisə ilə qarşılaşır və bunun əvəzində hər cür pisliyi etməkdə özünü haqlı görür. Elə əsəbiləşir ki, yeri gəldikdə, adam da öldürür.

Dinsizlik hər hansı sərhəd tanımadığı üçün cəmiyyətdəki bütün insani hissləri öldürür və qorxunc degenerasiyaya səbəb olur. Dinsiz cəmiyyətdə dinin insanlara gətirdiyi ədalət, mülayimlik, tərbiyə, mərhəmət və sevgi qətiyyən yoxdur. Ona görə, dinsizlik cəmiyyətdəki degenerasiyanın əsas mənbəyidir.

## Cinlər necə varlıqlardır?

## Cinlərin də iman gətirəni və gətirməyəni varmı? Axirətdə onların da yaşayacağı cənnət və cəhənnəm olacaqmı?

Cinlər eynilə insanlar kimi Allah`a ibadət etmək üçün oddan yaradılmış, başqa aləmdə yaşayan varlıqlardır (Zəriyat surəsi, 56), (Hicr surəsi, 27). Allah cinlərə də elçilərini göndərir (Ənam surəsi, 130). Onlardan da iman gətirənlər və gətirməyənlər var. Allah cinlərin bu halını bir ayədə belə xəbər verir:

**Şübhəsiz ki, aramızda müsəlmanlar da var, (haqq yoldan) çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır. (Cinn surəsi, 14)**

Eyni zamanda, aralarında insanlarda olduğu kimi peyğəmbərlərə düşmənçilik edənlər də var:

**Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq... (Ənam surəsi, 112)**

Cinlər də insanlar kimi axirətdə əməllərinin əvəzini alacaqlar. Allah`a iman gətirib peyğəmbərlərin xəbərdarlığını dinləyənlərə əsla haqsızlıq edilməyəcək, savab qazanacaqlar. İnkar edən cinlər isə inkar edənlərlə birlikdə cəhənnəmə atılacaqlar. Allah bu qəti həqiqəti Quranda bildirmişdir:

**Biz cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

## Cinlər gələcəkdən xəbər verə bilərmi?

Allah Quranda qeybi Ondan başqa kimsənin bilmədiyini və qeybi öyrənməyə heç kimin gücü çatmadığını bir çox ayədə bildirmişdir. Bu ayələrdən biri belədir:

**De: "Allah`dan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onlar yenidən nə vaxt diriləcəklərini də bilməzlər! (Nəml surəsi, 65)**

Cinlər də Allah`ın istəməsə, əsla gələcəklə bağlı məlumat əldə edə bilməzlər. Quranda cinlərin qeybdən xəbər almağa çalışdığını, amma bunu bacarmadığını, özlərinin də bunu etiraf etdiyini bildirən ayələr var. "Cinn" surəsindəki bu ayələr insanların cinlər haqqında səhv fikirlərini aradan qaldırır. Bundan əlavə, Quranda hz. Süleymana xidmət edən cinlərdən də bəhs olunur. Bu cinlərin hz. Süleymanın ölümündən çox sonra xəbər tutduqları bildirilir. Ona görə, cinlərdən faydalanmaq ümidi ilə onlara sığınan insanlar yanılırlar. Çünki Allah istəmədikcə cinlərin gələcəyə dair məlumat alması mümkün deyil. Quranda hz. Süleyman qissəsində də cinlərin qeyb xəbərlərini bilmədiyinə diqqət çəkilmişdir:

**Sonra (Süleymanın) ölümünü hökm etdiyimiz zaman onun öldüyünü onlara ancaq (Süleymanın) əsasını yeyən bir ağac qurdu xəbər verdi. O, yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab içində qalmazdılar. (Səba surəsi, 14)**

“Cinn” surəsində cinlərin qeyb xəbərlərini bilmədikləri haqqında digər ayələr belədir:

**Biz göyə qalxmaq istədik, amma onun güclü gözətçilər və yandırıb-yaxan ulduzlarla dolu olduğunu gördük. Biz qulaq asmaq üçün (göyün) bəzi yerlərində otururduq. Lakin indi kim qulaq asmış olsa, yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər. Biz bilmirik ki, yerdə olanlara bir pislik etmək istənilmişdir, yoxsa Rəbbi onlara bir xeyir diləmişdir. (Cinn surəsi, 8-10)**

# İkinci fəsil

# Quran möcüzələri

GİRİŞ

Kainatın yaradılışı

Kainatın genişlənməsi

Kainatın sonu və “Big Crunch”

İsti tüstüdən yaradılış

Göylərlə yerin bir-birindən ayrılması

Göylərlə yer arasındakıların yaradılışı

Kainatdakı mükəmməl müvazinət

Kainatdakı həssas əyar

Günəş, Ay və ulduzların formalarındakı fərq

Orbitlər və fırlanan kainat

Günəşin hərəkət istiqaməti

Ayın orbiti

Ay ilinin hesablanması

Yerin cazibə qüvvəsi və orbit hərəkətləri

Yerin kürəvi forması

Yerin fırlanma istiqaməti

Yerin geoid forması

Yerin və kosmosun diametri

Atmosferin təbəqələri

Qorunan tavan

Göy üzünün bina edilməsi

Geri qaytaran göy

Yerin təbəqələri

Yerin yükünü çıxarıb atması

Dağların funksiyası

Dağların hərəkət etməsi

Günəşin doğması ilə batmasındakı fərqli cəhətlər

Yerin ətrafından əskilməsi

Yarılan yer

Dəmirdəki sirr

Neftin əmələ gəlməsi

Zamanın nisbiliyi

Altı gündə yaradılış

Qədər gerçəyi

Yaradılışdakı cütlər

Subatom zərrəciklər

Qara dəliklər

Döyünən ulduzlar : pulsarlar

Sirius ulduzu

İşıq və qaranlıqlar

Nəticə

# GİRİŞ

Allah 14 əsr əvvəl insanlara yolgöstərici kitab olan Qurani-kərimi nazil etmiş və bütün bəşəriyyəti Qurana tabe olaraq xilas olmağa dəvət etmişdir. Ayədə də bildirildiyi kimi, Quran **“aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyildir”.** (Qələm surəsi, 52) Quran nazil edildiyi gündən qiyamət gününə qədər bəşəriyyətin yeganə yolgöstəricisi olan son ilahi kitab olacaq.

Quran endirildiyi gündən bəri hər dövrdə yaşayan insanların anlayacağı asan və anlaşıqlı dildədir. Allah Quranın bu üslubunu **“And olsun ki, Biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq…”** (Qəmər surəsi, 22) ayəsi ilə xəbər verir. Eyni zamanda, Quranın ədəbi dilinin mükəmməlliyi, bənzərsiz üslubu və hikməti də onun Allah`ın sözü olduğunu qəti sübut edir.

Quranın bu xüsusiyyətləri ilə bərabər Allah`ın sözü olduğunu sübut edən bir çox möcüzəvi xüsusiyyəti var. Bu xüsusiyyətlərindən biri ancaq XX və XXI əsr texnologiyası ilə əldə edilmiş bəzi elmi faktların 1400 il əvvəl Quranda bildirilməsidir.

Əlbəttə, Quran elmi kitab deyil. Lakin müxtəlif ayələrdə hikmətli tərzdə ifadə edilmiş bəzi elmi həqiqətlər ancaq XX əsr texnologiyası ilə kəşf edilmişdir. Quranın nazil edildiyi dövrdə elmi cəhətdən müəyyən edilməsi mümkün olmayan bu məlumatlar insanlara Quranın Allah`ın sözü olduğunu bir daha sübut edir.

Quranın elmi möcüzələrini anlamaq üçün, əvvəla, bu ilahi kitabın endirildiyi dövrün elmi səviyyəsinə nəzər salmaq lazımdır.

Quranın nazil edildiyi VII əsrdə ərəblər elmi məsələlər haqqında saysız-hesabsız xurafata və batil inanca malik idilər. Kainatı və təbiəti tədqiq etmək üçün texnologiyaya malik olmayan ərəblər nəsildən-nəslə ötürülmüş əfsanələrə inanırdılar. Məsələn, səmanın dağlar vasitəsilə yüksəkdə dayandığını düşünürdülər. Bu inanca görə, Yer kürəsi düz idi və iki tərəfdəki hündür dağlar dirək kimi göy qübbəsini saxlayırdılar.

Lakin ərəblərin bu batil inancları Quranla birlikdə aradan qaldırıldı. **“Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən ... məhz Allah`dır...”** (Rəd surəsi, 2) ayəsi göyün dağlar sayəsində yüksəkdə dayanmadığını aşkar etdi. Bunun kimi hələ bir çox məsələdə o dövrdə heç kəsin bilmədiyi mühüm məlumatlar Quranda verildi. İnsanların astronomiya, fizika və ya biologiya haqqında çox az şey bildiyi dövrdə nazil

edilən Quran kainatın yaradılışından insanın yaranmasına, atmosferin quruluşundan yer üzündəki müvazinətlərə qədər bir çox məsələdə məlumatlar ehtiva edirdi.

Bu fəsildə Qurandakı elmi həqiqətlərin bir hissəsinə yer verilmişdir.

## Kainatın yaradılışı

XX əsrin ortalarına qədər kainatın sonsuz ölçülərə malik olduğunu, sonsuzluqdan bəri mövcud olduğunu və əbədiyyən mövcud olacağını müdafiə edən düşüncə tərzi hakim idi. "Statik (sabit) kainat modeli" adlandırılan bu anlayışa əsasən, kainatın başlanğıcı və sonu yox idi.

Materialist fəlsəfənin də əsasını təşkil edən bu düşüncə tərzi kainatı sabit və dəyişməz maddələr yığını kimi qəbul edir, Yaradanın varlığını inkar edirdi. Halbuki, XX əsrdə inkişaf edən elm və texnologiya materialistlərin əsaslandığı sabit kainat modeli kimi ibtidai anlayışları kökündən məhv etdi.

XXI əsrin əvvəllərində kainatın başlanğıcının olduğu, yox ikən bir anda böyük partlayışla yarandığı müasir fizika tərəfindən bir çox təcrübə, müşahidə və hesablamalarla sübut edilmişdir. Bundan əlavə, kainatın materialistlərin iddia etdiyi kimi sabit olmadığı, əksinə, daima hərəkət etdiyi və dəyişdiyi, genişləndiyi də müəyyən edilmişdir. Bu gün bu həqiqətləri bütün elm dünyası qəbul edir.

Qurani-kərimdə kainatın əmələ gəlməsi belə açıqlanır:

**O, göyləri və yeri (yoxdan) var edəndir... (Ənam surəsi, 101)**

Quranda verilmiş bu məlumat müasir elmi kəşflərlə uyğunluq təşkil edir. Əvvəldə də bildirdiyimiz kimi, astrofizika bütün kainatın maddə və zaman ölçüləri ilə birlikdə, sıfır həcmdən böyük partlayışla yarandığını qəti şəkildə isbat etmişdir. Böyük partlayış (Big Bang) adlandırılan bu nəzəriyyə bütün kainatın təqribən 15 milyard il əvvəl bir nöqtənin partlaması ilə yoxluqdan meydana gəldiyini sübut etmişdir.

*Big Bang*dən əvvəl maddə yox idi. Maddənin, enerjinin, hətta zamanın belə olmadığı, tamamilə metafizik yoxluq mühitində maddə, enerji və zaman bir anda yaradılmışdır. Müasir fizikanın aşkar etdiyi bu böyük həqiqət Quranda 1400 il əvvəl xəbər verilmişdir.

## Kainatın genişlənməsi

Astronomiyanın hələ inkişaf etmədiyi dövrdə, 14 əsr əvvəl nazil edilmiş Qurani-kərimdə kainatın genişləndiyindən belə bəhs edilir:

**Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik. (Zariyat surəsi, 47)**

Yuxarıdakı ayədə işlədilən "göy" sözü Quranın bir çox yerində kosmos və kainat mənasında istifadə edilir. Belə ki, burada da bu mənada istifadə edilmiş və kainatın genişləndiyi bildirilmişdir. Ərəbcədən Azərbaycan dilinə "Biz onu genişləndiririk (genişləndirməkdəyik)" kimi tərcümə edilən "innə lə musiunə" ifadəsindəki "musiunə" sözü "genişləndirmək" mənasını verən "əvsəa" felindən törəmişdir. "Lə" ön şəkilçisi də özündən sonrakı isim və ya sifətə vurğu əlavə edərək "çox" mənasını ifadə edir. Beləliklə, bu ifadə "Biz göyü və ya kainatı çox genişləndiririk" mənasını daşıyır. Elm də Quranda bizə bildirilənlə eyni nəticəyə gəlmişdir. [1]

XX əsrin əvvəllərinə qədər elm dünyasında hakim olan yeganə düşüncə tərzi belə idi: kainat sabitdir və sonsuzluqdan bəri mövcuddur. Ancaq dövrümüzün texnologiyası sayəsində həyata keçirilmiş tədqiqat, müşahidə və hesablamalar kainatın başlanğıcı olduğunu və dayanmadan genişləndiyini sübut etmişdir.

Rus fiziki Aleksandr Fridman (Alexander Friedmann) və belçikalı kosmoloq Corc Lematr (Georges Lemaitre) XX əsrin əvvəllərində kainatın hərəkət halında olduğunu və genişləndiyini nəzəri cəhətdən hesabladılar.

Bu həqiqət 1929-cu ildə müşahidələrlə də sübut edildi. Amerikalı astronom Edvin Habl (Edwin Hubble) nəhəng teleskopla səmanı tədqiq edərkən ulduzların və qalaktikaların dayanmadan bir-birindən uzaqlaşdığını kəşf etdi. Bu kəşf astronomiya tarixinin ən böyük kəşflərindən biri sayılır. Habl bu tədqiqatlar zamanı ulduzların bir-birindən məsafəsindən asılı olaraq qızılı rəngə çalan işıq yaydığını müəyyən etdi. Çünki fizika qanunlara görə, müşahidə edilən nöqtəyə doğru hərəkət edən işıqların spektri bənövşəyi, müşahidə edilən nöqtədən uzaqlaşan işıqların spektri isə qızılı olur. Hablın müşahidələri əsnasında isə ulduzların işığının spektri qızılı idi. Qısaca desək, ulduzlar bir-birindən dayanmadan uzaqlaşırdılar.

Ulduzlar və qalaktikalar təkcə bizdən deyil, bir-birilərindən də uzaqlaşırlar. Hər şeyin daima bir-birindən uzaqlaşdığı kainat isə davamlı genişlənən kainat demək idi. Kainatın genişlənməsi sonrakı illərdəki müşahidələrlə də qəti şəkildə sübut edildi.

Mövzunu daha yaxşı anlamaq üçün kainatı şişirilən şarın səthi kimi düşünmək olar. Şarın səthindəki nöqtələr şar şişdikcə bir-birlərindən uzaqlaşdığı kimi, kainatdakı cisimlər də kainat genişləndikcə bir-birlərindən uzaqlaşırlar. Əslində, bu həqiqət XX əsrin ən böyük elm adamlarından biri hesab edilən Albert Eynşteyn tərəfindən nəzəri cəhətdən kəşf edilmişdi. Lakin Eynşteyn o dövrdə qəbul edilmiş "sabit kainat

modelinə" zidd olduğu üçün bu kəşfini bir kənara qoydu. Eynşteyn bu hərəkətini daha sonra həyatının ən böyük səhvi adlandırmışdı. [2]

Bu elmi fakt hələ heç bir insana məlum deyilkən, Quranda əsrlər əvvəl açıqlanmışdır. Çünki Quran bütün kainatın yaradanı və hakimi olan Allah`ın sözüdür.

## Kainatın sonu və *Big Crunch*

Kainatın yaradılışı əvvəlki mövzuda bildirdiyimiz kimi, *Big Bang* adlandırılan böyük partlayışla başlamış və o zamandan bəri kainat genişlənir. Elm adamları kainatın kütləsinin lazımi miqdara çatdıqda cazibə qüvvələri səbəbi ilə bu genişlənmənin dayanacağını və nəticədə kainatın öz içinə çökərək büzüləcəyini bildirirlər. [3]

Büzülən kainatın sonda "Big Crunch" (Böyük çökmə) adlanan yüksək temperatur və sıxılma ilə nəticələnəcəyini ifadə edirlər. Bu isə məlum olan bütün həyat formalarının yox olması deməkdir. Stenford Universitetindən fizika professoru Renata Kalloş (Renata Kallosh) və Andrey Lind (Andrei Linde) bu barədə belə açıqlama verirlər:

Kainatın aqibəti kiçilməyə və yox olmağa doğru gedir. Gördüyümüz və daha uzaqlarda görmədiyimiz hər şey bir protondan belə kiçik nöqtə şəklində kiçiləcək. Sanki qara dəliyin içindəyik kimi... Qara enerjinin ən yaxşı tərifi budur: mərhələ-mərhələ neqativləşən bu qara enerji kainatın müvazinətinin dəyişməsinə səbəb olacaq və büzülüb çökəcək... Fiziklər qara enerjinin neqativ enerjiyə çevriləcəyini və kainatın yaxın gələcəkdə büzüləcəyini düşünürlər... Lakin bu gün görürük ki, biz bu hadisənin başlanğıcında deyilik, amma kainatımızın həyat dövrəsinin ortasında ola bilərik. [4]

*Big Crunch* adlandırılan bu elmi fərziyyəyə Quranda belə işarə edilir:

**Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın. İlk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik. (Ənbiya surəsi,104)**

Başqa bir ayədə isə göylərin bu vəziyyəti belə tərif edilir:

**Allah`ı lazımınca qiymətləndirmədilər. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir. (Allah Ona) aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır! (Zumər surəsi, 67)**

*Big Crunch* nəzəriyyəsinə görə, kainat əvvəl yavaş, lakin getdikcə sürətlənərək çökməyə başlayacaq. Bütün bunların ardınca kainat sonsuz sıxlıq və temperaturda sonsuz kiçikliyə malik nöqtəyə çevriləcək. Bu elmi nəzəriyyə Quran ayələri ilə uyğunluq təşkil edir (ən doğrusunu Allah bilir).

## İsti tüstüdən yaradılış

Bu gün elm adamları ulduzların tüstüdən – isti qaz buludundan əmələ gəldiyini müşahidə edirlər. Kainat da isti qaz buludundan əmələ gəlib. Quranda da kainatın yaradılışı bu elmi kəşfləri təsdiq edir:

**O, yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini dörd gündə müəyyən etdi. Sonra Allah tüstü halında olan göyə üz tutdu. Ona və yerə belə buyurdu: “İstər-istəməz vücuda gəlin!” Onlar da: “İstəyərək vücuda gəldik!” – deyə cavab verdilər. (Fussilət surəsi, 10-11)**

Yuxarıdakı ayədə “göy” kimi tərcümə edilmiş “səma” sözü ilə bütün kainat nəzərdə tutulur. Ayədə “tüstü” kimi tərcümə edilmiş “duxanun” sözü də bu gün elm adamlarının qəbul etdiyi kimi, kainatın formalaşmasından əvvəlki maddəni – kainatın yaradılışındakı kosmik və isti tüstünü tərif edir. Bərk maddələrə bağlı uçan zərrəciklər ehtiva edən isti qaz halında kütlə olan bu tüstü ayədəki sözə uyğun gəlir. Göründüyü kimi, Quranda kainatın bu mərhələdəki görünüşünü tərif edən ən uyğun söz işlədilmişdir. Elm adamları da kainatın tüstü formasındakı isti qaz kütləsindən əmələ gəldiyini XX əsrdə kəşf ediblər. [5]

Bundan əlavə, “Sonra Allah tüstü halında olan göyə üz tutdu” cümləsindəki “sonra” kimi tərcümə edilmiş “sümmə” sözünün “bundan başqa, üstəlik, yenə, bir də” kimi digər mənaları da var. Burada da “sümmə” sözü zamanı ifadə etmək üçün deyil, əlavə açıqlama kimi verilmişdir. [6] Kainatın yaradılışı ilə bağlı bu məlumatın Quranda bildirilməsi, şübhəsiz, Quranın elmi möcüzəsidir.

## Göylərlə yerin bir-birindən ayrılması

Quranda göylərin yaradılışı haqqında başqa bir ayədə belə bildirilir:

**Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər? (Ənbiya surəsi, 30)**

Ayədə “bir-biri ilə bitişik” şəklində tərcümə edilmiş “ratq” sözü ərəbcə lüğətlərdə “bir-biri ilə iç-içə, ayrılmaz, qaynaşmış” mənalarını verir. Yəni bir bütün halında olan iki maddəni tərif etmək üçün bu sözdən istifadə edilir. Ayədəki “ayırdıq” sözü isə ərəbcə “fatq” felidir ki, bu fel bitişik vəziyyətdə olan bir cismi yarıb, parçalayıb çölə çıxması deməkdir. Məsələn, toxumun cücərərək torpaqdan çıxması ərəb dilində bu fellə ifadə edilir.

İndi ayəyə yenidən baxaq. Ayədə göylərlə yerin bir-biri ilə bitişik, yəni “ratq” halında olduğundan bəhs edilir. Ardınca bu ikisi “fatq” feli ilə ayrılırlar. Yəni biri digərini yararaq çölə çıxır. Həqiqətən də *Big Bang*in ilk anını düşündükdə, kainatın bütün maddəsinin bir nöqtədə toplandığını görürük. Başqa sözlə, hər şey, hətta hələ yaradılmamış göylər və yer də bu nöqtənin içində, bir-biri ilə iç-içə, ayrılmaz haldadırlar. Daha sonra bu nöqtə çox güclü partlayışla yarılıb ayrılır.

## Göylərlə yer arasındakıların yaradılışı

Quranda göylərin, yerin və ikisinin arasındakıların yaradılışı ilə bağlı bir çox ayə var:

**Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O saat mütləq gələcəkdir. Odur ki, Sən gözəl tərzdə bağışla. (Hicr surəsi, 85)**

**Göylərdə və yerdə, onların arasında və torpağın altında nə varsa Onundur. (Taha surəsi, 6)**

**Biz göyü, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq. (Ənbiya surəsi, 16)**

Elm adamları başlanğıcda isti qaz kütləsinin sıxlaşdığını, sonra bu kütlənin parçalara ayrılaraq qalaktik maddələri, daha sonra ulduzları və planetləri əmələ gətirdiyini deyirlər. Başqa sözlə, Yer və eyni zamanda, bütün ulduzlar birləşmiş qaz kütləsindən ayrılmış hissələrdir. Bu parçalardan bir qismi günəşləri, planetləri meydana gətirmiş, beləliklə, çoxlu Günəş sistemləri və qalaktikalar əmələ gəlmişdir. Əvvəlki bölmələrdə də açıqladığımız kimi, kainat "ratq" (bir-birinə bitişik) halda ikən "fatq" olmuşdur (parçalara ayrılmışdır). Quranda kainatın əmələ gəlməsinin izahı elmi açıqlamaları təsdiqləyir. [7]

Hər bölünmə, ayrılma olduqda kosmosda yeni əmələ gələn əsas cisimlərdən başqa bir neçə hissə kənarda qalmışdır. Bu artıq hissələrin elmi adı "ulduzlararası qalaktik maddə"dir. Ulduzlararası maddə 60% hidrogen, 38% helium və 2% digər elementlərdən ibarətdir. Ulduzlararası maddənin 99%-i qaz, 1%-i də ağır elementlərin diametri 0,0001-0,001 olan toz zərrəciklərindən təşkil olunmuşdur. [8]

Elm adamları bu maddələri astrofizik ölçülər baxımından daha mühüm hesab edirlər. Bu maddələr toz, tüstü və ya qaz kimi dəyərləndiriləcək qədər incədirlər. Ancaq bu maddələrin hamısı birlikdə kainatdakı qalaktikaların cəmindən daha artıq kütləyə malikdir. Ulduzlararası bu qalaktik maddələrin varlığı ilk dəfə 1920-ci ildə kəşf edildiyinə baxmayaraq, yuxarıdakı ayələrdə "onların arasında nə varsa" kimi tərcümə edilmiş "mə bəynəhuma" ifadəsi ilə Quranda bu parçaların varlığına əsrlər əvvəl diqqət çəkilmişdir.

## Kainatdakı mükəmməl müvazinət

**Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! (Mülk surəsi, 3-4)**

Kainatdakı milyardlarla ulduz və qalaktika mükəmməl uyğunluq içində onlar üçün müəyyən edilmiş orbitlərində hərəkət edirlər. Ulduzlar, planetlər və peyklər həm öz ətraflarında, həm də bağlı olduqları sistemlərlə birlikdə dövr edirlər. Hətta bəzən içində 200-300 milyard ulduz olan qalaktikalar bir-birinin içindən keçib gedirlər. Lakin bu zaman kainatdakı böyük nizamı pozan hər hansı toqquşma baş vermir.

Kainatdakı sürət anlayışı Yer kürəsinə uyğun ölçülərlə müqayisədə ağlasığmaz ölçüdədir. Milyard, trilyon tonlarla çəkisi olan ulduzlar, planetlər və ancaq

riyaziyyatçıların anladığı dəyərlərə malik qalaktikalar və qalaktika topaları kosmosda qeyri-adi sürətlə hərəkət edirlər.

Məsələn, Yer saatda 1670 km sürətlə öz oxu ətrafında fırlanır. Ən sürətli güllənin saatda 1800 km sürətə malik olduğunu düşünsək, Yerin nəhəng ölçüsünə baxmayaraq, sürətinin nə qədər böyük olduğu məlum olur.

Yerin Günəş ətrafındakı sürəti isə güllənin sürətindən 60 dəfə çoxdur: saatda 108.000 km (bu sürətdə nəqliyyat növü icad edilsəydi, Yerin ətrafını 22 dəqiqədə dolanardı). Bu ölçülər sadəcə Yer kürəsinə aiddir. Günəş sistemi isə daha maraqlıdır. Bu sistemin sürəti məntiq hüdudlarını aşır. Kainatdakı sistemlər böyüdükcə sürət artır. Günəş sisteminin qalaktika mərkəzi ətrafındakı fırlanma sürəti saatda 720.000 km-dir. İçində təqribən 200 milyard ulduz olan Südyolu qalaktikasının kosmosdakı sürəti isə saatda 950.000 km-dir.

Şübhəsiz, bu cür mürəkkəb və sürətli sistemin içində nəhəng qəzaların baş vermə ehtimalı çoxdur. Ancaq bu baş vermir və biz təhlükəsiz şəkildə həyatımıza davam edirik. Çünki kainatdakı hər şey Allah`ın qoyduğu qüsursuz nizama əsasən işləyir. Elə bu səbəbdən, ayədə bildirildiyi kimi, bütün bu sistemin içində heç bir ziddiyyət yoxdur.

## Kainatdakı incə əyar

**Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! (Mülk surəsi, 3-4)**

**Məgər Allah`ın yeddi göyü təbəqə-təbəqə necə yaratdığını görmürsünüz? (Nuh surəsi, 15)**

**O Allah ki, göylərin və yerin hökmü Onundur. O, heç bir övlad götürməmişdir; mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu təqdir etmişdir. (Furqan surəsi, 2)**

Materialist fəlsəfə kainatdakı və təbiətdəki bütün sistemlərin öz-özünə işləyən cihaz olduğunu və bunlardakı qüsursuz nizam və müvazinəti yaradanını təsadüflər olduğunu irəli sürür. Ancaq dövrümüzdə materializmin və onun "elmi" təməli olan darvinizmin əsassızlığı elmi cəhətdən sübut edilmişdir (bax: Harun Yahya, *Evrim aldatmacası*, Araştırma yayıncılık, Harun Yahya, *Hayatın gerçek kökeni*, Araştırma yayıncılık).

XX əsrdə bir-birinin ardınca edilən elmi kəşflər həm astrofizika, həm də biologiya sahəsində kainatın və canlıların yaradıldığını sübut etdi. Bir tərəfdən darvinizmin təməlləri çökərkən digər tərəfdən də kainatın yoxdan yaradıldığını sübut edən *Big Bang* nəzəriyyəsi və maddi dünyada böyük dizayn və həssas ölçü (fine tuning) olduğunu aşkar edən kəşflər materializmin iddialarının əsassızlığını bir daha göstərdi.

Həyatın əmələ gəlməsi üçün lazım olan şərtlərə baxdıqda təkcə Yerin bu cür xüsusi mühitə malik olduğunu görürük. Həyat üçün əlverişli olan bu mühiti təmin

etmək üçün saysız-hesabsız şərt eyni anda, daima mövcud olmalıdır. Kainatda təqribən 100 milyard qalaktika və hər birində təxminən 100 milyard ulduz və bir o qədər planet olduğunu düşünsək, Yerdə bu qədər müstəsna mühitin əmələ gəlməsinin əhəmiyyəti məlum olar. [9]

*Big Bang*in partlayış sürətindən atomların fiziki müvazinətlərinə, dörd əsas qüvvənin nisbətindən ulduzlardakı kimyəvi proseslərə, Günəşin yaydığı işığın növündən suyun axıcılıq dəyərinə, Ayla Yer arasındakı məsafədən atmosferdəki qazların nisbətinə, Yer ilə Günəş arasındakı məsafədən Yerin oxunun mailliyinə, Yerin öz oxu ətrafında fırlanma sürətindən Yerdəki okeanların dağların funksiyalarına qədər hər detal bizim həyatımız üçün uyğundur. Bu gün elm dünyası kainatın bu xüsusiyyətlərini antropik prinsip (Anthropic Principle) və incə ölçü (fine tuning) anlayışları ilə ifadə edir. Bu anlayışlar kainatın məqsədsiz, nəzarətsiz, təsadüfi maddə yığını olmadığını, əksinə, insanın həyatı üçün, xüsusi məqsədlə, həssas şəkildə dizayn edildiyini göstərir.

Yuxarıdakı ayələrdə Allah`ın yaratmasındakı ölçü və ahəngə diqqət çəkilir. "Furqan" surəsinin 2-ci ayəsində ölçüb-biçmək, nizamlamaq, ölçü ilə etmək mənasını verən "təqdir" sözü, "Mülk" surəsinin 3-cü ayəsi ilə "Nuh" surəsinin 15-ci ayəsində isə "uyğunluq" mənasını verən "tibaqa" sözü işlədilmişdir. Bundan əlavə, Allah "Mülk" surəsində ixtilaf, ziddiyyət, uyğunsuzluq, nizamsızlıq mənalarını verən "təfavutin" sözü ilə uyğunsuzluq axtaranın ziddiyyət tapmayacağını bildirir.

XX əsrin sonlarına doğru işlədilməyə başlayan həssas ölçü (fine tuning) ifadəsi bu ayələrdə bildirilən həqiqəti təsdiq edir. Son 20-30 il ərzində bir çox elm adamı kainatın təsadüflər yığını olmadığını, əksinə, hər detalda insanın həyatına xidmət edən dizayn və nizam olduğunu göstərdi (bax: Harun Yahya, *Evrenin yaratılışı*, Araştırma Yayıncılık; Harun Yahya, Mucizeler zinciri, Araştırma Yayıncılık). Kainatdakı bir çox xüsusiyyət kainatın həyat üçün xüsusi dizayn olunduğunu göstərir. Fizik dr. Karl Gibeson bu həqiqəti belə ifadə edir:

Son 40 ildir ki, fizika və kosmologiyadakı irəliləyişlər elmi lüğətə dizayn sözünü geri qaytardı. 1960-cı illərin əvvəlində fiziklər insan həyatı üçün "**həssaslıqla nizamlanmış**" kainatın örtüyünü açdılar. Həyatın kainatdakı labüd və qüsursuz müvazinətə malik amillərlə bağlı olduğunu kəşf etdilər. [10]

İngilis astrofizik prof. Corc F. Ellis (George F. Ellis) bu həssas ölçüdən belə bəhs edir:

(Kainatdakı) bu kompleksliyi mümkün edən qanunlarda heyrətamiz həssas ölçü görünür. Kainatda mövcud olan bu kompleksliyi möcüzə sözü ilə belə tərif etmək çox çətindir. [11]

## *Big Bang*in partlayış sürəti

Kainatın əmələgəlmə anı olan *Big Bang*də qurulan tarazlıqlar kainatın təsadüfən əmələ gəlməsinin qeyri-mümkün olduğunu göstərən dəlillərdən biridir. Avstraliyadakı *Adelaide* Universitetindən məşhur riyazi fizika professoru Pol Deyvisin (Paul Deyvis)

fikrincə, *Big Bang*in ardınca baş verən genişlənmənin sürəti əgər milyard dəfə milyardda bir faiz (1/1018) fərqli olsaydı, kainat meydana gəlməzdi. [12] Stefan Houkinq (Stephen Hawking) də "Zamanın qısa tarixi" adlı əsərində kainatın genişlənmə sürətindəki bu qeyri-adi müvazinəti belə qəbul edir:

Kainatın genişlənmə sürəti o qədər kritik nöqtədədir ki, əgər *Big Bang*dən sonrakı birinci saniyədə bu nisbət yüz min milyon dəfə milyonda bir daha az olsaydı, kainat indiki vəziyyətinə çatmadan içinə çökərdi. [13]

## Dörd qüvvə

Bu gün müasir fizikanın qəbul etdiyi dörd əsas qüvvənin – yerin cazibə qüvvəsi, elektromaqnit qüvvəsi, güclü nüvə qüvvəsi və zəif nüvə qüvvəsi – qarşılıqlı əlaqəsi və müvazinəti sayəsində kainatdakı bütün fiziki hərəkətlər və formalar meydana gəlir. Bu qüvvələr bir-birilərindən həddindən artıq fərqli ölçülərə malikdir. Məşhur molekulyar bioloq Maykl Denton (Michael Denton) bu qüvvələr arasındakı həssas müvazinəti belə açıqlayır:

Əgər yerin cazibə qüvvəsi bir trilyon dəfə güclü olsaydı, onda kainat daha kiçik olardı və ömrü də daha qısa davam edərdi. Orta ölçülü bir ulduzun kütləsi hal-hazırkı Günəşin kütləsindən bir trilyon dəfə kiçik olar və bir il yaşayardı. Digər tərəfdən, əgər yerin cazibə qüvvəsi bir az zəif olsaydı, heç bir ulduz və ya qalaktika əsla əmələ gəlməzdi. Digər qüvvələr arasındakı tarazlıqlar da çox həssasdır. Əgər güclü nüvə qüvvəsi bir az zəif olsaydı, onda kainatdakı yeganə sabit element hidrogen olardı. Başqa heç bir atom olmazdı. Əgər güclü nüvə qüvvəsi elektromaqnit qüvvəsindən bir az güclü olsaydı, onda da kainatdakı yeganə sabit element nüvəsində iki proton olan bir atom olardı. Bu vəziyyətdə kainatda heç bir hidrogen olmaz və ulduzlar, qalaktikalar əmələ gəlsələr də, hal-hazırkı formalarından çox fərqli olardılar. Açıq desəm, əgər bu əsas qüvvələr və amillərin hal-hazırkı tam dəyərləri olmasa, heç bir ulduz, supernova, planet və atom olmazdı. Həyat da olmazdı. [14]

## Göy cisimlərinin arasındakı məsafələr

Göy cisimlərinin kosmosdakı yeri və aralarındakı nəhəng boşluqlar Yerdə canlı həyat üçün zəruridir. Göy cisimləri arasındakı məsafələr Yerdəki həyata dəstək olan bir çox universal qüvvə ilə uyğunluq içində nizamlanıblar. Maykl Denton "Təbiətin taleyi" (Nature's Destiny) adlı kitabında supernovalar və ulduzlar arasındakı məsafədəki tarazlıqları belə açıqlayır:

Supernovalar və əslində, bütün ulduzlar arasındakı məsafələr çox kritik məsələdir. Qalaktikamızda ulduzlar arasındakı məsafə 30 milyon mildir. Əgər bu məsafə daha çox olsaydı, bir supernovanın yaydığı maddə o qədər səpələnərdi ki, bizim qalaktikamıza bənzər sistemlər əsla əmələ gəlməzdi. Əgər kainat həyat üçün uyğun məkan olacaqsa, supernova partlayışları müəyyən ölçüdə baş verməli və bu partlayışlar digər bütün

ulduzlar arasındakı məsafə ölçülü müəyyən ölçüyə tabe olmalıdır. Bu məsafə məhz indiki mövcud məsafədir. [15]

### Yerin cazibə qüvvəsi

- Əgər daha güclü olsaydı, dünyanın atmosferi həddindən artıq ammonyak və metan ehtiva edər, bu da həyatı qeyri-mümkün edərdi.
- Əgər daha zəif olsaydı, dünyanın atmosferi çox su itirər, yenə həyat qeyri-mümkün olardı.

### Günəşlə Yer arasındakı məsafə:

- Əgər daha uzaq olsaydı, planetimiz çox soyuyar, atmosferdəki su dövranına mənfi təsir edər və planetdə buzlaşma baş verərdi.
- Əgər daha yaxın olsaydı, planet yanar, atmosferdəki su dövranına mənfi təsir edər və həyat qeyri-mümkün olardı.

### Yer qabığının qalınlığı:

- Əgər daha qalın olsaydı, atmosferdən Yer qabığına daha çox oksigen ötürülərdi.
- Əgər daha nazik olsaydı, həyatı qeyri-mümkün edən çoxlu sayda vulkanik hərəkətlər olardı.

### Yerin öz oxu ətrafında fırlanma sürəti

- Əgər daha yavaş olsaydı, gecə-gündüz arasındakı temperatur fərqi çox yüksək olardı.
- Əgər daha sürətli olsaydı, atmosfer külələri çox sürətli olar, qasırğalar və tufanlar həyatı qeyri-mümkün edərdi.

### Yerin maqnit sahəsi:

- Əgər daha güclü olsaydı, çox güclü elektromaqnit fırtınaları olardı.
- Əgər daha zəif olsaydı, günəş küləyi adlanan və Günəşdən yayılan zərərli zərrəciklərə qarşı Yerin müdafiə qatı olmazdı. Hər iki halda, həyat mümkün olmazdı.

### Albedo təsiri (Yer üzü tərəfindən udulmayan, əks olunan günəş işığı):

- Əgər daha çox olsaydı, sürətlə buzlaşma baş verərdi.
- Əgər daha az olsaydı, istixana effekti isinməyə səbəb olar, əvvəlcə aysberqlərin əriməsi ilə Yeri su basar, daha sonra Yer yanardı.

### Atmosferdəki oksigen və azot nisbəti:

- Əgər daha çox olsaydı, həyati funksiyalar sürətlənər və mənfi təsir edərdi.
- Əgər daha az olsaydı, həyati funksiyalar zəifləyərdi.

### Atmosferdəki karbondioksid və su nisbəti:

- Əgər daha çox olsaydı, atmosfer çox isinərdi.
- Əgər daha az olsaydı, atmosferin temperaturu aşağı düşərdi.

### Ozon təbəqəsinin qalınlığı:

- Əgər daha çox olsaydı, Yer üzünün temperaturu çox düşərdi.
- Əgər daha az olsaydı, Yer üzü həddindən artıq isinər, Günəşdən gələn zərərli ultrabənövşəyi şüalara qarşı müdafiə olmazdı.

### Seysmik hərəkətlər (zəlzələlər):

- Əgər daha çox olsaydı, canlılar məhv olardı.
- Əgər daha az olsaydı, okeanın dibindəki qida maddələri suya qarışmaz, bu, okean və dənizlərdəki həyata, eləcə də yer üzünün bütün canlılarına mənfi təsir edərdi.

### Yerin oxunun mailliyi

Yerin oxu orbitinə 23 dərəcə mailidir. Fəsillər bu maillik nəticəsinə əmələ gəlir. Bu maillik indiki dəyərindən daha çox və ya daha az olsaydı, fəsillər arasındakı temperatur fərqi həddindən artıq olduğuna görə, yer üzündə yaz çox qızmar və qış çox şaxtalı olardı.

### Günəşin ölçüsü:

Günəşin yerində daha kiçik ulduzun olması Yerin həddindən artıq soyumasına, böyük ulduzun olması isə Yerin istidən yanmasına səbəb olardı.

### Ay ilə Yer arasındakı cazibə qüvvəsi:

- Əgər daha çox olsaydı, Ayın güclü cazibə qüvvəsi atmosferə, Yerin öz oxu ətrafındakı fırlanma sürətinə və okeanlardakı qabarma-çəkilmələrə çox güclü təsir edərdi.
- Əgər daha az olsaydı, güclü iqlim dəyişikliklərinə səbəb olardı.

### Ay ilə Yer arasındakı məsafə:

- Əgər daha yaxın olsaydı, Ay Yerlə toqquşardı.
- Əgər daha uzaq olsaydı, Ay kosmosda itib gedərdi.
- Əgər indikindən bir az uzaq olsaydı, Ayın Yer üzündə meydana gətirdiyi qabarma-çəkilmələr təhlükəli ölçülərdə olardı. Okean dalğaları qitələrin alçaq

yerlərini örtərdi. Nəticədə, üzə çıxan sürtünmə okeanların temperaturunu artırar və Yerdə həyat üçün lazım olan həssas müvazinət yox olardı.

- Əgər indikindən bir az yaxın olsaydı, qabarma-çəkilmələr azalar və bu da okeanların daha hərəkətsiz olmasına səbəb olardı. Durğun su dənizlərdəki həyatı təhlükəyə salar və bununla nəfəs aldığımız havadakı oksigenin miqdarı da təhlükə ilə üzləşərdi. [16]

## Yerin temperaturu və karbon əsaslı həyat:

Həyatın əsası olan karbon elementinin varlığı müəyyən ölçüdə olan temperatura bağlıdır. Karbon amin turşusu, nuklein turşusu və zülallar kimi həyatı təşkil edən əsas üzvi molekullar üçün lazımlı maddədir. Ona görə, həyat ancaq karbon əsasında mövcud ola bilər və bunun üçün də mövcud temperatur ən az -20°C, ən çox +120°C olmalıdır. Yerin temperaturu da məhz bu intervaldadır.

Burada sadalananlar Yerdə həyatın əmələ gəlməsi və davam etməsi üçün lazım olan çox həssas müvazinətlərin bir neçəsidir. Ancaq burada sadalananlar belə kainatın və Yerin təsadüflər nəticəsində, təsadüfi hadisələrin ard-arda gəlməsi ilə əmələ gəlmədiyini qəti sübut etmək üçün kifayətdir. XX əsrdə istifadə edilməyə başlayan incə ölçü, antropik prinsip anlayışları Quranda əsrlər əvvəl bildirilmiş ahəng və ölçü ilə yaradılışı təsdiq edir.

## Günəş, Ay və ulduzların quruluşundakı fərq

**Üstünüzdə yeddi möhkəm (göy) qurduq və çox parlaq bir çıraq (Günəş) yaratdıq. (Nəbə surəsi, 12-13)**

Məlumdur ki, Günəş, Günəş sistemindəki yeganə işıq mənbəyidir. Texnoloji imkanların artması ilə astronomlar Ayın işıq mənbəyi olmadığını, sadəcə Günəşdən gələn işığı əks etdirdiyini kəşf ediblər. Yuxarıdakı ayədə işlədilən "çıraq" sözü də ərəbcə istilik və işıq mənbəyi olan Günəşi ən mükəmməl şəkildə tərif edən "sirac" kəlməsidir.

Allah Quranda Ay, Günəş və ulduzlar kimi göy cisimlərindən bəhs edərkən müxtəlif sözlərdən istifadə edir. Günəş və Ay arasındakı fərq Quranda belə təsvir edilmişdir:

**Orada ayı bir nur, günəşi də bir çıraq etdi. (Nuh surəsi, 16)**

Yuxarıdakı ayədə Ay haqqında işıq (ərəbcə "nur"), Günəş haqqında isə çıraq (ərəbcə "sirac") sözləri işlədilmişdir. Bu sözlərdən Ay haqqında deyilən "nur" sözü işığı əks etdirən, parlaq, hərəkətsiz kütləni ifadə edir. Günəş haqqındakı "sirac" sözü isə daima yanan, istilik və işıq mənbəyi, göydəki forma mənasını verir.

Digər tərəfdən, ulduz sözü ərəbcə üzə çıxan, görünən mənalarını verən "nəcəmə" kökündən törəmişdir. Bundan əlavə, ulduz aşağıdakı ayədəki kimi işığı ilə qaranlıqları yaran, parıldayan, öz-özünü tükəndirən və yanan mənalarını verən "saqib" sözü ilə ifadə edilmişdir:

**(O, zülməti yaran) parlaq ulduzdur! (Tariq surəsi, 3)**

Dövrümüzdə Ayın öz işığını yaymadığı, Günəşdən gələn işığı əks etdirdiyi məlumdur. Günəş və ulduzların isə öz işıqlarını yaydığını bilirik. Quranda bu həqiqətlər insanların göy cisimləri ilə bağlı məlumatlarının çox məhdud olduğu dövrdə, yəni 14 əsr əvvəl bildirilmişdir.

## Orbitlər və dövr edən kainat

Kainatdakı böyük müvazinətin ən mühüm səbəblərindən biri, şübhəsiz, göy cisimlərinin müəyyən orbitlərdə hərəkət etməsidir. Ulduzlar, planetlər və peyklər həm öz oxları ətrafında, həm də aid olduqları sistemlə birlikdə fırlanır. Kainat eynilə bir fabrikin dişli çarxları kimi incə nizam içində işləyir.

Kainatın gördüyümüz qismində 100 milyarddan çox qalaktika mövcuddur və kiçik qalaktikalarda təxminən bir milyard, böyük qalaktikalarda isə trilyondan çox ulduz mövcuddur. [17] Bu ulduzların çoxunun planetləri, bu planetlərin də peykləri var. Bütün bu göy cisimlərinin çox incə hesablara malik orbitləri var və milyon illərlə hər biri öz orbitində digərləri ilə qüsursuz uyğunluq və nizam içində hərəkət edir. Bunlardan əlavə, bir çox quyruqlu ulduz da onlar üçün müəyyən edilmiş orbitdə üzür.

Kainatdakı orbitlər ancaq bəzi göy cisimlərinə aid deyil. Günəş sistemi, hətta digər qalaktikalar başqa mərkəzlər ətrafında da hərəkət edir. Yer və onunla birlikdə Günəş sistemi hər il əvvəlki yerindən 500 milyon km uzaqlaşır. Göy cisimlərinin orbitlərindəki ən azacıq əyrilik sistemi alt-üst edəcək qədər təhlükəlidir. Məsələn, Yerin orbitində 3 mm artıq və ya əksik əyilmənin hansı nəticələr verəcəyi bir mənbədə belə tərif edilmişdir:

Yer Günəşin ətrafında dövr edərkən elə orbit çəkir ki, hər 18 mildən bir 2.8 mm içəriyə əyilir. Yerin bu orbiti zərrə qədər dəyişmir, çünki orbitdən 3 mm-lik əyilmə belə böyük fəlakətlərə səbəb olardı: əyilmə 2.8 mm əvəzinə 2.5 mm olsaydı, orbit çox geniş olar və donardıq. Əyilmə 3.1 mm olsaydı, hamımız yanaraq ölərdik. [18]

Göy cisimlərinin digər xüsusiyyəti də orbitlərindən əlavə, həm də öz oxları ətrafında dövr etməsidir. Quranda **"And olsun qayıdan göyə!"** (Tariq surəsi, 11) ayəsi isə məhz bu həqiqətə işarə edir. Əlbəttə, Quranın nazil edildiyi dövrdə bəşəriyyət dövrümüzdəki kimi kosmosu milyon kilometrlərlə uzaq məsafələri müşahidə edən teleskoplara, qabaqcıl müşahidə texnologiyalarına, müasir fizika və astronomiya biliyinə malik deyildi. Ona görə, kosmosda **"yolları olan göyə and olsun ki"** (Zəriyət surəsi, 7) ayəsində bildirildiyi kimi orbitlər olduğunu o dövrdə elmi cəhətdən aşkar

etmək qeyri-mümkün idi. Ancaq o dövrdə nazil edilmiş Qurani-kərimdə bu həqiqət bizə açıq şəkildə xəbər verilmişdir, çünki Quran Allah`ın sözüdür.

## Günəşin hərəkət istiqaməti

Quranda Günəş və Aydan bəhs edilərkən hər birinin öz orbiti olduğu vurğulanır:

**Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Onların hər biri öz orbitində üzür. (Ənbiya surəsi, 33)**

Yuxarıdakı ayədə işlədilən "üzmək" sözü ərəbcə "səbaha"dır və Günəşin kosmosdakı hərəkətini izah etmək üçün istifadə edilmişdir. Bu söz Günəşin kosmosda hərəkət edərkən nəzarətsiz olmadığını, öz oxu ətrafında dövr etdiyini və müəyyən marşrutunun olduğunu ifadə edir. Günəşin sabit olmadığı, öz orbitində hərəkət etdiyi başqa bir ayədə belə bildirilir:

**Günəş özü üçün müəyyən olunmuş yerdə axıb gedər. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allah`ın təqdiridir. (Yasin surəsi, 38)**

Quranda bildirilən bu həqiqətlər ancaq dövrümüzdəki astronomik müşahidələrlə aşkar edilmişdir. Astronomların hesablamalarına görə, Günəş "Solar Apex" adlanan orbit boyu Veqa ulduzuna doğru saatda 720.000 km sürətlə hərəkət edir. Bu hesablama Günəşin gündə 17 milyon 280 min km yol qət etdiyini göstərir. Günəşlə birlikdə onun cazibə qüvvəsinə tabe olan bütün planetlər və onların peykləri də eyni məsafəni qət edirlər.

## Ayın orbiti

**Biz ay üçün mənzillər müəyyən etdik. Nəhayət, o dönüb xurma ağacının qurumuş əyri budağı kimi olar. Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri (öz) orbiti (ilə) üzüb gedir. (Yasin surəsi, 39-40)**

Ayın orbiti digər planetlərin peykləri kimi düz deyil. Ay orbitində hərəkət edərkən bəzən Yerin önünə, bəzən də arxasına keçir. Eyni zamanda, Yer ilə birlikdə Günəşin ətrafında da dövr etdiyinə görə, kosmosda "S" hərfi şəklində orbit cızır. Ayın kosmosdakı orbitinin forması Quranda "**xurma ağacının qurumuş əyri budağı kimi olar**" ifadəsi ilə tərif edildiyi kimi, qurumuş əyri xurma budağına çox bənzəyir. Belə ki, ayədəki "urcun" sözünün mənası quruyub incəlmiş, bükülmüş xurma budağıdır və xurma ağacının meyvələri toplandıqdan sonra meyvəsiz budağa deyilir. Bu budağın "qurumuş" sözü ilə ifadə edilməsi də çox hikmətlidir, çünki qurumuş xurma budağı daha nazik və əyri olur.

Şübhəsiz, 1400 il əvvəl Ayın orbiti haqqında məlumat yox idi. Dövrümüzdəki texnologiya və biliklə aşkar edilmiş bu faktın Quranda bu cür qüsursuz bənzətmə ilə bildirilməsi Quranın başqa bir elmi möcüzəsidir.

## Ay ilinin hesablanması

**Günəşi işıqlı (parlaq), ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, Ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb bilən bir tayfa üçün belə müfəssəl izah edər! (Yunis surəsi, 5)**

**Biz ay üçün mənzillər müəyyən etdik. Nəhayət, o dönüb xurma ağacının qurumuş əyri budağı kimi olar. (Yasin surəsi, 39)**

Yuxarıdakı ayədə Allah Ayın insanlar üçün ili hesablamaqda bir ölçü olduğunu açıq şəkildə bildirmişdir. Bundan əlavə, Ayın orbitində dövrü əsnasında dayanacaq nöqtələrinə də diqqət çəkilmişdir. Yer-Ay və Yer-Günəş hərəkətləri arasındakı bucaq daima dəyişdiyinə görə, biz Ayı müxtəlif vaxtlarda müxtəlif formalarda görürük. Habelə, Ayı Günəşdən aldığı işığı əks etdirməsi ilə görürük. Ayın Günəşlə aydınlanan üzü Yerdəki müşahidəçiyə görə daima formasını dəyişir. Bu dəyişiklikləri nəzərə alaraq il hesablanır.

Əvvəllər bir ay insanlar tərəfindən iki bədirlənmiş ay arasındakı vaxt və ya Ayın Yer ətrafında dövr etdiyi vaxt kimi hesablanırdı. Bu hesablamaya əsasən, 1 ay 29 gün 12 saat, 44 dəqiqəyə bərabər idi. Buna "qəməri ay" deyilir. 12 qəməri ay isə rum təqviminə görə 1 il edir. Ancaq Yerin Günəş ətrafındakı fırlanmasının 1 il kimi qəbul etdiyimiz miladi təqvim ilə rum təqvimi arasında hər il 11 günlük fərq meydana gəlir. Belə ki, "Kəhf" surəsinin 25-ci ayəsində bu fərqə belə diqqət çəkilmişdir:

**Onlar mağarada üç yüz il, üstəlik doqquz (il də) qaldılar. (Kəhf surəsi, 25)**

Ayəni belə açıqlamaq olar: 300 il x 11 gün (hər il üçün meydana gələn fərq) = 3.300 gün. 1 Günəş işinin 365 gün 5 saat 48 dəqiqə və 45.5 saniyə olduğu nəzərə alınsa, 3.300 gün/365.24 gün = 9 ildir. Başqa sözlə, miladi təqvimə görə 300 il rum təqviminə görə 300+9 ildir. Göründüyü kimi, ayədə dəqiq hesablamaya əsaslanan 9 illik fərqə diqqət çəkilmişdir (ən doğrusunu Allah bilir). Şübhəsiz, Quranda bu cür məlumata diqqət çəkilməsi Quranın elmi möcüzələrindən biridir.

## Yerin cazibə qüvvəsi və orbit hərəkətləri

**And içirəm yanıb sönən ulduzlara; Seyr edib gizlənən səyyarələrə; (Təkvir surəsi, 15-16)**

"Təkvir" surəsinin 15-ci ayəsində işlədilən "xunnəs" sözünün büzülmək, geriləmək, geri qayıtmaq kimi mənaları var. 16-cı ayədə "seyr edib gizlənən" kimi tərcümə edilmiş söz isə ərəbcə "kunnəs"dir. "Kənis" sözünün cəm halı olan "kunnəs" ifadəsi müəyyən marşrut, yuvaya girmə, hərəkət edən cismin yuvası, yuvasına girib gizlənənlər mənalarını verir. 16-cı ayədəki "seyr edən" sözü isə cərəyan kökündən törəyən və seyr edib gedən mənasını verən "cariyə" sözünün cəm halı olan "cəvar"dır. Bu sözlərin mənalarını nəzərə aldıqda, planetlərin cazibə qüvvələri və orbitlərindəki hərəkətlərə işarə edildiyini söyləmək olar.

Yuxarıdakı ayələrdə işlədilmiş bu sözlər cazibə qüvvələrinin səbəb olduğu orbit hərəkətlərini tam tərif edir. Bunlardan "xunnəs" sözü ilə planetlərin istər öz nüvələrinə

doğru, istərsə də Günəş sisteminin mərkəzi olan Günəşə doğru cəzb edilməsinə diqqət çəkilir (ən doğrusunu Allah bilir). Cazibə qüvvəsi kainatdakı yeganə qüvvədir, ancaq bu cazibə qüvvəsini XVII-XVIII əsrlərdə yaşamış İsaak Nyuton (Isaac Newton) riyazi formullarla sübut etmişdir. Növbəti ayədə işlədilmiş "əl-cəvari" sözü də bu cazibə qüvvəsinə müqavimət göstərən mərkəzdənqaçma qüvvəsindən qaynaqlanan orbit hərəkətlərinə işarə edir. Şübhəsiz, "seyr edən" mənasını verən "əl-cəvari" sözünün "xunnəs" (mərkəzə doğru çəkilmə, büzülmə) və "kunnəs" (marşrut, yuvaya girmə, hərəkət edən cismin yuvası) sözləri ilə birlikdə işlədilməsi 1400 il əvvəl aşkarlanması qeyri-mümkün olan elmi fakta diqqət çəkir (ən doğrusunu Allah bilir). Bundan əlavə, Quranda and içilən bu ayələr məsələnin əhəmiyyətinə diqqət çəkən başqa bir işarədir.

## Yerin kürəvi forması

**O, göyləri və yeri haqq olaraq yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür… (Zumər surəsi, 5)**

Quranın kainatı tanıdan ayələrində işlədilmiş ifadələr çox diqqətçəkəndir. Yuxarıdakı ayədə "bürüyür" kimi tərcümə edilmiş ərəbcə söz "yukəvviru"dur. Bu sözün Azərbaycan dilindəki qarşılığı yuvarlaq bir şeyi başqa bir cisim ilə bürüməkdir (məsələn, ərəbcə lüğətlərdə başa sarıq sarıma kimi yuvarlaq cisimlərə aid olan hərəkətlər də bu feillə ifadə olunur). Ayədə gecənin və gündüzün bir-birinin üstünü bürüməsi (təkvir etməsi) haqqında verilən məlumat, eyni zamanda, Yerin forması haqqında da dəqiq fakta işarə edir. Yerin kürəvi formada olduğunu bu ayədəki fel ideal şəkildə ifadə edir. Yəni XVII əsrdə nazil edilmiş Quranda Yerin kürəvi formasına işarə edilmişdir.

Unutmaq olmaz ki, o dövrdə Yer haqqında fərqli fikirlər mövcud idi. Yerin müstəvi formada olduğunu düşünür və bütün elmi hesablama və açıqlamalar da buna əsasən edilirdi. Ancaq Quran Allah`ın sözü olduğu üçün kainatı tərif edərkən ən ideal sözlərdən istifadə olunmuşdur. Quran ayələrində bizə hələ yaxın keçmişdə öyrəndiyimiz bu məlumatlar 1400 il əvvəldən xəbər verilir.

## Yerin dövr etmə istiqaməti

**Sən dağlara baxıb onları donmuş zənn edərsən, halbuki, onlar bulud keçdiyi kimi keçib gedərlər. (Bu,) hər şeyi kamil şəkildə edən Allah`ın işidir. Şübhəsiz ki, O, etdiklərinizdən xəbərdardır. (Nəml surəsi, 88)**

"Nəml" surəsindəki ayədə Yerin təkcə fırlanması deyil, fırlanma istiqaməti də vurğulanır. 3500-4000 metr hündürlükdə olan bulud topaları qərbdən şərqə hərəkət edir. Hava proqnozu üçün qərbdəki vəziyyətə baxılmasının səbəbi də budur. [19]

Bulud topalarının qərbdən şərqə doğru hərəkətinin əsas səbəbi Yerin fırlanma istiqamətidir. Dövrümüzdə məlum olduğu kimi, Yer qərbdən şərqə doğru fırlanır. Elmin yaxın keçmişdə aşkar etdiyi bu elmi həqiqət Quranda əsrlər əvvəl xəbər verilmişdi ki, həmin dövrdə Yerin yastı olduğu, öküzün başı üstündə sabit dayandığı düşünülürdü.

## Yerin geoid forması

**Bundan sonra da yeri döşədi. (Naziat surəsi, 30)**

Yuxarıdakı ayədə "döşədi" kimi tərcümə edilmiş "dəha" sözü yaymaq mənasını verən "dəhv" kökündəndir. "Dəhv" sözü döşəmək, düzəltmək mənalarını versə də, daşıdığı məna baxımından bəsit döşəmək feli deyil. Bu söz yuvarlaq formada düzəltmək, döşəmək mənalarını ifadə etmək üçün işlədilir.

"Dəhv" sözündən törəmiş digər sözlər də yuvarlaqlıq mənasını daşıyır. Məsələn, uşaqların topu yerdəki çuxura salması, daş atıb çuxura salma yarışları, qozla oynanan uşaq oyunları "dəhv" sözü ilə ifadə edilir. Dəvəquşunun yuva qurması, yatacağı yerdəki daşları təmizləməsi, yumurtladığı yer və yumurtası da bu kökdən törəmiş sözlərlə ifadə olunur.

Belə ki, Yerin forması da yumurtanı xatırladır. Yerin qütblərdən basıq kürəvi forması geoid adlanır. Bu baxımdan ayədə "dəha" sözünün işlədilməsi Allah`ın Yer haqqında verdiyi mühüm məlumata işarə edir. İnsanların əsrlər əvvəl Yerin formasının düz olduğunu düşünməsi və həqiqi formasının ancaq texnoloji imkanlar nəticəsində müəyyən edilməsi Quranın Allah`ın vəhyi olduğunu göstərir.

## Yerin və kosmosun ölçüləri

**Ey cin və insan tayfası! Əgər göylərin və yerin hüdudlarını yarıb keçə bilərsinizsə, keçin! Siz ancaq qüdrət və qüvvətlə keçə bilərsiniz. (Rəhman surəsi, 33)**

Yuxarıdakı ayədə "hüdudları" kimi tərcümə edilmiş sözün ərəbcəsi "əqtar"dır. "Əqtar" ərəb dilində diametr mənasını verən "qütur" sözünün cəm halıdır və göylərin və yerin bir neçə diametri olduğunu bildirir. Ərəb dilində sözü istifadə formasına əsasən, tək və ya cəm (ikidən çox) və ya ikili formada işlədildiyini anlamaq mümkündür. Ona görə, bu sözün buradakı istifadə forması ilə - ikidən çox olduğunu ifadə edən cəm halı ilə başqa möcüzəvi məlumat verilir.

Məlum olduğu kimi, üç ölçülü cisim ancaq yastı kürəvi formaya malikdirsə, bir diametri ola bilər. Diametrlər ifadəsi isə yastı olmayan kürəvi formaya aiddir. Belə ki, ayədəki bu söz – diametrlər – Yerin geoid formasına işarə edir. Ayədə diqqət çəkən digər məsələ isə diametrlərdən bəhs edilərkən yerdən və göylərin ayrı qeyd edilməsidir.

Albert Eynşteynin Ümumi nisbilik nəzəriyyəsinə əsasən, kainat genişlənir. Lakin bu, qalaktikaların və digər göy cisimlərinin kosmosda ətrafa yayıldığını göstərmir. Bu, kosmosun genişləndiyinə və bu zaman qalaktikalar arasındakı məsafənin açıldığına işarə edir.

"Rəhman" surəsinin 33-cü ayəsində işlədilən "göylərin hüdudları" ifadəsi də kosmosun kürəvi formasına işarə edir (ən doğrusunu Allah bilir). Kosmosun müxtəlif yerlərindən diametrlər fərqli olduğu kimi, genişlənən kainatın diametrləri də daima

dəyişəcəkdir. Bu baxımdan, ayədə diametr sözünün cəm halda istifadə edilməsi çox hikmətlidir və Quranın hər şeyi bilən Rəbbimizin vəhyi olduğunu göstərir.

## Atmosferin təbəqələri

Quran ayələrində kainat haqqında verilən bir məlumatda göyün yeddi qatının olduğu bildirilir:

**Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur! O, hər şeyi biləndir! (Bəqərə surəsi, 29)**

**Sonra Allah tüstü halında olan göyə üz tutdu. Ona və yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da: "İstəyərək vücuda gəldik!" – deyə cavab verdilər. Allah onları yeddi göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi… (Fussilət surəsi, 11-12)**

Quranda bir çox ayədə işlədilən "göy"  sözü həm bütün kainatı, həm də səmanı ifadə etmək üçün istifadə edilir. Sözün bu mənasını düşündükdə, səmanın, başqa sözlə, atmosferin 7 təbəqədən ibarət olduğu nəticəsi ortaya çıxır.

Belə ki, bu gün Yerin atmosferinin üst-üstə müxtəlif təbəqələrdən ibarət olduğu məlumdur. [20] Kimyəvi tərkibi və ya havanın temperaturuna əsasən, Yerin atmosferinin 7 təbəqədən ibarət olduğu aşkar edilmişdir. [21] Bu gün hələ də 48 saatlıq hava proqnozunda istifadə edilən və "Limited Fine Mesh Model" (LFMII) adlandırılan atmosfer modelinə əsasən, atmosfer 7 təbəqədən ibarətdir. Müasir geologiyada atmosferin 7 təbəqəsi aşağıdakılardır:

- Troposfer
- Stratosfer
- Mezosfer
- Termosfer
- Ekzosfer
- İonosfer
- Maqnitosfer

Burada digər maraqlı cəhət isə "Fussilət" surəsinin 12-ci ayəsində işlədilən "**O, hər bir göyün işini özünə vəhy edib bildirdi…**" ifadəsidir. Yəni ayədə Allah`ın hər təbəqəni müəyyən funksiya ilə yaratdığı bildirilir. Yuxarıda sadaladığımız təbəqələrin hər birinin insanlar və yer üzünün bütün canlıları üçün həyati funksiyaları var. Yağışların əmələ gəlməsi, zərərli şüaların qarşısının alınması, radiodalğaların əks etdirilməsi, meteoritlərin zərərsizləşdirilməsi kimi hər təbəqənin özünəməxsus funksiyası var.

Aşağıdakı ayələrdə bizə atmosferin 7 təbəqəsinin görünüşü ilə bağlı məlumat verilir:

**Məgər Allah`ın yeddi göyü təbəqə-təbəqə necə yaratdığını görmürsünüz? (Nuh surəsi, 15)**

**Yeddi göyü təbəqələr şəklində quran Odur... (Mülk surəsi, 3)**

Bu ayələrdə Azərbaycan dilinə "təbəqə-təbəqə" kimi tərcümə edilmiş ərəbcə "tibaqan", eyni zamanda, uyğunluq, bir şeyin özünə uyğun olan qapağı və örtüyü mənalarını da verir, üst təbəqənin alt təbəqəyə uyğunluğunu vurğulayır. Bu sözün cəm halı "təbəqə-təbəqə" mənasını verir. Ayədə tərif edilən "təbəqə-təbəqə göy", şübhəsiz, atmosferi ən mükəmməl şəkildə açıqlayan ifadədir.

XX əsrin texnologiyası olmadan aşkar edilməsi heç cür mümkün olmayan bu məlumatların 1400 il əvvəl nazil edilmiş Qurani-kərimdə bildirilməsi isə böyük möcüzədir.

## Qorunmuş tavan

Quranda Allah göy üzünün çox mühüm xüsusiyyətinə belə diqqət çəkir:

**Göyü qorunub saxlanılan bir tavan etdik. Halbuki, (kafirlər) ayələrimizdən üz döndərdilər. (Ənbiya surəsi, 32)**

Ayədə bildirilən göy üzünün bu xüsusiyyəti XX əsrdəki elmi tədqiqatlarla sübut edilmişdir.

Yeri hər tərəfdən əhatə edən atmosfer həyat üçün çox mühüm funksiyaları yerinə yetirir. Yerə yaxınlaşan böyük və kiçik meteoritləri parçalayaraq məhv edir və onların Yerin səthinə düşərək canlılara zərər verməsinin qarşısını alır.

Atmosfer həm də kosmosdan gələn və canlılar üçün zərərli şüaları da süzür. Maraqlısı budur ki, atmosfer təkcə zərərsiz işıqları, yəni görünən işığı, infraqırmızı şüaları və radiodalğaları yer üzünə buraxır. Bunların hamısı həyat üçün lazımlıdır. Məsələn, atmosferin müəyyən miqdarda keçirdiyi ultrabənövşəyi şüalar bitkilərin fotosintez prosesini həyata keçirməsinə kömək edir. Günəşdən yayılan güclü ultrabənövşəyi şüaların böyük hissəsi atmosferin ozon təbəqəsində süzülür və Yerin səthinə həyat üçün lazımlı olan az qismi gəlib çatır.

Atmosferin qoruyucu xüsusiyyəti bunlarla məhdudlaşmır. Yer kosmosun -270° dondurucu soyuğundan atmosfer sayəsində qorunur.

Yeri zərərli təsirlərdən qoruyan təkcə atmosfer deyil. Atmosferlə yanaşı, "Van Allen qurşaqları" adlanan və Yerin maqnetik sahəsi nəticəsində əmələ gələn təbəqə də planetimizə gələn zərərli şüalara qarşı qalxan vəzifəsini yerinə yetirir. Günəşdən və digər ulduzlardan yayılan bu şüalar insanlar üçün öldürücü təsirə malikdir. Xüsusilə Günəşdə tez-tez baş verən və "partlayış" adlanan enerji partlayışları Van Allen qurşaqları olmasa, dünyadakı bütün həyatı yox edər.

Van Allen qurşaqlarının həyatımız üçün əhəmiyyətini dr. Hyu Ross (Hugh Ross) belə izah edir:

Yer Günəş sistemindəki planetlər arasında ən çox sıxlığa malikdir. Bu böyük nikel-dəmir nüvə, böyük maqnetik sahə əmələ gətirir. Bu maqnetik sahə Van Allen radiasiya qoruyucu təbəqəsini meydana gətirir. Bu təbəqə yer üzünü radiasiya bombardmanından qoruyur. Əgər bu qoruyucu təbəqə olmasaydı, Yerdə həyat mümkün

olmazdı. Maqnetik sahəsi olan və qayalıqlardan ibarət digər planet Merkuridir. Lakin bu maqnetik sahənin gücü Yerinkindən 100 dəfə azdır. Van Allen radiasiya qoruyucu təbəqəsi ancaq Yerə məxsusdur. [22]

Keçən illərdə aparılmış hesablamalara əsasən, bir partlayış nəticəsində əmələ gələn enerji Xirosimaya atılan 100 milyard atom bombasına bərabərdir. Partlayışdan 58 saat sonra kompasların əqrəblərində ifrat hərəkətlər müşahidə olunmuş, Yerin atmosferinin 250 km üstündə temperatur birdən-birə 2500°C-yə qalxmışdır.

Qısaca desək, Yerin üzərində onu əhatə edən və xarici təhlükələrə qarşı qoruyan mükəmməl sistem işləyir. Dünyanı əhatə edən göy üzünün bu qoruyucu qalxan xüsusiyyətini Allah bizə əsrlər əvvəl Quranda bildirmişdir.

## Göy üzünün bina edilməsi

**O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allah`a bilə-bilə şəriklər qoşmayın! (Bəqərə surəsi, 22)**

Yuxarıdakı ayədə göy üzü tərif edilərkən ərəbcə "əssəmaə binaən" ifadəsi işlədilir. Bu söz qübbə, tavan mənaları ilə birlikdə, ərəb bədəviləri tərəfindən istifadə edilən çadıra bənzər örtüyü də tərif edir. [23] Sözügedən çadırabənzər forma ilə xarici amillərə qarşı bir növ müdafiə təmin edilməsi vurğulanır.

Biz fərqinə varmasaq da, digər planetlərdə olduğu kimi, Yerə də çoxlu sayda meteorit düşür. Digər planetlərə düşdükdə nəhəng kraterlər əmələ gətirən bu meteoritlərin Yerə zərər verməməsinin səbəbi Yeri əhatə edən atmosferin meteoritlərə qarşı müqavimət göstərməsidir. Meteoritlər bu müqavimətə qarşı tab gətirmir və sürtünmə nəticəsində yanaraq kütləsini itirir. Beləliklə, böyük fəlakətlərə yol açan bu təhlükənin atmosfer sayəsində qarşısı alınır. Allah atmosferin yuxarıda bəhs etdiyimiz qoruyucu xüsusiyyəti ilə bağlı ayələrlə yanaşı, aşağıdakı ayədə də bu xüsusi yaradılışa diqqət çəkir:

**Məgər Allah`ın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə, O tutub saxlayar. Həqiqətən, Allah insanlara şəfqətlidir, mərhəmətlidir. (Həcc surəsi, 65)**

Belə ki, əvvəlki bölmədə də bəhs etdiyimiz atmosferin qoruyucu xüsusiyyəti Yeri kosmosdan, yəni xarici amillərdən qoruyur. Yuxarıdakı ayələrdə göy üzü haqqında işlədilmiş "tavan" sözü ilə Peyğəmbərimizin (s.ə.v) dövründə göy üzünün məlum olmayan xüsusiyyətinə diqqət çəkilir. Bu məlumatların qabaqcıl texnologiyanın – kosmik cihazların, nəhəng teleskopların olmadığı 1400 il əvvəl Qurani-kərimdə xəbər verilməsi Quranın sonsuz elm sahibi Rəbbimizin vəhyi olduğunu göstərir.

## Geri qaytaran göy

Qurani-kərimin "Tariq" surəsinin 11-ci ayəsində göy üzünün qaytaran xüsusiyyətindən belə bəhs edilir:

**And olsun qayıdan göyə! (Tariq surəsi, 11)**

Quran tərcümələrində "qayıdan" şəklində tərcümə edilən "rəci" sözü geri qaytaran mənalarını verir.

Məlum olduğu kimi, Yeri əhatə edən atmosfer bir neçə təbəqədən ibarətdir. Hər təbəqənin həyat üçün əhəmiyyətli funksiyası var. Təbəqələrdən hər biri gələn maddə və ya şüaları kosmosa və ya yer üzünə qaytarma xüsusiyyətinə malikdir. Burada atmosfer təbəqələrinin geri qaytarma xüsusiyyətini bir neçə nümunə ilə nəzərdən keçirək.

Yer səthindən 13-15 km hündürlükdə yerləşən troposfer təbəqəsi yer üzündən qalxan su buxarının sıxlaşıb yağış şəklində geri qayıtmasını təmin edir. 25 km hündürlükdə yerləşən stratosferin alt təbəqəsi olan ozonosfer kosmosdan gələn radiasiya və zərərli ultrabənövşəyi şüaları əks etdirərək yer üzünə çatmadan kosmosa geri qaytarır.

Atmosfer təbəqələrinin hələ yaxın keçmişdə kəşf edilmiş bu xüsusiyyətinin əsrlər əvvəl Quranda bildirilməsi Quranın Allah`ın sözü olduğunu bir daha təsdiq edir.

## Yerin təbəqələri

Quranda yer haqqında verilən məlumatlardan biri yeddi təbəqədən ibarət göyə bənzərliyidir:

**Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allah`dır. Vəhy onların arasında ona görə nazil olur ki, Allah`ın hər şeyə qadir olduğunu və Allah`ın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz. (Talaq surəsi, 12)**

Yuxarıdakı ayədə diqqət çəkilən bu məlumat elmi mənbələrdə verilir və Yerin yeddi təbəqədən ibarət olduğu açıqlanır. Elm adamları bu təbəqələri aşağıdakı kimi sıralayırlar:

- Litosfer (su)
- Litosfer (quru)
- Astenosfer
- Üst mantiya
- Alt mantiya
- Xarici nüvə
- Daxili nüvə

Litosfer yunan dilində "qaya" mənasını verən *lithos* sözündəndir və Yerin ən üst təbəqəsini təşkil edən bərk qaya təbəqəsidir. Digər təbəqələrlə müqayisədə çox nazikdir. Litosfer okeanların altında və aktiv vulkanik ərazilərdə daha nazikdir. Yer üzündə bu təbəqənin orta qalınlığı 80 km-dir. Digər təbəqələrə nisbətən daha soyuq və bərkdir, ona görə, yer qabığı vəzifəsini yerinə yetirir.

Litosferin altında astenosfer təbəqəsi yerləşir. Astenosfer yunanca *asthenes* (zəif) sözündəndir. Bu təbəqə litosferlə müqayisədə daha nazikdir və hərəkətlidir. Bu təbəqə geoloji zamanla yüksək temperatur və təzyiqə məruz qaldıqda yumşalıb əriyən, isti, yarı-bərk maddələrdən təşkil olunmuşdur. Bərk litosfer təbəqəsinin yavaş hərəkət edən

astenosfer üzərində üzdüyü və ya hərəkət etdiyi düşünülür. [24] Bu təbəqələrin altında yüksək temperaturda yarıbərk qayalardan ibarət təxminən 2900 km qalınlığında mantiya təbəqəsi yerləşir. Litosferdən daha artıq dəmir, maqnezium və kalsiumdan təşkil olunmuş mantiya daha isti və sıxdır, çünki Yerin daxilindəki temperatur və təzyiq dərinliyə getdikcə artır.

Yerin mərkəzində mantiyadan iki dəfə sıx olan nüvə yerləşir. Bu sıxlığın səbəbi içində qayalardan çox metalların (dəmir-nikel tərkibi) olmasıdır. Yerin nüvəsi isə iki hissədən ibarətdir: 2200 km qalınlığında maye halında olan xarici nüvə və 1250 km qalınlığındakı bərk halda olan daxili nüvə. Yer fırlandıqca maye xarici nüvə Yerin maqnetik sahəsini əmələ gətirir.

Ancaq XX əsrdəki texnologiya ilə aşkar edilmiş Yerin təbəqələrinin atmosferin təbəqələri ilə bənzərliyinin Quranda bildirilməsi, şübhəsiz, Quranın elmi möcüzələrindən biridir.

## Yerin yükünü çıxarıb atması

**Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman. Yer öz yükünü çıxardıb atacağı zaman. İnsan: "Buna (bu yerə) nə olub?" – deyəcəyi zaman - məhz o gün (yer) öz hekayətini söyləyəcəkdir. (Zəlzələ surəsi, 1-4)**

Ərəb dilində "zilzəl" zəlzələ, təkan, "əsqaləha" isə "ağırlığını, ağır yükünü" mənasını verir. Yuxarıdakı ayələr ilkin mənada zəlzələ ilə bağlı mühüm elmi həqiqətə işarə edir.

"Zəlzələ" surəsinin 2-ci ayəsində zəlzələ ilə bağlı yerin yükünü atmasından bəhs edilir. Belə ki, son illərdə aparılan tədqiqatlar nəticəsində yerin mərkəzində ağır metallar olduğu və onların yer qabığındakı təkanlar nəticəsində üzə çıxdığı məlum olmuşdur. Geoloqların diaqnozuna əsasən, Yer soyuduqca ağır və sıx maddələr Yerin mərkəzinə çökmüş, yüngül maddələr isə yuxarıya qalxmışdır. Ona görə, yer qabığında ən yüngül maddələr (bazalt və qranit qayalardan), nüvədə isə ağır metallar (nikel və dəmir) yerləşir. Nəticədə, ərimiş metallardan təşkil olunmuş alt qat üst qatdan daha ağır və sıxdır.

Zəlzələ zamanı yerin altındakı ağır maddələr yerin səthinə çıxır, beləliklə, ayələrdə tərif edildiyi kimi, yer yükünü çıxarıb atır. Bundan əlavə, metal yataqlarının ən çox olduğu yerlər zəlzələ və vulkanik hərəkətlərin daha çox baş verdiyi ərazilərdir. Aparılan hərtərəfli tədqiqatlar nəticəsində yaxın keçmişdə üzə çıxan bu faktlar Allah`ın Quranda işarə etdiyi elmi həqiqətlərdən biridir.

## Dağların funksiyası

Quranda dağların mühüm geoloji funksiyasına diqqət çəkilir:

**Yer onları silkələməsin deyə, orada möhkəm dağlar yaratdıq... (Ənbiya surəsi, 31)**

Ayədə dağların yer üzündəki təkanların qarşısını alan xüsusiyyəti xəbər verilir. Quran nazil edildiyi dövrdə heç kimin bilmədiyi bu həqiqət dövrümüzdə müasir geologiyanın kəşfləri nəticəsində üzə çıxmışdır.

Keçmişdə dağların sadəcə yer üzünün səthində qalmış yüksəkliklər olduğunu düşünürdülər. Ancaq elm adamları dağların sadəcə yer üzünün yüksəklikləri olmadığını, dağların kökünün hündürlüklərindən 10-15 dəfə çox yer qabığının dərinliyinə doğru uzandığını aşkar etdilər. Bu xüsusiyyəti ilə dağlar eynilə mismarın və ya dirəyin çadırı yerə möhkəm bağlaması kimi rola malikdir. Zirvəsi yer səthindən təxminən 9 km yüksəkdə olan Comolunqma dağının 125 km-dən artıq kökü var. [25]

Dağlar yer qabığını təşkil edən böyük təbəqələrin hərəkətləri və toqquşmaları nəticəsində meydana gəlir. İki təbəqə toqquşduqda daha möhkəm olan təbəqə digərinin altına girir. Yuxarıda qalan təbəqə isə qıvrılaraq yüksəlir və dağları əmələ gətirir. Altda qalan təbəqə isə yerin altında irəliləyərək aşağıya doğru dərin kök meydana gətirir. Ona görə, daha əvvəl bildirdiyimiz kimi, dağların yer üzündə gördüyümüz gövdəsi qədər yerin altında da dərin kökü var. Bir elmi mənbədə dağların bu quruluşu belə tərif edilir:

Qitələrin daha qalın olduğu dağlıq ərazilərdə yer qabığı mantiyanın dərinliyinə doğru uzanır. [29]

Məşhur dəniz geoloqlarından biri olan professor Siaveda isə dağların yerdə kök saldığını belə izah edir:

Qitələrdəki dağlar və okeanlardakı dağlar arasındakı əsas fərq materialındadır... Lakin hər ikisində də dağları dəstəkləyən kökləri var. Qitələrdəki dağlarda yüngül və sıxlığı az olan maddə yerin içinə doğru kök kimi uzanır. Okeanlardakı dağlarda da dağı kök kimi dəstəkləyən yüngül maddə var... Köklərin funksiyası Arximed qanununa görə dağları dəstəkləmək üçündür. [30]

Bundan başqa, Amerika Elmlər Akademiyasının keçmiş rəhbəri Frank Pressin dünya səviyyəsində bir çox universitetdə dərslik kimi tədris edilən “Yer” (*Earth*) adlı kitabında dağların dirək kimi yer üzünə dərinliyə doğru yerləşdiyi ifadə edilir. [31]

Quran ayələrində isə dağlar bu funksiyasına görə dirəyə bənzədilir:

**Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?! (Nəbə surəsi, 6-7)**

Başqa bir ayədə Allah “**Dağları da yerə bərkitdi**” (Naziat surəsi, 32) şəklində bildirir. Bu ayədəki “ərsayha” sözü “yerə bərkitdi, möhkəmlətdi” mənalarını verir. Bu xüsusiyyətləri sayəsində dağlar yerin təbəqələrinin birləşmə nöqtələrində yerin üstünə və altına doğru uzanaraq bu təbəqələri bir-birinə bərkidir. Bu şəkildə, yer qabığını sabitləşdirərək maqma təbəqəsi üzərində və ya öz təbəqələri arasında sürüşməsinin qarşısını alır. Bir sözlə, dağları taxtaları birləşdirən mismarlara bənzədə bilərik. Dağların sabitləşdirmə xüsusiyyəti elmi ədəbiyyatda izostasiya adlandırılır. İzostasiya mantiya təbəqəsinin yuxarıya doğru tətbiq etdiyi qüvvə ilə yer qabığının aşağıya doğru tətbiq etdiyi qüvvə arasındakı müvazinətdir. Dağlar eroziya, torpaq sürüşməsi və ya buzlaqların əriməsi kimi səbəblərdən çəki itirir, buzlaqların əmələ gəlməsi, vulkanik partlayışlar və ya torpaq əmələ gəlməsi nəticəsində çəki qazanırlar. Bu səbəbdən, dağlar

yüngülləşdikdə mayenin itələmə qüvvəsi ilə aşağıdan yuxarıya doğru itələnir, ağırlaşdıqda isə yerin cazibə qüvvəsinin təsiri ilə mantiyanın içinə çökürlər. Yer qabığına təsir edən bu iki qüvvə arasındakı müvazinət izostasiya sayəsində təmin olunur. Dağların bu tarazlayıcı xüsusiyyəti bir elmi mənbədə belə izah edilir:

C.B. Eyeri (G.B.Airy) yer qabığını su üzərində üzən, tirlərdən düzəldilmiş sallara bənzədir. Qalın tirlər nazik tirlərə nisbətən su səthinin daha yuxarısında üzürlər. Yer qabığının qalın hissələri də maye və ya sıxlığı az olan alt təbəqələr üzərində belə üzür. Eyeri dağların düzənliklərdə olmayan sıxlığı nisbətən az olan qayalardan daha dərin kökləri olduğunu söyləyir. O, elmi əsərlərini nəşr etdirdikdən dörd il sonra C.H. Pret (J.H. Pratt) alternativ hipotez irəli sürdü... Bu hipotezə əsasən, dağların altındakı qaya sütunlarının düzənliklərin altındakı qaya sütunlarına nisbətən daha uzun olduğuna görə, sıxlığı daha az olmalıdır. Həm Eyeri, həm də Pret səthdəki nahamarlıqların yer qabığının müəyyən hissələrindəki (dağlar və düzənliklər) qayaların sıxlığındakı fərqlə tarazlandığını irəli sürürlər. Bu tarazlıq "izostasiya" adlandırılır. [32]

Bu gün bilirik ki, yer üzünün qayalıq olan üst təbəqəsində dərin qırılmalar var və ərimiş maqma üzərində üzən lövhələr şəklində parçalanmışdır. Yerin öz oxu ətrafındakı fırlanma sürəti çox yüksək olduğuna görə, üzən lövhələr hərəkət halında olacaqdı, lakin dağların sabitləşdirici təsiri bunun qarşısını alır. Bu təqdirdə, yer üzündə torpaq toplanmaz, torpaqda heç su yığılmaz, heç bir bitki cücərməz, heç bir yol, ev inşa edilə bilməzdi. Bir sözlə, Yerdə həyat mümkün olmazdı. Ancaq Allah`ın rəhməti ilə dağlar eynilə mismar kimi yer üzündəki hərəkətliliyin böyük ölçüdə qarşısını alır.

Göründüyü kimi, müasir geologiya və seysmik tədqiqatlar nəticəsində kəşf edilmiş dağların çox həyati funksiyası əsrlər əvvəl nazil edilmiş Qurani-kərimdə Allah`ın yaratmasındakı üstün hikmətə dəlil kimi verilmişdir. Bir ayədə belə buyurulur:

**... Sizi yırğalamasın deyə, yerdə möhkəm durmuş dağlar bərqərar etmiş... (Loğman surəsi, 10)**

## Dağların hərəkət etməsi

Bir ayədə dağların göründüyü kimi sabit olmadığı, daima hərəkət halında olduğu belə bildirilir:

**Sən dağlara baxıb onları donmuş zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər... (Nəml surəsi, 88)**

Dağların bu hərəkəti yer qabığının hərəkətindən qaynaqlanır. Yer qabığı özündən daha sıx olan mantiya təbəqəsi üzərində sanki üzür. İlk dəfə XX əsrin əvvəllərində Alfred Vegener (Alfred Wegener) adlı alman elm adamı yer üzündəki qitələrin Yerin ilk dövrlərində bitişik olduğunu, daha sonra müxtəlif istiqamətdə hərəkət edərək bir-birindən ayrılıb uzaqlaşdığını irəli sürmüşdü.

Ancaq geoloqlar Vegenerin haqlı olduğunu onun ölümündən 50 il sonra, yəni 1980-ci ildə anladılar. Vegenerin 1915-ci ildə nəşr olunmuş məqaləsində bildirdiyi kimi, yer üzündəki quru hissələri təqribən 500 milyon il əvvəl bir-birinə bitişik idi və

Pangeya adlandırılan bu böyük quru hissəsi cənub qütbündə yerləşirdi. Təxminən 180 il əvvəl Pangeya iki yerə bölünüb. Müxtəlif istiqamətlərdə hərəkət edən bu iki nəhəng qitədən birincisi Afrika, Avstraliya, Antarktida və Hindistandan ibarət Qondvana idi. İkincisi isə Avropa, Şimali Amerika və Asiyadan ibarət Lavrasiya idi. Bu bölünmədən sonra təqribən 150 milyon il ərzində müxtəlif zamanlarda Qondvana və Lavrasiya daha kiçik hissələrə bölündülər.

Pangeyanın bölünməsi ilə əmələ gələn bu qitələr daima quru və dəniz arasında ildə bir neçə santimetrlik sürətlə hərəkət edirlər.

XX əsrin əvvəllərində aparılan geoloji tədqiqatlar nəticəsində kəşf edilmiş yer qabığının bu hərəkəti elmi mənbələrdə belə açıqlanır:

Yer qabığı və üst mantiyadan ibarət 100 km qalınlığındakı Yer səthi "təbəqə" adlanan hissələrdən ibarətdir. Yer üzünü təşkil edən altı böyük təbəqə və çoxlu sayda kiçik təbəqə var. "Təbəqə tektonikası" adlandırılan nəzəriyyəyə əsasən, bu təbəqələr qitələri və okean dibini də özləri ilə birlikdə daşıyaraq Yerin səthində hərəkət edirlər... Qitələrin hərəkəti ildə 1-5 sm-dir. Təbəqələr bu şəkildə hərəkət etdikcə Yerin coğrafiyasında dəyişikliklər əmələ gəlir. Məsələn, Atlantik okeanı hər il daha da genişlənir. [33]

Burada mühüm cəhət nəzərə çatdırılmalıdır: Allah dağların hərəkətini ayədə "sürüklənmə" şəklində bildirmişdir. Elm adamlarının bu gün bu hərəkətə verdiyi ingiliscə termin "continental drift" "qitələrin sürüklənməsi" deməkdir. [34]

Qitələrin sürüşməsi Quranın nazil edildiyi dövrdə müşahidə oluna bilməzdi və Allah ayədəki "**sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən**" ifadəsi ilə insanlara bunu əvvəlcədən bildirmiş, dağların, əslində, buludlar kimi hərəkət etdiyini xəbər vermişdir. Göründüyü kimi, ayədə dağların yerləşdiyi təbəqənin hərəkətliliyinə açıq şəkildə diqqət çəkilir.

Elmin yeni kəşf etdiyi bu elmi faktın kainat və təbiət haqqındakı fikirlərin xurafat, batil inanc və əfsanələrə əsaslandığı VII əsrdə Quranda xəbər verilməsi böyük möcüzədir. Bu, Quranın Allah`ın sözü olduğunun mühüm dəlilidir.

## Günəşin doğması ilə batmasındakı fərqli cəhətlər

**Məşriqlərin və məğriblərin Rəbbinə and olsun ki, Biz, həqiqətən, qadirik. (Məaric surəsi, 40)**

**O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir. (Saffat surəsi, 5)**

**İki məşriqin və iki məğribin Rəbbi Odur. (Rəhman surəsi, 17)**

Yuxarıdakı ayələrdə şərq və qərb sözləri cəm halda işlədilmişdir. Məsələn, ilk ayədəki "məşariq" sözü şərqə, "məğarib" sözü isə qərbə aid olub ikidən çox olduqlarını bildirən cəm halındadır. Sonuncu ayədə isə "məşriqeyn" (iki şərq), "məğribeyn" (iki qərb) şəklində işlədilmişdir. Ayələrdəki "məşariq" və "məğarib" sözləri "Günəşin

doğduğu və batdığı yer" deməkdir. Ona görə, yuxarıdakı ayələrdə günün doğmasının və batmasının müxtəlif yerlərindən bəhs edilir. Bundan əlavə, ilk ayədə şərqlərin və qərblərin Rəbbinə and içilməsi də diqqət çəkir.

Məlum olduğu kimi, Yerin oxunun mailliyi 23°27'-dir. Bu maillik və Yerin kürəvi formasına görə, günəş şüaları yer üzünə həmişə eyni bucaq altında düşmür. Ona görə də Günəş şərqdə müxtəlif yerlərdə doğur, qərbdə də müxtəlif yerlərdə batır.

Yuxarıdakı ayələrdə işlədilmiş şərq və qərb haqqındakı sözlər də Günəşin müxtəlif yerlərdə doğub batdığına işarə edir (ən doğrusunu Allah bilir).

## Yerin ətrafından əskilməsi

**Məgər onlar Bizim yer üzünə gəlib onu tərəflərindən əskiltdiyimizi görmürlərmi?.. (Rəd surəsi, 41)**

**... Məgər Bizim torpağa gəlib onu hər tərəfdən əskiltdiyimizi görmürlərmi?.. (Ənbiya surəsi, 44)**

Yer Günəşdən gələn proton, elektron və alfa zərrəciyi bombardmanına məruz qalır. Bu Günəş qasırğaları atmosferi Yerdən ayıracaq qədər güclüdür. Lakin atmosferin tükənməsi Yerin hal-hazırkı maddə itirmə miqdarı ilə (saniyədə ən çox 3 kq) Günəşin ömrünün 5 misli qədər davam edəcək. [35] Çünki Yer atmosferdəki maqnitosfer təbəqəsinin əmələ gətirdiyi güclü maqnetik sahə sayəsində bu güclü eroziyalardan qorunur. Yerin ionosfer təbəqəsinin üstündən kosmosa yayılan oksigen, helium və hidrogen ionları Yeri əhatə edən ucsuz-bucaqsız hava təbəqəsi ilə müqayisə edildikdə çox azdır. Lakin kosmosa yayılan ion miqdarı yenə də çoxdur. [36]

Tədqiqatçılar Günəşdəki enerji partlayışlarının atmosferin xarici təbəqəsindən oksigen və digər qazların kosmosa yayılmasına səbəb olduğuna dair ilk konkret dəlilləri NASA-nın kosmik cihazları vasitəsilə əldə etdilər. Beləliklə, Yerin xarici təbəqələrdən maddə itkisinə uğradığını ilk dəfə 24-25 sentyabr 1998-ci ildə elm adamlarına məlum oldu. [37]

Digər tərəfdən, yuxarıdakı ayələr yer üzünün quru təbəqələrinin azalmasına işarə edə bilər. Dövrümüzdə qütblərdəki buzlaqlar əriyir və okeanlardakı dəniz suyunun səviyyəsi yüksəlir. Artan su miqdarı da daha çox qurunu basır. Dəniz sahilləri su altında qaldıqca yer üzündəki quru miqdarı azalır. [38] Yuxarıdakı ayələrdə işlədilən "**onu tərəflərindən əskiltdiyimizi görmürlərmi**" və "**torpağa gəlib onu hər tərəfdən əskiltdiyimizi görmürlərmi**" ifadələrinin dəniz sahillərinin sularla örtülməsinə işarə etməsi ehtimal olunur.

"Nyu York Tayms" (New York Times) qəzetində bu barədə belə xəbər verilir:

Keçən əsrdə yer üzünün təxmini səth temperaturu 1 fahrenheyt qalxmışdır, keçən əsrin son rübündə istiləşmə də artmışdır. Bu mühüm rəqəmdir... Əvvəlki peyk tədqiqatlarında və dəniz altında aparılan müşahidələrdə şimal qütbündə istiləşmə və buz kütlələrinin əriməsinin artdığı aşkar edilmişdi... Menhettendə (Manhattan) NASA tədqiqat mərkəzi olan Qoddard Kosmologiya İnstitutundakı elm adamları 1950 və

1960-cı illərdəki sualtı müşahidələrin nəticələri ilə 1990-cı ilin nəticələrini müqayisə etdilər və şimal qütbü hövzəsindəki buz təbəqəsinin 45% nazildiyini sübut etdilər. Peyk görüntüləri ərazini örtən buzlaqların ölçüsünün keçən illərdə həddindən artıq azaldığını göstərir. [39]

XX əsrin sonlarında əldə edilmiş nəticələr "Ənbiya" surəsinin 44-cü və "Rəd" surəsinin 41-ci ayələrindəki hikmətləri anlamağımıza kömək etmişdir.

Allah`ın ayədə bildirdiyi kimi, yerin ətrafından əskilməsi Quranda bildirilən başqa bir elmi həqiqətə işarə edə bilər. Öz oxu ətrafında dövr edən Yerin fırlanmasından qaynaqlanan geoid forması son əsrlərdə qəbul edilmiş həqiqətdir.

Aparılan tədqiqatlarda fırlanma nəticəsində əmələ gələn qüvvə ilə Yerin ekvator çevrəsindən genişləndiyi, qütblərdən isə yastılaşdığı üzə çıxmışdır. Bundan başqa, Yerin fırlanmağa davam etdiyi üçün bu dəyişiklik də davam edir. Belə ki, "Rəd" surəsinin 41-ci ayəsində "**əskiltdiyimizi**" kimi tərcümə edilmiş "nənkusu" sözü əskilmə prosesinin hələ də davam etdiyini göstərir.

Yerin cazibə qüvvəsi Yer kimi göy cisimlərini kürəvi formaya salmışdır. Ancaq bu, tam kürəvi forma deyil, qütblərdən bir az yastılaşmış və ekvatordan geniş olan formadır. NASA-nın məlumatlarına əsasən, Yerin ekvatordakı radiusu 6.378.1 km, qütblərdəki radiusu isə 6.356.8 km-dir.40 Burada 0.3% fərq var.

Yerin forması ilə bağlı bu model ilk dəfə 1687-ci ildə İsaak Nyuton (Isaac Newton) tərəfindən irəli sürülmüşdür. Ayələrdə təqribən 1400 il əvvəl işarə edilmiş bu vəziyyət Quranın başqa bir elmi möcüzəsidir.

## Yarılan yer

**And olsun qayıdan göyə! And olsun yarılan yerə! (Tariq surəsi, 11-12)**

Yuxarıdakı ayədə işlədilən ərəb dilindəki "sada" sözü azərbaycanca "çatlama, yarılma, aralanma" mənalarını verir. Allah`ın yarılan yerə and içməsi Quranın digər elmi möcüzələrində olduğu kimi, burada da xüsusi cəhətə diqqət çəkir.

1945-46-cı illərdə elm adamları mineral mənbələrini araşdırmaq üçün ilk dəfə dəniz və okeanların dibinə endilər. Tədqiqatlarda diqqətçəkən cəhətlərdən biri Yerin çatları idi.

Yerin səthindəki qayalıq təbəqə şimal-cənub və şərq-qərb istiqamətində on min kilometrlərlə uzunluqda çoxlu sayda geniş çatlarla yarılmışdı. Bundan əlavə, elm adamları 100-150 km dərinlikdə dənizlərin və okeanların altında ərimiş maqmanın olduğunu gördülər.

Bu qırıq və çatlara görə dənizlərin ortasında yerləşən dağlardan lava axır. Yer üzünün bu çatlarından Yerin daxilindəki istilik çölə çıxır və ərimiş daş parçalarının böyük hissəsi okeanlardakı təpələri əmələ gətirir. Əgər Yer qabığının yüksək temperaturun çölə çıxmasını təmin edən bu quruluşu olmasaydı, Yerdə həyat qeyri-mümkün olardı. [41]

Şübhəsiz, texnologiya vasitəsilə aşkar edilmiş bu faktın 1400 il əvvəl xəbər verilməsi Quranın Allah`ın sözü olduğunu təsdiq edir.

## Dəmirdəki sirr

Dəmir Quranda diqqət çəkilən elementlərdən biridir. Quranın "Hədid", yəni "Dəmir" adlı surəsində belə buyurulur:

**... Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də nazil etdik... (Hədid surəsi, 25)**

Dəmir dünyada geniş yayılmış üçüncü elementdir və yer qabığının 5%-ni təşkil edir. Dəmir Yerdə bu qədər çox olmasına baxmayaraq, Yerdən kənarda əmələ gəlmişdir. Müasir astronomik tədqiqatlar Yerdəki dəmirin kosmosdakı nəhəng ulduzlardan gəldiyini aşkar etmişdir. [42]

"Hədid" surəsinin 25-ci ayəsində dəmir haqqındakı "ənzəlna", yəni "nazil etmək, endirmək" sözü məcazi mənada insanların xidmətinə verilmə mənasında ola bilər. Lakin sözün yağış və günəş şüaları ilə bağlı "göydən endirmə" şəklindəki həqiqi mənasını nəzərə aldıqda ayənin yuxarıda izah etdiyimiz mühüm elmi həqiqətə işarə etdiyini görürük.

Ancaq təkcə Yerdəki deyil, bütün Günəş sistemindəki dəmir kosmosdan gəlmişdir. Çünki Günəşin temperaturu dəmirin əmələ gəlməsi üçün kifayət deyil. Günəşin səthində 6000ºC, nüvəsində isə 20 milyon ºC temperatur var. Dəmir ancaq Günəşdən çox böyük olan ulduzlarda, bir neçə yüz milyon dərəcəyə çatan temperaturlarda əmələ gəlir. Nova və ya Supernova adlandırılan bu ulduzlardakı dəmirin miqdarı müəyyən ölçünü keçdikdə, ulduz bunu daşıya bilmir və partlayır. Bu partlayışlar nəticəsində dəmir kosmosa yayılır. [43]

Bir elmi mənbədə bu haqda belə məlumat verilir:

Daha yaşlı Supernova partlayışlarını göstərən dəlillər var: dənizin dibində toplanmış dəmir-60 təqribən 5 milyon il əvvəl Günəşdən 90 işıq ili uzaqda əmələ gələn Supernova partlayışının nəticəsidir. Supernova partlayışında əmələ gələn dəmir-60 1.5 milyon il ömrü olan radioaktiv izotopdur. Yerin daxili təbəqələrindəki dəmir-60 izotopu kosmosdakı elementlərin nukleosintez keçirərək əvvəlcə atmosferə, oradan da yerin daxili təbəqələrinə çökməsi nəticəsində əmələ gəlmişdir. [44]

Göründüyü kimi, dəmir Yerdə əmələ gəlməmiş, Supernovalardan eynilə ayədə bildirildiyi kimi endirilmişdir. Bu fakt Quranın nazil edildiyi VII əsrdə elmi cəhətdən aşkar edilə bilməzdi. Lakin bu həqiqət hər şeyi sonsuz elmi ilə əhatə edən Allah`ın sözü olan Quranda bildirilmişdir.

Müasir astronomik məlumatlar bizə digər elementlərin də Yerdən kənarda əmələ gəldiyini göstərir. Ayədəki "dəmiri də nazil etdik" ifadəsindəki "də" ədatı bunu vurğulayır. Ancaq ayədə dəmirə xüsusilə diqqət çəkilməsi isə XX əsrin sonlarında əldə edilən məlumatları nəzərə aldıqda çox düşündürücüdür. Məşhur mikrobioloq Maykl

Denton (Michael Denton) “Təbiətin taleyi” (Nature's Destiny) adlı kitabında dəmirin əhəmiyyətini belə vurğulayır:

Metallar arasında həyat üçün dəmirdən daha əhəmiyyətli metal yoxdur. Bir ulduzun nüvəsində dəmirin toplanması supernovanın partlamasına və beləliklə, həyat üçün lazımlı atomların bütün kainata yayılmasına səbəb olur. Dəmir atomlarının Yerin ilk mərhələlərində nüvədə əmələ gətirdiyi cazibə qüvvəsi ilə meydana gələn temperatur Yerin kimyəvi cəhətdən müxtəlifliyinə səbəb olmuş, atmosferin formalaşmasına və nəticədə, hidrosferin əmələ gəlməsinə səbəb olmuşdur. Yerin mərkəzindəki ərimiş dəmir nəhəng maqnit funksiyasını yerinə yetirərək yerin maqnit sahəsini əmələ gətirir. Maqnit sahəsi Yerin səthini yüksək enerjili məhvedici kosmik radiasiyaya qarşı müdafiə edən Van Allen radiasiya qurşaqlarını əmələ gətirir və həyati əhəmiyyətə malik ozon təbəqəsini kosmik şüaların zərərli təsirindən qoruyur.

Dəmir atomu olmadan kainatda karbon əsaslı həyat olmazdı, supernovalar meydana gəlməz, Yerin ilk mərhələlərində isinmə baş verməz, atmosfer və ya hidrosfer əmələ gəlməzdi. Qoruyucu maqnit sahəsi olmaz, Van Allen qurşaqları əmələ gəlməz, ozon təbəqəsi olmaz, (insanın qanında) hemoqlobini əmələ gətirən metal mövcud olmaz, oksigenin reaktiv təsirini dəf edən metal əmələ gəlməz və oksidləşməyə davamlı maddələr mübadiləsi meydana gəlməzdi.

Həyat, dəmir və qanın qırmızı rəngi ilə uzaqdakı bir ulduzun ölümü arasındakı bu sirli və yaxın əlaqə nəinki metalların, eyni zamanda, kainatın bioloji cəhətdən əhəmiyyətini vurğulayır. [45]

Dəmir atomunun əhəmiyyəti bu açıqlamalardan məlum olur. Quranda xüsusilə dəmirə diqqət çəkilməsi də bu maddənin əhəmiyyətini vurğulayır. Peyğəmbərimizin (s.ə.v) dövründə dəmirdən müxtəlif alətlər hazırlanırdı, ancaq dəmirin insan həyatındakı əhəmiyyəti haqqında kifayət qədər məlumat yox idi. Yerin nüvəsində, insanın qanında dəmirin olduğu və canlılar üçün həyati əhəmiyyəti XX əsrə qədər məlum deyildi.

Quranda dəmirin əhəmiyyətinə diqqət çəkən başqa sirr də var. Dəmirdən bəhs edilən “Hədid” surəsinin 25-ci ayəsində 2 riyazi şifrə var: “əl-Hədid” Quranın 57-ci surəsidir. “Əl-hədid” sözünün ərəbcədə əbcəd dəyəri də “57”-dir.

Təkcə “hədid” sözünün dəyəri 57-dir. 26 isə dövri cədvəldə dəmir atomunun nömrəsidir.

Digər tərəfdən, 2004-cü ildə həyata keçirilən xərçəng xəstəliyinin müalicəsində dəmir oksidi zərrəciklərindən istifadə olunmuş və müsbət nəticələr əldə edilmişdir. Almaniyadakı məşhur *Charite* xəstəxanasında həkim Andreas Cordanın (Andreas Jordan) rəhbərlik etdiyi qrup xərçəng xəstəliyinin müalicəsi üçün yeni metodla – maqnetik likid hipertermiya (yüksək temperaturlu maqnetik maye) metodu ilə xərçəng hüceyrələrini məhv etməyi bacardı. Xəstəxanada ilk dəfə 26 yaşlı Nikolaus H. adlı tələbəyə tətbiq edilən bu metod nəticəsində bu xəstədə üç ay yeni xərçəng hüceyrələri əmələ gəlmədi. Bu metodla müalicə belə aparılır:

1 – Tərkibində dəmir oksidi zərrəcikləri olan maye xüsusi şprislə xərçəng şişinin içinə yeridilir. Bu zərrəciklər xərçəng hüceyrələrinə yayılır. Bu mayenin 1 $sm^3$-də dəmir oksiddən ibarət eritrositlərdən 1000 dəfə kiçik milyonlarla zərrəcik mövcuddur və bu zərrəciklər qan damarlarında asanlıqla hərəkət edir. [46]

2- Xəstə daha sonra güclü maqnit təsiri olan alətin altında uzandırılır.

3- Kənardan verilən maqnetik axın şişin içindəki dəmir zərrəciklərini hərəkətə salır. Bu zaman içində dəmir oksidi zərrəcikləri olan xərçəng şişindəki temperatur 45ºC-yə qədər qalxır.

4- Bu temperatura qarşı özünü qoruya bilməyən xərçəng hüceyrələri bir neçə dəqiqədə zəifləyir və ya məhv olur. Daha sonra hemoterapiya ilə şiş tamamilə itir. [47]

Bu müalicədə təkcə xərçəng hüceyrələri tərkibində dəmir oksidi zərrəcikləri olduğu üçün maqnit dalğası sağlam hüceyrələrə təsir etmir. Bu metodun yayılması ölümcül xərçəng xəstəliyinin müalicəsində böyük irəliləyişdir. Xərçəng kimi geniş yayılmış xəstəliyin müalicəsində Qurandakı ifadə ilə “**insanlara fayda verən dəmir**” dən istifadə edilməsi diqqətçəkəndir (Hədid surəsi, 25). Belə ki, Quranda bu ayə ilə dəmirin insan üçün faydalarına işarə edilə bilər (ən doğrusunu Allah bilir).

## Neftin əmələ gəlməsi

**Ən uca Rəbbinin adına təriflər de! O Rəbbin ki, xəlq etdi və nizama saldı. O Rəbbin ki, əzəldən müəyyən etdi və yol göstərdi. O (Rəbbin) ki, otlağı cücərdib, sonra da onu qara çör-çöpə döndərdi. (Əla surəsi, 1-5)**

Məlum olduğu kimi, neft dənizlərdəki bitki və heyvanların çürümüş qalıqlarından əmələ gəlir. Bu qalıqlar dənizin dibində milyon illər ərzində çürüdükdən sonra ancaq yağlı maddələr qalır. Palçıq və böyük daş təbəqələri altında qalan yağlı maddələr neft və qaza çevrilir. Yer qabığındakı seysmik hərəkətlər bəzən dənizlərin quru hissəsinə çevrilməsinə və altında neft olan qayaların minlərlə metr dərinliyə batmasına səbəb olur. Əmələ gələn neft bəzən qaya təbəqələrindəki məsamələrdən sızaraq kilometrlərlə dərinlikdən səthə çıxır, burada buxarlanaraq (qaz halına çevrilərək) qatran yığıntısı əmələ gətirir.

“Əla” surəsinin ilk dörd ayəsində diqqət çəkən üç cəhət neftin əmələgəlmə mərhələlərinə çox uyğun gəlir. Otlaq, çəmənlik mənasını verən “əlmər’a” sözü ilə neftin əsasını təşkil edən üzvi maddələrə diqqət çəkilə bilər. Ayədə ikinci diqqətçəkən söz isə qara rəngə çalan yaşıl, yaşıl rəngə çalan qara, qaramtıl, hisli rəngləri tərif etmək üçün istifadə edilən “əhva” sözüdür. Bu söz ilə yerin altında toplanan bitki qalıqlarının zaman ərzində çürüyərək qaralması nəzərdə tutula bilər. Çünki bu sözlər üçüncü sözlə - “qusaən” sözü ilə dəstəklənir. Bəzi Qurani-kərim tərcümələrində çör-çöp kimi verilmiş “qusaən” sözü sel suyunun otları, çör-çöpü bir-birinə qataraq gətirdiyi və dərələrin ətrafında topladığı ot, çöp, yarpaq və köpük kimi qarışıq mənasını da ifadə edir. Bu söz “qusma” mənasına görə, bəzi mənbələrdə “selin gətirdiyi zir-zibil” kimi də tərcümə edilir və torpağın nefti üzə çıxarması kimi tərif edilir. Belə ki, neftin formalaşmasını,

üzə çıxmasını, köpüklü görüntüsünü, rəngini nəzərə aldıqda ayələrdə işlədilmiş sözlərin nə qədər hikmətli olduğu daha yaxşı başa düşülür.

Göründüyü kimi, ayədəki bitkinin qara mayeyə çevrilməsi neftin əmələgəlmə prosesinə çox bənzərdir. Neftin formalaşması haqqında məlumat olmadığı dövrdə uzun illəri əhatə edən prosesin təsvir edilməsi, şübhəsiz, Quranın Allah`ın vəhyi olduğunun başqa bir dəlilidir.

## Zamanın nisbiliyi

Zamanın nisbiliyi dövrümüzdə sübut edilmiş elmi faktdır. Bu həqiqət əsrin əvvəllərində Eynşteynin nisbilik nəzəriyyəsi ilə üzə çıxmışdır. O dövrə qədər insanlar zamanın nisbi olduğunu, şəraitə görə dəyişdiyini bilmirdilər. Lakin məşhur elm adamı Albert Eynşteyn nisbilik nəzəriyyəsi ilə bu faktı sübut etdi. Zamanın kütləyə və sürətə bağlı anlayış olduğunu irəli sürdü. Daha əvvəl heç kim bunu açıq şəkildə dilə gətirməmişdi.

Yeganə istisna ilə: Quranda zamanın nisbiliyini göstərən məlumatlar verilirdi. Bu mövzu ilə bağlı bəzi ayələr bunlardır:

**... Rəbbinin dərgahında bir gün sizin saydığınızın min ili kimidir! (Həcc surəsi, 47)**

**O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınızın min ilinə bərabər olan bir gündə Ona doğru yüksələr. (Səcdə surəsi, 5)**

**Mələklər və ruh (Cəbrail) Onun dərgahına müddəti əlli min il olan bir gündə qalxarlar. (Məaric surəsi, 4)**

610-cu ildə nazil edilməyə başlayan Quranda zamanın nisbiliyindən bu cür açıq şəkildə bəhs edilməsi onun İlahi kitab olduğunu sübut edir.

## Altı gündə yaradılış

**Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Allah`dır... (Əraf surəsi, 54)**

Quran ilə müasir elm arasındakı uyğunluğa dair bir nümunə də kainatın yaşıdır. Kosmoloqlar kainatın yaşını 16-17 milyard il hesablayırlar. Quranda isə bütün kainatın 6 gündə yaradıldığı açıqlanır. İlk baxışda fərqli görünən bu zaman kəsikləri arasında, əslində, çox təəccüblü uyğunluq var. Kainatın yaşı ilə bağlı bizə məlum olan bu rəqəmlərin hər ikisi doğrudur. Yəni kainat Quranda bildirildiyi kimi, 6 gündə yaradılmışdır və bu müddət bizim zaman anlayışımızla 16-17 milyard ilə uyğun gəlir.

1915-ci ildə Eynşteyn zamanın nisbi olduğunu, məkandan, hərəkət edən şəxsin sürətindən və o andakı yerin cazibə qüvvəsindən asılı olaraq zamanın axma əmsalının dəyişdiyini irəli sürmüşdür.

Zamanın axma əmsalındakı bu fərqləri nəzərə aldıqda Quranda 7 müxtəlif ayədə xəbər verilən kainatın yaradılış müddətinin elm adamlarının təxminləri ilə uyğun olduğu məlum olur. Quranda bildirilən 6 günlük müddəti 6 dövr kimi qəbul edə bilərik.

Çünki zaman nisbi olduğuna görə, “gün” indiki dövrdə Yerdəki 24 saatlıq zaman kəsiyini ifadə edir. Ancaq kainatın başqa yerində başqa zamanda və başqa şərtlər daxilində “gün” daha uzun zaman kəsiyidir. Belə ki, bu ayələrdə işlədilən (Səcdə surəsi, 4; Yunus surəsi, 3; Hud surəsi, 7; Furqan surəsi, 59; Hədid surəsi, 4; Qaf surəsi, 38; Əraf surəsi, 54) 6 gün (sittəti əyyamin) ifadəsindəki “əyyamin” sözü “günlər” mənası ilə yanaşı, “çağ, dövr, an, müddət” mənalarını da verir.

Kainatın ilk dövrlərində zaman bugünkündən daha sürətlə keçmişdir. Səbəb budur: *Big Bang* anında kainat çox kiçik nöqtənin içinə sığdırılmışdı. Bu böyük partlayış anından etibarən kainatın genişlənməsi və həcminin böyüməsi kainatın hüdudlarını milyardlarla işıq ili genişləndirdi. Belə ki, *Big Bang*-dən bəri kosmosun genişlənməsinin kainat saatına böyük təsirləri oldu.

*Big Bang* anındakı enerji universal zamanın axma sürətini $10^{12}$ dəfə yavaşlatmışdır. Kainat yaradıldıqda universal zamanın axma əmsalı, dövrümüzdəki zaman anlayışı ilə, milyon dəfə milyon qat böyük idi, yəni zaman daha sürətlə keçirdi. Ona görə, biz **Yerdə milyon dəfə milyon dəqiqə keçdikdə kainatda sadəcə bir dəqiqə keçmiş olur.**

Zamanın nisbiliyi nəzərə alınaraq hesablandıqda 6 günlük zaman kəsiyi 6 milyon dəfə milyon (trilyon) gün edir. Çünki universal saat Yerdəki saatdan milyon dəfə milyon qat sürətlə axır. 6 trilyon gün təxminən 16427 milyarda uyğun gəlir. Bu rəqəm dövrümüzdə kainatın təxmin edilən yaşıdır.

6.000.000.000.000 gün / 365.25 = 16.427.104.723 il

Digər tərəfdən, yaradılışın 6 gününün hər biri bizim zaman anlayışımızla bir-birlərindən fərqli zamanlara uyğun gəlir. Bunun səbəbi zamanın axma əmsalının kainatın genişlənməsi ilə tərs mütənasib olaraq azalmasıdır. *Big Bang*-dən etibarən kainatın böyüklüyü 2 dəfə artdıqca zamanın axma əmsalı yarım dəfə azalmışdır. Kainat böyüdükcə kainatın böyümə sürəti də getdikcə artan şəkildə yavaşlamışdır. Bu genişlənmə sürəti “Fiziki kosmologiyanın əsasları” adlı dərsliklərdə izah edilən, dünyanın hər yerində məlum olan bir həqiqətdir. Yaradılışın hər gününü Yerdəki zamanla hesabladıqda qarşımıza aşağıdakı ədədlər çıxır:

- Zamanın başladığı andan etibarən yaradılışın 1-ci günü (1-ci dövr) 24 saat davam etmişdir. Ancaq bu müddət Yerdəki zamanla 8 milyard ilə bərabərdir.
- Yaradılışın 2-ci günü (2-ci dövr) 24 saat davam etmişdir. Bizim zamanla bu, əvvəlki günün yarısı qədərdir, yəni 4 milyard ildir.
- 3-cü gün (3-cü dövr) isə əvvəlki günün, yəni 2-ci günün yarısı qədər – 2 milyard il davam etmişdir.
- 4-cü gün (4-cü dövr) 1 milyard il,
- 5-ci gün (5-ci dövr) 500 milyon il,
- 6-cı gün (6-cı dövr) 250 milyon il davam etmişdir.

- Nəticə: **yaradılışın 6 günü, yəni 6 dövrü Yerdəki zamana uyğun hesablanıb toplandıqda 15 milyard 750 milyon il edir. Bu rəqəm dövrümüzdəki təxminlərlə paralellik təşkil edir.**

Bu nəticə XXI əsrdə elmin ortaya qoyduğu faktlardır. Elm 1400 il əvvəl Quranda xəbər verilmiş həqiqəti təsdiq edir. Quran və elm arasındakı bu uyğunluq Quranın hər şeyi bilən və yaradan Allah`ın vəhyi olduğunun dəlilidir.

## Qədər

**Allah istəməsə, siz istəyə bilməzsiniz. Həqiqətən, Allah biləndir, hikmət sahibidir! (İnsan surəsi, 30)**

Kaliforniya Universitetindən neyrofizioloq prof. Bencamin Libet 1973-cü ildə apardığı təcrübələr nəticəsində bütün qərarlarımızın, seçimlərimizin əvvəlcədən müəyyən edildiyini, şüurun isə hər şey olub bitdikdən yarım saniyə sonra işə qarışdığını aşkar etmişdir. Bu həqiqətə əsasən, neyrofizioloqlar keçmişdə yaşadığımızı və şüurumuzun baş verənləri yarım saniyə sonra göstərən monitor olduğunu söyləyirlər. [48]

Nəticə etibarilə, baş vermiş hadisələrdən yarım saniyə sonra həmin hadisələrə dair hissləri qavrayırıq. Bencamin Libet (Benjamin Libet) təcrübələrini beyin əməliyyatlarında narkoz verilmədən, yəni xəstənin şüuru tamamilə yerində ikən həyata keçirmişdir. Libet xəstələrin beyinlərinə zəif elektrik axını ilə siqnal göndərərək əllərində toxunma hissi əmələ gətirmiş, xəstələr isə bu “toxunmanı” təxminən yarım saniyə əvvəl hiss etdiklərini deyiblər. Bencamin Libet təcrübələr nəticəsində bu nəticəyə gəlmişdir: bütün hisslər beyinə ötürülür, şüuraltında dəyərləndirilib şərh olunur, “mən”in isə heç nədən xəbəri yoxdur. Zehnimizdə canlanan, yəni fərqinə vardığımız məlumatlar isə uzun ləngimədən sonra korteksə- şüurun yerləşdiyi hissəyə göndərilir. [49]

Ortaya çıxan nəticəni belə xülasə etmək mümkündür: **əzələ hərəkətlərini həyata keçirmə qərarı bu qərarı dərk etməzdən əvvəl verilir.** Nevroloji bir proses ilə həmin prosesi təmsil edən düşüncəni, hissi və ya hərəkəti qavramağımız arasında ləngimə var. Başqa sözlə, biz ancaq qərar verildikdən sonra o qərarı qavrayırıq.

Prof. Bencamin Libetin təcrübələrində bu ləngimə 350 millisaniyə ilə 500 millisaniyə arasında dəyişir, lakin nəticə bu rəqəmlərə bağlı deyil. Çünki Libetin fikrincə, bu ləngimə - çox və ya az olması, bir saat və ya bir mikrosaniyə olması fərq etməz – onu göstərir ki, bizim yaşadığımız hal-hazırkı maddi an, əslində, keçmişdir. Bu hər düşüncənin, hissin, qavrayışın və ya hərəkətin biz dərk etmədən əvvəl baş verdiyini göstərir ki, bu da gələcəyin tamamilə bizim iradəmizdən kənar olduğunu sübut edir. [50]

Prof. Bencamin Libet bəzi təcrübələrində barmaqlarını nə vaxt hərəkət etdirmə seçimini adamların öhdəsinə qoymuşdur. Barmaqlarını hərəkət etdirmə anı beyinlərində izlənən adamların bu qərarı verməzdən əvvəl əlaqədar beyin hüceyrələrinin fəaliyyətə keçdiyi müşahidə edilmişdir. Başqa sözlə, “et” əmri gəlir, hərəkəti etmək üçün beyin hazırlanır, insan isə ancaq 0.5 saniyə sonra bunun fərqinə varır. Bir hərəkəti etmək üçün

qərar verib sonra etmir, onun üçün əvvəlcədən müəyyən edilmiş hərəkətləri edir. Lakin beyin zaman tənzimləməsi edərək insanın, əslində, keçmişdə yaşadığı hissini aradan qaldırır. Ona görə də indi dedikdə, əslində, keçmişdə baş vermiş hadisəni yaşayırıq. Göründüyü kimi, bu təcrübələr "İnsan" surəsinin 30-cu ayəsində bildirildiyi kimi, hər şeyin Allah`ın istəyi ilə baş verdiyini təsdiq edir (ətraflı məlumat üçün bax: Harun Yahya, "Zamansızlık ve kader gerçeği", Araştırma Yayıncılık)

## Yaradılışdakı cütlər

**Yerin yetişdirdiklərindən, onların özlərindən və bilmədiklərindən cütlər yaradan Allah pakdır, müqəddəsdir! (Yasin surəsi, 36)**

Erkək-dişi "cüt" mənasının qarşılığı olsa da, ayədə bəhs edilən "bilmədiklərindən" ifadəsi daha dərin məna daşıyır. Belə ki, dövrümüzdə ayənin işarə etdiyi mənalardan biri artıq bizə məlumdur. Maddənin cütlər şəklində yaradıldığını aşkar edən ingilis elm adamı Pol Direk (Paul Dirac) 1933-cü ildə fizika sahəsində Nobel mükafatına layiq görülmüşdür. "Parite" adlandırılan bu kəşf maddənin antimaddə adlanan cütü olduğunu ortaya qoymuşdur. Antimaddə maddənin zidd xüsusiyyətlərini daşıyır. Bu həqiqət bir elmi mənbədə belə ifadə edilir:

... Hər zərrəciyin zidd yüklü antizərrəciyi var. Qeyri-sabitlik əlaqəsi bizə bu cütlərin hər yerdə və hər zaman eyni anda əmələ gəldiyini və məhv olduğunu göstərir.[51]

Cüt yaradılmış şeylərə başqa nümunə də bitkilərdir. Botaniklər bitkilərdə cinsiyyət fərqi olduğunu 100 il əvvəl müəyyən ediblər. [52] Halbuki, bitkilərin cüt yaradıldığı Quranda 1400 il əvvəl aşağıdakı ayələrlə açıq şəkildə bildirilmişdir:

**Allah gördüyünüz göyləri dirəksiz yaratmış, sizi yırğalamasın deyə, yerdə möhkəm durmuş dağlar bərqərar etmiş və ora cürbəcür heyvanlar səpələmişdir. Biz göydən yağış yağdırdıq və yerdə növbənöv gözəl (bitkilər) yetişdirdik. (Loğman surəsi, 10)**

**O (Allah) ki, yer üzünü sizin üçün döşəmiş, orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik. (Taha surəsi, 53)**

Eyni şəkildə, meyvələrin də dişicik və erkəkciyi var. Quranda bu məlumat "Rəd" surəsinin 3-cü ayəsində ifadə edilir:

**Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır. (Rad surəsi, 3)**

Ayədə "cüt-cüt" tərcümə edilmiş "zəvceyni" sözü ərəb dilində "tay, həyat yoldaşı" mənasını verən "zəvc" kökündən törəyib. Məlum olduğu kimi, yetişmiş bitkilərin son məhsulu meyvədir. Meyvədən əvvəlki mərhələ isə çiçəkdir. Çiçəklərin də erkəkcik və dişicik kimi orqanları var. Çiçəyə tozcuq daşınaraq döllənmə baş verdikdə, yəni erkəkcik və dişicik birləşdikdə meyvə əmələ gəlir. Zaman ərzində meyvə yetişir və

toxum tökür. Meyvələrin müxtəlifcinsli xüsusiyyətləri olduğuna dair bu həqiqət Quranda işarə edilmiş başqa bir elmi faktdır.

## Subatom zərrəciklər

Yunan filosofu Demokritin məşhur atom nəzəriyyəsindən sonra insanlar maddənin atom adlanan çox kiçik, parçalanmayan və məhv edilə bilməyən zərrəciklərdən təşkil olunduğuna inanırdılar. Ancaq elm və texnologiyadakı irəliləyişlər bu məlumatları təkzib etdi. Dövrümüzdə müasir elm maddənin ən kiçik vahidi hesab edilən atomun da zərrəciklərə bölündüyünü aşkar etmişdir. Hələ keçən əsrdə üzə çıxan bu həqiqət Quranda 1400 il əvvəl insanlara xəbər verilmişdir:

**... Göylərdə və yerdə zərrə qədər olan bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın". (Səba surəsi, 3)**

**Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın kitabda olmasın. (Yunis surəsi, 61)**

Diqqət etsək, görərik ki, yuxarıdakı ayələrdə zərrədən və ondan daha kiçik hissələrdən bəhs edilir. Ərəb dilindəki "zərrə" sözü "ən kiçik zərrəcik, toz, atom" mənalarını verir.

20 il əvvəl atomları təşkil edən ən kiçik hissəciklər protonlar və neytronlar hesab edilirdi. Ancaq yaxın tarixdə atomun bu zərrəciklərini təşkil edən daha kiçik zərrəciklərin olduğu kəşf edildi. Atomun içindəki "subatom zərrəciklər" və onların özünəməxsus hərəkətlərini tədqiq etmək üçün "kvant fizikası" adlı fizika sahəsi meydana gəldi. Kvant fizikasının apardığı tədqiqatlar bu həqiqəti üzə çıxardı: atomu təşkil edən proton və neytronlar da "kvark" adlandırılan subatom zərrəciklərdən ibarətdirlər. İnsan ağlının qavrayış hüdudlarını aşacaq qədər kiçik protonu təşkil edən kvarkların ölçüsü isə heyrətamizdir: $10^{-18}$ (0,000000000000000001) metr. [53]

Bu mövzu ilə bağlı diqqətçəkən digər cəhət isə zərrə ilə bağlı bu ayələrdə xüsusilə ağırlığa diqqət çəkilməsidir. Ayədə işlədilmiş "misqalə zərrətin" (zərrə qədər, zərrə ağırlığında) ifadəsindəki "misqal" sözü "ağırlıq" deməkdir. Belə ki, atomun tərkib hissəsi olan proton, neytron və elektron kimi zərrəciklərin həm də atomun kütləsini təşkil edən birləşmələr olduğu kəşf edilmişdir. Bu baxımdan, zərrənin ölçülərinə və ya başqa xüsusiyyətinə deyil, ağırlığına diqqət çəkilməsi Quranın başqa bir elmi möcüzəsidir (ətraflı məlumat üçün bax: Harun Yahya, "Atom mucizesi", Araştırma Yayıncılık)

## Qara dəliklər

XX əsrdə kainatdakı göy cisimləri ilə bağlı bir çox yeni kəşflər edilmişdir. Dövrümüzdə hələ yeni aşkar edilmiş bu cisimlərdən biri də qara dəliklərdir. Qara dəliklər enerjisi tükənən ulduzun öz içinə çökməsi və nəhayət yerində sıx, sıfır həcmə

malik cazibə sahəsinin əmələ gəlməsi ilə formalaşır. Qara dəliyin səthindəki cazibə qüvvəsi çox güclü olduğu və içindən işıq keçmədiyi üçün ən böyük teleskoplarla da görmək mümkün deyil. Ancaq içinə çökmüş ulduzu ətrafına olan təsiri ilə tanımaq olur. Allah "Vaqiə" surəsində ulduzların yerlərinə and içərək bu mövzuya belə diqqət çəkir:

**Ulduzların mənzillərinə and olsun ki, kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz. (Vaqiə surəsi, 75-76)**

"Qara dəlik" anlayışı ilk dəfə 1767-ci ildə ingilis elm adamı Con Miçel (John Michell) tərəfindən irəli sürülmüş və "qara dəlik" ifadəsi ilk dəfə amerikalı fizik Con Arçibald Uiler (John Archibald Wheeler) tərəfindən 1969-cu ildə işlədilmişdir. Əvvəllər bütün ulduzları gördüyümüzü düşünürdük, lakin sonrakı illərdə kosmosda işığını görə bilmədiyimiz ulduzların da olduğu məlum olmuşdur. Çünki enerjisi tükənən bu ulduzların işığı da sönür.

Qara dəlik bir kütlənin işığın sızmayacağı qədər kiçik sahədə toplanmasıdır. Güclü cazibə sahəsi fotonları və ən sürətli zərrəcikləri belə bu sahədə tutub saxlayır. Günəşdən 3 dəfə böyük kütləyə malik olan bir ulduzun yanması və partlaması nəticəsində əmələ gələn qara dəliyin diametri 20 km-dir. Qara dəlikləri birbaşa müşahidə etmək mümkün deyil, onları sadəcə digər göy cisimlərinə olan təsirlərinə görə müəyyən etmək mümkündür. Aşağıdakı ayədə də qiyamət gününün təsviri ilə yanaşı, qara dəliklərlə bağlı elmi fakta işarə edilə bilər:

**Ulduzlar sönəcəyi zaman (Mürsəlat surəsi, 8)**

Böyük kütləli ulduzlar kosmosda bükülməyə səbəb olurlar. Lakin qara dəliklər sadəcə kosmosda bükülməyə səbəb olmur, eyni zamanda, kosmosu dəlib keçirlər. Bu sönmüş ulduzların qara dəlik adlandırılmalarının səbəbi də budur. "Tariq" surəsinin 3-cü ayəsində isə "dələn ulduzlar"dan bəhs edilir:

**And olsun göyə və Tariqə! Sən nə bilirsən ki, Tariq nədir?! (Qaranlıqları) dəlib keçən ulduzdur. (Tariq surəsi, 1-3)**

Ayənin ərəbcəsində "dəlik" mənasını verən "saqb" kökündən "dəlik açan, dələn, dəlib keçən" mənalarını verən "əssaqibu" sözü işlədilmişdir. Qara dəlikləri tərif edən elmi mənbələrdə isə "dəlik açmaq" mənasını verən ingiliscə "puncture" sözündən istifadə edilir. Qara dəliklərin xüsusiyyətini ifadə etmək üçün Quranda işlədilmiş bu söz çox hikmətlidir. Ayədə ulduzlarla bağlı bu məlumata diqqət çəkilməsi Quranın Allah`ın sözü olduğunu sübut edir.

## Döyünən ulduzlar: pulsarlar

**And olsun göyə və Tariqə! Sən nə bilirsən ki, Tariq nədir?! (Qaranlıqları) dəlib keçən ulduzdur. (Tariq surəsi, 1-3)**

Quranın 86-cı surəsi olan Tariq "tarq" kökündən törəmişdir. Bərk döyünmək mənasını verir. Sözün "bərk döyünmə" kimi əsas mənasını nəzərə aldıqda bu surədə çox mühüm elmi həqiqətə diqqət çəkildiyini görürük. Bu mövzuya toxunmazdan əvvəl, ayədə bu ulduzları tərif edən digər sözlərə baxaq:

Yuxarıdakı ayədə işlədilən “əttariqi” sözü gecəni dələn, qaranlığı dələn ulduz, gecə doğan, dəlib keçən, döyünən, vuran, kəskin ulduz mənalarını verir. Habelə, ayədəki “vav” ifadəsi ilə göyə və Tariqə and içilərək bunların əhəmiyyətinə diqqət çəkilir.

Coselin Bell Bernel (Joselyn Bell Bernell) 1967-ci ildə İngiltərə Kembric Universitetində (Cambridge University) apardığı tədqiqatlar zamanı müntəzəm radiosiqnallar tutmuşdu. Ancaq o dövrə qədər ürək döyüntüsü kimi müntəzəm döyüntünün mənbəyi olan göy cismi məlum deyildi. Lakin 1967-ci ildə astronomlar öz oxu ətrafında dövr edən nüvədəki maddə artdıqca ulduzun maqnit sahəsinin də böyüdüyünü və beləliklə, ulduzun qütblərində Yerin maqnit sahəsindən 1 trilyon dəfə güclü qüvvə əmələ gəldiyini müəyyən etdilər. Bu qədər sürətlə fırlanan və güclü maqnetik sahəyə malik olan cismin hər fırlandıqda güclü radiodalğalara səbəb olan konus formasında şüa yaydığını bildilər. Bir müddət sonra sözügedən siqnalların mənbəyinin neytron ulduzlarının böyük sürətlə fırlanması olduğu aşkar edildi. Bu neytron ulduzlar “pulsar” adlanır. Supernova partlayışları nəticəsində ölərək “pulsar”a çevrilən bu ulduzlar kainatın ən ağır, ən parlaq və hərəkətli cisimləridir. Bəzi yaşlı pulsarlar öz çevrələrində saniyədə 600 dəfə dövrə vururlar. [54]

Pulsar sözü ingiliscə “pulse” felindən törəmişdir. “American Heritage” lüğətində bu fel “müntəzəm və ritmik döyünmək” deməkdir. *Webster* lüğətində isə bu sözün “sürətlə döyünmək, ürək kimi döyünmək” mənaları verilmişdir. “American Heritage” lüğətində bu kökdən törəmiş “pulsate” felinin “ritmik şəkildə genişlənmək və büzülmək, döyünmək” mənaları verilmişdir.

Bu kəşfdən sonra Quranda “tariq”, yəni “döyünmə” sözü ilə ifadə edilən göy cisminin pulsar adlandırılan neytron ulduzları ilə bənzər olduğu məlum olmuşdur.

Nəhəng ulduzların nüvəsi çökərək neytron ulduzlarını əmələ gətirir, bu kiçik və böyük sıxlığa malik sürətlə fırlanan kürəvi maddə ulduzun kütləsinin və maqnit sahəsinin böyük hissəsini sıxışdırır. Sürətlə fırlanan neytron ulduzlarının əmələ gətirdiyi qüvvətli maqnit sahəsi güclü radiodalğalar yaydığı məlum olmuşdur.

“Tariq” surəsinin üçüncü ayəsində isə dələn, dəlib keçən, dəlik açan, aydınladan mənalarını verən “ənnəcmu əssaqibu” ifadəsi ilə Tariqin qaranlığı dəlib keçən parlaq ulduz olduğu bildirilmişdir. “Tariq” surəsinin ikinci ayəsində də “**Sən nə bilirsən ki, Tariq nədir?!**” sualındakı “ədrakə” sözü qavramağı, dərk etməyi ifadə edir. Günəşdən bir neçə dəfə böyük olan ulduzların sıxılması nəticəsində əmələ gələn pulsarlar çətin görünən göy cisimlərindəndir. Ayədəki sual ilə bu döyünən ulduzu görməyin çətin olduğu vurğulanır (ən doğrusunu Allah bilir).

Göründüyü kimi, Quranda Tariq adlandırılan ulduzlar XX əsrin sonlarında kəşf edilmiş pulsarlarla bənzərlik təşkil edir və bizə Quranın başqa bir elmi möcüzəsini göstərir.

## Sirius ulduzu

Qurandakı bəzi anlayışları XXI əsrin elmi faktları ilə qarşılaşdırdıqda qarşımıza Quran möcüzələri çıxır. Bunlardan biri "Nəcm" surəsinin 49-cu ayəsində haqqında bəhs edilən Sirius ulduzudur:

**Şiranın (Sirius ulduzunun) da Rəbbi Odur! (Nəcm surəsi, 49)**

Ərəbcə "Şira" adlanan Sirius ulduzunun "ulduz" mənasını verən "Nəcm" surəsinin 49-cu ayəsində işlədilməsi çox diqqətçəkəndir. Çünki elm adamları gecələr göy üzündə ən parlaq ulduz olan Siriusun qeyri-müntəzəm hərəkətlərinə əsasən, onun cüt ulduz olduğunu kəşf etdilər. Buna görə də Sirius, Sirius A və Sirius B adlandırılan iki ulduzdan ibarət qoşa ulduzdur. Daha böyük olan Sirius A Yerə Sirius B-dən daha yaxındır və gözlə görünən ən parlaq ulduzdur. Sirius B ulduzunu isə teleskopsuz görmək mümkün deyil.

Sirius ulduzları bir-birlərinə doğru yay formasında çevrə çəkirlər və hər 49.9 ildə bir-birlərinə yaxın məsafədə trayektoriya cızırlar. Bu fakt Harvard, Ottava və Leysester Universitetlərinin astronomiya fakültələrinin yekdilliklə qəbul etdiyi elmi həqiqətdir. [55] Bəzi mənbələrdə belə bildirilir:

Ən parlaq ulduz olan Sirius, əslində, qoşa ulduzdur. Orbitində fırlanma müddəti 49.9 ildir. [56]

Məlum olduğu kimi, Sirius-A və Sirius-B ulduzları bir-birlərinin ətrafında hər 49.9 ildə bir dəfə qoşa yay şəkilli çevrə çəkərək fırlanırlar. [57]

Burada diqqətçəkən cəhət iki ulduzun bir-birləri ətrafında fırlanarkən yay şəkilli qoşa çevrə əmələ gətirməsidir.

Ancaq XX əsrin sonlarında məlum olan bu həqiqət möcüzəvi şəkildə 14 əsr əvvəl Quranda bildirilmişdir. "Nəcm" surəsini 49-cu və 9-cu ayələri birlikdə oxunduqda bu möcüzə qarşımıza çıxır:

**Şiranın (Sirius ulduzunun) da Rəbbi Odur! (Nəcm surəsi, 49)**

**(Onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu. (Nəcm surəsi, 9)**

"Nəcm" surəsinin 9-cu ayəsindəki "onların arasındakı məsafə" ifadəsi bizə bu iki ulduzun orbitinin bir-birlərinə yaxınlaşdığını bildirir (ən doğrusunu Allah bilir). Quranın vəhy edildiyi dövrdə kəşf edilməsi qeyri-mümkün olan bu həqiqət Quranın uca Rəbbimizin sözü olduğunu göstərir.

## İşıq və qaranlıqlar

**Göyləri və yeri  xəlq edən, zülmətləri və nuru yaradan Allah`a həmd olsun!.. (Ənam surəsi, 1)**

Məlumdur ki, işıq mənbəyi olmadıqda insan ətrafındakıları görə bilmir. Ancaq bizim gördüyümüz işıq, işıq yayan enerjinin çox az hissəsidir. İnsanın görmədiyi, lakin işıq yayan başqa enerji növləri də var: infraqırmızı, ultrabənövşəyi, rentgen şüaları və radiodalğalar. İnsan işığın bu dalğa uzunluqlarını görmür.

Quranda “zülmət” sözünün hər dəfə “zülmətlər” şəklində işlədilməsi bu baxımdan diqqətçəkəndir. Ərəb dilində “zülumat” kimi ifadə edilən “zülmətlər” sözü Quranda 23 ayədə cəm halda işlədilmişdir. Tək halda isə heç işlədilməyib. Quranda zülmət sözünün bu cür istifadə edilməsi bizim gördüyümüz işıq intervalından başqa müxtəlif işıq növləri olduğuna diqqət çəkir.

Buradakı cəm halının səbəbini elm adamları yaxın keçmişdə kəşf ediblər. Dalğa uzunluqları elektromaqnit şüalanma olan enerjinin müxtəlif formalarıdır. Elektromaqnit şüalanmanın bütün formaları kosmosda enerji dalğaları şəklində hərəkət edirlər. Bu, gölün üzərinə atılan daşların əmələ gətirdiyi dalğalara bənzəyir. Göldəki dalğaların ölçüsü necə fərqli olursa, elektromaqnit şüalanmanın da müxtəlif dalğa uzunluqları var.

Kainatdakı ulduzların və digər işıq mənbələrinin hamısı eyni cür işıq yaymır. Bu müxtəlif şüalar dalğa uzunluğuna görə fərqlənirlər. Şüaların yaydığı müxtəlif dalğa uzunluqları isə çox fərqlidir. Ən kiçik dalğa uzunluğuna malik olan qamma şüaları ilə ən böyük dalğa uzunluğu olan radiodalğalar arasında $10^{25}$ dəfə fərq var. Günəşin yaydığı şüaların, demək olar ki, hamısı bu $10^{25}$ yelpiyin tək bir bölümünə sığdırılmışdır.

Bu rəqəmin böyüklüyünü daha yaxşı qavramaq üçün belə müqayisə edə bilərik: əgər $10^{25}$ dəfə saymaq istəsək, gecə-gündüz heç dayanmadan Yerin yaşından 100 milyon dəfə çox müddət boyu saymalı olardıq. Kainatdakı müxtəlif dalğa uzunluqları bu qədər çoxçeşidlidir. Günəşdən yayılan müxtəlif dalğa uzunluqları isə 70%-i 0.3-1.50 mikron arasındakı dar çərçivədədir. Bu intervalda 3 cür işıq var: görünən işıq, yaxın infraqırmızı şüalar və yaxın ultrabənövşəyi şüalar. “Görünən işıq” adlandırılan bu şüaların elektromaqnit yelpiyin $10^{25}$-də 1-indən də az intervalında olmasına baxmayaraq, günəş şüalarının cəmi 41%-ni təşkil edir.

Göründüyü kimi, gözlərimizlə gördüyümüz elektromaqnit dalğaları işıq spektrinin çox kiçik hissəsini əmələ gətirir. Digər hissələr isə insan üçün geniş qaranlıqları ifadə edir və bu hüduddan kənarda qalan dalğa uzunluqlarını insan görmür.

# NƏTİCƏ

Buraya qədər təhlil etdiyimiz bütün məlumatlar bizə açıq həqiqəti göstərir: Quran elə bir kitabdır ki, içində verilən xəbərlərin hamısı doğru çıxmış və çıxır. Elmi mövzularda, keçmişdən və gələcəkdən verilən xəbərlərdə və ya riyazi şifrlərdə o dövrdə heç bir insanın bilmədiyi həqiqətlər ayələrdə xəbər verilmişdir. Bu məlumatların o dövrün elmi səviyyəsi və texnologiya ilə əldə edilməsi mümkün deyil. Əlbəttə, bu, Quranın insan sözü olmadığının açıq-aydın dəlilidir.

Quran hər şeyi yoxdan yaradan və elmi ilə bütün varlıqları əhatə edən uca Allah`ın sözüdür. Allah bir ayədə Quran haqqında: **"... Əgər o, Allah`dan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar**" (Nisa surəsi, 82) - buyurur. Qurandakı hər məlumat bu İlahi kitabın naməlum gizli möcüzələrini üzə çıxarır. İnsan isə Allah`ın nazil etdiyi bu İlahi kitaba bərk sarılmalı və onu özünə yolgöstərici qəbul etməlidir. Allah Quranda bizə belə bildirir:

**Bu Quran Allah`dan başqasına yalandan aid edilə bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiq edən kitabı ətraflı izah edər. Onun aləmlərin Rəbbi tərəfindən nazil edilməsinə heç bir şübhə yoxdur! Yoxsa: "Onu özündən uydurdu!" – deyirlər. De: "Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allah`dan başqa, kimə gücünüz çatırsa, onu da çağırın!" (Yunis surəsi, 37-38)**

**Bu nazil etdiyimiz mübarək bir kitabdır. Ona tabe olun və Allah`dan qorxun ki, bəlkə, sizə rəhm edilsin! (Ənam surəsi, 155)**

# QEYDLƏR


1. S. Waqar Ahmed Husaini, The Quran for Astronomy and Earth Exploration from Space, Goodword Press, 3-cü nəşr, New Delhi, 1999, səh. 103-108.
2. http://www.time.com/time/time100/scientist/profile/hubble.html
3. Philip Ball, "Black Crunch Jams Universal Cycle", Nature, 23 dekabr 2002; Dr. David Whitehouse, "Universe is 'doomed to collapse'", BBC News Online, 22 oktyabr 2002, http://news.bbc.co.uk/1/hi/sci/tech/2346907.stm; Mark Schwartz, "Cosmic 'big crunch' could trigger an early demise of our universe", Stanford Report, 25 sentyabr 2002.
4. Mark Schwartz, "Cosmic 'big crunch' could trigger an early demise of our universe", Stanford Report, 25 sentyabr 2002.
5- Mahdi La'li, A Comprehensive Exploration of the Scientific Mireacles in Holy Qur'an, Trafford, Kanada, 2003, səh. 35-38.
6- Ebu'l-A'lâ Mevdûdî, Tefhimu'l Kur'an; http://www.enfal.de/tefhim/)
7. Dr. Mazhar U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, ABD, 1998, səh. 53.
8. Meyers Lexikon in drei Bänden Bibliographisches Institut & F.A. Brockhaus AG, Mannheim 1995, Digitale Ausgabe LexiRom.
9. Carl Sagan, Cosmos, Wings Books, ABD, 1980, səh. 5-7.
10. K. Giberson, "The Anthropic Principle", Journal of Interdisciplinary Studies, 9-cu cild, 1997, səh. 63-90, Steven Yates'den cevap, səh. 91-104.
11. F. Bertola, U. Curi, The Anthropic Principle: Laws and Environments, Cambridge University Press, 1993, səh. 30.

12. Paul Davies, Superforce: The Search for a Grand Unified Theory of Nature, 1984, səh. 184.
13. Stephen Hawking, A Brief History Of Time, Bantam Press, London, 1988, səh. 121-125.
14. Michael Denton, Nature's Destiny, The Free Press, New York, 1998, səh. 12-13.
15. Michael J. Denton, Nature's Destiny, The Free Press, New York, 1998, səh. 11.
16. http://www.pathlights.com/ce_encyclopedia/01-ma10.htm#Elemental Forces
17. World Book Encyclopedia, 2003; Boston Üniversitesi'nde Astronomi ve Fizik Professörü Kenneth Brecher'in katkılarıyla.
18. Bilim ve Teknik, iyul 1983.
19. http://www.woodrow.org/teachers/esi/1998/p/weather/Corriolis.HTM
20. http://royal.okanagan.bc.ca/mpidwirn/ atmosphereandclimate/atmslayers.html; Michael Pidwirny, Atmospheric Layers, 1996.
21. http://www.tpub.com/weather3/4-27.htm
22. http://www.godandscience.org/apologetics/designss.html
23. http://webhome.idirect.com/~alila/Writings/Physics.htm
24. http://pubs.usgs.gov/publications/text/inside.html
25. http://www.wamy.co.uk/announcements3.html; Prof. Zighloul Raghib El-Naggar'ın konuşmasından.
26. Frank Press, Raymond Siever, Earth, 3-cü nəşr, W. H. Freeman & Company, San Francisco, 1982, səh. 413.
27. André Cailleux, Anatomy of the Earth, World University Library, London, səh. 220.
28. Edward J. Tarbuck, Frederick K. Lutgens, Earth Science, 3-cü nəşr, Charles E. Merrill Publishing Company, Columbus, 1982, səh. 158.
29. Carolyn Sheets, Robert Gardner, Samuel F. Howe, General Science, Allyn & Bacon Inc. Newton, Massachusetts, 1985, səh. 305.
30. http://www.beconvinced.com/science/QURANMOUNTAIN.htm
31. Frank Press, Raymond Siever, Earth, 3-cü nəşr, W. H. Freeman & Company, San Francisco, 1982.
32. M. J. Selby, Earth's Changing Surface, Clarendon Press, Oxford, 1985, səh. 32.
33. Carolyn Sheets, Robert Gardner, Samuel F. Howe, General Science, Allyn & Bacon Inc. Newton, Massachusetts, 1985, səh. 305.
34. Powers of Nature, National Geographic Society, Washington D. C., 1978, səh. 12-13.
35. http://www.irf.se/press/press_010309eng. html
36. http://science.nasa.gov/newhome/headlines/ast08dec98_1.htm
37. http://science.nasa.gov/newhome/headlines/ast08dec98_1.htm

38. Dr. Mazhar U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, ABD, 1998, səh. 115.
39. http://www.planetwaves.net/polar_NYT.html; New York Times, 19 avqust 2000.
40. http://nssdc.gsfc.nasa.gov/planetary/factsheet/earthfact.html
41. http://tea.rice.edu/schauer/6.23.2000.html; http://www.eri.utokyo.ac.jp/seno/sealevel_abst.html; http://theory.uwinnipeg.ca/mod_tech/node195.html; http://www.nekkah.com/Main/EngPage/Scientific_Signs_in_the_Quran.htm
42. Dr. Mazhar, U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, 1997, səh. 110-111; http://www.wamy.co.uk/announcements3.html; Prof. Zighloul Raghib El-Naggar'ın konuşmasından.
43. Dr. Mazhar, U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, 1997, səh. 110-111; http://www.wamy.co.uk/announcements3.html
44. http://www.istanbul.edu.tr/fen/astronomy/populer/cevre/cevresi.htm; Yard. Doç. Dr. Yüksel Karataş, İstanbul Üniversitesi Fen Fakültesi Astronomi ve Uzay Bilimleri Bölümü, Popüler Bilim (Popular Science Magazine), No. 92, 2001, səh. 38-43, [American Scientist, 88-ci cild, səh. 1].
45. Michael J. Denton, Nature's Destiny, The Free Press, 1998, səh. 198.
46. http://www.inmgmbh.de/cgibin/frame/frameloader.pl?sprache=en&url
http://www.inmgmbh.de/htdocs/technologien/highlights/highlights_en.htm
47. "Nanotechnology successfully helps cancer therapies", IIC Fast Track, Nanotech News from Eastern Germany, Industrial Investment Council, oktyabr 2003;www.iic.de/uploads
/media/NANO_FT_Nov2003_01.pdf
48. Benjamin Libet, "Unconscious cerebral initiative and the role of conscious will in voluntary action", The Behavioral and Brain Sciences, 1985, səh. 529-566.
49. http://www.genetikbilimi.com/genbilim/bilincbeyninkuklasi.htm
50. http://faculty.virginia.edu/consciousness/new_page_8.htm#5.10.%20Free%20will%20as%20the%20possibility%20of%20alternative%20action
51. http://www.2think.org/nothingness. shtml; Nothingness: The Science of Empty Space, Henning Genz, səh. 205.
52. http://www.therevival.co.uk/Revival_issue/vol5_iss2_quran_miracle.htm
53. http://i115srv.vuwien.ac.at/physik/ws95/w9560dir/w9561d10.htm
54. www.atnf.csiro.au/news/press/double_pulsar/
55. http://www.star.le.ac.uk/astrosoc/
whatsup/stars.html (Leicester edu dept of Physics & astronomy); http://www.site.uottawa.ca:4321/astronomy/index.html#Sirius (University of Ottowa); http://cfa-www.harvard.edu/~hrs/ay45/Fall2002/ChapterIVPart2.pdf (Harvard-Smithsonian Center for Astrophysics)

56. Exposes Astronomiques, La troisième loi de KEPLER, http://www.astrosurf.com/eratosthene/HTML/exposetheoastro.htm
57. http://www.dharma.com.tr/dkm/article.php?sid=87
- S. Waqar Ahmed Husaini, Qur'an for Astronomy and Earth Exploration from Space, 3. baskı, Goodword Books, New Delhi, 1999, səh. 175-182.

# Üçüncü fəsil

# İnsanın yaradılışı

Əgər insan düşünərək “mən necə mövcud olmuşam?” sualına cavab tapmağa çalışmasa, əsasən, “necə oldusa, oldum” kimi məntiqə qapılacaq. Bu məntiqə qapıldıqda da ona bu cür mövzular üzərində düşünməyə imkan tanımayan həyat tərzini mənimsəyəcək.

Halbuki, ağıl sahibi insan necə mövcud olduğunu düşünməli və həyatın mənasını buna əsasən müəyyənləşdirməlidir. Bu zaman bəzilərinin etdiyi kimi, nəticənin “mən yaradılmışam” olmasından qorxmamalıdır. Çünki o cür insanlar özlərini bir Yaradan qarşısında məsul hiss etmək istəmirlər. Yaradıldıqlarını qəbul etdikdə həyat tərzlərini, nizamlarını və ya ideologiyalarını tərk etməli olur və bundan çəkinirlər, Yaradana boyun əyməkdən qaçırlar. Bu psixologiyaya malik olanlar Quranda Allah`ın bildirdiyi kimi, **möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən** Allah`ı inkar edənlərdir.

Varlığını haqsızlıq və təkəbbür göstərmədən ağıl və vicdanla dəyərləndirən insan isə özündə Allah`ın yaratmasından başqa bir şey görməz. Varlığının özünün yaratmadığı və idarə etmədiyi minlərlə mürəkkəb sistemdən asılı olduğunu dərk edəcəkdir. Yaradılmış olduğunu qavrayacaq və Yaradanımız olan Allah`ı tanıyıb Onun insanı hansı məqsədlə yaratdığını anlamağa çalışacaq.

İnsan yaradıldığını dərk edərkən ona rəhbərlik edən bir mənbə var: Quran. Bu kitabı Yaradanımız olan Allah onun və digər insanlar üçün nazil etmişdir. Quran bütün insanlar üçün yolgöstəricidir. Yaradılışın eynilə Quranda tərif edildiyi kimi baş verməsi ağıl sahibi insanlara mühüm mesajlar verir. Növbəti səhifələrdə ağıl və vicdan sahiblərinə necə yaradıldıqlarını və bu yaradılışdakı ehtişamı göstərən məlumatlara yer verilmişdir.

İnsanın yaradılışı bir-birindən çox uzaq iki fərqli yerdə başlayır. İnsan qadın və kişi bədənindən bir-birindən asılı olmadan əmələ gələn, lakin bir-biri ilə tamamilə uyğun olan iki ayrı mayenin birləşməsi ilə həyata qədəm qoyur. Kişinin bədənində əmələ gələn sperma onun öz istəyi və ya iradəsi ilə əmələ gəlmir, eynilə qadının

orqanizmində əmələ gələn yumurta hüceyrə də qadının istəyi və ya iradəsi ilə əmələ gəlmir. Onların bu hadisələrdən xəbəri belə yoxdur.

**Sizi Biz yaratdıq. Bəs nə üçün təsdiq etmirsiniz? Bəs (bətnlərə) axıtdığınız nütfəyə nə deyirsiniz? Onu siz yaradırsınız, yoxsa Biz? (Vaqiə surəsi, 57-59)**

Əslində, aydındır ki, həm kişidən, həm də qadından gələn öz bir-birlərinə uyğun yaradılmışdır. Bu iki özün yaradılışı da, birləşməsi də, inkişaf edib insana çevrilməsi də böyük möcüzədir.

## KİŞİ CİNSİYYƏT ORQANLARI VƏ SPERMALAR

İnsanın yaradılışının ilk mərhələsi olan spermalar kişi orqanizmindən "kənarda" hazırlanır. Çünki bədən temperaturundan 2 dərəcə aşağı temperaturda bu baş verə bilər. Bu temperaturun tənzimlənməsi üçün cinsiyyət orqanının üzərindəki dəri də fəaliyyət göstərir. Bu dəri soyuqda büzüşərək, istidə isə genişlənib tərləyərək lazımi temperaturu sabit saxlayır. Görəsən, bu həssas müvazinəti insan özü tənzimləyir? Əlbəttə, xeyr. İnsanın bundan heç xəbəri də olmur. Yaradılışı israrla inkar edənlər bunu "insan orqanizminin kəşf edilməmiş funksiyası" adlandırırlar. Bu "kəşf edilməmiş funksiya" sözü isə "quru ad"dan başqa bir şey deyil.

Cinsiyyət orqanlarında dəqiqədə 1000 ədəd əmələ gələn spermalar kişidən qadının yumurtalığına doğru edəcəkləri səyahəti sanki oradakı mühiti bilirmiş kimi xüsusi dizayna malikdirlər. Sperma baş, boyun və quyruqdan ibarətdir. Quyruğu spermin balıq kimi ana bətnində hərəkət etməsinə kömək edir.

Körpənin genetik şifrinin bir qismini ehtiva edən baş hissə isə xüsusi qoruyucu zirehlə örtülüdür. Bu zirehin faydasını ana bətninin girişində görmək olur: burada turşulu mühit mövcuddur. Spermanın bu turşunun varlığını bilən biri tərəfindən qoruyucu zirehlə örtüldüyü isə çox açıqdır (bu turşulu mühit isə ananın mikroblardan qorunması üçündür).

Kişidən bətnə təkcə milyonlarla sperma tökülmür. Nütfə bir-birindən fərqli mayelərin qarışığından ibarətdir. Allah Quranda bu həqiqəti belə vurğulayır:

**İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır! Həqiqətən, Biz insanı qarışıq bir nütfədən yaratdıq… (İnsan surəsi, 1-2)**

Nütfənin tərkibindəki bu mayelərdə tələb olunan enerjini təmin etmək üçün şəkər var. Bundan əlavə, ana bətninin girişindəki turşuları zərərsizləşdirmək, spermanın hərəkət etməsi üçün lazımi sürüşkən mühiti əmələ gətirmək vəzifələri də var. Burada da iki ayrı, bir-birindən asılı olmayan maddənin bir-biri ilə qüsursuz uyğunluq içində yaradıldığını görürük.

Spermalar yumurtaya çatana qədər ananın bətnində çətin yol keçirlər. Özlərini nə qədər qorusalar da, 200-300 milyon spermadan yumurtalığa çatanların sayı 1000-dən artıq olmur.

## YUMURTA HÜCEYRƏ

Sperma yumurtaya uyğun dizayn olunarkən, eyni zamanda, yumurta da həyata toxum olmağa hazır vəziyyətə gətirilir… Qadının xəbəri yox ikən yumurtalıqlarda əmələ gələn yumurta əvvəlcə qarın boşluğuna buraxılır, dərhal sonra da ana bətnində uşaqlıq boruları ilə tutulur. Daha sonra yumurta hüceyrə uşaqlıq yolunun daxili səthindəki tüklərin hərəkəti ilə irəliləyir. Yumurta hüceyrənin ölçüsü bir duz dənəciyinin yarısına bərabərdir. (sağda)

Yumurta hüceyrə ilə sperma uşaqlıq yolunda görüşürlər. Burada yumurta xüsusi maye ifraz etməyə başlayır. Bu maye vasitəsilə spermalar yumurtanın yerini tapırlar. Bu cəhətə diqqət edək, yumurta xüsusi maye ifraz etməyə başlayır deyərkən insandan və ya şüurlu varlıqdan danışmırıq. Bu kiçik zülal yığınının öz-özünə belə bir şeyə qərar verməsi, habelə, spermanı cəlb edən kimyəvi birləşmə hazırlayıb ifraz etməsi təsadüflə açıqlana bilməz. Ortada açıq-aşkar yaradılış var.

Allah orqanizmin çoxalma sistemini xüsusilə yumurta ilə spermanı görüşdürəcək şəkildə yaratmışdır. Qadın çoxalma sistemini spermalara, spermaları da qadın orqanizminə uyğun yaratmışdır.

## SPERMA İLƏ YUMURTANIN GÖRÜŞMƏSİ

Yumurtanı dölləyən sperma yumurtaya yaxınlaşdıqda yumurtanın ifraz etməyə qərar verdiyi (!) və sperma üçün xüsusi hazırlanmış maye spermanın qoruyucu zirehini əridir. Nəticədə, bu dəfə spermanın ucunda yerləşən və yumurta üçün xüsusi hazırlanmış əridici ferment kisəcikləri üzə çıxır. Sperma yumurtaya çatdıqda bu fermentlər yumurtanın pərdəsini deşərək spermanın içəri girməsini təmin edirlər. Yumurtanın ətrafını əhatə edən spermalar içəri girmək üçün yarışa başlayırlar. Ancaq yumurtanı, əsasən, bir sperma mayalandırır.

Allah`ın Quranda bu mərhələ ilə bağlı verdiyi məlumatlar çox diqqətçəkəndir. Allah Quranda insanı nütfədən yaratdığını belə bildirir:

**Sonra onun nəslini nütfədən – bir qətrə zəif sudan əmələ gətirdi. (Səcdə surəsi, 8)**

Allah`ın ayədə bildirdiyi kimi, yumurtanı spermaları daşıyan maye deyil, içindəki bircə sperma, hətta onun da tərkibində olan xromosomlar mayalayır. Bircə spermanı içəriyə qəbul edən yumurtaya başqa bir spermanın daxil olması mümkün deyil. Bunun səbəbi yumurtanın ətrafındakı elektrik sahəsidir. Yumurtanın ətrafı mənfi yüklüdür və ilk sperma yumurtaya daxil olan kimi bu elektrik yükü potensial elektrikə - müsbətə çevrilir. Beləliklə, kənardakı spermalarla eyni elektrik yükünü daşıyan yumurta bu dəfə onları itələməyə başlayır.

Çünki yəni həm yumurtanın, həm də spermaların elektrik yükləri bir-birinə uyğundur.

Nəticədə, kişinin DNT-si ilə qadının DNT-si birləşir. Artıq ananın bətnində yad, yeni bir hüceyrə (ziqot), yeni bir insanın ilk toxumu var.

## ANA BƏTNİNƏ YAPIŞAN ƏLƏQ

Kişidən gələn sperma və qadındakı yumurta yuxarıda dediyimiz kimi birləşdikdə doğulacaq körpənin ilk hüceyrəsi əmələ gəlir. Biologiyada ziqot adlandırılan bu tək hüceyrə heç vaxt itirmədən bölünərək çoxalır və getdikcə ət parçasına çevrilir.

Ancaq ziqot boşluqda böyüyə bilməz. Ana bətninin daxili divarına çıxıntıları vasitəsilə yapışır, bu çıxıntılar vasitəsilə inkişafı üçün lazım olan maddələri ananın orqanizmindən alır.

Şübhəsiz, bu prosesi tibbi bilik olmadan müəyyən etmək olmaz. 14 əsr əvvəl insanlar bu məlumatları bilmirdilər. Lakin maraqlıdır ki, Allah Quranda ana bətnində böyüməyə başlayan ziqotdan bəhs edərkən onu "ələq" adlandırır:

**Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! (Ələq surəsi, 1-3)**

**Məgər insan elə güman edir ki, o, başlı-başına buraxılacaq?! Məgər o tökülən bir qətrə nütfə deyildimi?! Sonra laxtalanmış qan oldu və (Allah) onu yaradıb surət verdi. Ondan da bir cüt kişi və qadın yaratdı. (Qiyamət surəsi, 36-39)**

Ayədəki "laxtalanmış qan" birləşməsi ərəb dilində "ələq" sözi ilə ifadə edilmişdir. "Ələq" "bir yerdən yapışan şey" deməkdir. Hətta bu söz bədənə yapışıb qanı soran zəlilərə də deyilir. Bu sözün ana bətninin divarına yapışıb oradan inkişafı üçün lazımlı maddələri soran ziqotu tərif etmək üçün istifadə olunan ən uyğun söz olduğu açıq görünür.

Allah`ın Quranda ziqot haqqında verdiyi məlumatlar bununla məhdudlaşmır. Döl yatağına yapışmış ziqot inkişaf etməyə başlayır. Ana bətni isə amniotik maye ilə doludur və bu maye ziqotu əhatə edir. Amniotik mayenin ən əsas xüsusiyyəti kənardan gələn zərbələrə qarşı körpənin təhlükəsizliyini təmin etməsidir. Quranda bu həqiqəti Allah belə bildirir:

**Məgər sizi bir qətrə zəif sudan yaratmadıqmı?! Biz onu möhkəm bir yerdə saxladıq. (Mursəlat surəsi, 20-21)**

İnsanın əmələ gəlməsi haqqında verilən məlumatlar Quranın bu prosesi ən incə təfərrüatına qədər bilən mənbədən gəldiyini göstərir. Bu, bizə Quranın Allah`ın sözləri olduğunu bir daha sübut edir.

Zaman ərzində əvvəlcə jelatinə bənzəyən rüşeymdə böyük dəyişiklik baş verir. Əvvəlki yumşaq rüşeymin içində orqanizmin dik dayanmasını təmin edən bərk sümüklər əmələ gəlir. Belə ki, əvvəlcə eyni formaya malik olan hüceyrələr dəyişərək bəzisi işığa həssas göz hüceyrələrini, bəzisi istini, soyuğu və ya ağrını hiss edən sinir hüceyrələrini və ya səs titrəyişlərini qavrayan hüceyrələri əmələ gətirir. Bu proseslərə hüceyrələr özləri qərar verir? Öz-özlərinə insanın gözünü və ya ürəyini əmələ gətirməyi

qərar verib bu ağlasığmaz işi onlar edir? Yoxsa onlar bu işə uyğun yaradılıblar? Heç şübhəsiz, ağıl və vicdan ikinci variantı qəbul edəcəkdir.

Bütün bu proseslər nəticəsində körpə ana bətnində inkişafını tamamlayır və dünyaya gəlir. Doğulduqdan sonra ana bətnindəki vəziyyətindən 100 milyon dəfə böyük, 6 milyard dəfə ağırdır... Burada izah edilənlər başqa hər hansı canlının deyil, bizim həyata başlanğıc hekayəmizdir. İnsan üçün bu cür mürəkkəb, qeyri-adi hadisənin mənbəyini tapmaqdan daha önəmli nə ola bilər?

Bütün bu mürəkkəb proseslərin öz-özünə baş verdiyini düşünmək ağıldan kənardır. Heç kim özünü və ya başqa bir insanı, hətta başqa bir maddəni yaratma gücünə malik deyil. Bəhs edilən mükəmməl sistemlərin hamısını Allah yaradır. Həm də hər anını, hər saniyəsini və hər mərhələsini...

**Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq kitabda (lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır. (Fatir surəsi, 11)**

Nütfədən insana çevrilən bədənimiz milyonlarla həssas müvazinətdən ibarətdir. Biz fərqinə varmasaq da, orqanizmimizdə yaşamağımızı təmin edən çox mürəkkəb və həssas sistemlər var. Bütün bu sistemləri insanın özünün yaradıldığını anlaması üçün hər şeyin yeganə sahibi, yaradanımız və Rəbbimiz olan Allah yaradır.

İnsan Allah`ın yaratdığı bir varlıqdır. Yaradıldığına görə özbaşına və nəzarətsiz buraxılmayacaq.

## ANA SÜDÜ

Spermadan körpəyə çevrilən yeni insanın qidalanması da öz-özlüyündə bir möcüzədir. Körpə üçün xüsusi hazırlanan və hazırlanması nə ananın, nə də başqasının iradəsi daxilində olmayan ana südü ən xeyirli qidadır.

Ana südü tərkibindəki maddələrə görə həm yeni doğulan körpə üçün mükəmməl qida mənbəyi, həm də körpənin və ananın xəstəliklərə qarşı müqavimətini artıran qidadır. Həkimlər süni hazırlanan körpə yeməklərinin ancaq süd kifayət etmədikdə istifadə edilməsini, uşağın xüsusilə ilk aylarda ana südü ilə qidalanmasını tövsiyə edirlər. Ana südü haqqında bir az məlumat alaq:

- Ana südünün ən maraqlı xüsusiyyəti körpənin inkişaf dövrlərinə uyğun tərkibinin dəyişməsidir. Südün kalori dəyəri və qida tərkibi körpənin erkən və ya vaxtında doğulmasından asılı olaraq dəyişir. Körpə erkən doğulubsa, ana südünün tərkibindəki yağ və zülalın miqdarı normal doğulmuş uşağa görə daha çoxdur. Çünki erkən doğulan körpənin yüksək kaloriyə ehtiyacı var.
- Körpənin ehtiyacı olan immun sisteminin tərkib hissələri, yəni antikorlar və immun hüceyrələri ana südünün içində körpəyə hazır verilir, sanki

muzdlu əsgərlər kimi aid olmadıqları orqanizmi qoruyur və körpəni düşmənlərindən müdafiə edirlər.

- Antibakterialdır. Otaq temperaturunda altı saat saxlanılan süddə bakteriyalar çoxalaraq südü çürüdür, lakin bu müddət ərzində ana südündə bakteriya əmələ gəlmir.
- Körpəni damar bərkliyindən qoruyur.
- Tez həzm olunur.

Müasir laboratoriyalarda qida mütəxəssislərinin hazırladığı uşaq yeməklərinin heç biri ana südü qədər faydalı deyil. Bu uşaq yeməklərindən ən üstünü olan ana südünün laboratoriyada deyil, insanın orqanizmində, ananın xəbəri belə olmadan kimin tərəfindən hazırlandığı necə açıqlana bilər? Aydındır ki, ana südünü o südə ehtiyacı olan körpəni yaradan Allah yaratmışdır.

## ORQANİZMİMİZDƏKİ CİHAZLAR

Allah Quranın bir çox ayəsində insanın yaradılışına diqqət çəkmiş və insanları bu yaradılış üzərində düşünməyə dəvət etmişdir:

**Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir? O Rəbbin ki, səni (yoxdan) yaratdı, düzəldib qaydaya saldı. Sənə Özü istədiyi surətdə biçim verdi. (İnfitar surəsi, 6-8)**

Allah insanı müəyyən nizamla yaratmışdır. İnsan təbiətdəki ən mükəmməl, ən mürəkkəb və qeyri-adi sistemlərə malik canlılardan biridir.

İnsan orqanizmi təxminən 60-70 kiloluq ət və sümük yığınıdır. Məlumdur ki, ət təbiətdəki ən davamsız məmulatlardan biridir. Açıq havada qaldıqda bir neçə saata xarab olur, bir-iki günə qurdlanır və dözülməz qoxu yayır. Bu çürük məmulat insan orqanizminin böyük hissəsini təşkil edir. Lakin onu qidalandıran qan dövranı və xarici aləmdəki bakteriyalardan qoruyan dəri sayəsində 70-80 il boyu xarab olmadan, çürümədən qalır.

Orqanizmimizin funksiyaları heyrətamizdir. Məsələn, beş duyğu orqanımız ayrı-ayrılıqda hər biri bir möcüzədir. İnsan xarici aləmi bu yolla tanıyır, bu duyğu orqanlarının birgə işi nəticəsində rahat yaşayır. Görmə, qoxulama, toxunma, eşitmə, dad bilmə duyğularını tədqiq etdikdə qarşımıza çıxan detallar, qüsursuz formalar bir Yaradanın varlığını sübut edən dəlillər kimi qarşımıza çıxır.

İnsan orqanizmindəki möcüzələr sadəcə beş duyğu orqanı ilə məhdudlaşmır. Həyatı bizim üçün asanlaşdıran bütün orqanların hər biri bir möcüzədir. Hamısı ehtiyacımızı qarşılayan funksiyalara malikdir. Əlsiz yaradılsaydıq, nə qədər çətin yaşayardıq? Ayaqlarımız olmasaydı, bədənimiz dəri ilə deyil, tikan, pulcuq və ya qabıqla örtülü olsaydı, nələr baş verərdi?

Bu sadalananlarla bərabər, insan orqanizmindəki tənəffüs, qidalanma, çoxalma, immun sistemi kimi mürəkkəb sistemlər və orqanizmimizin estetikliyi də ayrı-ayrı möcüzələrdir.

Göründüyü kimi, insan orqanizmində çoxlu sayda həssas tarazlıq var. Bir-birləri ilə əlaqədar işləyən sistemlərin orqanizmdəki digər sistemlərlə olan qüsursuz əlaqəsi sayəsində insan həyati funksiyalarını heç bir çatışmazlıq olmadan həyata keçirir.

Bütüm bunları heç bir xüsusi səy göstərmədən, çətinliklə qarşılaşmadan edir. Hətta bütün bunlar baş verərkən çox vaxt insanın bunlardan xəbəri olmur. Mədəsindəki həzm prosesinin nə vaxt başlayıb nə vaxt bitdiyini, ürək döyüntüsündən qanın lazımi yerlərə ən lazımlı maddələri daşımasından, görmə, eşitmə prosesinə qədər çox şeydən insanın xəbəri olmur.

İnsan orqanizmində qüsursuz sistem qurulmuşdur və mükəmməl işləyir. Bu göydən yerə qədər hər işi idarə edib yoluna qoyan Allah`ın yaratmasıdır. Allah kainatdakı hər şeyi, hər detalı, bütün canlıları lazımi xüsusiyyətlərlə birlikdə yaratmışdır. İnsan orqanizmi də hərtərəfli tədqiq olunduqda qarşımıza çıxan qüsursuzluq Allah`ın yaratma sənətindəki bənzərsizliyin və mükəmməlliyin dəlilidir.

Allah kainatdakı qüsursuzluğa "Mülk" surəsində belə diqqət çəkir:

**... Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! (Mülk surəsi, 3-4)**

İnsan orqanizmindəki saysız-hesabsız həssas tarazlıqlardan bir neçəsi bunlardır:

Beş duyğu orqanı məhz insanın ehtiyacına uyğun nizamlanmışdır. Məsələn, qulaq ancaq müəyyən aralıqdakı səs titrəyişlərini eşidir. Daha geniş aralıqdakı səsləri eşitmək üstünlük hesab edilə bilər. Bu eşitmə sinirləri müəyyən məqsədə əsasən tənzimlənmişdir. Əgər çox həssas qulağımız olsaydı, ürəyimizin döyüntülərini, yerdəki mikroskopik həşəratların xışıltısını və bir çox başqa səsləri eşidərdik. Bu da bizə çox narahatlıq verərdi.

Eyni həssas ölçü toxunma hissinə də aiddir. İnsan dərisinin altında yerləşən toxunuşa həssas sinirlər ən mükəmməl şəkildə tənzimlənmiş və bədənimizə yayılmışdır. Ən çox sinir ucu barmaq uclarında, dodaqlarda və cinsiyyət orqanlarındadır. Daha əhəmiyyətsiz hissələrdə, məsələn, kürəkdə çox az sinir ucu var. Bu insana böyük üstünlük verir. Əksini düşünək: barmaq uclarının çox hissiyyatsız olduğunu, bütün sinir uclarının kürəkdə toplandığını təsəvvür edək. Şübhəsiz, bu, çox narahatlıq verərdi. Əlimizdən yaxşı istifadə edə bilməzdik, kürəyimizə toxunan ən kiçik maddəni belə, məsələn paltarlarımızın qırışlarını hiss edərdik.

Orqanizmimizin başqa hissələrinin də əmələ gəlməsi həssas müvazinətə nümunədir. Məsələn, saç və kirpiklər. Hər ikisi tükdür, lakin bərabər uzanmırlar. Kirpiklərin saçlar qədər uzanıb gözlərimizin üstünə düşdüyünü düşünün. Həm görməyimizə mane olar, həm də gözə girərək bizim üçün həyati əhəmiyyət daşıyan bu orqanımıza zərər verər. Kirpiklərin müəyyən uzunluğu var və bu uzunluq sabit qalır. Yandıqda və ya buna bənzər qəza baş verdikdə kirpiklərimiz qısalarsa, yenidən əvvəlki ideal ölçüyə çatana qədər uzanırlar.

Habelə, kirpiklərin forması da çox əhəmiyyətlidir. Bir az yuxarı qıvrıldıqlarına görə həm gözün görməsinə mane olmur, həm də çox estetik görünüş verirlər. Kirpiklər göz qapağının ucundan çıxarkən buradakı xüsusi vəzlərdən ifraz olunan yağ ilə örtülürlər. Ona görə də kirpiklər fırça kimi bərk və düz deyil. İnsan bədəninin hər yerində çox incə detallara malik yaradılış möcüzəsi var...

Bu ölçülü yaradılış yeni doğulan körpədə də, böyümə dövründəki insanlarda da özünü göstərir. Məsələn, yeni doğulan körpənin kəllə sümükləri çox yumşaq olur. Bu sümüklər bir-birinin üzərində yüngülcə hərəkət edirlər. Bu elastikliyə görə körpənin başı doğuş zamanı zədə almır. Əgər kəllə sümükləri doğuş zamanı bərk olsaydı, ananın bətnindən çıxarkən çatlayar, hətta qırılardı və beləliklə, körpənin beyninə ciddi zərər verərdi.

Eyni şəkildə, böyümə dövründə olan insanda bütün orqanlar bir-birinə uyğun şəkildə böyüyür. Məsələn, inkişaf edən kəllədə beyinlə birlikdə onu əhatə edən kəllə sümüyü də böyüyür. Beyinə nisbətən daha yavaş böyüyən kəllə sümüyü olsaydı, beyini sıxar və qısa müddətdə insanın ölümünə səbəb olardı.

Ürək və ağciyərlər döş qəfəsi, gözlə göz çuxuru kimi başqa orqanlar da eyni ahəng içində böyüyür.

Ona görə, yaradılışdakı sənəti və qüdrəti görmək üçün öz bədənimizdəki qeyri-adi sistemləri təhlil etməkdə fayda var. Üstün texnologiyaya malik və ən təkmil fabriklərdən daha qüsursuz quruluşa malik insan orqanizminin hər hissəsi Allah`ın bənzərsiz yaratmasını göstərir, Onun bütün bədənimizə sahib olduğunu sübut edir.

İnsan orqanizmindəki sistemləri və orqanları tədqiq etdikdə qüsursuz və ölçülü yaradılış dəlillərini daha yaxından görərik.

## HƏZM SİSTEMİ

Həzm prosesinin başlanğıcında ifraz olunan tüpürcək qidanı isladaraq dişlərlə çeynənməsini və yemək borusundan keçməsini asanlaşdırır. Digər xüsusiyyəti kimyəvi tərkibinə görə nişastanı şəkərə çevirməsidir. Ağızda bu qədər mühüm maddə olan tüpürcəyin ifraz olunmadığını düşünün. Bu halda, nə yediklərinizi uda bilər, nə də ağız quruluğuna görə düzgün danışa bilərdik. Heç bir bərk qidanı yeyə bilməz, sadəcə maye və mayeyə yaxın maddələrlə qidalana bilərdik.

Mədədəki sistem də mükəmməldir. Qidaların mədədə həzm olunması bu orqanın içindəki hidroxlorid turşusu vasitəsilə həyata keçirilir. Ancaq bu turşu o qədər təsirlidir ki, təkcə qidaları deyil, mədə divarını belə əridə bilər. Lakin bunun üçün də tədbir görülmüşdür: həzm vaxtı ifraz olunan selik mədənin bütün divarlarını örtür və turşunun parçalayıcı təsirinə qarşı müdafiə qatı təşkil edir. Beləliklə, mədənin öz-özünü məhv etməsinin qarşısı alınır. Seliyin tərkibindəki kiçik bir çatışmazlıq onun qoruyucu xüsusiyyətini aradan qaldırar. Halbuki, istər mədənin həzm turşusunda, istərsə də o selikdə qüsursuz uyğunluq var.

Mədə boş olarkən zülalları, yəni ət kimi heyvan məhsullarını parçalayan selik mədədə olmur. Daha doğrusu, mədə boş ikən bu selik tamamilə fərqli, parçalayıcı xüsusiyyəti olmayan maddə kimi mədədə olur. Zülal tərkibli qida mədəyə düşdükdə ifraz olunan hidroxlorid turşusu bu təsirsiz seliyi güclü zülal parçalayıcısına çevirir. Beləcə, mədə boş qaldıqda bu güclü zülal parçalayıcı selik zülallardan ibarət mədəyə zərər vermir.

Burada bir cəhətə diqqət etməliyik: sözügedən sistemi təkamül nəzəriyyəsi heç cür açıqlaya bilmir. Çünki təkamül kiçik forma dəyişikliklərinin mərhələ-mərhələ baş verməsi ilə ibtidai canlılardan bugünkü mürəkkəb canlıların əmələ gəldiyini iddia edir. Halbuki, açıq-aydın görünür ki, mədədəki sistemin mərhələ-mərhələ əmələ gəlməsi qeyri-mümkündür. Bircə amilin olmaması canlının həyatına son qoyar. Təkamülün əsassızlığını daha yaxşı anlamaq üçün bir nümunə kifayət edər. Mədəsinin ifraz etdiyi turşu ilə öz mədəsini əridən canlı düşünün. Ağrı çəkərək əvvəlcə mədəsi parçalanar, daha sonra digər daxili orqanları bu turşu ilə məhv edilər. Canlı öz-özünü yeyərək ölər.

Mədədəki mayenin qida gəldikdə parçalayıcı xüsusiyyət qazanması bir sıra ardıcıl kimyəvi reaksiya nəticəsində baş verir. “Təkamül prosesi” zamanı mədəsində bu cür planlı kimyəvi çevrilmə olmayan bir canlı düşünün. Mədəsindəki maye parçalayıcıya çevrilməyən canlı yediklərini həzm edə bilməz, qarnında həzm olunmamış qida olduğu halda, orqanizmi qida tələb etdiyi üçün ölərdi.

Bu mövzunu başqa cəhətdən təhlil edək. Mədə turşusunu mədə hüceyrələri ifraz edir. Bu hüceyrələr də, bədənin hər hansı yerindəki digər hüceyrələr də (məsələn, göz hüceyrələri) ana bətnində bölünərək əmələ gəlmiş eyni kökdən olan hüceyrələrdir. Habelə, hər ikisinin genetik məlumatı yenidir. Yəni hər iki hüceyrənin məlumat bankında həm gözün ehtiyacı olan zülalların, həm də mədədə istifadə edilən turşunun genetik məlumatı var. Lakin haradan gəldiyi bilinməyən əmrə tabe olan göz hüceyrəsi milyonlarla məlumatın içindən sadəcə gözə aid məlumatlardan, mədə hüceyrəsi də mədəyə aid məlumatlardan istifadə edir. Bəs gözə aid zülalları nə üçün hasil etdiyi məlum olmayan göz hüceyrələri bir gün mədə turşusu hasil etməyə başlasalar (çünki mədə turşusunun necə hasil ediləcəyinə dair məlumata malikdirlər), nəticədə, nə baş verərdi? İnsan gözünü əridər və həzm edərdi.

Öz daxilimizdəki mükəmməl sistemi təhlil etməyə davam edək:

Həzm prosesinin davamı da eyni şəkildə planlıdır. Qidaların həzm sistemi tərəfindən parçalanmış faydalı hissələri nazik bağırsaq çəpərləri ilə sorularaq qana qarışır. Nazik bağırsağın daxili səthi eninə xovları olan məxmər parçaya bənzəyir. Hər qırışın üzərində “villus” adlanan daha kiçik xovlar var. Bu xovlar sayəsində faydalı maddələri soran bağırsağın səthinin sahəsi artır. Xovların üzərindəki hüceyrələrin üst hissələrində də “mikroxov” adlanan mikroskopik çıxıntılar var. Bu çıxıntılar nasos kimi qida maddələrini sorur. Habelə, bu nasosların içi müxtəlif qidalara uyğun kapillyarlarla qan dövranı sisteminə bağlanmışdır. Beləliklə, nasosların sorduğu qida maddələri qan dövranı sistemi ilə orqanizmin hər yerinə çatdırılır.

Hər xovun təqribən 3000 mikroxovu var. Nazik bağırsağın daxili səthində 1 $mm^2$ sahə 200 milyona qədər  mikroxovla örtülüdür. 1 $m^2$-ə yerləşən 200 milyon nasos hər an insanın həyatını davam etdirməsi üçün yorulmadan, xarab olmadan işləyir. Bu qədər çox nasos çox böyük və geniş səthin qırışdırılması ilə kiçik yerə sığışdırılmışdır. Bu sistem aldığımız qida maddələrindən orqanizmimizin maksimum dərəcədə faydalanmasını, nəticə etibarilə həyatımızın davam etməsini təmin edir.

## TƏNƏFFÜS

Tənəffüs həssas sistemdir. Nəfəs alarkən ciyərlərimizə çəkdiyimiz havanın soyuq və kirli olması sağlamlığımıza mənfi təsir edər. Ona görə, hava əvvəlcədən təmizlənməli və isidilməlidir. Burnumuz bu işə uyğun yaradılmışdır. Burun divarlarındakı tüklər və içəridəki yapışqan maddə içəri daxil olan havadakı tozları udaraq havanı bir növ süzür. Bundan əlavə, hava burunun içindəki qırışlardan keçərək isinir. Burun sümükləri elə xüsusi quruluşdadır ki, içəri daxil olan hava burunun içində bir neçə dəfə dolandıqdan və isindikdən sonra  ağciyərlərə gedə bilər. Kiçik sümüyün içində hava axınını bir neçə dəfə dolandıran forma ancaq xüsusi yaradılışın əsəri ola bilər. Çünki havanın hərəkətini istiqamətləndirmək üçün bir sıra hesablama və planlaşdırma işləri aparmaq lazımdır. Belə xüsusi formanın başqa sistemin ehtiyacını təmin etmək – ağciyərə gedən havanı isitmək və təmizləmək – üçün mövcud olması hər iki sistemi Allah`ın xüsusi yaratdığını sübut edir. Bütün sadaladığımız mərhələlərdən sonra hava nəmləndirilmiş və tozlardan təmizlənmiş şəkildə nəfəs borusuna daxil olur.

## SKELET

Skelet öz-özlüyündə mühəndislik möcüzəsidir. Orqanizmin dayaq sistemidir. Eyni zamanda, beyin, ürək, ağciyər kimi həyati orqanları qoruyur, daxili orqanlara dəstək olur. İnsan orqanizminə heç bir süni cihaz tərəfindən təqlid olunmayan üstün hərəkət qabiliyyəti verir. Habelə, sümük toxuması cansız deyil. Bu toxuma orqanizmin kalsium, fosfat və digər mühüm minerallarının toplandığı yerdir. Orqanizmin ehtiyacına uyğun olaraq bu mineralları toplayır və ya daha əvvəl topladıqlarını orqanizmə verir. Bütün bunlarla yanaşı, qırmızı qan hüceyrələri də sümüklərdə əmələ gəlir.

Skelet həm bütövlükdə mükəmməl funksiya yerinə yetirir, həm də onu təşkil edən sümüklər üstün quruluşa malikdir. Bədənin hərəkəti və qorunması kimi mühüm funksiyanı yerinə yetirən sümüklər bu işi asanlıqla yerinə yetirəcək qabiliyyətə və möhkəmliyə malikdirlər. Bədənin üzləşdiyi bütün çətin vəziyyətlər də buna daxildir. Məsələn, omba sümüyü dik vəziyyətdə ikən bir ton ağırlığa tab gətirir. Belə ki, atılan hər addımda omba sümüyümüzə bədən ağırlığımızdan üç dəfə artıq yük düşür. Hətta tirlə yüksəklikdən tullanan atlet yerə enərkən çanaq sümüyünün hər $sm^2$-i 1400 kq təzyiqə məruz qalır. Bəs bircə hüceyrənin bölünməsi nəticəsində əmələ gələn sümüyü bu qədər möhkəm edən nədir? Sualın cavabı sümüklərin bənzərsiz yaradılışında gizlənmişdir.

Mövzunu daha yaxşı anlamaq üçün müasir texnologiyadan bir nümunə vermək yerinə düşər. Böyük və hündür binaların inşasında qəfəs sistemlərindən istifadə edilir. Bu inşaat texnikasında tikilinin daşıyıcı üzvləri bütöv formada deyil, bir-birinə keçmiş qəfəs formasında çubuqlardan təşkil olunur. Yalnız kompyuterlərin apardığı mürəkkəb hesablamalarla böyük körpülər və sənaye tikililəri daha möhkəm və ucuz inşa edilir.

Sümüklərin daxili quruluşu da insanların binalarda və körpülərdə istifadə etdiyi qəfəs sisteminə bənzərdir. Lakin sümüyün içindəki sistem insanların istifadə etdiyi qəfəs inşaat sistemindən daha üstün və mürəkkəbdir. Bu sayədə sümüklər həm olduqca möhkəm, həm də yüngüldür. Əgər əksi olsaydı, yəni sümüklərin içi də çölü kimi bərk və dolu olsaydı, həm sümüyün ağırlığını insan daşıya bilməzdi, həm də sümük bərk və kövrək olduğu üçün bir zərbədə çatlayar və ya sınardı.

Sümüklərimizin bu mükəmməl yaradılışı bizim çox rahat yaşamağımızı, çox çətin hərəkətləri asanlıqla və ağrısız etməyimizi təmin edir. Sümüyün quruluşunun başqa bir xüsusiyyəti də orqanizmin lazımi yerlərində elastik olmasıdır. Məsələn, döş qəfəsi ürək və ağciyər kimi həyati orqanları qoruyur, eyni zamanda, ağciyərlərə havanın dolub-boşalması üçün genişlənir və sıxılır.

Sümüklərin elastikliyi zaman ərzində dəyişir. Məsələn, qadınlarda çanaq sümükləri hamiləliyin son aylarında yumşalır və bir-birlərindən bir az ayrılır. Bu, çox mühüm detaldır, çünki bu yumşalma sayəsində doğuş zamanı uşağın başı əzilmir.

Sümüklərdəki möcüzələr bunlarla məhdudlaşmır. Sümüklər elastikliyi, möhkəmliyi və yüngüllüyü ilə bərabər özlərini təmir etmə xüsusiyyətinə də malikdirlər. Bu da orqanizmdəki bir çox proses kimi milyonlarla hüceyrənin birlikdə işləməsi ilə baş verir.

Skeletin hərəkət qabiliyyəti də başqa bir detaldır. Hər addım atdıqda onurğamızı təşkil edən fəqərələr bir-birinin üstündə hərəkət edirlər. Bu müntəzəm hərəkət və sürtünmə fəqərələrin aşınmasına səbəb ola bilər, lakin bu təhlükənin qarşısını almaq üçün hər fəqərənin arasında disk adlanan möhkəm qığırdaqlar yerləşdirilmişdir. Bu disklər amortizator funksiyasını yerinə yetirir. Habelə, hər addım atdıqda bədənin ağırlığından qaynaqlanan itələmə qüvvəsi də yerdən gəlir. Bu qüvvə onurğanın amortizatorları və qüvvə paylayıcı “S” şəkilli forması sayəsində bədənə zərər vermir. Əgər itələmə qüvvəsini azaldan elastiklik və xüsusi forma olmasa, əmələ gələn qüvvə birbaşa kəllə sümüyünə ötürülər və onurğanın yuxarı ucu kəllə sümüklərini parçalayaraq beynin içinə girərdi.

Sümüklərin bir-birlərinə bitişdiyi yerlərdə də yaradılış dəlillərini görmək mümkündür. Oynaqlar ömür boyu hərəkət etdikləri halda, yağlanmağa ehtiyac hiss etmirlər. Bioloqlar bunun səbəbini araşdırdılar: oynaqlardakı sürtünmə necə aradan qaldırılır?

Elm adamları məsələnin əsl yaradılış möcüzəsi olan sistemlə həll edildiyini gördülər: oynaqların sürtünmə səthləri nazik və məsaməli qığırdaq təbəqəsi ilə örtülmüşdür və bu təbəqələrin altında qatı və sürüşkən maye var. Sümük oynağın bir

yerinə təzyiq göstərdikdə bu maye dəliklərdən çıxır və oynağın üzərini yağ kimi sürüşkən edir.

Bütün bunlar insan bədəninin çox mükəmməl, üstün yaradılış əsəri olduğunu göstərir. İnsan bu mükəmməl yaradılış nəticəsində bir-birindən fərqli hərəkətləri sürətlə və asanlıqla edir.

Hər şeyin bu qədər mükəmməl olmadığını, məsələn, ayağımızın bir uzun sümükdən ibarət olduğunu düşünün. Yerimək böyük problemə çevrilər, çox qaba və hərəkətsiz bədənimiz olardı. Bir yerdə oturmaq belə çətinləşər, bu cür hərəkətlər əsnasında maneələrə görə ayaq sümüyü tez qırılardı. Halbuki, insanın skeleti bədəninin hər hərəkətini asanlaşdırır.

Skeletin bütün xüsusiyyətlərini Allah yaratmışdır və hələ də yaradır. Allah yaratdığı insanı bu həqiqət üzərində düşünməyə dəvət edir:

**... Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük... (Bəqərə surəsi, 259)**

İnsan bu həqiqət üzərində düşünməli və onu yaratmış Allah`ın gücünü təqdir edib Ona şükür etməlidir. Bunu etməsə, böyük itkiyə məruz qalar. Sümükləri ilk dəfə yaradıb sonra da onların üstünü ətlə örtən Allah bunu istədiyi vaxt istədiyi kimi etməyə qadirdir. Allah bu həqiqəti Quranda belə bildirir:

**Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) açıq bir düşmən kəsilərək, Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi. De: "Onları ilk dəfə yoxdan yaradan diriləcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır!" (Yasin surəsi, 77-79)**

## ORQANİZMDƏKİ UYĞUNLUQ

İnsan orqanizmində müəyyən məqsədlə, yəni bədənin yaşaması üçün bütün sistemlər birlikdə, əlaqədar şəkildə və uyğunluq içində işləyir. Hər gün etdiyimiz çox kiçik hərəkətlər, məsələn, nəfəs almaq, gülmək belə insan orqanizmindəki qüsursuz uyğunluğun nəticəsidir.

Bədənimizdə hər an işləyən, ağlasığmaz dərəcədə mürəkkəb, böyük uyğunluq var. Məqsəd isə həyata təkan verməkdir. Bu uyğunluq xüsusilə orqanizmin hərəkət-dayaq sistemində görünür. Çünki ən kiçik hərəkət üçün skelet, əzələlər və sinir sistemi mükəmməl uyğunluq içində işləməlidir.

Orqanizmdəki uyğunluğun ilkin şərti doğru məlumatın təmin olunmasıdır. Ancaq doğru məlumatların əldə edilməsi ilə yeni dəyərləndirmələr edilir. Bunun üçün çox təkmil xəbərçi şəbəkə mövcuddur.

Uzlaşdırılmış hərəkəti etmək hər şeydən əvvəl o hərəkətlə əlaqədar orqanların mövqeyi və bir-biri ilə əlaqəsi bilinməlidir. Bu məlumat beyinə gözlərdən, daxili qulaqdakı müvazinət mexanizmindən, əzələlərdən, oynaqlardan və dəridən gəlir. Hər saniyə milyonlarla məlumat şərh olunur, dəyərləndirilir və bunlara əsasən, yeni qərarlar

verilir. İnsanın isə orqanizmində baş verən bu sürətli proseslərdən heç xəbəri olmur. O, ancaq hərəkət edir, gülür, danışır, qaçır, yemək yeyir, düşünür. Bu proseslərin həyata keçməsi üçün heç bir səy göstərmir. Məsələn, adi gülümsəmə üçün on yeddi əzələ eyni anda işləməlidir. Bu əzələlərdən birinin işləməməsi və ya səhv işləməsi üz ifadəsini tamamilə dəyişdirər. Yerimək üçün ayaqlarda, qıçlarda, budda, qasıqlarda və kürəkdə əlli dörd müxtəlif əzələ uyğunluq içində işləməlidir.

Əzələlər və oynaqlarda orqanizmin həmin andakı vəziyyətinə aid məlumat verən milyardlarla kiçik, mikroskopik reseptor var. Bu reseptorlardan gələn mesajlar mərkəzi sinir sisteminə çatır və burada şərh olunaraq əzələlərə yeni əmrlər göndərilir.

Orqanizmdəki uyğunluğun mükəmməlliyini bu nümunədən daha yaxşı başa düşmək olar: təkcə bir əlinizi havaya qaldırmaq üçün çiyniniz bükülməli, "biseps" və "triseps" adlanan ön və arxa qol əzələləriniz ardıcıl dartılıb-yığılmalı, dirsəyiniz və biləyiniz arasında yerləşən əzələləriniz biləyinizi çevirməlidir. Hərəkətin hər mərhələsində bu əzələlərin içindəki milyardlarla reseptor hər an əzələlərin vəziyyətini mərkəzə xəbər verir. Mərkəzdən də əzələlərə bir an sonra nə etməli olduqları bildirilir. Təbii ki, insan bunların fərqində olmur, ancaq əlini qaldırmaq istəyir və qaldırır.

Məsələn, orqanizmin dik dayanması, ayaq əzələlərində, ayaqlarda, kürəkdə, qarında, sinədə, boyunda yerləşən milyardlarla reseptordan gələn məlumat dəyərləndirilir və bu əmrlərin hamısı hər saniyə əzələlərə ötürülür.

Danışmaq üçün də xüsusi səy göstərmirik. İstədiyimiz sözlərin ağzımızdan çıxması üçün səs tellərinin hansı açıqlıqda, nə qədər titrəməli olduğunu, ağzımızdakı, dilimizdəki, boğazımızdakı yüzlərlə əzələdən hansının, hansı ardıcıllıqla neçə dəfə titrəməsini, hansı nisbətdə gərilib-boşalmasını, ciyərlərimizə neçə kub santimetr hava alıb, bu havanı hansı sürət və fasilələrlə boşaltmalı olduğumuzu oturub hesablamırıq. İstəsək də, bunu edə bilmərik! Çünki ağzımızdan çıxan bircə sözün əmələ gəlməsi, insanın tənəffüs sistemindən sinir sisteminə, əzələlərdən sümüklərinə qədər bir çox orqanın uyğunluq içində fəaliyyətinin nəticəsidir.

Bu uyğunluqda bir çatışmazlıq olarsa, nələr baş verərdi? Gülümsəmək istəyərkən üzümüzdə başqa ifadə əmələ gələr və ya danışmaq istədikdə bunu bacarmazdıq, yeriyə bilməzdik. Halbuki, nə vaxt istəsək, gülürük, danışırıq, yeriyirik, heç bir çatışmazlıq olmur. Çünki burada izah edilən hər şey sonsuz qüdrət tələb edən yaradılış nəticəsində baş verir.

Bu səbəbdən, insan həmişə bütün həyatına və varlığına görə onu yaradan Allah`a borclu olduğunu bilməlidir. İnsanın öyünməli, qürrələnməli heç nəyi yoxdur. Gücü, sağlamlığı və ya gözəlliyi öz əsəri deyil, ona əbədiyyən də verilməyib. Mütləq yaşlanacaq, sağlamlığını və gözəlliyini itirəcək. Allah Quranda bu həqiqətə belə diqqət çəkir:

**Sizə verilən hər hansı bir şey ancaq bu fani dünyanın malı və bərbəzəyidir. Allah yanında olan isə daha yaxşı və daha baqidir. Məgər ağıla gəlməzsiniz?! (Qəsəs surəsi, 60)**

Əgər bunların daha üstününü əbədiyyən axirətdə əldə etmək istəyirsə, Allah`ın ona verdiyi nemətə şükür etməli və Onun istədiyi kimi yaşamalıdır.

Bu misallardan da göründüyü kimi, insan bədənindəki orqanların və sistemlərin hamısı möcüzəvi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətləri təhlil etdikdə insan varlığının nə qədər incə hesablamalara əsaslandığını və yaradılışındakı möcüzələri görər və Allah`ın sonsuz elmini və insan üzərindəki qüsursuz sənətini daha yaxşı qavrayar.

## QARACİYƏR

Qarın boşluğunun yuxarı sağ hissəsində yerləşən qaraciyər qan dövranında mükəmməl filtr funksiyasını yerinə yetirir. Suda həll olan orqanizmdəki artıq maddələr böyrəkdə təmizlənir, dərmanlar və hormonlar kimi mürəkkəb quruluşlu maddələrin artıqlarını isə qaraciyər təmizləyir.

**İmmun sistemini logistik yöndən dəstəkləyir:** Qaraciyər təkcə qidalanma və maddələr mübadiləsi prosesində əmələ gələn artıq maddələri təmizləmir, həm də immun sistemi maddələri olan qlobulinləri və damar təmir qrupları olan fermentləri də hazırlayır.

**Bakteriyaları təmizləyir:** Qaraciyərdəki kupffer hüceyrələri buradan keçən, xüsusilə də bağırsaqlardan gələn qandakı bakteriyaları udur. Kupffer hüceyrələri qandakı zərrəcikləri və ya başqa artıq maddələri təmizləmək lazım gəldikdə bunları qandan filtrləmək üçün öz saylarını da artırırlar.

**Orqanizmin enerji mənbələrini hasil edir:** Qaraciyərin xüsusiyyətlərindən biri də orqanizmin ən mühüm enerji mənbəyi olan qlükozanı hasil etməsidir.

Normal qidalanma əsnasında qəbul edilən qlükoza qlikogenə çevrilərək qaraciyərdə toplanır. Qaraciyər qandakı qlükozanı daima tənzimləyir. Yemək yemədikdə və qandakı qlükozanın miqdarı düşdükdə qaraciyər topladığı qlikogeni yenidən qlükozaya çevirərək qana verir. Beləliklə, qandakı qlükoza səviyyəsinin həddindən artıq düşməsinin qarşısı alınır. Qaraciyər yağ turşuları və amin turşularından qlükoza hasil etdiyi kimi enerji hasilatında istifadəsi mümkün olmayan digər karbohidratları da qlükozaya çevirə bilir.

**Qanı toplayır:** Qaraciyər genişlənən və ya kiçilən quruluşa malikdir. Bu xüsusiyyəti sayəsində qan damarlarındakı qanı toplayır və ya buraxır.

Qaraciyər sağlam orqanizmdə ümumi qanın 10%-ni, yəni 450 ml qanı toplaya bilir. Bəzi hallarda, məsələn, ürək çatışmazlığı zamanı orqanizmdə dövr edən qan miqdarı ürəyin işinə çətinlik törədir. Bu halda, qaraciyər qan saxlama həcmini iki dəfə artıraraq əlavə 1 litr qan toplayır. Beləliklə, ürəyin işinə kömək edir.

Orqanizmdə qan ehtiyacı artdıqda isə (məsələn ağır idman hərəkətləri zamanı) qaraciyər topladığı qanı buraxaraq qan ehtiyacını təmin edir.

**Qənaətlə işləyir:** Əzələlərdə qlükoza sərf olunduqda maddələr mübadiləsində artıq maddə olaraq süd turşusu əmələ gəlir. Süd turşusu əzələdə qaldıqda ağrı verir və

əzələnin işləməsinin qarşısını alır. Qaraciyər bu turşunu əzələlərdən toplayır və yenidən qlükozaya çevirir.

**Ölmüş eritrositlərin yenisini hasil edir**: Qaraciyər və dalaqda ölmüş eritrositlərin əvəzinə yeniləri hasil edilir, zülalların böyük hissəsi parçalanır və amin turşuları kimi yenidən müxtəlif məqsədlər üçün istifadə edilir. Bundan əlavə, qaraciyər orqanizmdə mühüm funksiyalar yerinə yetirən dəmirin də toplandığı orqandır.

Qaraciyər orqanizmin ən təkmil deposudur. Bütün mineralları, zülalları, az miqdarda yağı və vitaminləri qaraciyər toplayır. Ehtiyac olduqda topladığı maddəni ən qısa yolla lazımi orqana verir. Orqanizmin kifayət qədər enerjisi olub-olmadığını həssas şəkildə yoxlayır, bunun üçün xüsusi xəbərləşmə sistemi mövcuddur. Bədəndəki bütün orqanlar qaraciyərlə əlaqədardır.

**Özünü təmir edir:** Qaraciyərin özünü təmir etmə qabiliyyəti var. Bir hissəsi zədələndikdə digər hüceyrələr dərhal çoxalaraq zədələnmiş hissəni tamamlayırlar. Hətta orqanın üçdə iki hissəsi kəsilib götürülsə, qalan hissədəki hüceyrələr çoxalaraq qaraciyəri yenidən meydana gətirir.

Orqan özünü təmir edərkən ölən və zədələnən hüceyrələri həmin mühitdən uzaqlaşdırır və yerinə yenilərini qoyur. Bir qaraciyər hüceyrəsi təxminən 500-dən çox proses həyata keçirir. Bu prosesləri bir-birinin ardınca deyil, çox vaxt eyni anda bacarır.

## DƏRİ

Metrlərlə uzunluqda, lakin bir hissədən ibarət toxuma düşünün. Bu toxuma eyni zamanda həm isinməni, həm sərinləməni təmin etməli, sağlam və estetik olmalı, hər cür xarici amilə qarşı müdafiə təşkil etməlidir.

İnsan orqanizmini və digər bütün canlıların bədənlərini növlərə uyğun olaraq bəzi dəyişiklərlə örtən dəri toxuması yuxarıdakı xüsusiyyətlərin hamısına malikdir.

Dəri toxuması olmasa, insanın həyatı təhlükəyə girər. Dərinin bircə yerinin zədələnməsi orqanizmdə su itkisinə səbəb olduğu üçün ölümlə nəticələnər. Təkcə dərinin bu xüsusiyyəti təkamül nəzəriyyəsini əsassız edir. Çünki hər orqanı tamamlanmış, lakin hələ dərisi əmələ gəlməmiş və ya qismən əmələ gəlmiş canlının həyatda qalması qeyri-mümkündür. Bu da bizə insanların da, heyvanların da bütün bədən hissələrinin tam və qüsursuz şəkildə eyni zamanda əmələ gəldiyini, yəni yaradıldığını göstərir.

Bir-birindən tamamilə fərqli formalardan əmələ gəlmiş dərinin altında yağdan ibarət təbəqə var. Bu yağ təbəqəsi temperatura qarşı izolyasiya funksiyasını yerinə yetirir. Bu təbəqənin üstündə dəriyə elastiklik qazandıran və əksər hissəsi zülallardan ibarət başqa təbəqə var.

Dərimizin 1 sm altında bu yağlardan və zülallardan təşkil olunmuş, müxtəlif damarların yerləşdiyi, qeyri-estetik, hətta ürküdücü görüntü var. Dəri bütün bu formaların üzərini örtərək həm bədənimizə estetik görünüş verir, həm də xarici

amillərdən bizi qoruyur ki, təkcə bu xüsusiyyəti belə dərimizin bizim üçün nə qədər əhəmiyyəti olduğunu göstərir.

Dərinin bütün funksiyaları həyatidir. Aşağıda dərinin bir neçə funksiyası sadalanmışdır:

**Orqanizmin su tarazlığının pozulmasının qarşısını alır:** Dərinin üst təbəqəsinin hər iki tərəfi sukeçirməz quruluşa malikdir. Dərinin bu xüsusiyyəti sayəsində orqanizmdəki su miqdarı tənzimlənir. Dəri qulaqdan, burundan, hətta gözdən də vacib orqandır. Digər duyğu orqanlarımız olmasa, yaşaya bilərik. Lakin dəri olmadan insan yaşaya bilməz. Çünki insan orqanizminin ən lazımlı mayesi olan su dəri olmadan bədəndə saxlana bilməz.

**Davamlı və elastikdir:** Üst dəri səthindəki hüceyrələrin əksəriyyəti ölüdür. Alt dəri isə canlı hüceyrələrdən təşkil olunmuşdur. Üst dəri hüceyrələri bir müddət sonra hüceyrə xüsusiyyətini itirir və keratin adlı bərk maddəyə çevrilir. Bu ölmüş hüceyrələri keratin birləşdirir və bədəni qoruyan zireh əmələ gətirir. Dəri daha bərk və qalın olduğu təqdirdə, qoruyucu təsirinin artdığı düşünülə bilər, lakin bu, yanıldıcıdır. Əgər filin və ya kərgədanın dərisi kimi sərt və qalın dərimiz olsaydı, çox hərəkətli bədənimiz bu qabiliyyətini itirər və ağırlaşardı.

Hansı canlı növü olsa da, dəri heç vaxt lazım olduğundan daha qalın olmaz. Dərinin quruluşunda çox ölçülü, tənzimlənən plan mövcuddur. Üst dəri hüceyrələrinin müntəzəm öldüyünü və bu prosesin heç dayanmadığını düşünək. Bu təqdirdə, dərimiz qalınlaşar və bir müddət sonra timsah dərisi kimi olardı. Lakin bu vəziyyət baş vermir, dəri məhz lazımi qalınlıqdadır. Bu, necə olur? Dəri hüceyrələri nə vaxt dayanacaqlarını haradan bilirlər?

Dəri toxumasını təşkil edən hüceyrələrin nə vaxt dayanacaqlarını özləri bildiklərini və ya bu sistemin təsadüfən əmələ gəldiyini iddia etmək çox məntiqsiz və gülünc olar. Dərinin quruluşunda açıq-aydın yaradılış mövcuddur. Dərini yaradan, şübhəsiz, aləmlərin Rəbbi, bir və tək olan Allah`dır.

**İsti havada bədəni sərinlədən mexanizmə malikdir:** Alt dərini çox kiçik kapillyarlar bürümüşdür. Bunlar dərini təkcə qidalandırmır, eyni zamanda, dəridəki qanın miqdarını da tənzimləyirlər. Bədənin temperaturu artdıqda damarlar genişlənərək çox isti olan qanın bədənin nisbətən sərin olan üst hissəsinə keçməsini və temperaturun xaricə ötürülməsini təmin edirlər. Bədəni sərinlədən digər mexanizm isə tərdir. İnsan dərisi "məsamə" adlanan dəliklərlə doludur. Məsamələr tər vəzlərinin yerləşdiyi alt dəriyə qədər uzanır. Bu vəzlər qandan aldıqları suyu məsamələrdən keçirərək bədəndən kənar edirlər. Kənar edilmiş maye buxarlanmaq üçün bədənin temperaturundan istifadə edir, bu isə bədəni sərinlədir.

**Soyuq havada bədənin temperaturunu qoruyur:** Soyuq havada dəridəki tər vəziləri işlərini yavaşladırlar və qan damarları daralır. Beləliklə, dəri altında qan dövranı azaldığına görə, bədən temperaturunun aşağı düşməsinin qarşısı alınır.

Bütün bunlar bizə göstərir ki, dəri həyatımızı asanlaşdırmaq üçün xüsusi yaradılmış mükəmməl orqandır. Dəri həm qoruyur, həm kondisioner vəzifəsini yerinə yetirir, həm də elastikliyi sayəsində hərəkəti asanlaşdırır. Habelə, çox estetikdir.

Bu cür dərinin əvəzinə möhkəm, qalın və kobud dərimiz ola bilərdi. Qeyri-elastik dərimiz olsaydı, bir az kökəldikdə dərimiz çatlayıb yarılardı. Yayda istidən huşumuzu itirməyimizə və ya qışda soyuqdan donmağımıza səbəb olan dərimiz ola bilərdi. Ancaq bizi yaradan Allah ən rahat, istifadəyə yararlı və estetik dəri ilə bədənimizi örtmüşdür. Çünki O, **yaradan, yoxdan var edən, surət verən Allah`dır.** (Həşr surəsi, 24)

## ÜRƏK

İnsan orqanizmindəki 100 trilyon hüceyrəyə bir-bir baş çəkən qan dövranı sisteminin ən mühüm üzvü, şübhəsiz, ürəkdir. Ürək çirkli və təmiz qanın bir-birinə qarışmadan orqanizmin müxtəlif yerlərinə nasoslanmasını təmin edən dörd mədəcikdən və klapanlardan ibarət çox həssas sistemlə yaradılmış orqandır.

Heç bir müdaxilə olmadan həyatımız boyu müəyyən ritmlə dayanmadan döyünən ürəyimiz yaradılışın açıq-aşkar dəlillərindən biridir.

Hələ ana bətnində ikən döyünməyə başlayan ürək dəqiqədə 70-100 dəfə döyünərək ömür boyu dayanmadan işləyir, sadəcə hər döyüntü arasında yarım saniyə dincəlir və gün ərzində təqribən 10.000 dəfə döyünür. Bu rəqəmi insan ömrünün uzunluğunu nəzərə alaraq dəyərləndirsək, qarşımıza hesablamaq mümkün olmayan rəqəm çıxar.

Çox həssas nizamla işləyən ürəyin bütün tərkib hissələri xüsusi yaradılmışdır. Ürəkdə təmiz və çirkli qanın bir-birinə qarışmaması, bədənin təzyiqinin tənzimlənməsi, qida maddələrinin bütün orqanizmə ötürülməsi üçün lazımi proseslər, qanın lazımi miqdarda nasoslayan sistemlər kimi hər detal nəzərə alınmış, ürək bunlara uyğun yaradılmışdır.

Yaradılış möcüzəsi olan ürəkdə əsla təsadüfən əmələ gəlməyəcək qədər kompleks sistem var. Bu xüsusiyyətlərin hamısı onları yaradanı, yəni aləmlərin Rəbbi olan, qüsursuz və yoxdan yaradan Allah`ı bizə tanıdır.

Ürəyin bəzi xüsusiyyətləri aşağıdakılardır:

**Ürək bədənin ən təhlükəsiz yerində yerləşdirilmişdir:** Ən lazımlı orqanlardan olan ürək xüsusi yaradılışla döş qəfəsinin içində yerləşdirilərək kənardan gələn zərbələrə qarşı qorunur.

**Təmiz və çirkli qan əsla bir-birinə qarışmır:** Ürəkdə təmiz və çirkli qan daima hərəkət edir. Xüsusi toxuma ilə ürək 5 müxtəlif xüsusiyyətə malik kameraya bölünmüşdür. Sol və sağ qulaqcıqdan ibarət yuxarı hissə giriş kameralarıdır. Buraya gələn qanı altdakı kameralara ötürürlər. Buradakı həssas nizam sayəsində qanlar bir-birinə əsla qarışmırlar.

**Qan təzyiqini orqanlara zərər verməməsi üçün tənzimləyir:** Ürəyimiz tək nasos kimi deyil, yan-yana iki nasos kimi işləyir. Hər nasosun öz klapanı və mədəciyi

var. Bu bölünmə, eyni zamanda, qan dövranı sistemini də iki yerə ayırır. Ürəyin sağ tərəfi çirkli qanı nisbətən aşağı təzyiqlə ağciyərlərə ötürür. Sol tərəf isə təmiz qanı yüksək təzyiqlə bütün orqanizmə vurur. Təzyiqin bu cür tənzimlənməsi bədən üçün çox vacibdir, çünki ağciyərə gedən qan bədənə yayılan qanla eyni təzyiqdə olsaydı, ağciyərlər bu təzyiqə tab gətirməz və parçalanardı. Ürəkdəki mükəmməl müvazinət sayəsində ağciyərlərdə əsla belə problem əmələ gəlmir. Çünki ürək qüsursuz yaradılmışdır.

**Orqanizmin ehtiyacı olan bir çox maddənin orqanlara ötürülməsini təmin edir:** Ürəkdən gələn təmiz qan aorta yolu ilə toxumalara göndərilir və bütün hüceyrələrə gedən damarlar vasitəsilə daşıdığı oksigeni toxumalara verir. Qan kapillyarlardakı bu dövran zamanı oksigendən əlavə içindəki hormon, qida və digər maddələri də toxumalara paylayır.

**Qanın axın istiqamətini tənzimləyən, ahəng içində işləyən klapanlara malikdir:** Ürəyin hər kamerasının ağzında yerləşən və qanın axın istiqamətini tərsinə çevrilməsinin qarşısını alan klapanlar var. Qulaqcıqlarla mədəciklər arasındakı bu klapanlar lifli toxumadan təşkil olunmuşdur. Bu klapanları çox incə əzələlər saxlayır. Bu əzələlərdən biri çatışmazsa, qulaqcıqlara doğru artıq qan axar və insanın ölümünə səbəb olan ağır ürək çatışmazlığı əmələ gələr. Bu cür problemlə ancaq müəyyən xəstəlik olduqda qarşılaşırıq. Əks təqdirdə, bu cür vəziyyət əsla baş vermir.

**Dəyişən şərtlərə uyğun olaraq lazımi miqdarda qan nasoslayır:** Ürəyin nasosladığı qanın miqdarı orqanizmin ehtiyacına görə dəyişir. Normal şərtlər daxilində ürək dəqiqədə 70 dəfə döyünür. Yorucu hərəkətlər əsnasında isə əzələlərimizin daha artıq oksigenə ehtiyacı olduğu üçün ürək iş ritmini artıraraq dəqiqədə 180 dəfə döyünür, nasosladığı qanın miqdarını artırır. Bəs belə olmasa, nə baş verərdi? Bədənin daha artıq enerjiyə ehtiyacı olduğu anda ürək normal ritmlə işləsəydi, müvazinəti pozulduğuna görə bədən zədə alardı. Halbuki, ürəyin mükəmməl quruluşu sayəsində belə hal baş vermir. Bizim tənzimləməmizə ehtiyac qalmadan ürək nasoslanacaq qanın miqdarını özü tənzimləyir.

**Bizim iradəmizdən kənar, lakin lazım olduğu qədər işləyir:** Ürəyin nasoslayacağı qan miqdarını xüsusi sinir sistemi idarə edir. İstər yuxuda, istər oyaq vaxtımızda sinir sistemimiz nasoslanmalı qanın miqdarı və qanın nasoslanma sürətini özü tənzimləyir. Harada, nə vaxt, nə qədər qan lazım olduğunu heç bir müdaxilə olmadan tənzimləyən ürəkdəki sistem bir sözlə qüsursuzdur. Bu sistemi ürək öz-özünə təşkil edə bilməz, bu sistem təsadüfən də əmələ gələ bilməz. Deməli, ürək yaradılmışdır. Sonsuz elm sahibi olan Allah ürəyimizi qüsursuz yaratmışdır.

**Özünəməxsus elektrik sistemi ilə işləyir:** Ürəyin döyünməsini təmin edən ürək əzələsi bədənimizin bütün əzələlərindən fərqlidir. Bədəndəki əzələ hüceyrələri təkcə sinir sistemi xəbər göndərdikdə gərilirlər. Halbuki, ürək əzələsi hüceyrələri öz-özlərinə gərilirlər. Bu hüceyrələr öz elektrik axınlarını əmələ gətirir və yayırlar. Hər bir hüceyrənin bu qabiliyyətinə baxmayaraq, heç biri bir-birindən əlaqəsiz gərilmir və

onları idarə edən elektrik axını sisteminin təlimatına zidd hərəkət etmir. Yəni biri gerilərkən digəri açılaraq ürəyin işinə zərər verməzlər. Zəncir kimi dayanmış bu hüceyrələr elektrik sistemindən gələn əmrlə daima birlikdə, qüsursuz uyğunluq içində hərəkət edirlər.

Bütün xüsusiyyətlərində də göründüyü kimi, ürəyin quruluşu bizə onun qüsursuz yaradıldığını göstərir və onu yaradan üstün güc sahibi Allah`ın sənətini tanıdır. Allah bir ayədə Ondan başqa ilah olmadığını belə xəbər verir:

**Budur Allah – sizin Rəbbiniz. Ondan başqa ilah yoxdur. Hər şeyin yaradıcısıdır. Elə isə Ona ibadət edin! O, hər şeyə vəkildir. (Ənam surəsi, 102)**

## ƏLLƏRİMİZDƏKİ TƏQLİD EDİLMƏZ YARADILIŞ

Çayı qarışdırmaq, qəzetin səhifələrini çevirmək, yazı yazmaq kimi adi görünən fəaliyyətləri həyata keçirən əlimiz, əslində, inanılmaz mühəndislik əsəridir.

Əl standart quruluşa malik olmasına baxmayaraq, bir-birindən çox fərqli istifadə sahələrində işləyir. Çoxlu sayda əzələ və sinirə malik qollarımız şərtlərə uyğun olaraq əlimizin güclü və ya yumşaq tutmasını təmin edir. Məsələn, insan əli yumruq kimi sıxılmamış vəziyyətdə ikən hər hansı cismin üzərinə 45 kiloqramlıq güclə zərbə endirə bilər, digər tərəfdən baş barmaq və şəhadət barmağı arasında tutduğu millimetrin onda biri qədər naziklikdəki kağız parçasını hiss edə bilər.

Göründüyü kimi, hər iki iş bir-birindən tamamilə fərqlidir. Biri çox incə əyar, digəri isə tam əksinə, böyük güc tələb edir. Lakin biz kağızı alarkən də, yumruq vurarkən də 1 saniyə belə necə etməyi, ikisi arasındakı güc fərqini tənzimləməyi belə düşünmürük. "İndi bir kağız götürəcəyəm, yaxşısı budur ki, 500 qramlıq güc tətbiq edim, indi də su dolu vedrəni qaldıracağam, bunun üçün 40 kiloqramlıq güc tətbiq edim", - demirik. Bunlar ağlımıza belə gəlməz.

Çünki insan əli bütün bu prosesləri eyni anda edəcək şəkildə yaradılmışdır. Əl bütün xüsusiyyətləri ilə birlikdə yaradılmışdır.

Əlin bütün barmaqları funksiyalarına görə ən uyğun uzunluqdadır və ən uyğun yerdədir, bundan əlavə, bir-birlərinə uyğundur. Məsələn, normal baş barmağı olan əllə atılan yumruğun gücü qısa baş barmağı olan əllə atılan yumruğun gücündən çoxdur. Çünki baş barmaq onun üçün seçilmiş uzunluq sayəsində digər barmaqların üstünə qıvrılaraq bükülür, beləcə, onları dəstəkləyərək gücü artırır.

Əlin quruluşunda çox incə detallar var, məsələn, əzələ və sinirlərin yanında bəzi kiçik formalar var. Barmaqlarımızın ucundakı dırnaqlar lazımsız deyil. Yerə düşmüş iynəni götürərkən barmaqlarımız qədər dırnaqlarımız da kömək edir. Əlimizdəki barmaq izlərini əmələ gətirən qırışlar və dırnaqlar sayəsində də kiçik şeyləri asanlıqla götürürük. Bundan əlavə, dırnaqlar barmaqların tutduğu cismə tətbiq etdiyi həssas təzyiqin tənzimlənməsində böyük rol oynayır.

Əlimizi digər orqanlarımızdan ayıran bir xüsusiyyəti yorulmamasıdır.

Tibb və elm dünyası böyük səy göstərərək insan əlinin bənzərini süni surətdə düzəltmək istəyir. Düzəldilən robot əllər güc baxımından insan əli ilə eynidir, lakin insan əlindəki həssas toxunma, mükəmməl manevr qabiliyyəti və fərqli işlər etmə bacarıqları robot əldə mümkün deyil.

Belə ki, bir çox elm adamı insan əlinin bütün funksiyalarına malik robot əlin düzəldilməsinin qeyri-mümkün olduğunu düşünür. "Karlsruhe əli" adlanan robot əli düzəldən Hans J. Şnebeli (Hans J. Schneebeli) bu barədə: *"robot əllər üzərində nə qədər çox işləyirəmsə, insanların sahib olduğu əllərə o qədər çox heyran oluram. İnsan əlinin gördüyü işin bir qismini belə əldə etmək üçün daha çox zaman keçməlidir",* - deyir.

Digər tərəfdən, əl, əsasən, gözlə ortaq işləyən orqandır. Gözün qəbul etdiyi siqnallar beyinə çatdırılır və beyindən gələn yeni əmrlə əl görəcəyi işə uyğun olaraq hərəkətə keçir. Təbii ki, bunlar çox qısa müddətdə və bizim xüsusi səy göstərməyimizə ehtiyac olmadan baş verir. Robot əllər isə ancaq ya görmə, ya da toxunma xüsusiyyətinə əsaslanaraq hərəkət edirlər. Görəcəkləri hər iş üçün müxtəlif əmrlər verilməlidir. Bundan əlavə, robot əllər ayrı-ayrı funksiyanı yerinə yetirə bilmirlər. Məsələn, piano çala bilən robot əl çəkic tuta bilmir. Çəkic tuta bilən robot əl isə yumurtanı sındırmadan tuta bilmir. Tədqiqatlar nəticəsində yeni-yeni istehsal edilməyə başlayan bəzi robot əllər 2-3 işi birlikdə edə bilir, lakin bu hərəkətlər əlin qabiliyyətləri ilə müqayisədə çox bəsitdir.

Bütün bunlardan əlavə, insanın hər iki əlinin eyni anda mükəmməl uyğunluq içində işlədiyini də nəzərə alsaq, əldəki qüsursuz yaradılışı daha aydın görərik.

Allah əli insanlar üçün xüsusi yaratmışdır. Əlin hər xüsusiyyəti Allah`ın yaratma sənətindəki qüsursuzluğu və bənzərsizliyi bizə göstərir.

## NƏTİCƏ

İnsan orqanizmindəki bu mükəmməl mexanizmlər əksər hallarda biz fərqinə varmadan işləyir. Ürəyimizin döyünməsi, qaraciyərin funksiyaları, dərinin özünü yeniləməsi bizim iradəmizdən kənar baş verir. Burada haqqında bəhs etmədiyimiz yüzlərlə orqan da eynilə bu cür işləyir. Böyrəklərin qanı süzməsi, mədənin yediklərimizi həzm etməsi, bağırsaqların hərəkəti, nəfəs almağımızı təmin edən ağciyərlərin uyğun içində işləməsindən xəbərimiz belə olmur.

İnsan ona bəxş olunmuş bədən adlı mükəmməl mexanizmin dəyərini ancaq xəstələndikdə, bir orqanı funksiyasını itirəndə anlayır.

Bəs bu mükəmməl mexanizm necə mövcud olub? Ağıl və vicdan sahibi insan orqanizmimizin yaradıldığını anlayar.

Orqanizmimizin təsadüflər nəticəsində əmələ gəldiyini irəli sürən təkamülçülərin iddiası çox gülüncdür. Çünki təkamülçülər təsadüflərin bir-birinin üzərinə əlavə olunaraq orqanizm əmələ gətirdiyini iddia edirlər. Halbuki, insan orqanizmi ancaq bütün orqanları birlikdə mövcud olduqda işləyə bilər. Böyrəksiz, ürəksiz, bağırsaqsız

insan yaşaya bilməz. Bu orqanlar olsa da, əgər funksiyalarını tam yerinə yetirmirlərsə, yenə də insan yaşaya bilməz.

Ona görə, insan orqanizmi yaşamaq və nəslini davam etdirmək üçün tam olmalıdır. İnsan bədəninin bir anda, tam şəkildə mövcud olmasının başqa ifadə forması yaradılmış olmasıdır. Allah bu həqiqəti "Vaqiə" surəsində belə xəbər verir:

**Biz sizi yaratdıq. Məgər təsdiq etməzmisiniz? Bəs axıtdığınız nütfəyə nə deyirsiniz? Ondan yaradan sizsiniz, yoxsa Biz?! Sizin aranızda ölüm əvvəlcədən Biz müəyyən etdik. Və Biz əsla aciz deyilik, yerinizə sizin kimiləri gətirməkdən və sizi özünüz də bilmədiyiniz başqa bir şəkildə yaratmaqdan! (Vaqiə surəsi, 57-61)**

## ƏLAVƏ HİSSƏ

## TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini rədd etmək məqsədi ilə ortaya atılan, lakin müvəffəqiyyətli ola bilməyən və elmdən kənar olan mənasız fikirdən başqa bir şey deyil. Canlının cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çoxlu möcüzəvi nizam olduğunun elm tərəfindən isbat edilməsi ilə dəlilsiz hala gəlmişdir. Beləcə, Allah`ın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsinə dəstək olmaq üçün dünya səviyyəsində aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, tərəfli şərh olunmasına, elm adı altında deyilən yalanlara və edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizləyə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixinin ən böyük yalanı olduğu son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox alim tərəfindən də dilə gətirilmişdir. Xüsusilə ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrdən olan çoxlu sayda tədqiqatçı alim darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılış həqiqəti ilə açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini digər bir çox əsərlərimizdə bütün elmi detalları ilə göstərdik və göstərməyə davam edirik. Ancaq mövzunu daşıdığı böyük əhəmiyyət səbəbi ilə burada da yekunlaşdırmaqda fayda vardır.

### Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixinin qədim yunanlara qədər gedib çıxan bir nəzəriyyə olmasına baxmayaraq, əhatəli olaraq 19-cu əsrdə ortaya atıldı. Nəzəriyyəni elm dünyasının gündəliyinə gətirən ən əhəmiyyətli yenilik Çarlz Darvinin 1859-cu ildə nəşr olunan "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı fərqli canlı

növlərinin Allah`ın ayrı-ayrı yaratdığı həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün növlər ortaq bir atadan gəlirdilər və zamanla kiçik dəyişmələrlə fərqliləşiblər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, yalnız bir məntiq irəli sürmək idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox əhəmiyyətli suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin önündəki çətinliklərin inkişaf edən elm tərəfindən aşılacağını, yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyini ümid edirdi. Bunu kitabında tez-tez ifadə etmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin təməl iddialarını bir-bir əsassız etmişdir.

Darvinizmin elm qarşısındakı uduzması üç təməl başlıqda araşdırıla bilər:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2) Nəzəriyyənin qarşıya qoyduğu təkamül mexanizmlərinin, həqiqətdə təkmilləşdirici bir təsirə sahib olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3) Fosil (qalıq) qeydləri təkamül nəzəriyyəsinin nəzərdə tutduqlarının tam əksi olan bir cədvəl ortaya qoyur.

Bu hissədə bu üç təməl başlığı ana xətləri ilə araşdıracağıq.

**Keçilə bilməyən ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada ortaya çıxan tək bir canlı hüceyrədən gəldiyini iddia edir. Tək bir hüceyrənin necə oldu ki, milyonlarla kompleks canlı növünü meydana gətirdiyi və əgər həqiqətən bu cür təkamül reallaşmışdırsa, niyə bunun izlərinin fosil qeydlərində olmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül müddətinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Haqqında danışılan o ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün o ilk hüceyrənin heç bir məqsəd, plan və tənzimləmə olmadan təbiət qanunları içində təsadüfi olaraq meydana gəldiyini iddia edir. Yəni nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən fundamental biologiya qanunlarına zidd bir iddiadır.

**"Həyat həyatdan gəlir"**

Darvin kitabında həyatın mənşəyi mövzusundan heç danışmamışdı. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə bir quruluşa sahib olduğunu fərz

edirdi. Orta əsrlərdən bəri insanların inandığı "öz-özünə törəyən nəsil" adlı nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə gəlib canlı bir varlıq meydana gətirə biləcəyinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan meydana gəldiyi məşhur bir düşüncə idi. Bunu isbat etmək üçün maraqlı təcrübələr aparılmışdı. Çirkli bir əskinin üzərinə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların meydana gələcəyi zənn edilmişdi.

Ətlərin qurdlanması da həyatın cansız maddələrdən törəyə bildiyinə bir dəlil sayılırdı. Halbuki, daha sonra aydın olacaqdı ki, ətlərin üzərindəki qurdlar öz-özlərinə meydana gəlmirlər, ağcaqanadların gətirdiyi gözlə görünməyən sürfələrdən çıxırdılar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gəldiyi inancı elm dünyası tərəfindən qəbul edildi.

Halbuki, Darvinin kitabının nəşr olunmasından beş il sonra məşhur fransız bioloq Luis Paster təkamülə əsas təşkil edən bu inancı qəti olaraq təkzib etdi. Paster apardığı uzun təcrübələr nəticəsində aldığı nəticəni belə yekunlaşdırmışdı:

Cansız maddələrin həyat meydana gətirə biləcəyi iddiası artıq qəti olaraq tarixə basdırılmışdır. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pasterin tapıntılarına qarşı uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin kompleks quruluşunu ortaya çıxardıqca həyatın öz-özünə meydana gələ biləcəyi iddiasının əsassızlığı daha da aydınlaşdı.

**20-ci əsrdəki nəticəsiz səylər**

20-ci əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq bu işlər müvəffəqiyyətsizliklə nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamını əhatə edən ən qaranlıq nöqtəni meydana gətirir. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu izləyən təkamülçülər həyatın mənşəyi mövzusunu həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stanley Miller tərəfindən 1953-cü ildə təşkil edildi. Miller ibtidai Yer atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə qurğusunda birləşdirib və bu qarışığa enerji əlavə edib zülalların quruluşunda istifadə edilən bir neçə orqanik molekul (aminoasid) sintez etdi.

O illərdə təkamül adına əhəmiyyətli bir mərhələ kimi tanıdılan bu təcrübənin əsaslı olmadığı və təcrübədə istifadə edilən atmosferin həqiqi dünya şərtlərindən çox fərqli olduğu növbəti illərdə ortaya çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, noyabr 1982, səh. 1328-1330)

Uzun sürən səssizlikdən sonra Millerin özü də istifadə etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün 20-ci əsr boyu aparılan bütün təkamülçü səylər davamlı olaraq müvəffəqiyyətsizliklə nəticələndi. San-Dieqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə nəşr olunan bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün 20-ci əsri geridə qoyarkən hələ 20-ci əsrə girdiyimizdə sahib olduğumuz ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başladı. (Jeffrey Bada, Earth, fevral 1998, səh. 40)

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda belə böyük çətinliyə düşməsinin başlıca səbəbi ən sadə zənn edilən canlı quruluşların inanılmaz dərəcədə kompleks quruluşlara sahib olmasıdır. Canlı hüceyrəsi insanların düzəltdiyi bütün texnoloji məhsullardan daha kompleksdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında belə cansız maddələr bir yerə gətirilərək canlı bir hüceyrə çıxarıla bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər əsla təsadüflərlə açıqlana bilməyəcək qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən “sıfır”dır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

1. Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.
2. Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.
3. Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

4. Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən və genetik məlumatı saxlayan DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın kağıza köçürüldüyü təqdirdə 500 səhifədən ibarət 900 cildlik bir kitabxana meydana gətirəcəyi hesablanmışdır.

Bu nöqtədə çox maraqlı bir dilemma əlavə var: DNT yalnız bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə cütləşə bilər. Amma bu fermentlərin sintezi də ancaq DNT-dəki məlumatlar yönündə reallaşır. Bir-birindən asılı olduqlarından cütləşmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə meydana gəldiyi ssenarisini çarəsiz vəziyyətə salır. San-Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü professor Lesli Orqel "Scientific American" jurnalının oktyabr, 1994 tarixli sayında bu həqiqəti belə etiraf edir:

Son dərəcə kompleks quruluşlara sahib olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda, təsadüfi olaraq meydana gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısilə, insan həyatın kimyəvi yollarla ortaya çıxmasının əsla mümkün olmadığı nəticəsinə gəlmək məcburiyyətində qalır. (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması qeyri-mümkündürsə, bu vəziyyətdə həyatın fövqəltəbii bir şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvin nəzəriyyəsini əsassız edən ikinci böyük nöqtə nəzəriyyənin təkamül mexanizmləri olaraq qarşıya qoyduğu iki anlayışın həqiqətdə heç bir təkmilləşdirici gücə sahib olmadığının aydınlaşmasıdır.

Darvin ortaya atdığı təkamül iddiasını tamamilə təbii seleksiya mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə aydın olurdu: növlərin mənşəyi, təbii seleksiya yolu ilə...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun və güclü canlıların həyatda qaldığı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhdid edilən bir maral sürüsündə daha sürətli qaçan marallar həyatda qalır. Beləcə, maral sürüsü sürətli və güclülərdən meydana gəlir. Amma, əlbəttə, bu mexanizm maralları təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısılə, təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə sahib deyil. Darvin də bu həqiqətin fərqində idi və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər meydana gəlmədiyi müddətdə təbii seleksiya heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu "faydalı dəyişikliklər" necə meydana gələ bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı içində bu sualı Lamarka əsaslanıb cavablandırmağa çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar yaşayış dövrlərində keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə köçürürlər və nəsildən nəslə yığılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxırdı. Məsələn, Lamarka görə, zürafələr ceyranlardan törəmişdir, yüksək ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən nəslə boyunları uzanmışdı.

Darvin də bənzəri nümunələr vermiş, məsələn, "Növlərin mənşəyi" adlı kitabında yemək tapmaq üçün suya girən bəzi ayıların zamanla balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə dəqiqləşən irsilik qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsi əfsanəsini qəti olaraq rədd etdi. Beləcə, təbii seleksiya özbaşına və dolayısılə, tamamilə təsirsiz bir mexanizm olaraq qalırdı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər bu vəziyyətə bir həll tapa bilmək üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyaya faydalı dəyişiklik səbəbi olaraq mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya köçürmə səhvləri nəticəsində yaranan pozulmaları əlavə etdi. Bu gün də hələ dünyada təkamül adına əsaslılığını qoruyan model neodarvinizmdir. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan müddət nəticəsində meydana gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz duruma salan açıq bir elmi həqiqət vardır: mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində yaranan hər hansı bir təsadüfi təsir ancaq zərər verər. Amerikalı genetik B.G.Ranqanatan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamüli inkişaf meydana gətirə bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələ biləcək təsadüfi bir dəyişmə ya təsirsizdir, ya da zərərlidir. Bir qol saatında meydana gələn təsadüfi dəyişmə qol saatını inkişaf etdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda, təsirsiz olar. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, onu dağıdar. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Necə ki, bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı inkişaf etdirən mutasiya nümunəsi müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu görülmüşdür. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi olaraq göstərdiyi mutasiyalar həqiqətdə canlıları yalnız korlayan, şikəst edən genetik hadisələrdir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəngdir). Əlbəttə, korlayıcı bir mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, özbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizlərə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali müddət yaşana bilməz.

**Fosil qeydləri: ara nümunələrin izi yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmadığının ən açıq göstəricisi isə fosil (qalıq) qeydləridir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəmişlər. Əvvəldən var olan bir canlı növü zamanla bir başqasına çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla il davam edən uzun zaman kəsiyini əhatə etmiş və addım-addım irəliləmişdir. Bu vəziyyətdə iddia edilən uzun çevrilmə müddətində saysız ara növlər meydana gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətləri qazanan yarı balıq, yarı sürünən canlılar yaşamalıdır. Yaxud sürünən xüsusiyyətlərini daşıyarkən bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanan sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid müddətində olduqları üçün şikəst və qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri varlıqlara ara keçid nümunəsi adını verirlər.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşamışdırsa, bunların sayı və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların fosillərinə mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin çətinlikləri" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil? (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

**Darvinin puç olan ümidləri**

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd tərəfində çoxlu fosil araşdırmaları aparıldığı halda, keçid nümunələrinə rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə qüsursuz və nöqsansız şəkildə ortaya çıxdığını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer bir təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: fosil qeydlərini detallı olaraq araşdırdığımızda istər növlər, istərsə də siniflər səviyyəsində olsun davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq; pilləli təkamüllə inkişaf edən deyil, birdən-birə yer üzündə yaranan qruplar görürük. (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri arasında heç bir keçid nümunəsi olmadan qüsursuz şəkilləri ilə birdən-birə ortaya çıxırlar. Bu, Darvinin nəzərdə tutduğunun tam əksinədir. Əlavə də bu canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü bir dəlildir. Çünki bir canlı növünün öz-özünə təkmilləşən heç bir atası olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının tək izahı o növün yaradılmış olmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında verilə biləcək yeganə iki açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz bir şəkildə ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişmə müddəti sayəsində özlərindən əvvəl var olan bəzi canlı növlərindən təkmilləşərək meydana gəlməlidirlər. Amma əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxmışlarsa, o halda, sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmış olmalıdırlar. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni növlərin mənşəyi Darvinin zənn etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəliyə gətirdikləri mövzu insanın mənşəyi mövzusudur. Bu mövzudakı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi varlıqlardan gəldiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu müddətdə müasir insanla ataları arasında bəzi ara nümunələrin yaşadığı iddia edilir. Həqiqətdə tamamilə xəyali olan bu ssenaridə dörd təməl kateqoriya sayılır:

1-*Australopithecus*

2-*Homo habilis*

3-*Homo erectus*

4-*Homo sapiens*

Təkamülçülər insanların sözdə ilk meymunabənzər atalarına "cənub meymunu" mənasını verən *australopithecus* adını verirlər. Bu canlılar həqiqətdə soyu tükənmiş bir meymun növündən başqa bir şey deyil. Məşhur ingilis və amerikalı iki anatomiyaçı Lord Solli Zukerman və prof. Çarlz Oksnardın *australopithecus* nümunələri üzərində apardığı çox geniş əhatəli tədqiqat bu canlıların yalnız soyu tükənmiş bir meymun növünə aid olduğunu və insanlarla heç bir bənzərliklərinin olmadığını göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)

Təkamülçülər insan təkamülünün bir sonrakı mərhələsini də *homo*, yəni insan olaraq sinifləndirirlər. İddiaya görə, *homo* ardıcıllığındakı canlılar *australopithecus*lardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali bir təkamül sxemi meydana gətirirlər. Bu sxem xəyalidir, çünki həqiqətdə bu fərqli siniflər arasında təkamüli bir əlaqənin olduğu qətiyyən isbat edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin 20-ci əsrdəki ən əhəmiyyətli müdafiəçilərindən biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir həqiqətdə itmişdir", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)

Təkamülçülər "*australopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" sıralamasını yazarkən bu növlərin hər birinin bir sonrakının atası olduğu təəssüratını verirlər. Halbuki, paleoantropoloqların son tapıntıları *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın fərqli bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Bundan başqa, *homo erectus* sinifləməsinə aid insanların bir hissəsi müasir dövrlərə qədər yaşamış, *homo sapiens, neandertalensis* və *homo sapiens sapiens* (müasir insan) ilə eyni mühitdə yan-yana olmuşlar. (*Time*, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birlərinin ataları olduğu iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld özünün də bir təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç fərqli hominid (insana xas) xətti varsa, o halda, bizim soy ağacımıza nə oldu? Açıqdır ki, bunların biri digərindən gələ bilməz. Bundan başqa, biri digəri ilə müqayisə edildiyində təkamüli bir inkişaf tərzi göstərmirlər. (S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)

Qısası, media və dərsliklərdə yer alan bir neçə xəyali "yarı meymun, yarı insan" canlılarının cizgiləri ilə, yəni sırf təbliğat yolu ilə canlı tutulmağa çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər araşdıran, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və hörmətli alimlərindən Lord Solli Zukerman bir təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi bir soy ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman bir də maraqlı elm şkalası tərtib etmişdir. Elmi olaraq qəbul etdiyi bilik sahələrindən elmdən kənar  qəbul etdiyi bilik sahələrinə qədər bir yelpik hazırlamışdır. Zukermanın bu cədvəlinə görə, ən elmi (yəni konkret məlumatlara əsaslanan) bilik sahələri kimya və fizikadır. Yelpikdə bunlardan sonra biologiya elmləri, sonra da ictimai elmlər gəlir. Yelpiyin ən aşağısında, yəni ən elmdən kənar sayılan hissəsində isə Zukermana görə telepatiya, altıncı hiss kimi duyğu sonrası qəbul etmə  anlayışları və bir də insanın təkamülü vardır! Zukerman yelpiyin bu yerini belə açıqlayır:

"Obyektiv həqiqətin sahəsindən çıxıb  bioloji elm olaraq fərz edilən bu sahələrə (yəni duyğu sonrası qəbul etməyə və insanın fosil tarixinin şərh olunmasına) girdiyimizdə təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görərik. Belə ki, nəzəriyyələrinə qəti inanan bu adamların ziddiyyətli bəzi qərarların eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The İvory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

Budur, insanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi fosilləri birtərəfli şəkildə izah etmələrindən ibarətdir.

**Darvin düsturu**

İndiyədək araşdırdığımız bütün texniki dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə axmaq bir inanca sahib olduqlarını bir də uşaqların anlaya biləcəyi qədər açıq bir nümunə ilə yekunlaşdıraq.

Təkamül nəzəriyyəsi həyatın təsadüfən meydana gəldiyini iddia edir. Dolayısilə, bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə gələrək əvvəlcə hüceyrəni meydana gətirmişlər və sonra eyni atomlar bir şəkildə digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək: həyatın elementi olan karbon, fosfor, azot, kalium kimi elementləri bir yerə gətirdiyimizdə bir topa meydana gələr. Bu atom topası hansı əməliyyatdan keçirilsə də, tək bir canlı meydana gətirə bilməz. İstəyirsinizsə, bu mövzuda bir təcrübə hazırlayaq və təkamülçülərin, əslində, müdafiə etdiyi, amma yüksək səslə dilə gətirə bilmədiyi iddianı onlar adına "Darvin düsturu" adı ilə araşdıraq:

Təkamülçülər çoxlu sayda böyük bir qabın içinə həyatın quruluşundakı fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə olan ancaq bu qarışığın içində olmasını lazım gördükləri vəsaitləri də bu qablara əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (tək birinin belə təsadüfi meydana gəlmə ehtimalı $10^{-950}$ olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə istilik və nəmlik versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Qabların başına da dünyanın ən öndə gələn alimlərini qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən nəslə köçürərək növbəti milyardlarla, hətta trilyonlarla il davamlı qabların başında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin var olması lazım olduğuna inanılırsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə etsələr də, o qablardan qətiyyən bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, rəngarəng kəpənəkləri və bunun kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Yalnız burada bir neçəsini saydığımız bu canlı varlıqları deyil, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə gələrək hüceyrəni meydana gətirə bilməzlər. Sonra yeni bir qərar verib, bir hüceyrəni ikiyə bölüb, sonra ard-arda başqa qərarlar alıb elektron mikroskopunu tapan, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında izləyən professorları meydana gətirə bilməzlər. Maddə ancaq Allah`ın üstün yaratması ilə həyat tapar. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd bir mənasız sözdür. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az belə düşünmək üstdəki nümunədə olduğu kimi, bu həqiqəti açıq şəkildə göstərər.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən izah edə bilmədiyi bir başqa mövzu isə göz və qulaqdakı üstün qəbul etmə keyfiyyətidir.

Gözlə əlaqədar mövzuya keçməzdən əvvəl, “necə görürük?” sualına qısa cavab verək. Bir cisimdən gələn şüalar gözdə retinaya tərs düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə çatır. Bu elektrik siqnalları bir silsilə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü kimi hiss olunur. Bu məlumatdan sonra indi düşünək:

Beyin işığa bağlıdır. Yəni beyinin içi tamamilə qaranlıqdır, işıq beyinin olduğu yerə girə bilməz. Görüntü mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı izləyirsiniz.

Üstəlik, bu o qədər dəqiq və keyfiyyətli bir görüntüdür ki, 21-ci əsr texnologiyası belə hər cür imkana baxmayaraq, bu dəqiqliyi təmin edə bilməmişdir. Məsələn, bu anda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Bu anda gördüyünüz dəqiqlik və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə gördünüzmü? Bu qədər dəqiq bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin çıxardığı ən inkişaf etmiş televizor ekranı da verə bilməz. 100 ildir ki, minlərlə mühəndis bu dəqiqliyə çatmağa çalışırlar. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, araşdırmalar aparılır, plan və dizaynlar inkişaf etdirilir. Yeni bir televizor ekranına baxın, bir də bu anda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük bir dəqiqlik və keyfiyyət fərqinin olduğunu görəcəksiniz. Üstəlik, televizor ekranı sizə iki ölçülü bir görüntü göstərir, halbuki siz üç ölçülü, dərin bir perspektivi izləyirsiniz.

Uzun illərdir ki, on minlərlə mühəndis üç ölçülü ekran düzəltməyə, gözün görmə keyfiyyətinə çatmağa çalışırlar. Bəli, üç ölçülü bir ekran sistemi düzəldə bildilər, amma onu da eynək taxmadan üç ölçülü görmək mümkün deyil, qaldı ki, bu süni bir üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiyası kimi durur. Heç bir zaman gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü meydana gəlməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi meydana gəlir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü meydana gətirən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi biri sizə: “Otağınızdakı televizor təsadüflər nəticəsində meydana gəldi, atomlar bir yerə gəlib bu görüntünü meydana gətirən aləti meydana gətirdi”, - desə, nə düşünərsiniz? Minlərlə adamın bir yerə gəlib edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha primitiv olan bir görüntünü meydana gətirən alət təsadüfən meydana gələ bilmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gələ bilməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulaq üçün də etibarlıdır. Xarici qulaq ətrafdakı səsləri qulaq çanağı vasitəsilə qəbul edib orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri

beyindəki eşitmə mərkəzinə verir. Eynilə görmədə olduğu kimi eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Gözdəki vəziyyət qulaq üçün də etibarlıdır, yəni beyin işıq kimi səsə də bağlıdır, səs keçirməz. Dolayısı ilə, çölü nə qədər gurultulu olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada iti bir səssizliyin hakim olduğu görüləcək. Dəqiq bir görüntü əldə edə bilmək ümidi ilə texnologiya necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir davam etdirilir. Səs yazma cihazları, musiqi mərkəzləri, bir çox elektronik alət, səs qəbul edən musiqi sistemləri bu işlərdən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada çalışan minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulağın meydana gətirdiyi dəqiqlik və keyfiyyətdə bir səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini  düşünün. Səsi yazdıqda mütləq səsin bir qismi itir və ya az da olsa, mütləq əngəl meydana gələr və ya musiqi mərkəzini açdığınızda hələ musiqi başlamadan bir xışıltı mütləq eşidərsiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər son dərəcə dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi setində olduğu kimi, xışıltı və ya əngəl qəbul etməz; səs necədirsə, tam və dəqiq bir şəkildə onu qəbul edir. Bu vəziyyət insan yaradıldığı gündən indiyədək belədir. İndiyə qədər insanların düzəltdiyi heç bir görüntü və səs cihazı, göz və qulaq qədər həssas və müvəffəqiyyətli bir qəbul edici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa böyük bir həqiqət yenə vardır.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltisini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə gedir. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəldiyinə dair bir çox məlumat oxuyubsunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss hesab edən kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini meydana gətirən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara cavab verə bilmirlər. Çünki bu şüur Allah`ın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, qulağa, buruna ehtiyac duymaz. Bunlardan əlavə düşünmək üçün beyinə ehtiyac duymaz.

Bu açıq və elmi həqiqəti oxuyan hər insanın beyninin içindəki bir neçə kub santimetrlik qaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran uca Allah`ı düşünməli, Ondan qorxmalı, Ona sığınmalıdır.

**Materialist bir inanc**

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi tapıntılarla açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, qarşıya qoyduğu təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər nəzəriyyənin tələb etdiyi ara formaların yaşamadığını göstərir. Bu vəziyyətdə, əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir düşüncə olaraq bir kənara atmaq lazımdır. Necə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi israrla elmin gündəmində tutulmaqdadır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid olunmasını elmə hücum kimi göstərməyə belə çalışırlar. Yaxşı, bəs niyə?.. Bu vəziyyətin səbəbi təkamül nəzəriyyəsinin bəzi çevrələr üçün özündən əsla imtina edilə bilməyəcək doğma bir inanc olmasıdır. Bu çevrələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə gətirilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər. Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur bir genetik və eyni zamanda öndə gələn bir təkamülçü  Riçard Levontin əvvəl materialist, sonra alim olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, "a priori" (əvvəldən qəbul edilmiş, doğru fərz edilmiş) bir inancdır bu. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan "a priori"yə bağlılığımız səbəbi ilə dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və anlayışları hazırlayırıq. Materializm mütləq doğru olduğuna görə də ilahi bir izahın səhnəyə girməsinə icazə verə bilmərik. (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar, 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğuruna yaşadılan bir doqma olduğunun açıq ifadələridir. Bu doqmat maddədən başqa heç bir varlığın olmadığını fərz edir. Bu səbəblə də cansız, şüursuz maddənin həyatı yaratdığına inanır. Milyonlarla fərqli canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz içindəki qarlılıqlı təsirlərlə, yəni yağan yağışla, çaxan şimşəklə cansız maddənin içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağıla, həm də elmə zidd bir qəbuldur. Amma darvinistlər öz deyimləri ilə İlahi bir izahın səhnəyə girməməsi üçün bu qəbulu müdafiə etməyə davam edirlər.

Canlıların mənşəyinə materialist zehniyyətlə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün bir güc, bilik və ağıla sahib olan bir Yaradıcının

əsərləridir. Yaradıcı bütün kainatı yoxdan var edən, qüsursuz şəkildə təşkil edən və bütün canlıları yaradıb şəkilləndirən Allah`dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli cadusudur**

Burada bunu da ifadə etmək lazımdır ki, zehniyyətsiz, heç bir ideologiyanın təsiri altında qalmadan, yalnız ağıl və məntiqindən istifadə edən hər kəs elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinin inanılması qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.

Yuxarıda da ifadə edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir qabın içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman içində düşünən, bir çox tapıntının müəllifi olan professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi alimlərin, Frank Sinatra, Çarlton Heston kimi sənətçilərin, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Üstəlik, bu axmaq iddiaya inananlar alimlər, professorlar, mədəni və təhsilli insanlardır. Bu səbəblə, təkamül nəzəriyyəsi üçün "dünya tarixinin ən böyük və ən təsirli cadusu" ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin önünə sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Raya, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə ibadət etməsindən, hz. İbrahim qövmünün əlləri ilə düzəltdikləri bütlərə, hz. Musa qövmünün qızıldan düzəltdikləri buzova ibadətlərindən daha dəhşətli və ağıla sığmaz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allah`ın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlanacağını və həqiqətləri görməkdə aciz duruma düşəcəklərini bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**… Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində isə bu insanların möcüzələr görsələr belə, inanmayacaq qədər ovsunlandıqlarını belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütlənin üzərində bu cadunun təsirli olması insanların həqiqətlərdən bu qədər uzaq tutulması və 150 il bu cadunun təsirini itirməməsi isə sözlə izah edilə

bilməyəcək qədər heyrət verici bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, axmaqlıq və məntiqsizliklərlə dolu iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın dörd tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə gəlib fövqəladə bir təşkilat, intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, həyat üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının cadudan başqa bir izahı yoxdur.

Necə ki, Allah Quranda inkarçı fəlsəfəni müdafiə edən bəzi adamların etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa və firon arasında keçən bir hadisə ilə bizlərə bildirir. Hz. Musa firona haqq dini izah etdiyində firon hz. Musaya öz bilikli sehrbazları ilə insanların toplandığı bir yerdə qarşılaşmasını istəyir. Hz. Musa sehrbazlara əvvəlcə onların bacarıqlarını göstərməyini deyir. Bu hadisənin açıqlandığı ayə belədir:

**(Musa: ) "Siz atın", – dedi. Onlar atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları öz hiylələri ilə (hz. Musa və ona inananlar xaricində) insanların hamısını ovsunlaya bilmişlər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!", – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, daha əvvəl insanları ovsunlayaraq təsir edən bu adamların etdiklərinin bir saxtakarlıq olduğu başa düşülmüşdür. İndiki dövrdə də bir sehr təsiri ilə elm adı altında son dərəcə axmaq iddialara inanan və bunları müdafiə etmək üçün həyatını həsr edənlər əgər bu iddialardan imtina etməsələr, həqiqətlər tam mənası ilə ortaya çıxdığında və sehr pozulduğunda pis vəziyyətə düşəcəklər. Necə ki, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist fəlsəfəçi olan, ancaq daha sonra həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə süqut edəcəyi vəziyyəti belə açıqlayır:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük zarafat vəsaitlərindən biri olacağına inandım.** Gələcək nəsil bu qədər səhv və naməlum bir fərziyyənin inanılmaz bir saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaq. (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaqda deyil, əksinə, yaxın zamanlarda insanlar "təsadüflər"in ilah ola bilməyəcəklərini anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq təyin olunacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd

tərəfində insanların üzərindən qalxmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrətlə düşünürlər.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən! (Bəqərə surəsi, 32)**

**Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən (gələn) haqqı çatdırdı. İman gətirin! Sizin üçün xeyirli olar. Əgər inkar etsəniz, şübhəsiz ki, göylərdə və yerdə nə varsa, Allah`a məxsusdur. Allah bilәndir, müdrikdir. (Nisa surəsi, 170)**

**Allah`a tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?! Yaxşılıqla pislik eyni ola bilməz. O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur. (Fussilət surəsi, 33-35)**